MİR-BAĞIRZADƏ SƏMİRƏ ALTAY QIZI

# KOREYA MƏDƏNİYYƏTİ

## DƏRSLİK



**Mir-Bağırzadə Səmirə Altay qızı**

# KOREYA MƏDƏNİYYƏTİ

## *DƏRSLİK*

*Azərbaycan Milli Konservatoriyasının Humanitar Fənnlər kafedra iclasının 21 oktaybr 2022 tarixli 2 saylı protokolun qərarı əsasında çap olunmuşdur.*

**BAKI-2023**

**Tərtib edən**: *Mir-Bağırzadə Səmirə Altay qızı* **- fəlsəfə doktoru, dosent;**

**Elmi redaktor**: **Mövsumova Lalə - fəlsəfə elmləri doktoru;**

**Koreya mətnlərin redaktorları**: **Əmrahzadə Nigar Elnur qızı - koreyaşünas;**

**Əliyeva Nərmin Rəhim qızı - koreyaşünas;**

**Rəyçilər:** **Kərimli Vüqar - fələsəfə doktoru, dosent;**

**Əliyeva Pərvanə - fələsəfə doktoru, dosent;**

**Mir-Bağırzadə Fəridə Altay qızı - fələsəfə doktoru, dosent;**

**Mir-Bağırzadə S.A. Koreya mədəniyyəti. Dərslik, Bakı, - "Füyuzat", - 2023, - 272 s.**

© Müəllif hüquqları qorunur.
**Mir-Bağırzadə Səmirə Altay qızı**

# GİRİŞ

Təqdim olunan "Koreya mədəniyyəti" kursu - tələbələrə Koreya mədəniyyəti haqqında geniş elmi təsəvvür və məlumat verir. Burada - həm mədəniyyət haqqında bütöv nəzəri məsələləri, həmçinin Koreya mədəniyyətinin adət-ənənələrini, bayramlarını, ainlərini, rituallarını, inanclarını, dinlərini, ədəb\etiketını, fəlsəfəsini, həyat tərzini, incəsənətini, ədəbiyyatını, memarlığını izləmək və öyrənmək olar. Koreya mədəniyyətinin formalaşmasının mənşəyi, eləcə də onun inkişafında həlledici rol oynayan amillər göstərilmişdir. Burada Koreya mədəniyyətinin formalaşmasının tarixi mərhələlərinin xüsusiyyətləri, estetik prinsipləri və bədii üslubları açıqlanır. Dərslik - Koreya mədəniyyətinin mifoloji, dini və elmi biliklərin kəsişməsində formalaşmış mənəvi dünyası haqqında təsəvvür yaradır, eyni zamanda memarlıq, heykəltəraşlıq, ədəbiyyat, rəssamlıq, xəttatlıq, musiqi, xoreoqrafiya və digər sənətləri - Koreya həyatının, təbiyətinin, mentalitetinin sintezini təqdim edir.

Koreyanın ənənəvi mədəniyyəti - 5000 ildən çox tarixi ilə hər iki dövləti - Şimalı və Cənubi Koreyanı birləşdirir və ən qədimlərdən biri hesab olunur. Müasir dünyada Koreyanın tarixi və mədəniyyəti - getdikcə daha çox maraq doğurur, çünki o - iqtisadi və mədəni baxımdan - ən perspektivli və hazırda dinamik inkişaf edir.

Ənənəvi mədəni həyatın mənşəyini öyrənilməsi və bu Asiya ölkələrinin - Cənubi Koreya və Şimali Koreyanın milli mədəniyyətinin, həyat tərzinin və dünyagörüşünün dərk edilməsi - xüsusi əhəmiyyət kəsb edir. Bu dövlətlər arasında qısa müddətdə, cəmi üç onillikdə kasıb inkişaf etməkdə olan ölkədən - dünya səviyyəli sənaye və ticarət gücünə çevrilən - Cənubi Koreya mühüm rol oynayır; təbii ki, Şimali Koreyada gedən proseslər də mədəni maraq doğurur.

Şərq düşüncəsinin dərinliklərini dərk etməyi - başqa mədəniyyətin nümayəndələrinə - Uzaq Şərq dünyagörüşünün xüsusiyyət-

lərinə nüfuz etməyə, Şərq düşüncə tərzinin, Koreya estetik sisteminin orijinallığı haqqında təsəvvür əldə etməyə imkan verir.

Dərslik - Koreya yarımadası dövlətlərinin mədəniyyətinin formalaşması və inkişafının əsas məsələlərini işıqlandırır, Koreya dövlətçiliyinin yaranması və Koreya birliklərinin maddi və mənəvi mədəniyyətini səciyyələndirir; qədim dövrdən başlayaraq, onun formalaşmasına təsir göstərmiş - dini və fəlsəfi təlimləri - nəzərdən keçirir; ənənəvi Koreya cəmiyyəti və Koreya yarımadasının sakinlərinin mentalitetini - formalaşdıraraq, memarlıq, heykəltəraşlıq, rəssamlıq, ədəbiyyat, musiqi və rəqs mədəniyyəti, incəsənət və sənətkarlıq kimi maddi və mənəvi  mədəniyyət komponentlərinin inkişaf mərhələlərini və əsas xüsusiyyətlərini - təhlil edir.

Dərslik tərtib edilərkən, Koreyanın tarixi, mədəniyyəti və incəsənəti sahəsində tanınmış dünya alimlərin, eləcə də aparıcı koreyalı alimlərin elmi əsərlərindən istifadə olunub. Burada  müəlliflərin əsərlərini qeyd etmək lazımdır, onlar: **S.O. Qurbanov** “Koreya tarixi Qədim dövrdən - XXI əsrin əvvəllərinə qədər”, **İrgebayevA.T**. “Koreya Xalq Demokrartik Respublikası”- məlumat toplusu, **Kim Q.N.** “Koreya Respublikası”, **M.V.Vorobyöv** "Koreya mədəniyyəti haqqında oçerklər", **İ.N. Tolstıh** “Koreya Mədəniyyəti: Ənənələr və Müasirlik”, **L.A. Andronova** “Koreya mədəniyyəti (qədim dövrlərdən -1910-cu ilə qədər)”, **İ.A. Tolstokulakov** "Koreya mədəniyyəti tarixinə dair  oçerk**”,  D.A. Samsonov** “Koreya etiketi: etnoqrafik tədqiqat təcrübəsi”, **Vu Gen Li** “Uzaq  Şərq  musiqisinə  giriş:  Çin,  Koreya,  Yaponiya”, **Yu.V.İonova** “Koreya geyiminin xarakterik xüsusiyyətləri və onun inkişafının bəzi məsələləri”, **R.Ş.Carlıqasinova** "Mədəni qəhrəmanlar haqqında Koreya mifləri", **A.N.Lankov** "Koreya. Gündəlik həyatı və bayramları”, **Pak  Cun Sonq və b.** ” Koreyanın yeni və ən yeni tarixinə birgə nəzər” və s.

## «KOREYA MƏDƏNİYYƏTİ» FƏNNİN

## MÖVZU-TƏQVİM PLANI

### I semestr

| № | Mövzular | Mühazirə | Seminar |
|---|---|---|---|
| 1 | Mədəniyyətşünaslıq/Kulturologiya elm kimi. | 2 s. | 2 s. |
| 2 | Koreya tarixi. | 2 s. | 2 s. |
| 3 | Koreyalıların həyatında mifologiya, inanclar. | 2 s. | 2 s. |
| 4 | Koreyalıların həyatında dinlər. | 2 s. | 2 s. |
| 5 | Koreyada adət-ənənələr. | 2 s. | 2 s. |
| 6 | Koreya bayramları. | 2 s. | 2 s. |
| 7 | Koreya etiketi/ədəbi. | 2 s. | 2 s. |
| 8 | Koreya ailə və qohumluq sistemin etiketi\ədəbi. | 2 s. | 2 s. |
| 9 | İctimai etiket\ədəb.<br>Qeyim etiketi. Koreya etiketinin kinestetik (toxunma) aspektləri. | 2 s. | 2 s. |
| 10 | Koreya təsviri və dekorativ tədbiqi sənətləri. | 2 s. | 2 s. |
| 11. | Koreyada xəttatlıq sənəti və çap işi. Kitabxanalar. | 2 s. | 2 s. |
| 12. | Memarlıq və heykəltəraşlıq. | 2 s. | 2 s. |
| 13. | Ədəbiyyat. | 2 s. | 2 s. |
| 14. | Koreyanın teatr və xoreoqrafiya sənətinin xüsusiyyətləri. | 2 s. | 2 s. |
| 15. | Koreyanın ənənəvi musiqi mədəniyyəti. | 2 s. | 2 s. |
| | ÜMUMİ: | | 60 s. |

# KOREYA MƏDƏNİYYƏTİ

## Mövzu 1.
## MƏDƏNİYYƏTŞÜNASLIQ / KULTUROLOGİYA ELM KİMİ

**Mədəniyyətşünaslıq/Kulturologiya - mədəniyyət haqqında elm**

**Mədəniyyətşünaslıq/Kulturologiya** - insan və cəmiyyət haqqında sosial və humanitar biliklərin qovşağında meydana gələn və bütövlükdə, insan varlığının müəyyən bir funksiyası kimi mədəniyyəti öyrənən elmdir.

**Mədəniyyətşünaslıq/Kulturologiya** - yaradıcı həyat və insan fəaliyyəti, onun mahiyyəti, xüsusiyyətləri, tarixi, inkişaf qanunları, nailiyyətləri, texnologiyaları və imkanların dəyişiklilləri haqqında elmdir. ***Mədəniyyətşünaslıq/Kulturologiya*** - həm də insanın və insan icmalarının tarixi varlıqlarının müxtəlif mərhələlərində mədəni davranışlarını araşdıran elmlər toplusunun müxtəsər formasıdır***. O - mədəniyyət nəzəriyyəsi və mədəniyyət tarixi hissələrinə bölünür.***

## Mədəniyyətşünaslığın/kulturologiyanın əsəs hissələri:

| | |
|---|---|
| **1.Dünya mədəniyyətinin tarixi** | *İnsanların (bəşəri) həyat fəaliyyətinin dəyərli pozitiv tarixi yaradıcı nailıyyətləri, mahiyyəti, üsulları, həyat üçün fiziki zəhmətı, ağılı, hissləri ilə yaranan tərəqqi/ proqressiv inkişafdır;*<br>**Mədəniyyət tarixinin inkişaf mərhələləri:**<br>İbtidai mədəniyyət;<br>İlk sivilizasiyalar və Antik mədəniyyət;<br>Qul cəmiyyətinin mədəniyyəti; |

| | |
|---|---|
| | Feodal mədəniyyəti;<br>İslam mədəniyyəti;<br>İntibah mədəniyyəti;<br>Yeni zamanın mədəniyyəti;<br>Kapitalizm mədəniyyəti;<br>Sosializm mədəniyyəti;<br>Müasir dünya mədəniyyəti. |
| **2.Mədəniyyətin nəzəriyyəsi** | ***Dünya mədəniyyəti inkişafında kompleks tədqiqatlar***.<br>**Nəzəri-mədəni blokun tərkibi:** Kuluroloji antropologiya; Mədəniyyətin fəlsəfəsi; Etnologiya;<br>Mədəniyyətin sosiologiyası;<br>Mədəniyyətin psixologiyası;<br>Mədəniyyətin teologiyası;<br>Mədəniyyətin sinergetikası;<br>Mədəniyyətin metodoligiyası;<br>Tarixi təcrübədə mədəniyyətin inkişafında elmi-nəzəri ümumiləşdirmə;<br>Sosial - mədəni inkişafı üçün layihələrin, modellərin, və texnologiyaların işlənməsi və s. |

**İBTİDAİ MƏDƏNİYYƏTİN MƏRHƏLƏLƏRİ**:

| | |
|---|---|
| “**DAŞ DÖVRU**” -<br>MİLADDAN I MİLYARD 2 MİLLİON QABAQ - IV MİNİLLİK: | |
| 1 | **QƏDİM DAŞ DÖVRÜ- PALEOLİT** - 2 MİLLİON İL QABAQ |
| 2 | **ORTA DAŞ DÖVRÜ- MEZOLİT** - 2 MİLLİON İL QABAQ |
| 3 | **YENİ DAŞ DÖVRÜ- NEOLİT -**7 MİN İL QABAQ |
| **“MİS DÖVRU”(ENEOLİT) -** E.Ə.IV-II MİNİLLİK | |
| **“TUNC DÖVRÜ”-** E.Ə.II MİNİİLİYİN SONU - I MİNİLLİYİN ƏVVƏLİ | |
| **“DƏMİR DÖVRÜ”** – I MİN İL ƏVVƏL | |

**ARXAİK İBTİDAİ MƏNƏVİ MƏDƏNİYƏTİN FORMALARI:**

| | |
|---|---|
| 1 | **TOTEMİZM** - DİNİN ƏN ERKƏN FORMALARINDAN BİRİ-İNSAN VƏ MÜƏYYƏN HEYVAN VƏ YA BİTKİ ARASINDA XÜSUSİ BİR MİSTİK ƏLAQƏSİ (*FRATRİAL QARDAŞLAR*). |
| 2 | **ANİMİZM** - İBTİDAİ XALQLARIN-HƏR ŞEYİN RUHU,RUHUN VARLIĞI HAQQINDA ELMİ ÖNCƏKİ FİKİR(*E.B. TEYLOR(1832-1917) "İBTİDAİ MƏDƏNİYYƏT*"). |
| 3 | **MAGİYA**-NÖVLƏRİ: ZİYANKAR, HƏRBİ, CİNSİ(MƏHƏBBƏT), SAĞLAMLIQ, QORUYUCU, METEOROLOJİ (*A.FİRKANDT(1867-1953*). |
| 4 | **FETİŞİZM**- İBTİDAİ QƏBİLƏLƏRDƏ CANSIZ CİSİMLƏRƏ (BÜT,FETİŞ ƏŞYASI) İBADƏT ETMƏK. |
| 5 | **MİFOLOGİYA** |
| 6 | **PETROQLİF** - "PETROS" (πέτρος- YUNAN) - DAŞ;"GLİPHİ" - (γλυφή YUNAN) – KƏSMƏ QAYA TƏSVİRLƏRİ;<br>**TUNC DÖVRÜ** |

## Kulturologiya - humanitar, içtimai elmlərin metodlarını və nailiyyətlərini istifdə edir:

| |
|---|
| Tarix, fəlsəfə, arxeologiya, etnografiya, antropologiya, məntiq, psixologiya, etika, estetika, incəsənət, sosiologiya, linqvistika, filologiya, coğrafiya, iqtisadiyyat, dövlət və hüquq tarixi və nəzəriyyəsi, dinşünaslıq, ekologiya, politologiya və s. |

## Kulturologiyanın əsas və vacib problemləri və sualları:

| | |
|---|---|
| 1 | İnsanın yaranması və inkişafi; |
| 2 | Cəmiyyətin və dövləttin yaranması və inkişafı; |
| 3 | Yaranan dəyərlərin *mahiyyəti*, *strukturu* və *xüsusiyyəti*:<br>coğrafi, tarixi və sosial şəraiti və onların yaranma vaxtı və məkanı; |
| 4 | Məqsədlər, texnologiyalar, müqaisəli dəyərlər və yaradıcı müəlliflər; |
| 5 | Funksiyaların mexanizmı, qarşılıqlı əlaqələr, mədəniyyətin bəzi tərəfləri və institutların inkişaf qanunları; |
| 6 | Mədəniyyətin qorunması, saxlanılması, mübadilə üsulları və gələcək nəsillərə ötürülməsi; |
| 7 | Mədəniyyətin bu gun və gələcəy ücün dəyəri və əhəmiyyəti; Proqnozlaşma. |

## MƏDƏNİ İNKİŞAFIN ƏSASLARI:

| ƏSAS AMİLLƏR: |
|---|
| ***1.TƏBİİ COĞRAFİ ŞARAİT*** |
| ***2.SOSİAL MÜHİT*** |
| ***3.TARİXİ ŞƏRAİT*** |
| ***4.BİOLOJİ GÖSTƏRİCİ, GENETİK KOD*** |
| ***5.MƏDƏNİYYƏTİN VƏ İRSİN QORUNMASI*** |

## MƏDƏNİYYƏTİN FUNKSİYALARI:

| | |
|---|---|
| 1. | **Mühütə uyğunlaşma funksiya** |
| 2. | **Elmi-Dərketmə fumksiya** |
| 3. | **İnformativ funksiya** |
| 4. | **Kommunikativ funksiya** |
| 5. | **Requlativ (normativ) funksiya** |
| 6. | **Aksioloji (dəyərlər) funksiya** |
| 7. | **İnsan qruplarının inteqrasiya funksiyası** |
| 8. | **Sosiallaşdırma(humanistləşmə) funksiya** |
| 9. | **Ideoloji funksiya** |
| 10. | **Prognozlaşma funksiyası** |

## MƏNƏVİ VƏ MADDİ MƏDƏNİYYƏT:

| MƏNƏVİ MƏDƏNİYYƏT: | MADDİ MƏDƏNİYYƏT: |
|---|---|
| 1.***ƏQLİ***-ŞÜÜRUN BÜTÜN SAHƏLƏRİ;<br>2.***MƏNƏVİ*** | ***1.İQTİSADİYYAT***- ƏMƏK VASİTƏLƏRİ, TEXNOLOGİYALAR;<br>2.***MADDİ ABİDƏLƏR;***<br>3.***MADDİ NEMƏTLƏR*** - MƏİŞƏT ƏŞYALARI, NƏQLİYYAT VASİTƏLƏRİ VƏ S. |
| **MƏNƏVİ MƏDƏNİYYƏTİN KOMPONENTLƏRİ:**<br>**1.Tərbiyyə;**<br>**2.Dövlət;**<br>**3.Mənəvi həyat;** | **MADDİ MƏDƏNİYYƏTİN KOMPONENTLƏRİ:**<br>**1.Şəhər;**<br>**2.Yaşayış;**<br>**3.Maddi fəaliyyət;** |

| | |
|---|---|
| **4.Mənəvi varlıq;<br>5.İdeologiya;<br>6.İnformasiya və mətbuat;<br>7.Dil;<br>8.Mədəni irs;<br>9.Mədəni dəyərlər;<br>10.Ədəbiyyat;<br>11.Beynəlxalq əlaqələr;<br>12.Əxlaq;<br>13.Elm;<br>14.Həyat tərzi;<br>15.Təhsil;<br>16.İçtimai əlaqələr;<br>17.Cəmiyyət;<br>18.Ənənələr;<br>19.Adətlər;<br>20.Təşkilatçılıq(Mütşəkillik);<br>21.Siyasət;<br>22.Qanun və qanunvericilik;<br>23.Publisistika;<br>24.Din;<br>25.İdarəçilik;<br>26.İncəsənət.** | **4. Həyatı dəstəkləmə maddi sistemi;<br>5.Avadanlıq və alətlər;<br>6.Geyim;<br>7.Əmək vasitələri və əşyaları;<br>8.Maddi mədəniyyətin abidələri;<br>9.Gida; yemək;<br>10.Məişət əşyaları;<br>11.Sənaye;<br>12.İstehsalat fəaliyyətinin nəticələri;<br>13.Kənd təsərrüfatı;<br>14.İstehsal vasitələri;<br>15.Texnika, cıhaz, maşın;<br>16.Ticarət;<br>17.Nəqliyyət;<br>18.Fiziki mədəniyyət;<br>19.İqtisadiyyat;** |

## MƏNƏVİ MƏDƏNİYYƏTİN TƏRKİBİ:

| ***MƏNƏVİ MƏDƏNİYYƏT İBARƏTDİR:*** |
|---|
| ***1.İNTELLEKTUAL - ELM*** |
| ***2.ƏXLAQİ - MƏNƏVİYYƏT*** |
| ***3.BƏDİİ MƏDƏNİYYƏT - İNCƏSƏNƏT*** |
| ***4.DİNİ*** |
| ***5.HÜQUQİ*** |
| ***6.VƏ S. SUBKULTURLARDAN (ALT MƏDƏNIYYƏT)*** |

## BƏDİİ MƏDƏNİYYƏT VƏ MƏDƏNİ İRS:

| | |
|---|---|
| 1 | ***ƏDƏBİYYAT VƏ PUBLİSİSTİKA*** |
| 2 | ***MUSİQİ İNCƏSƏNƏTİ*** |
| 3 | ***TƏSVİRİ İNCƏSƏNƏT*** |
| 4 | ***FOLKLOR*** |
| 5 | ***DEKORATİV-TƏDBİQİ İNCƏSƏNƏT*** |
| 6 | ***TEATR SƏNƏTİ*** |
| 7 | ***KİNO SƏNƏTİ*** |
| 8 | ***MEMARLIQ İNCƏSƏNƏTİ*** |
| 9 | ***SİRK İNCƏSƏNƏTİ*** |
| 10 | ***ZƏRGARLIQ SƏNƏTİ*** |
| 11 | ***XALÇA SƏNƏTİ*** |
| 12 | ***DİZAYN*** |
| 13 | ***MƏDƏNİ ABİDƏLƏR: ŞİFAHİ, YAZILI, MUSİQİ, ƏDƏBİ, MADDİ*** |

## MƏDƏNİYYƏTİN ETNO-MİLLİ XÜSUSİYYƏTLƏRİ:

| | |
|---|---|
| 1 | ***İŞARƏ SİSTEMİ (DİL)*** |
| 2 | ***MİLLİ PSİXOLOGİYA*** |
| 3 | ***ÖZÜNÜDƏRKETMƏ*** |
| 4 | ***MENTALİTET*** |
| 5 | ***MƏDƏNİ DƏYƏRLƏR SİSTEMİ*** |
| 6 | ***HƏYAT TƏRZİ:<br>ADƏTLƏR, ƏNƏNƏLƏR*** |
| 7 | ***ƏNƏNVİ DAVRANIŞ NORMALARI*** |
| 8 | ***GERÇƏKLİKDƏ QAZANILAN MƏNƏVİ TƏCRÜBƏ*** |
| 9 | ***MİLLİ İNCƏSƏNƏT*** |
| 10 | ***MİLLİ İRS*** |
| 11 | ***FOLKLOR*** |
| 12 | ***İNANCLAR, DİNİ BAXIŞLAR*** |

## MƏDƏNİ DƏYƏRLƏR SİSTEMİ:

| | |
|---|---|
| 1 | ***İNTELLEKTUAL*** |
| 2 | ***MƏNƏVİ*** |
| 3 | ***ESTETİK*** |
| 4 | ***SİYASİ*** |
| 5 | ***MİLLİ-ETNİK*** |
| 6 | ***DİNİ*** |
| 7 | ***BƏDİİ*** |
| 8 | ***HÜQUQİ*** |
| 9 | ***MADDİ*** |

## MƏDƏNİYYƏTİN SOSİAL İNSTİTUTLARI:

| | |
|---|---|
| 1 | ***AİLƏ*** |
| 2 | ***HƏYAT TƏRZİ*** |
| 3 | ***İNFORMASİYA*** |
| 4 | ***TƏHSİL*** |
| 5 | ***TƏRBİYYƏ*** |
| 6 | ***ADƏT VƏ ƏNƏNƏLƏR*** |
| 7 | ***İNCƏSƏNƏT VƏ ƏDƏBİYYAT*** |
| 8 | ***TƏŞKİLETMƏ VƏ İDARƏETMƏ*** |
| 9 | ***HÜQUQ*** |
| 10 | ***İDEOLOGİYA*** |
| 11 | ***DİN VƏ ETİKA*** |
| 12 | ***İQTİSADİYYAT VƏ MALİYYƏ*** |
| 13 | ***ELM VƏ TEXNOLOGİYA*** |
| 14 | ***HÜQUQ MUHAFİZƏSİ ORQANLARI*** |
| 15 | ***MÜDAFİƏ*** |
| 16 | ***NƏQLİYYAT*** |
| 17 | ***KOMMUNAL SİSTEMLƏRİ*** |
| 18 | ***RABİTƏ*** |
| 19 | ***EKOLOGİYA*** |
| 20 | ***SƏHİYYƏ*** |

**MENTALİTET ANLAYIŞI**

| | |
|---|---|
| **Mədəni mentalitet** - milli mədəniyyətin inkişafında müxtəlif tarixi dövrləri özündə birləşdirən, bir çox xalq nəslinin şüur və davranışlarında tarixən və sosial baxımdan möhkəmlənən dərin mədəniyyət quruluşlarıdır. | **Mentalilet** ***termini ilk istifadə edən etnoloq Levy-Bruhl olmuşdur.*** O onu həyatda müşahidə etdiyi ibtidai tayfalara tətbiq edirdi. Levy-Bruhl tədqiqatında ibtidai insan və müasir insanın düşüncə tərzi ilə ziddiyyətini qeyd etdi, buna görə də qəbilələrin xüsusi düşüncə tərzini "mentalitet" termini ilə təyin etdi. Ancaq bu ***termin "Annallar"Fransız tarixi Məktəbinin*** fəaliyyəti sayəsində kütlələrə təqdim olundu. Onun nümayəndələri Fransa kralı ilə adi bir əsgəri birləşdirən mentaliteti (zehniyyəti) ilə başa düşülürdü, yəni mentalitet (zehniyyət) fərdi olaraq deyil, kollektiv bir xüsusiyyət olaraq ortaya çıxır. Tədricən, termin elmi ictimaiyyətdən publisistikaya keçdi.<br><br>**Azərbaycanda tədqiqatlar:**<br><br>1.**Vahid Ömərov.** Azərbaycançılıq və Azərbaycan mentaliteti,-Səs.- 2012.- 7 fevral.- S. 10.<br>2 **Hüseynov İ. H.** Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. (monoqrafiya) Azərbaycan dilində. Red. N. Şəmsizadə, rəs.E.Nəzərov, B.: Mars-Print, 2002, 305s. |

## QLOBALLAŞMA ANLAYIŞI

| | |
|---|---|
| **Qloballaşma** - ümumdünyaləşmə prosesidir, həmçinin sosial həyatda müxtəlif sahələrində bütün Yer kürəsi üçün ortaq olan quruluş, əlaqə və münasibələrin yaradılmasıdır. | **Qloballaşma** — (fr. *qlobal* – ümumi, lat. *qlobus* – Yer kürəsi) Elmi ədəbiyyatlarda XX əsrin ikinci yarısından sonra dünya miqyasında baş verən fundamental prosesləri izah etmək üçün "qloballaşma" terminindən ilk dəfə 1967-ci ildə istifadə edildiyi bildirilir. Müasir anlamda termin kimi isə "qloballaşma" 1980-ci illərin ortalarında dövriyyəyə buraxılmış və intelektual elita tərəfindən qəbul olunmuşdur. ***Qloballaşma termininin meydana gəlməsini*** **professor Teodor Levitin** adı ilə bağlayırlar. O, ***1983-cü*** ildə ***"Harvard biznes revyu" jurnalında çap etdirdiyi "Bazarların qloballaşması"*** məqaləsində bu terminlə transmilli korporasiyaların istehsal etdiyi ayrı-ayrı məhsulların bir-birinə qovuşması fenomenini ifadə etmişdir. ***"Qloballaşma" anlayışının akademik status alaraq geniş yayılmasında amerikalı sosioloq R.Robertsonun rolu xüsusi qeyd olunur.***<br>Qloballaşmanın ilk dəqiq işlənmiş nəzəri modelləri 1980-1990-cı illərdə ortaya qoyulmuşdur. ***Azərbaycan alimlərindən*** professorlar Ağayar Şükürov və Rövşən Mustafayev qloballaşmanın müxtəlif aspektlərinə dair tədqiqat əsərləri yazmışlar:<br>1. Şükürov Ağayar Fəlsəfə və Qloballaşma – 2002.<br>2. Şükürov A. Qloballaşma: mahiyyəti, |

| | |
|---|---|
| | perspektivləri. Bakı, 2011.<br>3. Şükürov A.M., Qloballaşmış cəmiyyətlər: dünən, bu gün və sabah, Bakı—2006.<br>4.Mustafayev Rovşən "Qloballaşma.Yeni qeopolitik düsturları" –Qarmış, iyul, 2002 il. |

## MƏDƏNİYYƏT VƏ ANTİ-MƏDƏNİYYƏT

| | |
|---|---|
| 1. **Mədəniyyət -** | bəşəriyyətin yaradılması, inkişafı, tərəqqisi ilə xarakterizə olunan mənəvi, müsbət və reallaşdırıla bilən bir təcrübədir. |
| 2. **Anti-mədəniyyət -** | müharibələr, məhvedici qüvvə, xəstəlik, aclıq kimi dağıdıcı proseslərlə xarakterizə olunan mənəviyyata qarşı yönəlmiş hadisələr və proseslər. |

## MƏDƏDNİYYƏT BƏ SİVİLİZASİYA ANLAYIŞI

| | |
|---|---|
| **Mədəniyyət anlayışı** | **Mədəniyyət** - cəmiyyətin intellektual, etik, hüquq, iqtisadi və institusional inkişafını təmin edən yaradıcı prossesdir, bu sistemın zaman və məkanda ənənələri saxlayan və qoruyan - irəliləyən proqressdir(tərəqqidir). ***Mədəniyyət*** - *təkamül(evolüsiya)* prosesi ilə xarakterizə olunur. |

| | |
|---|---|
| **Sivilizasiya anlayışı** | **Sivilizasiya** - tam mədəniyyət sistemini xarakterizə edir, o özündə yazı, dövlətçilik, idarəetmə, elm və təhsil, dini və iqtisadi institutlari və s., həmçinin yüksək texnolojı inkişafı ilə inteqrasiya olunur. ***Sivilizasiya*** - intellektual və texnoloji mütərəqqi bir sıçrayışa arxalanaraq *inqilabi* bir proses ilə xarakterizə olunur. Daha effektiv olan lokal-tarixi sivilizasiyasların nümunəsi – Qədim Roma, Yunan və başqalarıdır. |

**TƏKAMÜL** - EVOLÜSİYA (lat. Evolutio - genişlənmə, açıqlama) - təbiətdəki və cəmiyyətdəki hərəkət formalarından biri;

yavaş, tədricən müəyyən şərtlər altında yeni bir keyfiyyətə səbəb olunan kəmiyyət dəyişiklıyi.

**İNQİLAB** - REVOLÜTSIYA ( latın dilindən "revolutio" - dönüş, çevriliş, çevrilmə, dönmə) - inkişaf etməkdə olan bir obyektin vəziyyətindəki köklü, dərin, keyfiyyətcə, kəskin dəyişiklik və ya hər hansı bir mədəniyyət sahəsindəki (elm, incəsənət, texnika, gündəlik həyat, pedaqogika və s.) bir çevrilişdir.

### Sivilizasiya və Mədəniyyət arasındakı fərq:

| Mədəniyyət | Sivilizasiya |
|---|---|
| Mədəniyyət - *təkamül* prosesi ilə xarakterizə olunur. | Sivilizasiya - intellektual və texnoloji mütərəqqi sıçrayışa əsaslanan *inqilabi* bir proses ilə xarakterizə olunur. |
| Mədəniyyət - millidir. | Sivilizasiya - beynəlxalq.beynəlmiləldir |
| Mədəniyyət - orqanikdir | Sivilizasiya - mexanikidir |
| Mədəniyyət - keyfiyyətlərə əsaslanan homogendır, bölünməzdir. | Sivilizasiya - bərabərlik istiqaməti ilə xarakterizə olunur, kəmiyyət sayəsində yüksək key- |

| | |
|---|---|
| | fiyyətə söykənir. |
| Mədəniyyət - kübardır, aristokratikdır. | Sivilizasiya – demokratikdir. |
| Mədəniyyət - insan cəmiyyətinin inkişafın bu və ya digər mərhələsindəki mənəvi imkanlarının məcmusudur. Mədəniyyət - sosial və şəxsi həyatın mənalarını və hədəflərini təyin edir. Mədəniyyətdə mənəvi həyat simvolik(rəmzi) olaraq ifadə olunur. Mədəniyyət - fərdi və təkrarolunmaz təzahürdür. | Sivilizasiya - imkanların reallaşması üçün zəruri şərtlər məcmusudur. Sivilizasiya - sosial təşkilatlanma, texniki vasitələr və s. formalarıdır, Sivilizasiya - mədəniyyətin ideal planlarını gerçək proqramlara çevirir və burada həyata keçirilməsində çox sayda insan iştirak edir. Sivilizasiya - ümumi və hər yerdə təkrarlanan təzahürdür. |

## MƏDƏNİYYƏTİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| 1. | 1. **Əcdadların mədəniyyətinə müraciət**. O - əvvəlki inkişaf dövründə müəyyən bir cəmiyyətdəki mədəniyyətin bütün təzahürlərini əhatə edir. Əvvəlki nəsillərin təcrübəsi - yeni böhranların öhdəsindən gəlməyə kömək edəcəkdir. Hər xalq-unikal və bənzərsizdir və bu səbəbdən - mədəni və tarixi irsini qorumaq çox vacibdir. |
| 2. | **Yad mədəniyyətinin - mənimsənilməsi**. Mədəniyyətin, adətlərin, ənənələrin ölkədən kənarda yayılması ilə mümkün olur. Bu- dünya iqtisadiyyatının getdikcə artan beynəlmiləlləşməsinin (internasionalizasiyasının) bir xüsusiyyətidir. Yad mədəniyyətin mənimsəməsi müxtəlif formalarda baş verə bilər: mədəniyyətin hər hansı bir hissəsindən mənimsəmə kimi, bütövlükdə kopyalamaq, köçürmək kimi - assimilasiya – (yəni yad mədəniyyətin assimilyasiyasıdır, mənimsəməsidir). Bu- iki mədəniyyətin qarşılıqlı təsirinin şərtlərindən irəli gəlir və hansısa uzün müddətdə o baş verir, həmçinin o müəyyən, konkret bir ölkənin xüsusiyyətlərindən də asılıdır. Çox vaxt bu fenomen neqativ xarakter daşıyır, çünki öz xalqının mədəniyyəti unudulur və digər ölkələrin bu sahədəki nailiyyətləri öz milli xüsusiyyətləri nəzərə alınmadan istifadə olunur. |

| | |
|---|---|
| 3. | 3. **Mədəniyyətlərin sintezi**. Bu forma əvvəlkidən fərqlənir, cünkü qarşılıqlı təsir edən mədəniyyətlər bir-birini məhv etmır. Həm qarşılıqlı təsir edən mədəniyyətlərin əlamətlərini, həm də yalnız özünə xas olan yenilikərini birləşdirən yeni bir mədəni istiqaməti formalaşır. |
| 4. | 4.**İnnovasiyaların (Yeniliklərin) tətbiqi**. Bu - mövcud normaların bir hissəsinin dəyişdirilməsinin vacib olduğu bir zamanda baş verə bilər, çünki köhnələri artıq aktual deyil və cəmiyyətin müasir ehtiyaclarına cavab vermir. Bəzən bütövlükdə bütün cəmiyyət yeni təşkilatlar yaratmaq və ya sosial quruluşu dəyişdirmək şəklində, formasında yeniliklər(innovasiyalar) tətbiq etməlidir.Lakin bu cür yeniliklər ümumiyyətlə qısa müddətdə baş vermir. Əvvəlcədən müvafiq proseslərin başlanğıc şərtləri yaranır. |

**MÜASİR SİVİLİZASİYALAR VƏ ONLARIN İNKİŞAF MƏRHƏLƏLƏRİ**:

| | |
|---|---|
| **1.SƏNAYƏDƏN QABAQ SİVİLİZASİYALAR**<br>***QƏDİM DÖVRDƏN-XV ƏSRƏ QƏDƏR*** | NATURAL TƏSƏRRÜFAT VƏ MONARXİYA HÖKM SÜRƏN,GERİDƏ QALMIŞ AQRAR ƏNƏNƏLƏRİ *CƏMİYYƏTİN KEÇİDİ* |
| **2.SƏNAYƏ\İNDUSTRİAL SİVİLİZASİYASI**<br>***XV-XIX ƏSRLƏR*** | KÜTLƏVİ TİCARƏT İSTEHSALATI VƏ BURJUA-DEMOKRATİK QURULUŞ;<br>ELMİ-TEXNKİ İNQİLAB;<br>İSTEHSALAT VƏ İDARƏETMƏ TEXNİKİ YENİLİKLƏR:<br>-STANDARTLAŞDIRMA;<br>-MƏRKƏZLƏŞDİRMƏ;<br>-MAKSİMALLAŞDIRMA;<br>- GİQANTOMANİYA;<br>-İXTİSASLAŞDIRMA;<br>-SİNXRONLAŞMA. |
| 3.**POSTSTİNDUSTRİAL\POSTSƏNAYƏ-İNFORMASİON SİVİLİZASİYA**<br>***XX-XXİ ƏSRLƏR*** | KOMMUNİKASİYA VƏ TEXNİKİ-İNFORMATİV İMKANLARIN GENİŞLƏNMƏSİ.<br>ETİK VƏ MƏDƏNİ FƏZALAR-CƏMİYYƏTDƏ ZƏRURİ DAVRANIŞ FORMALARI KİMİ |

## ŞƏRQ VƏ QƏRB MƏDƏNİYYƏTLƏRİN FƏRQLƏRİ

| ŞƏRQ | QƏRB |
|---|---|
| 1. *Şərq mədəniyyəti* - davamlı tarixi inkişaf ilə xarakterizə olunur. | 1. *Qərb mədəniyyəti* - sıçrayışla irəliləyir. |
| 2. *Şərq mədəniyyəti* - *ənənəvi*, toxunulmamazlığı, müqavimət göstərməyən və *sabitliyi* ilə seçilir. Yeni tendensiyalar mövcud sistemə ahəngdar şəkildə inteqrasiya olunur. | 2. *Qərb mədəniyyəti* - *dinamik* bir həyat tərzi ilə xarakterizə olunur, əvvəlki dəyərlər sistemi məhv edilir - başqa bir dəyərlər sistemi yaranır. |
| 3. *Şərq mədəniyyətində* bir çox din yan-yana mövcuddur. | 3. *Qərb mədəniyyətində* xristianlıq üstünlük təşkil edir. |
| 4. *Şərq mədəniyyəti* - ***qədim adətlərə, təməllərə əsaslanır***. | 4. *Qərb mədəniyyəti* ənənələrin boşalması və pozulması ilə xarakterizə olunur. |
| 5. *Şərq* - *irrasional* və eyni zamanda, elmi bilik və texnologiyada mütərəqqidir və yaradıcılığı, *mütənasib* həyatı ilə varlığını estetik cəhətdən parlaq, gözəl edir. | 5. *Qərb dünyası* - elmi, texnoloji, *rasional* biliyi ilə xarakterizə olunur. |
| 6. *Şərq* insanı - təbiətə qovuşur, o təbiətin bir hissəsidir. | 6. *Qərb dünyasının* insanı- təbiətdən ayrılır, ona əmr edir və bəzən ürəksiz məhv edir. |
| 7. *Şərq mədəniyyəti* - mühafizəkarlığı, konservativlığı və ənənəviliyi, bəzən də dinlərin təsiri altındakı müqəddəsliyi ilə seçilir. | 7. *Qərb mədəniyyəti* kritikliyi, tənqidliyi ilə xarakterizə olunur, o daha açıqdır. |
| 8. *Şərq cəmiyyəti* - kollektivizm prinsipləri üzərində qurulur. **İcma** - sosial qurumun ən vacib elementidir. *Güc strukturları (dövlət və subyektləri*) üzərində | 8. *Qərbdə* şəxsiyyətin qeyri - şərtsiz prioriteti, onun maraqları, açıq-aşkar individuallığı təsdiq olunub. Qərbin yaradıcılığı - şəxsiyyətin *seçilməsi ilə* xarakte- |

<table>
<tr><td>bağlanmış şaquli tip əlaqələri qurulur. İcmalar arasında hakimiyyətdən asılı olmayan üfüqi (iqtisadi, siyasi, mənəvi) əlaqələr yoxdur.).Şərqdə şəxsiyyət prinsipinin xarakterik cəhətdən - zəif inkişafdadır.</td><td>rizə olunur – bunların göstəricisi - yaradıcılığda müəlliflərin şəxsi adlarıdır, Şərqdə isə - hər hansı bir yaradıcılıq - adsızdır. Qərbdə dövlətdən asılı olmayan bir vətəndaş cəmiyyəti formalaşmışdır. Hökumətdən asılı olmayaraq fərdlər və sosial qruplar arasında inkişaf etmiş (iqtisadi, sosial, mədəni, mənəvi) əlaqələr sistemi ilə formalaşır. İcmalar arasında hakimiyyətdən asılı olmayan üfüqi əlaqələr mövcuddur. Burada (Şərqdə olduğu kimi) özündə yetərli bir dəyər olmayan, yalnız sosial münaqişələrin həllini tapmaq üçün bir vasitə rolunu oynayan hüquqi bir demokratik dövlət quruldu (formalaşdı).</td></tr>
<tr><td>9. Şərq şüuru – tsiklik, dövrü olaraq, təbiətin həyat ritmini təkrarlayaraq - bir dairədə hərəkət etməklə xarakterizə olunur;<br>Şərq - keçmiş ənənələrini unutmadan mütənasib irəliləməyə, inkişafa doğru gedir, fantastik texnoloji kəşflər edir (Koreya,Yaponiya, Çin və s.).</td><td>9. Qərb şüuru - zamanın xətti qavrayışı ilə xarakterizə olunur; Qərb mədəniyyəti üçün vaxt keçmişdən gələcəyə yönəldilir və geri dönməzdir. Burada bu cür fikir üstünlük edir: həyatın daimə sürətlənmiş hərəkətinin vacibliyidir.<br>Qərb cəmiyyəti - çılğın bir həyat ritmi, yeniləmə ehtirası ilə yaşayır.</td></tr>
<tr><td colspan="2">10. Şərq və Qərb mədəniyyətləri - fərqli sivilizasiyalara mənsubdur, mürəkkəb bir çoxəsrlik tarixin mövcudluğu, fərqli tarixə, yaşayış şərtlərinə və maddi nemətlərin istehsalına, dinlərə, iqlim şəraitinə və s. malikdilər, ümumiyyətlə fərqli bir dünyagörüşlərinin, mentalitetlərinin və mədəniyyətlərinin formalaşmasına səbəb olmuşdur.</td></tr>
</table>

**MƏDƏNİYYƏTİN YAYILMA SİSTEMİ**:

| | |
|---|---|
| **TƏHSİL:** | Məktəbəqədər təhsil;<br>Məktəblər (orta və ali) və s. |
| **KİV**(***K****ütləvi* ***i****nformasiya* ***v****asitələri*): | TV, RADİO, QƏZET, JURNAL, İNTERNET (Google-ensiklopedik,informatik saytlar, Youtube, Sosial şəbəkələr (*Facebook* və b.) |
| **MƏDƏNİ MÜƏSSİSƏLƏR:** | Muzeylər, kitabxanalar, arxivlər, sərgi salonlar və b. |

**İstifadə olunana ədəbiyyat:**

1.Mir-Bağırzadə S.A.Kulturologiya: Dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi. Dərs vəsaiti,-Bakı, -2020,-72S.
2.Mir-Bağırzadə S.A.Multikulturalizmə giriş. Dərslik.,-Bakı,-2021,-120S.

**Suallar:**

1. Mədəniyyət haqqında elm - mədəniyyətşünalıq,kulturologiya.
2. Mədəniyyətin əsas və vacib problemləri və sualları.
3. Mədəniyyətşünaslığın/kulturologiyanın əsəs hissələri.
4. Mədəniyyətin funksiyaları.
5. Maddi və mənəvi mədəniyyət.
6. Mədəniyyətin sosial institutları.
7. Mədəniyyət və Sivilizasiya anlayışları, onların oxşarlığı və fərqləri.
8. Müasir sivilizasiyalar və onların inkişaf mərhələləri.
9. Mədəniyyət və anti-mədənyyət.
10. Mədəni inkişafın əsasları.
11 .Mədəniyyətin etno-milli xüsusiyyətləri.
12. Mədəniyyətin inkişaf xüsusyyətləri.
13. Bədii mədəniyyət və mədəni irs.
14. Şərq və Qərb mədəniyyətlərin fərqləri.
15. Müasir sivilizasiyalar və onların inkişaf mərhələləri.
16. Mentaliltet,qloballaşma anlayışları.
17. Mədəniyyətin yayılma sistemi.

## Mövzu 2.
## KOREYA TARİXİ

***Koreyanın erkən tarixi;***
***Qədim Çoson dövləti;***
***Çinquk və Üç Xan Dövlətləri: Maxan, Pyonxan, Çinxan;***
***I-IV-cü əsrlərdə Üç dövlətlərin yaranması: Koquryo, Pekçe və Şilla;***
***Orta əsr Koreya tarixi;***
***XV-XVI-cı əsrin əvvəllərində Koreya: Erkən dövrün Çoson dövlətinin formalaşması;***
***Yeni dövr Koreya tarixi;***
***XX - ci əsrin ikinci yarısında Koreya tarixi;***

### 1. Koreyanın erkən tarixi

Koreya yarımadasında **Paleolit dövrü - aşağıdakı dövrlərə aiddir: *Erkən və ya Aşağı Paleolit*** - Eramızdan əvvəl 700.000 il – e. ə. 120.000 il, ***Orta Paleolit*** – e. ə. 120.000 il - e. ə.50.000 il, ***Gec və ya Yuxarı/ Üst Paleolit*** – e. ə. 50.000 il - e. ə.10.000 il.

Paleolit insanları - daha çox mağaralarda yaşayır, eyni zamanda düzənlikdə yaşayış məskənləri tikirdilər (sonuncu - daha çox ***Orta və Yuxarı/Üst Paleolit*** üçün xarakterikdir). Məsələn, *Sokçan-ninin* məşhur yerində damın dayandığı – sütunlu yaşayış binasının qalıqları tapıldı: onun ocağı var idi. Yaşayış sahəsi -təxminən - 7 × 7,5 m ölçüdə idi və orada 8 nəfərə qədər insanlar yerləşə bilərdi.

İctimai təşkilatlanma - ən primitiv səviyyədə idi. Aşağı əmək məhsuldarlığı - sosial təbəqələşməyə səbəb ola bilməzdi, buna görə də ***Aşağı və Orta Paleolitdə*** *insanlar - əcdad icmalarında təşkil olunmuş qəbilələrdə yaşayırdılar*. ***Üst paleolit dövründə*** - erkən tayfa icmaları meydana çıxdı.

***Ovçuluq və yığıcılıq*** *- heyvanlara və müxtəlif ruhlara dair - ibtidai inancların yaranmasına səbəb olmuşdur*. Beləliklə, ***tote-***

***mizm*** adlanan-dinin müəyyən bir sadə görünüşü yarandı, o - açıq-aydın ***Qədim Çoson*** dövlətinin və ya ***Üç Dövlətlərin (Koquryo, Pekçe, Şilla) əfsanəvi quruculları haqqında*** bu günə qədər qalan ***miflərdə*** öz əksini tapmışdı.

Eramızdan əvvəl VIII minillikdən- VI minilliyə qədər olan dövr – ***mezolit - çox qısa bir dövrə aiddir.*** Aydındır ki, bu -Koreyanın tarixi inkişafı üçün o qədər də əhəmiyyət kəsb etmirdi, çünki xüsusi ədəbiyyatda bu dövrə çox az diqqət yetirilir. Əsasən, ***paleolitdən*** fərqli olaraq, ***mezolitdə*** *hazırlanmış daş alətlərin- daha kiçik ölçüdə olduğu* deyilir. Və bu, keyfiyyətdə - daha mükəmməl daş emalı texnikasına dəlalət edirdi. Nümunə kimi olaraq, *ox ucları* daha çox qeyd olunur [1. səh. 33–34].

**Neolit dövründə Koreyanın beş mədəniyyət mərkəzi inkişaf etdi**, bu da onun mədəniyyət tarixində ***Erkən Dəmir dövrünə qədər*** və *ondan sonrakı dövrlərdə* öz dominant,üstün əhəmiyyətini saxladı. Bu mərkəzlər - çay dərələri,vadiləri ilə sıx bağlıdır: ölkənin kənar  şimal-şərqi - Tumanqan hövzəsi ilə; Pusan bölgəsi – Naktonqan  çayın boğazı ilə; Seul bölgəsi –Xanqanq aşağı hissəsi ilə; Xvanxe yarımadası - bir sıra kiçik çaylarla;  Pxenyan sahəsi- Tedonqan aşağı istiqaməti ilə.

**Koreyanın neolit dayanacaq  yerləri - iki əsas növə bölünür**: ***qabıqlı kurqanlar və təpələrdəki yerlər***. ***Birincilər*** - dəniz sahili boyunca və çayların mənsəblərində səpələnmişdi; **o *Erkən neolitdə*** meydana çıxdı, lakin ***Dəmir dövrü*** daxil olmaqla davam etdi. ***İkincilər***- təcrid olunmuş alçaq  təpələrin zirvələrində, düzənliklərin bilavasitə yaxınlığında olan terraslarda və ya dağ yamaclarında yerləşirdi - o ***son neolitdə*** yaranmışdır. Əgər ***birincilər*** - əsasən ***dəniz və çay yığıçılığın*** inkişafı ilə bağlıdırsa, ***ikincilər  isə - ibtidai əkinçiliyin və oturaq həyatın*** yaranmasından xəbər verir.

Hər iki növün yerində - *dairəvi və bəzən düzbucaqlı formalı* ***qazıntılı yaşayış məntəqələrin (qazma-daxmalar)*** qalıqlarını görmək olar. Orta hesabla hər dayanacaq sahədə - 3-7 yaşayış yeri var, baxmayaraq ki, burada yüzlərlə *qazıntılı yaşayış məntəqələri*

*(qazma- daxmalar* ) də məlumdur (***Çhodo adası***). Bir qayda olaraq, qəsəbə nə qədər gənc olsa, bir o qədər böyükdür.

Belə ərazilərin sakinləri - mənimsəmə təsərüffatıilə məşhul idilər. ***Ovçuluq, balıqçılıq, yığıçılıq*** - və əlbəttə ki, qarışıq formada - Koreyanın neolit əhalisini lazımi minimum qida ilə təmin edirdi [3. S. 17].

Qeyd edək ki, ***Koreya neolitinin dövrləşdirilməsi*** ilə bağlı ***eyni fikir yoxdur***. ***<u>Cənubi Koreya alimləri hesab edirlər ki</u>, erkən neolit*** - *eramızdan əvvəl VI-cı minilliyindən - III-cü minilliyin ortalarına qədər,* ***inkişaf etmiş neolit (və ya orta neolit)*** - *eramızdan əvvəl III-cü minilliyin ortalarından - II-ci minilliyinə qədər,* ***gec neolit*** - *eramızdan əvvəl II minilliyindən - I-ci minilliyə qədər davam etmişdir.* ***<u>Şimali Koreya tarixçiləri hələ eramızdan əvvəl II minillikdə Koreya yarımadasında dövlətçiliyin formalaşmasına istinad edərək, neolit dövrünün müddətini qısaldırlar</u>. Onlar - erkən neolit dövrü***- *eramızdan əvvəl V-IV-cü minilliyə,* ***orta neolit dövrü*** - *III-cü minilliyə,* ***gec/son neolit dövrü*** isə- *eramızdan əvvəl III-II minilliyə aid edirlər*. [1. S. 35].

***Koreya yarımadasının erkən və inkişaf etmiş neolitinin əhalisi - qabıqlı yığınların olduğu dayanacaqları tərk etmiş, daş və sümük alətlərindən, həmçinin keramikadan istifadə etmişlər; hər ikisi- bütövlükdə ərazi üçün müəyyən vahidliyə malik idilər*** [3. səh. 17–18].

**Tunc mədəniyyəti** ***Koreya yarımadasına - Mançuriyadan gəlib, burada Şərqi Asiyanın bir sıra tunc mədəniyyətlərinin: Çinin Şain mədəniyyətinin, Şimali Çin Ordosunun, Cənubi Sibirdə Karasuk mədəniyyətinin - təsiri altında müstəqil mədəniyyət kimi formalaşıb.***

**Bu mədəniyyətin ən xarakterik xüsusiyyətləri bunlardır**:

1) ritual tunc əşyaları;
2) yaşmadan hazırlanmış prestijli istifadə əşyaları;
3) hamar keramika;
4) dolmenlər;
5) daş qutularda dəfnlər.

**Tunc dövrünün maddi mədəniyyətinin səciyyəvi xüsusiyyətlərinə gəlincə**, tunc inventarına daha çox səciyyəvi olan ***mərasim silahlarının bəzi növləri var***. Əvvəla, bunlar -*skripka formalı qılınclar* adlanır (qısa 50 sm-ə qədər bıçaq - qabarıq aşağı hissəsi ilə, ortada - görkəmli çıxıntılar- tədricən sona doğru daralır). Digər ümumi əşyalar - Ural və Cənubi Sibir mədəniyyətlərindən (Andron və Karasuk) məlum olanlara bənzər *baltalar* idi. Həmçinin *iki sancmalı ox ucları, bıçaq, kesənlər və güzgü, zəngürov* və s. kimi- *mədəni-ritual əşyalar* da məlumdur. Son mərhələdə *tunc inventar*- daha müxtəlif olur və daha tez-tez rast gəlir, lakin onunla bərabər - *dəmir əşyalar* da bura qarışdırılır [2 . səh. 19–20].

Əksər alimlər hesab edirlər ki, ***bürünc məmulatları istehsal texnologiyası ilə birlikdə - Koreya yarımadasında*** təxminən e.ə. X-cu əsrdə yaranıb. **Tunc dövrü** e.ə. IV əsrə qədər davam etdi, onun yerinə - **Dəmir dövrü** gəldi. Yaxın vaxtlara qədər **Şimali Koreyada tunc dövrünün başlanğıcı** -eramızdan əvvəl V-ci əsrə aid edilirdi. **Neolit dövründə** olduğu kimi, kənd təsərrüfatı alətləri - daşdan hazırlanırdı. ***Silahlar***: ***qılınc və ox ucları, həmçinin baltalar***,- əsasən ***tuncdan hazırlanırdı***.

***Koreya yarımadasında*** **Tunc mədəniyyəti** ilə yanaşı *digər* ***keramika məmulatları da yayılmışdır***. **Son Neolit dövründə** olduğu kimi, *o - hamar, əsasən qırmızı rəngdə idi, lakin forması - uclu dibli və ya alçaq, yuvarlaq - düz dibilı formada idi.* ***Tunc dövrünün silahlarından- "pipha***" adlanan - ud şəklində olan ***xəncər (qısa qılınc*** (*bəzən deyirlər: "skripka şəklində*") - xüsusilə seçilirdi. ***Qısa qılınclar - arxeoloqların Qədim Çin ərazisində tapdıqları silahlardan fərqlənirdi, bu da xüsusi bir proto-Koreya mədəniyyətindən danışmağa imkan verir.*** Əvvəlcə ***indiki müasir Çin əyaləti Lyaoninq, Lyaodunq yarımadası və Cənubi Mançuriya ərazisi - pipha qılıncların yayılmasının mərkəzi idi***. ***Daha sonra- Koreya yarımadasının özündə belə qılınclar peyda oldu.***

Beləliklə, ***Tunc dövründə Şimaldan- Koreya yarımadası ərazisinə - əhalinin növbəti miqrasiya prosesi baş verdi***. ***Köçkünlər özləri ilə yeni keramika, yeni silahlar və yeni istehsal nailiyyətləri gətirdilər.*** *Arxa tərəfində kobud sızanaqlı naxışlı tunc güzgü-*

*lər* də - ***Koreya Tunc dövrünə aid olan maddi mədəniyyətin*** *xüsusi əşyalarından seçilir. Oxşar güzgülər* - ***yalnız Koreya yarımadası bölgəsində və Mançuriyada tapılıb. Miqrantların yeni mədəniyyətinin daşıyıcıları - etnik mənsubiyyəti - altaylılar kimi müəyyən edilən yelok tayfaları hesab olunur*** [1. səh. 38–39].

**Dəmir məmulatları** - olduqca erkən meydana çıxır və ***son tunc dövrünü*** müşayiət edir. İlk növbədə ***dəmirdən - silahlar,*** sonra - ***at qoşqu əşyaları*** hazırlanmağa başlandı. *Qəbirlərdəki dəmir əşyalarla bərbər-* ***hündür və əyilmiş boylu, kənarlı hamar qara saxsı qablar, cilalanmış daş alətləri qoyulmuşdur*** [2. S. 21].

***Dəmir dövrünün başlanğıcı - Koreya yarımadasında eramızdan əvvəl IV-cü əsrə aiddir.*** *Lakin yarımadada yayılmağa başlayandan sonrakı ilk üç əsr ərzində dəmir əşyalar- hələ tuncları əvəz etməmişdi.* **Dəmirin hökmranlığı- yalnız e.ə. I-ci əsrdən gəldi.** Eyni zamanda, tunc dövründən fərqli olaraq, ***dəmirdən təkcə silahlar deyil, həm də əkinçilik üçün alətlər: dəmir oraqlar, çapaq ucları və şumlar hazırlanırdı.***

***Koreyaya*** **Dəmir mədəniyyəti** - Çindən gəldi və Amnokkan (Amnokkanq), Çhonçhonqan (Çhonçhonqqanq), Tedonqan (Tedonqanq) çaylarının hövzələrində və daha da cənubda yayıldı. ***Dəmir mədəniyyətinin yaranması ilə eyni vaxtda Koreya yarımadasının şimalında - qədim Çin Yan knyazlığından sikkələrin dövriyyəsi qeyd olunurdu. O dövrün maddi mədəniyyət əşyalarından - nazik xəncərlər, arxa tərəfində incə naxışlı metal güzgülər, hamar keramika məmulatları*** səciyyəvidir.

Bir çox koreyalı tədqiqatçıların yazdığı kimi, ***Koreya yarımadasında yayılan - Çin dəmir mədəniyyəti - yerli mədəniyyətlə assimilyasiya olunaraq, Koreya yarımadasının xüsusi mədəniyyətinin yaranmasına təkan vermişdir*** [1. səh. 39–40].

## 2. Qədim Çoson dövləti

***Qədim Çosonun tarixi*** - çox şərtidir; ***əfsanəvi versiyaya görə, o e.ə. 2333-108-ci illərə aiddir***.; ***onun e.ə. 1122-1121-ci illərdəki siya-***

***si tarixi - Çin salnamələrindən məlumdur: Çin versiyası - Koreya mifoloji xəttinə*** *əsaslı şəkildə ziddir,* ***ona(Koreyaya) görə*** ***Qədim Çosonun banisi və bütün koreyalıların əcdadı - Tanqundur***.

*Bu proto-dövlətin formalaşmasının mənşəyi və onu - Çin və ya Koreya tarixinə aid olması ilə bağlı fikir ayrılıqlarına əlavə olaraq, elm - onun mədəniyyətinin əsaslı, tipik abidələrini bilmir.*

***Qədim Çoson regionun və Koreya xalqının formalaşması tarixi - ilk növbədə hərbi, sonra isə qohum tayfaların siyasi birliyi kimi qiymətləndirilə bilər və onun son mərhələsində- dövlətçilik elementləri yaranır*** [4. S. 16].

*Əksər tarixçilər -* ***Qədim Çoson dövlətinin yaranmasının*** - yalnız ***eramızdan əvvəl I-ci minillikdə baş verdiyini qeyd edirlər***. *1990-cı illərin sonlarında Cənubi Koreya tarixşünaslığı -* ***dövlətin formalaşmasını - eramızdan əvvəl V-IV-cü əsrlərə*** aid etdirlər. *Rus tarixçiləri* isə- onu ***eramızdan əvvəl VIII-VII-ci əsrlərin sonlarına*** aid edirlər. Hətta ***KXDR-da 1993-cü ilə qədər mədəniyyəti əsasında- Çoson dövlətinin qurulduğu - əhalinin etnik cəhətdən formalaşması - eramızdan əvvəl II-ci minilliyə aid etmək olar***, ***dövlətçilikdən*** isə - ***yalnız I-ci minilliyin birinci yarısından*** *danışmaq olar,* ***bunu - arxeoloji tapıntılar və Çin tarixşünaslığından əldə edilən məlumatlar sübut edir.***

***Qədim Çosonun əfsanəvi dövrü*** - " ***Çoson Kica*** " *adlanır və e.ə. 1122-195-ci illərə təsadüf edir. Bunun* ***əks-sədaları -Tanqun mifində mövcud olan - bir əfsanə ilə əlaqələndirilir***: ***Çin Çjou sülaləsinin (e.ə. 1122-247) hökmdarı U(Vu)-van*** (e.ə. 1121-1116)- ***Çosonu - Kica -ya -miras olaraq verdi*** [1. səh. 41–43].

***"Çoson Vi Man" dövrü - eramızdan əvvəl 194-108-ci illərə aiddir.***

Aşağıdakı hadisələr bu mərhələnin başlanğıcı ilə əlaqələndirilir. *Eramızdan əvvəl 195-ci ildə* ***Çinin Yan knyazlığından çıxan - Vey Man*** (müasir Koreya heroqlif yazısında onun adı - ***Vi Man*** kimi səslənir) ***xalqının 1000 nəfəri ilə birlikdə - qədim Çoson hökmdarı - Çun-vanqa xidmət etməyə getdi.***

Eramızdan əvvəl **194-cü ildə** ***Vey Man*** Çin knyazlıqlarından olan digər mühacirlərlə birlikdə - hakimiyyəti ələ keçirdi. Bundan

sonra o- oğulları və nəvələri ilə - **Qədim Çosonda**(paytaxtı-***Van-qomson*** -왕검성, 王險城 *Vanqomsonq qalası* (müasir Pxenyan) ) hökmranlıq etdilər. Lakin yeni Xan sülaləsinin(e.ə. 206 – e. ə.220) birləşmiş Çin imperatoru –U(Vu)-Di (e.ə. 140-87) eramızdan əvvəl 109-cu ildə Qədim Çosona 50.000 quru və 7.000 dəniz qoşunları göndərmişdir. Nəticədə- ***eramızdan əvvəl 108-ci ildə Qədim Çoson dağıldı və onun yerində - dörd Çin vilayəti(bölgəsi) yarandı: Çjenfan (Koreya oxunuşu - Çinbon), Lintun (Imdun), Süantu (Hyönqtho) və Lelan [Laolan] (Nannan). Bununla Qədim Çoson dövlətinin tarixi- başa çatır*** [1. səh. 45–46].

### 3. Çinquk və Üç Xan Dövlələri: Maxan, Pyonxan, Çinxan

*Şimali Koreya tarixçiləri* **Çinquka** - daha çox diqqət yetirirlər. Onların mövqeyinin haqlı olub-olmadığını söyləmək çətindir, lakin bu- olduqca maraqlıdır və tanış olmağa dəyər.

Koreya Xalq Demokratik Respublikasında - ***Çinqukun dövlət*** *olduğu* və ***eramızdan əvvəl IV-cü əsrdə formalaşdığı*** - *güman edilir*. ***IV-V-ci əsrlərin Çin əsərində "Gec Xan sülaləsinin tarixi" (Hou xan şu***)- *Şimali Koreya alimləri tərəfindən* - ***Çinqukun - Koreya yarımadasının cənubunda geniş bir ərazini əhatə ediyini, sonralar bu ərazini üç proto-dövlətlərin: Maxan, Pyonxan və Çinxan – <u>yerləşdiyinə dair sübutlar tapırlar</u>. Çinquk - Qədim Çoson ilə birlikdə mövcud idilər*** və ola bilər ki, onunla bir əlaqəsi var idi. ***Çinqukun öz paytaxtı - Volciquk şəhəri - var idi*** [1. S. 53].

Coğrafi baxımdan **Maxan** və **Çinxan** birliklərinin mövqeyi - *Unçhon çayın sərhədi boyu ilə* müəyyən edilirdi, *cənubunda* - ***Maxan icmaları***, *şimalında* isə - ***Çinxan icmaları*** yerləşirdi. Bu yerləşmə- həm də onu təsdiq edir ki, ***Çinxanlarla*** müqayisədə, ***Maxan*** və ***Pyonçin icmaları*** - əvvəllər şimaldan gələn yeni gələnlərdən ibarət idi və buna görə də ***Çinxanda*** - cənubda məskunlaşdılar, sonralar - daha şimalda, onlar -əvvəllər ***Maxan əyalətin*** bir hissəsi olan torpaqlarda məskunlaşdılar. *Çinli müəlliflər iddia edirdilər ki*, "***Pyonçinlilər - Çinxanlılarla qarışıb yaşayırdılar";***

***buna görə də Pyonçin icmalarının yarısını- Çinxana aid etmiş-lər*** [3. S. 39].

## 4. I-IV-cü əsrlərdə Üç dövlətlərin yaranması: Koquryo (Koqurö, Qoquryeo ), Pekçe və Şilla(Silla)




***476-cı ildə Koreya tarixinin xəritəsi***

### Koquryo (Koqurö, Qoquryeo)

**Koquryo** - ***Üç Dövlətlər arasında xüsusi bir dövlət idi***, çünki onunla birlikdə bu ərazidə Çinin Nannan bölgəsinin(313 il), sonra isə Puyo proto-dövlətinin (494 il) mədəniyyəti qəbul edilmişdi. *Çin əhalisilə və yüksək inkişaf etmiş mədəniyyəti ilə olan Nannan dairəsi* - Koquryo mədəniyyətinin inkişafında böyük rol oynamış-dır.

***IV əsrin əvvəlinə qədər - həm mədəni, həm ərazi baxımından*** Koquryo - ***Amnokkan çayının orta axarında kiçik bir proto-döv-lətin yaranmış forması idi.*** *Şimaldan* - ***Puyo proto-dövləti***, *cə-nubdan* isə - ***Çinin Nannan dairəsi*** ilə həmsərhəd idi. ***Koquryo-nun etnik əsasını - Mek tayfaları*** təşkil edirdi. Daha sonra - *Ok-ço, Puyo və başqa tayfalar* birləşirdi.

***Koquyronun mifik qurucusu - hökmdar – Cumonq idi. Cu-monq - şəxsi addır***, azərbaycan dilinə tərcümədə "***Dəqiq Oxa-***

***tan" deməkdir. Çumonq məbədinin adı - Tonmyön-eai,*** yəni - "***Şərqin parlaq(işıqlı) hökmdarı***". Bu vəziyyətdə "***Şərq***" sözü - ***Koreyanı ifadə edir, çünki o - Orta İmperiyanın – Çinin Şərqində yerləşir*** [1. S. 56].

*İlk əsrlərdən etibarən Koquryo ən yaxın qonşuları - Çin və Puyo ilə toqquşmalardan yayınmadı.* Məsələn, ***28-ci ildə*** *Lyəodonq-'un Xan (Çin) canişiri- Koquryoaya hücum etdi.* ***121-ci ildə*** *Koquroynın - Theco-van-ı - Lyəodonq və Çinin Hyonqtho bölgəsinə hücum etdi.* ***172-ci ildə*** *- Şinde-van-ın hakimiyyəti dövründə Koquryo - Çin qoşunları tərəfindən işğal olundu.*

***II-ci əsrin sonu Koquryonun inzibati strukturunda bir sıra mühüm dəyişikliklərlə bağlı olan - dövlətçiliyin formalaşmasının başlanğıcından danışmaq olar*. Beş bu – *qəbilə birliklərinin əvvəlki adlarından fərqli olaraq, onlar - yerin 4 tərəflərindən və mərkəzdən asılı olaraq adlandirildi və adlar aldı.*** Beləliklə:

**1.**(keçmiş)**Kerubu – Nebu**(adlandıırıldı) - ***"Daxili (Mərkəzi)Bu***" (və ya ***Hvanbu*** - "***Sarı Bu***");

**2.**(keçmiş) **Çol-lobu - Puknu**(adlandıırıldı), yəni "***Şimal bu***" (yaxud ***Hubu*** - "***Arxa bu***");

**3.**(keçmiş) **Sun-nobu - Tonbu**(adlandıırıldı), yəni "***Şərqi bu***" (və ya ***Çvabu*** - "***Sol bu***");

**4**.(keçmiş) **Kvan-nobu - Nambu**(adlandıırıldı), yəni "***Cənubi Bu***" (və ya ***Çonbu*** - "***Ön Bu***");

**5.**(keçmiş) **Sono-bu - Sobu**(adlandıırıldı), yəni "***Qərbi bu***" (və ya ***Ubu*** - "***Sağ bu***")adlandırılmağa başladı.

***Bu ad dəyişdirmə faktı - çox güman ki, Koquryoda baş verən birləşmə prosesləri ilə əlaqədardır, o zaman tayfa fərqləri silinir və bütün əhali az-çox - bir, vahid, homojen olur.(****Əlavə:* ***e.ə.İ-ci minillikdə yaşayan türkdilli xalqlar-etrusklar(Romul və Rem qardaşları ) - Roma şəhərinin əsasını qoydular və binaları və divarları-yerin 4 tərəfinə: şimal, canub, şərq, qərb tərəflərə istiqamətləndirmişdilər-bu kücə oxları - ortada kəsişərək, mərkəz yaradırdı. (Nemirovskiy A.İ., Xarsekin A.İ. Etrusklar. Etrüskologiyaya giriş. Voronej, 1969.) - və bu prinsip burada da istifadə olunmuşdur).***

***Məhz IV əsrdə*** ***<u>Konfutsiçilik</u>*** nəhayət Koquryoda təsdiq olundu və ***Konfutsi akademiyası*** yaradıldı. ***Konfutsiçilik - Koreyada dövlət idarəçiliyi nəzəriyyəsinin ideoloji əsasını təşkil edirdi.***

***V-ci əsrdə Koquryo - dövlət kimi formalaşdı, o Koreya yarımadasının bütün şimalını əhatə edir və həmçinin inkişaf etmiş güc aparatına, ordusuna və qurulmuş sinfi münasibətlərə malik idi.***

**Pekçe**

***Xanqanq çayı*** hövzəsində **Pekçe** ***dövləti*** yarandı. *Əvvəlcə* **Pekçe -** ***Maxan proto-dövləti daxilində güclü proto-dövlət Quk birliklərindən biri idi.*** Düzdür, ***o zaman Pek adının- ilk hecası - fərqli heroqliflə yazılmışdı, lakin bu - heç də o demək deyil ki, hansısa başqa Pekçedən danışılır. İlkin mərhələlərdə Koreya sözlərini yazmaq üçün - Çin heroqliflərdən istifadə olunurdu*** (<u>*heroqliflər*</u> *- Koreya sözünün mənasından asılı olmayaraq,* <u>*onun fonetik səsini çatdırmaq üçün istifadə edilirdi*</u>) [1. səh. 57–58].

***"Pekçe"- sözü "yüz'lər keçmiş", yənı "hamı köçürülmüş" kimi tərcümə olunur. Qədim Koreya dilində "yüz"- "Hamı","Hər şey" mənasını verir.***

***Pekçe'nin yeni doğulmuş mərkəzi - Xanqanq çayının cənub sahilinə, - Cənubi Vireson*** adlı bir *qalaya* köçürüldü. ***Ənənəvi xronologiyada Pekçe'nin əsasını - eramızdan əvvəl 18-ci ilə müəyyən edilir.***

***Pekçe müharibələri zamanı, III-cü əsrin əvvəllərində bu ərazinin kiçik,xirda tayfaları - kifayət qədər güclü proto-dövlət quruluşuna birləşərək, müasir Kyongi əyalətinin ərazisi üzərində - öz hegemonluğunu qurmağı bacardı*** [5. S. 87].

Tezliklə, III əsrin sonlarında Pekçelılar - Şimali Maxan torpaqları üzərində hegemonluq uğrunda mübarizədə əsas rəqibini - *Makçi adlı tayfanı* - özünə tabe edə bildilər. Beləliklə, Pekçe ərazisi genişləndi- indiki ***Kyongi*** *və Çunçonq müasir əyalətlərinin ərazisini,* yəni, bütün şimal və mərkəzi Maxanı daxil etdi [5. S. 89].

## Şilla(Silla)

**Şilla** ***səltənatinin(krallığın) yaranma tarixi - üç əsas dövrə bölünür*** (***o adın dəyişməsilə və onunla birlikdə - dövlət başçısının funksiyaları ilə bağlıdır***).

***I dövr:*** (başlanğıcını dəqiq müəyyən etmək mümkün deyil) - e.ə. I-ci əsrin sonuna qədər davam edən **birinci dövr** - ***kosoqan və çhaçhaun dövrü adlanır***. ***Şillanın ilk hökmdarları - Hyokkose (e.ə. 57-3 illər), Namhe (e.ə. 4-23 illər ) - Vanlar deyil, Kosoqanlar adlanırdılar***. Sonradan, orta əsr Koreya tarixşünaslığı - onların hakimiyyətinin legitimliyini və yüksək statusunu göstərməli olan (*Hökkose istisna olmaqla,*) bütün Şilla hökmdarlarına - **van** ***titulunu*** verdi. ***Lakin Şillanın ilk hökmdarları - Vanlar deyildi.***

***Şillanın formalaşmasının ilkin mərhələsində*** - ***kosoqan*** və ***çhaçhaun titulları*** - *çox vaxt eyni şəxsə şamil edilirdi*. ***Bu o demək idi ki, qəbilə başçısı- eyni zamanda -həm hərbi lider ola bilər, həm də "dini" lider kimi çıxış edə bilər.*** Eyni zamanda bir çox elm adamları belə hesab edirlər ki, e.ə. II-I əsrlərdə **Mərkəzi Saro-da (Kyoncu düzənliyində) keçmiş Çinxan əhalisinin** – ***hələ siyasi və hərbi münasibətlərdə - birməşmə yox idi və ona görə də dövlətçilikdən danışmaq olmazdı***. Dövlətin yaranması prosesində müxtəlif qurban vermə mərasimlərinin xüsusi rolu olub, *bunlardan da ən mühümü* - ***əcdadların ruhuna qurban etməsi idi.*** *Qeyd edək lazımdır ki, müasir Koreyada həm Cənubi, həm də Şimalda hər il əcdadların ruhuna ailə və milli miqyasda qurban vermə mərasimləri öz aktuallığını itirməyib.*

**Birinci dövrdə** - əhalinin təşkilatlanmasının sosial-iqtisadi forması - ***kənd icması*** olmuşdur.

**Şillanın təşəkkülünün ikinci dövrü -** ***nisaqım dövrü adlanır. O e.ə. I-ci əsrin sonlarında başlamışdır və IV əsrə qədər davam etmişdir***. ***Nisaqım*** - ***Saro birliyinin hökmdarları üçün yeni ad olub və onun qəbilə proto-dövlət birlikləri ittifaqının( birliyinin) başçısı kimi xüsusi statusunu göstərir. Yeni nisaqim titulu ilə yanaşı*** - *Saro ittifaqının qalan protodövlətlərinin hökmdarları* - ***Kosoqan adlanmağa davam edirdi.***

***Koreyada (bütün Uzaq Şərqdə olduğu kimi) qurulmuş monarxiya hakimiyyəti, monarx ailəsinin səmavi mənşəyi və ya onun Göylərə xüsusi yaxınlığı ideyası ilə xarakterizə olunurdu və bu da avtomatik olaraq hakimiyyətin miras yolu ilə ötürülməsini nəzərdə tuturdu.***

Şillanın IV əsrin sonundan - VI-cı əsrin əvvəllərinə qədər davam edən **üçüncü təşəkkül dövrü** - ***maripkan dövrü adlanır***. ***Maripkan*** - ***Saro birliyinin rəhbərinin başqa bir adıdır.*** Etimoloji cəhətdən "***maripkan***" sözü - tayfa birliklərinin başçılarını bildirən- *kosoqan* və ya *kan* sözləri ilə əlaqələndirilir. ***Marip -"böyük","ulu"*** deməkdir və ali hökmdar statusunun növbəti yüksəlişini göstərir.

Şilla tarixinin bu dövrü - ***Nemul-Vanın*** (***356-402 illər***) ***hakimiyyəti dövründə hakimiyyətin - Kim qəbiləsinə keçməsi və Nulci - Vanin(417- 458 illər) dövründə baş vermiş - hakimiyyətin atadan - oğula keçməsinin son təsdiqlənməsi (bərkitməsi) ilə xarakterizə olunur.*** Ölkənin hər yerindən - Şillanın paytaxtına (*indiki* ***Kyoncu*** *şəhəri*)- ərzaq, müxtəlif maddi dəyərlər və qullar gətirilirdi. Şilla hökmdarları getdikcə daha da zənginləşdi, bunu **Kyoncu**-dakı kral məzarlarında aydın görmək olar: türbə nə qədər gec tikilsə, bir o qədər böyük olurdu və dəfn əşyaları bir o qədər zəngin idi.

**VI əsrin əvvəllərindən Saro dövlətinin adı dəyişdirilərək - Şilla oldu və Şilla hökmdarları - Vanlar(*yani* "*hökmdar*") adlandırılmağa başladı.** ***VI əsrin əvvəllərində Şillada 17 məmur rütbəsi təsis edildi, bu da daha mürəkkəb dövlət aparatının yaradılmasından xəbər verirdi. Eyni zamanda Şillaya buddizm nüfuz etməyə başladı. Konfutsiçilik və onun erkən Şilladakı təsiri ilə bağlı,- bu məsələyə tarixi ədəbiyyatda az diqqət yetirilmişdir.*** Bununla belə, həm Çinin özündə, həm də qonşu ölkələrdə, məsələn, ***Koquryo və Pekçedə - konfutsiçilik dövlət idarəçiliyi ideologiyasının formalaşması üçün ideoloji əsas rolunu oynadığından belə güman etmək olar ki, Çin heroqlif yazısını mənimsəmiş Şilla - müəyyən dərəcədə də konfutsiçiliyin təsirindən xilas olmadı*** [ bir. səh. 60–63].

## 5. Orta əsr Koreyanın tarixi

***Koreya tarixinin bu dövrü - çox mühümdür: ilk dəfə olaraq Koreya yarımadasının bütün ərazisi - bir hakim evin hakimiyyəti altında birləşdirildi. Koreya nəhayət tam vahid oldu. Məhz Koryo dövründə - ölkə Qərbə tanındı. "Koreya" sözü - yeni yaranan dövlətin "Koryo" adından götürülüb***. *Məhz **Van sülaləsi** dövründə Uzaq Şərqdə Koreya mədəniyyətini tərənnüm edən, şöhrətləndirən əşyalar istehsal olunmağa başladı:* ***xarakterik açıq yaşıl şirəli keramika məmulatları-"seladon"*** *adlanırdı.*

***Koryo dövrünün mədəniyyəti - hələ bu günə qədər heç bir izahat olmayan bir sıra spesifik xüsusiyyətlərə malik idi. Koryonun dövlət dini - Buddizm idi.*** Bununla belə, ***Koreya yarımadasının cənub-qərbində yerləşən Buddist monastırlarında*** - ***Uncusa*** ("Buludlu qayıq monastırı"), ***Mirıksa*** ("Maitreya Budda Monastırı"), ***Kımsansa*** ("Qızıl Dağlar Monastırı") - ***nə Üç Dövlətların əvvəlki dövründə, nə də Li sülaləsinin sonrakı dövründə (1392-1910 illər) - daşdan tikilmiş tikililəri görmək olmaz*** . Bunlar - Buddanın yastı daş heykəlləri, kəndin qəyyumlarının(qoruyucularının) bütlərinə bənzəyən toplar və ya disklər şəklində yaruslu daş paqodalardır. *Məlumdur ki, bütlər və bütpərəstlik - Buddizmlə bir araya sığmır və ənənəvi daş paqodaların - dördbucaqlı dam şəklində yarusları var idi.*

Eyni zamanda, Koryo tarixini təqdim etmək üçün ümumi qəbul edilmiş sxemdə sirli və ya fantastik heç nə yoxdur. ***Koryo haqqında əsas məlumat mənbəyi - yeni Li sülaləsinin qurulmasından sonra ilk onilliklərdə tərtib edilmiş tarixi əsərlərdir***, yəni: "***Koryosa***" - "***Koryo tarixi***" və "***Koryosa Çoryo***" - "***Əsas Koryo tarixin qısa xülasəsi***". ***Birinci əsər- 1451-ci ilə, ikincisi - 1452-ci ilə qədər tamamlandı.*** Hər ikisi - ***Çunçuqvan - Kral sarayında Xüsusi tarixi şöbəsində*** tərtib edildi, buna görə də ***burada əvvəlki sülalənin tarixi ilə bağlı rəsmi mövqeyi əks etdirlirdi.*** Aydındır ki, onun son illəri- bir sülalənin digəri ilə dəyiş-

məsini izah edən - böhran kimi görünməli idi. Bundan əlavə, Li sülaləsinin başlanğıcında - "möcüzələrə" o qədər də əhəmiyyət verməyən- konfutsiçiliyin təsiri artdı. Buna görə də Koryö müasir tarixşünaslığının xüsusiyyətində öz əksini tapmış "***Koryosa***" və ***"Koryosa Çoryo***" əsərlərində "fantastik" və heyrətamiz hadisə və hadisələrin təsviri - olduqca nadirdir. ***Koryo dövləti - Sonrakı Üç Dövlətlərin əsasında yaranmışdır*** [1. S. 113].

## 6. XV - XVI əsrin əvvəllərində Koreya: erkən dövrdə Çoson dövlətinin formalaşması

***XV-XVI əsrlər*** - Cənubi Koreya tarixşünaslığında adətən "***erkən Çoson dövrü***" ***adlandırılır***. ***Çoson dövlətinin "son dövrü" - XVII - XIX -cu əsrləri əhatə edir***.

***Erkən Çosonun "inkişaf etmiş orta əsr cəmiyyəti" - tədricən sonrakı əsrlərdə - tarixi inkişafın növbəti mərhələlərinə keçid üçün ilkin şərtlər yaradan - son orta əsr bürokratik monarxiyası kimi xarakterizə etmək olar*** [5. S. 290].

***XV-ci əsrin sonunda Çoson - ciddi sosial-iqtisadi problemlərdən əziyyət çəkirdi. XV-ci əsrin ikinci yarısında bütün bürokratik rasionallaşdırılmasına baxmayaraq, onların kökü, ilk növbədə, dövlət aparatının sarayında - ailə və qəbilə maraqlarının xidmətinə edən, kifayət qədər imkanları olan "yuxarıvəzifəli məmurlar" dəstələrinin - uzunmüddətli idarəçilikdə dayanmasıdır*** [5. S. 300].

**Kral Seconq**



**Kral Seconq** (həmçinin *Seçonq* və *Secon* kimi yazılır (Portalostranah.ru), hakimiyyət illəri: 1418-1450, ***Çoson sülaləsinin dördüncü monarxı - ölkənin inkişafına misilsiz töhfələr verib və Koreya tarixində silinməz iz qoyub.*** O 1397-ci ildə anadan olub, Kral Teconqun (1400-1418) üçüncü oğlu idi. 22 yaşında o atasının taxtının mirasını gəbul etdi (Güman edilir ki, atası - məhz oğlunun qabiliyyətlərinə görə **kral Seconq**'u seçərək, özü taxtdan imtina etdi (qeyd: Portalostranah.ru): o dövrdə qüvvədə olan *ilk oğlu tərəfindən taxtın varisliyi praktikasına baxmayaraq*, **təbiətcə müxtəlif istedadlara malik olan - kral Seconq erkən uşaqlıqdan öz həmyaşıdlarından üstün qabiliyyətləri ilə seçilirdi**.

***XV əsrin əvvəllərində kral Seconq - siyasi quruluşu yenidən təşkil etməklə və ali hakimiyyəti gücləndirməklə - gənc nəslin əsasını möhkəmləndirdi və bununla da ölkə tarixində "qızıl dövr" başladı.***

**Kral Seconq** - ***elmin, təsviri incəsənətin və musiqinin inkişafına fəal kömək edirdi***. *Lakin o, Koreyanın inkişafına ən böyük töhfəni - 32 yaşında etdi.* ***Onun göstərişi ilə alimlər - bütün nəsillərin ən böyük, görkəmli Koreya mədəniyyəti olan - <u>Hunmin</u>***

***Conq-Im*** və ya ***Xangül/Hanqıl milli Koreya əlifbasını hazırla-dılar***.

1446-cı ilə qədər ***Xangül/Hanqıl əlifbasın*** tətbiqinə qədər koreyalılar Koreya sözlərini yazmaq üçün Çin heroqliflərindən istifadə edirdilər. Xalqının rifahı ilə səmimi maraqlanan **Kral Seconq**, təbəələrinin çoxunun çox çətin Çin heroqliflərını öyrənə bilməməsindən çox narahat idi və onlar onu oxuya bilmədikləri üçün yazılı mədəniyyətin dəyərlərindən uzaqlaşirdilar. Çin heroqliflərinin yerinə - ***Koreya əlifbasının təqdim edilməsinin faydalarını izah edən Seconq deyirdi: "Dilimizin səsləri - Çin səslərindən fərqlidir və buna görə də Çin yazısı ilə onları dəqiq çatdırmaq mümkün deyil. Bir çox savadsız insanlar - fikirlərini yazılı şəkildə ifadə etmək istəsələr də, bunu edə bilməyirdilər. Bu səbəbdən 28 hərfdən ibarət yeni əlifba hazırlamışam. İnsanlar onları asanlıqla öyrənə və gündəlik həyatda öz rahatlığı üçün istifadə edə bilərlər".***

***Xangül/Hanqıl – kral Seconqun və onun bu məqsədlə yaratdığı xüsusi institutun alimlərinin əzmkar səylərinin bəhrəsi idi***. Yeni əlifbanın elanından əvvəl – ***Xangüldə***/Hanqılda *Çoson sülaləsinin epik əsəri olan* ***"Uçan Əjdahaların Nəğməsi" adlı kitab*** yazılmışdı.

***1445-ci ildə tamamlanan və 125 misradan ibarət bu görkəmli ədəbi giriş - Koreya dilinin poetik dərinliyinin nümayişi kimi xidmət edirdi.***

***Seconq*** eyni zamanda ***Xangül/Hanqıl əlifbasında "Min çaylarda ayın əks olunmasının mahnıları" - Buddist himnini yazdı***.

***Kralın nailiyyətləri - onun fəlsəfəsi və milli suverenliyi təmin etmək və yaradıcı milli ruhu tərbiyə etmək məqsədlərinə uyğun idi. O - qulları öz ağalarının fiziki cəzalarından qorumaq üçün - cəzalar sistemini yenidən təşkil etdi, kasıblar üçün - düyü saxlandığı xüsusi anbarlar yaratdı, əkilməmiş və su basmış torpaqları - vergilərdən azad etdi.***

*Çindən müstəqilliyini təmin etmək və* ***ənənəvi Koreya mədəniyyətini inkişaf etdirmək üçün o Pak Yuna musiqi notlarını***

***sistemləşdirməyi və daş zənglər dəsti olan* pyonqyonq *kimi yeni orijinal musiqi alətlərini yaratmağı əmr etdi.***

Yapon işğalçılarını qovmaq üçün –Tsusimaya (*Tsusima -Yaponiya dənizindəki bir adadır, indi Yaponiyaya aiddir, Seconq dövründə, Tsusima dəniz quldurları - Koreyanı sıxışdırırdı.:Qeyd: Portalostranah.ru*) uğurlu ekspedisiyalar göndərdi və hələ də Koreya ilə Çin arasında sərhəd olaraq qalan Tumanqan və Yalu çayları boyunca şimal sərhədini qorumaq üçün şimalda Djurdjenlər ilə (*həmçinin Çjurçjenilər kimi tanınır* - *Tunqus-Mancur qrupunun insanları, sonralar Monqollarla assimilyasiya edilmişdir. QeydiPortalostranah.ru*) bir neçə dəfə döyüşdü.

**Kral Seconq** - ***astronomiya və digər elmlərin inkişafına töhfələr verdi. Onun himayəsi altında əldə edilən elmi nailiyyətlər arasında - dünyada ilk günəş siferblatı və su saatı*** var idi. **Çhanqyonqnu** *adlanan və* ***vaxtı bildirmək üçün avtomatik mexanizmə malik olan - su saatı - Kyonqbokqunq Sarayının cənub hissəsində*** (indiki Seul, - o vaxtı burada Xansonq idi (Note Portalostranah.ru) ***yerləşirdi və ölkənin əsas saatı kimi istifadə olunurdu, <u>onun əsasında standart vaxt təyin edilirdi.</u>***

Bundan əlavə, **kral Sedjonq** - ***çəkilər və ölçülər sistemini yenidən təşkil etdi və öz alimlərinə dövrünün ən müfəssəl coğrafi sənədinə çevrilən və Koreyanın bölgələrinin inzibati bölgüsü haqqında faydalı məlumatları ehtiva edən* "<u>Səkkiz vilayətin coğrafi təsviri"</u>*ni tərtib etməyi əmr etdi, hər bir ərazinin topoqrafik xüsusiyyətləri və ayrı-ayrı yerlər üçün istifadə olunan xüsusi adlar qeyd olundu***.

**Seconqun hakimiyyəti illərində** ***çap texnologiyasında kəskin dəyişikliklər baş verdi*. *<u>O - kitab istehsalı üçün istifadə olunan mis və qurğuşun çap lövhələri hazırlamaq üçün - tökmə emalatxanasını qurdu</u>. <u>Kralın dövründə 350-dən çox yeni kitab nəşr olundu.</u>***

"Seul "jurnalı 1997-ci ilin qış nömrəsindəki məqaləsində belə yekunlaşdırıb: "***Onun 15 may tarixinə təsadüf edən doğum günü - Müəllimlər Günü kimi qeyd olunur,*** *çünki kral - bütün koreyalılar üçün əsas müəllimi olub və indi də belədir*".

Qeyd edək ki, ***2000-ci illərdə Cənubi Koreyanın yeni şəhərlə-rindən biri* – Seconq - *kralın adını daşıyır***. (10.“Koreana “ jurna-lı,payız 2007 il, № 3.
https://portalostranah.ru/view.php?id=403)

**Koreya yazısı**

Bir çox alimlər Koreya dilini - Altay dilləri qrupuna aid edirlər, onların arasında - Qustaf Yon Ramstedt-dır( isveç dilində Gustaf John Ramstedt; 22 oktyabr 1873, Ekenes - 25 noyabr 1950, Helsinki ) — mənşəcə - isveçli, fin dilçisi və diplomatı, ***Ural, Altay, Koreya və Yapon dillərinin tarixi dilçiliyi üzrə mütəxəssisidir və bu dilləri - altay dilləri qrupuna aid etmişdir***. O - müqayisəli tarixi, monqol və müasir Altay dilçiliyinin banisidir.

Koreya dilində yazmaq üçün XV-ci əsrdə xüsusi olaraq hazırlanmış ***Xangül [Xangeul ] fonetik yazısından*** istifadə olunur. ***Xangül(***_Hanqıl_***)*** *yazısına* əlavə olaraq, ***hanca*** - Çin heroqliflərdən istifadə olunur. ***Şimali Koreya*** - yalnız ***Xangül(***_Hanqıl)_, ***Cənubi Koreya*** isə - həm ***Xangül(***_Hanqıl),_ həm də *Hanca* istifadə edirlər.

***Xangül*** [xangeul] (Koreya 한글), ***çosonqıl*** / ***çosongül*** (조선글) [çoseongeul], ***koryoqıl / qoryögül*** (고려글) [qoryeogeul] - ***Koreya dilinin fonemik yazılarıdır***. ***Xangül*** *(Hanqıl)* - ***Böyük Kral Seconq*** tərəfindən yaradılmış və nəşr olunmuş "***Hunqmin Conqım***" (훈민정음) (***Xalqa Düzgün Tələffüz Öyrətməsi*** ) *kitabında* təsvir edilmişdir."***Hunqmin Conqım*** " (훈민정음) ***adlı yeni yazı haqqında sərəncam - 1443-cü ildə Van Seconq tərəfindən verilmişdir.*** Əlifba - öyrənilə bilən hərflərdən ibarətdir. ***17 samit səsləri*** - nitq orqanlarının (dodaq, damaq, dil, boğaz) artikulyasiya vəziyyətini təkrarlayır.

***11 saitlər*** - *insan fiqurunun, göyün və yerin* formalarını təkrarlayır. Xangülin*(Hanqılın)* fərqli bir xüsusiyyəti - hərflərin təxminən hecalara uyğun gələn qruplara birləşdirilməsidir. ***Xangül(***_Hanqıl)_ ***əlifbasında - zəif, nəfəsli və güclü samitlər-intuitiv anlayışlı və ifadəli formada yaradılır, məsələn***: ㄱ [q, k]

- ㅋ [k] - ㄲ [qq], ㄷ [d, t] - ㅌ [t] - ㄸ [dd ], ㅂ [b, p] - ㅍ [p] - ㅃ [bb], ***əsas, baza formaları isə* - bu səsləri tələffüz edərkən - *dilin, damağın, dişin və boğazın simvolik obrazını təmsil edir***.

***Xangül(****Hanqıl)* hazırda - 24 hərfdən ibarətdir, bunlardan 14-ü - samit, 10-u -saitdir.



***1997-ci ildə Xangül(****Hanqıl)* ***YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir.***

(10.“Koreana “ jurnalı,payız 2007 il, № 3)

## 7. Yeni dövr Koreya tarixi

Müasir tarixşünaslıqda əksər hallarda ***XVII-ci əsr - Koreyanın yeni tarixinin başlanğıcı kimi müəyyən edilir***.

Yerli tarixi ədəbiyyatda - ***Koreyada yeni zamanın* əsas hesab sayımı - XVII-ci *əsrdən bəri davam edir***. 1970-ci illərin əvvəllərində bəzi müəlliflər ***XIX-cu əsrin ortalarına qədər olan dövrü - "gec feodalizmə" aid etmələrinə baxmayaraq*,- bu barədə xüsusi müzakirələr aparılmır**.

Koreya tarix elmində ***Koreyanın yeni tarixinin dövrləşdirilməsinə yanaşma*** - *daha mürəkkəbdir*. ***Cənubi Koreyada XVII-ci əsrin əvvəllərindən - 1860-cı illərə qədər olan dövr - “cəmiyyətin yeni zamana keçid” dövrü adlanır.*** Buna baxmayarq, məşhur istinad nəşrləri - ***1990-cı illərin ortalarını*** isə hələ də - ***Orta əsrlər dövrünə aid edirlər***. ***Şimali Koreyanın - Koreyanın yeni tarixinin dövrləşdirilməsinə yanaşması- oxşardır***: Bir tərəfdən KXDR tarixçiləri – ***XIX-cu əsrin ortalarına qədər dövrü - orta***

***əsrlərə aid edirlər***, digər tərəfdən isə ***XVII-XVIII-ci əsrləri - Koreyada əmtəə-pul münasibətlərinin inkişafı və kapitalizmin doğulmasını qeyd edirlər.***

***Koreyanın yeni tarixinin yuxarı həddi ilə bağlı dünya tarixşünaslığında****- vahid fikir, konsensus yoxdur*. Yerli tarix elmində ***Koreyanın ən yeni tarixi - hələ 1917-ci ildən başlayı***r. ***Şimali Koreyada yeni və ən yeni tarixi səddi - Kim İrsenin antiyapon inqilabi fəaliyyətinin başlanğıcı, yəni 1910-1920-ci illər sayılır***. ***Cənubi Koreyada 1945-ci il - ən yeni tarixin başlanğıc nöqtəsi kimi qəbul edilir*** - *o- həm* ***xoşbəxt***, *həm də* ***faciəli*** *bir il idi.* ***Xoşbəxt*** - çünki Koreya - Yapon müstəmləkəçiliyindən- müstəqillik qazandı və ***faciəli - çünki bu il və sonradan iki müstəqil dövlətin yarandığı şimal və cənub hissələrinə bölündü.***

***XVII-XVIII -ci əsrlərdə Koreyanın iqtisadi həyatında ölkənin sosial və iqtisadi həyatının bir çox sahələrinə böyük təsir göstərən - ən mühüm dəyişiklik - yeni kənd təsərrüfatı texnologiyasına keçid oldu. XVII -ci əsrdən bəri -düyü*** *artıq toxumla səpilmədi, şitillə əkilməyə başladı, bu da öz növbəsində əvvəlcədən xüsusi ayrılmış yerlərdə yetişdirildi.* ***Bu - bir tərəfdən -əkinçilik işlərinə tez başlanmağa imkan verirdisə, digər tərəfdən - əkin cücərməsinin daha yüksək səviyyədə olmasını təmin edirdi. Nəticədə - bu məhsulun məhsuldarlığında xeyli artım oldu,yarandı.***

***Koreyalılar belə aqrotexniki yenilikdən - hələ XV-ci əsrdə xəbərdar olmuşlar. Ancaq düyüıüın əkilməsi üçün geniş keçid - məhz XVII-ci əsrdə baş verdi.*** Bəlkə də bunun səbəblərindən biri - Koreyada yaponlar və mancurlarla iki dağıdıcı müharibədən sonra yaranmış *ağır iqtisadi vəziyyət idi****, bu da onun sürətlə bərpası üçün daha təsirli üsullar tələb edirdi.***

***XVII - ci əsrdən başlayaraq Koreyalılar - Avropa və Amerikadan- Yaponiya və ya Çin vasitəsilə - Koreyaya gələn yeni kənd təsərrüfatı bitkilərin növlərini fəal şəkildə yetişdirməyə başladılar.*** 1763-cü ildə Koreyaya - *şirin kartof-batat,* 1824-cü ildə isə - *kartof* idxal edildi. *Şirin kartof-batat* - əsasən cənub əyalətlərində, *kartof* isə - şimal əyalətlərində becərilirdi. Koreyaya gətirilən məhsullar arasında - müasir Koreya rasionunda olan - *bi-*

*bər* və *balqabaq* kimi adi tərəvəzləri də qeyd etmək olar. Yeni kənd təsərrüfatı bitkilərinin becərilməsi - *çəltik yetişdirmək üçün* yararsız olan və ərazinin əhəmiyyətli hissəsini tutan- təpələrin və dağların yamaclarının dövriyyəyə cəlb edilməsi hesabına - real kənd təsərrüfatı *Koreya yarımadası* torpaqlarının sahəsini artırmağa imkan verdi. [1. səh. 193–194].

*Şəhərlərin böyüməsi və kənd təsərrüfatı istehsalının genişlənməsi - sənətkarlıq məhsullarına tələbatı artırdı. Sənətkarların sayı - xeyli artdı, məhsulların çeşidi- çoxaldı.* ***XVII-XVIII əsrlərdə Koreyada metal məmulatları, xüsusən də - qablar geniş yayıldı.*** *Məhz bu zaman onların istehsal prosesində ciddi bir dəyişiklik qeyd edildi:* ***əvvəllər istifadə edilən dəmirçi döymə- tədricən daha təkmil bir üsula - ən sadə maşınlarda sonrakı emal ilə - tökmə üsuluna keçdi.***

***Parça istehsalı - ən kütləvi sənət növü olaraq qaldı. Onun texnikası - əhəmiyyətli dərəcədə dəyişməyib, lakin əvvəllər -ən yüksək dərəcəli ipək parçalar - yalnız Çindən alınan saplardan hazırlanırdısa, XVIII əsrin sonlarında Koreyada ipək toxuması - yerli xammala keçə bildi*** [3. səh. 260–261].

***XVII-XVIII - ci əsrlərdə Koreyada sosial təbəqələşmə- üç əsas yeni əhali qrupunun formalaşması nəticəsində baş verdi: iri torpaq sahibləri (cicu), torpaq sahibli kəndlilər (çonho) və torpaqsız kirayəçi kəndlilər (muçjonqho).***

**XVII-XVIII əsrlərin ən mühüm Koreya təbəqəsi- iri özəl torpaq sahibləri oldu**. Onlar haradan yarandılar?

Birincisi, *yanqbanların* çoxu - əvvəlki iqtisadi mövqelərini qoruyub saxladılar. İkincisi, işlənmiş boş ərazilərə və tərk edilmiş sahələrə *sahiblik verilməsi - dövlətin onlara siyasi köməyi idi*. Üçüncüsü, kənd təsərrüfatında əmək məhsuldarlığının artması və daxili bazarın inkişafı - kəndlilərin bir hissəsinin varlanmasına və getdikcə daha çox sahəyə yiyələnməsinə imkan verirdi [1. S. 199].

Koreyanın- əsarətinə gedən yolda dönüş nöqtəsi - 1904-cü il - 1905-ci il – Rus -Yapon müharibəsi oldu, o Uzaq Şərqdə Rusiya ilə Yaponiya arasındakı qarşıdurmanı sonuncunun xeyrinə həll etdi.

1898-ci ilin ortalarından etibarən - Koreyada Rusiyanın təsiri-bir qədər zəifləməyə başladı. Lakin bu - Rusiyanın bu regiona marağını itirməsi demək deyildi. 1900-cü ildə Seulda Rusiyanın ruhani missiyası açıldı, bu qərarla Müqəddəs Sinod 1897-ci ilin iyulunda onu qəbul etdi (mənəvi missiya 1917-ci ilin oktyabrından sonra belə bağlanmadı, buna - Cənubi Koreyada tətbiq olunan - pravoslavlıq toxumları səpilidi). 1900-cü ilin iyununda Koreya İmperator Məhkəməsinin "rusiyapərəst qrupunun" üzvü Li Bomçjin (1853–1911) başçılıq etdiyi ilk daimi Koreya diplomatik missiyası - Sankt-Peterburqa gəldi.

Rusiyanın şimal-şərqi Koreyada - teleqraf xətti çəkmək cəhdlərinin 1901-ci ildə Yaponiyanın müqaviməti nəticəsində uğursuzluqla nəticələnməsinə baxmayaraq, Rusiya - Amnokkanq çayı hövzəsində meşələrin kəsilməsi üçün - çox sərfəli güzəştlər əldə etdi. Xüsusilə, 1901-ci ildə sənayəçi, Rusiyanın hökumət dairələrinə yaxın olan- A.M. Bezobrazovın rəhbərlik altında - ***Şərqi Asiya Sənaye Şirkəti*** yaradıldı. [1. S. 251].

1910-cu il ərzində Baş nazir Li Van-Yonqun başçılıq etdiyi yaponyönümlü Koreyalı nazirlər, eləcə də yaponyönümlü *İlçinhve* cəmiyyətinin üzvləri - Koreya üçün -"faydalılığı" fəal şəkildə təbliğ etdirdilər. Yaponiya ilə "yenidən birləşmə" və dəfələrlə Yaponiya İmperatoruna müvafiq "ərizələrlə" məktublar göndərirdilər.

1910-cu ilin avqustunda Yapon rezidenti - general Terauçi - Li Van-Yonqa "birləşmə" müqaviləsi bağlamaq tələbini təqdim etdi. İmperator Sunqconqun iştirakı və "razılığı ilə" hökumət üzvlərinin xüsusi iclasından sonra 22 avqust 1910-cu ildə baş nazir Li Vanq-yonq "Koreya-Yaponiya birləşmə müqaviləsi"ni (Han-il hap-pan) imzaladı. Yerli ədəbiyyatında adətən bu - "ilhaq/anneksiya müqaviləsi" adlanır, bu da onun mahiyyətini düzgün əks etdirir. Müqavilə - yalnız 29 avqust 1910-cu ildə nəşr olundu.

Bu de-yure hadisəsi - Koreyanın müstəqil dövlət kimi çoxminillik tarixinə - müvəqqəti son qoydu. Koreyanın əvvəllər bağladığı bütün beynəlxalq müqavilələr – ləğv edildi. Koreya dilində kitab və qəzetlərin nəşri dayandırıldı. Koreya əraziləri üzərində

bütün hakimiyyət - Yapon general-qubernatoruna verildi. Düzdür, general-qubernatorun yanında koreyalıların da daxil olduğu Mərkəzi Şura - qaldı. Bununla belə, bu, daha çox, yaponların rəhbərlik etdiyi general-qubernatorun aparatı altında bir növ "dekorativ" orqan idi.

***Tezliklə Koreyanın qürurlu imperiya adı - "Böyük Xan" yenidən köhnə "Çoson" - "Səhər Təravətliyi ölkəsi"ilə əvəz olundu.*** [1. S. 256].

*Əlavə:*

## Koreya mətbəx mədəniyyəti

***Düyü*** - Koreyada əsas qidadır. *Ölkə, əslində, son vaxtlara qədər aqrar olduğundan, reseptlər - əsrlərin təcrübəsi ilə təkmilləşdirilmişdir.* ***Bir çox başqa məhsullarla yanaşı - Koreyada əsas məhsullar - düyü, arpa və lobya istifadə olunur. Koreya - yarımadada yerləşdiyi üçün - balıq və digər dəniz məhsulları da Koreya mətbəxinin mühüm bir hissədir.***

***Acima, turşuma, qıcqırma, mayalanma proseslərundən istifadə edən reseptlər - erkən vaxtlarda kəşf edilmişdir. Burada - turşu balıq və tərəvəzlər də daxil idi. Belə qidalar -qışda lazımi zülal və vitaminləri təmin edirdi.***

**Məbəd mətbəxinin** ***fərqli xüsusiyyəti - Koreya mətbəxində beş ən güclü ingrediyentdən (sarımsaq, yaşıl soğan, yabanı soğan rokambole, pırasa və zəncəfil )və ətdən - istifadə etməməsidir.***

*Ənənəvi yeməklər*: ***ssambap, pulkogi, şinsollo, kimçi, pibimbap və kucolpan*** -dır.



**Pibimpap**



## 8. XX-ci əsrin ikinci yarısında Koreya tarixi

***II Dünya müharibəsı və 1948-ci ildən -1950-ci ilə qədər olan qısa müddət Koreyanın bütün sonrakı tarixi üçün böyük əhəmiyyət kəsb edir.*** *1948-ci il bir çox koreyalılar üçün çox çətin il oldu. Min ildən çox tarixi olan bir xalq -iki düşmən dövlətə bölünməsinə inanmaq çətin idi.* Çoxları hesab edirdi ki, bu ayrılıq - sırf xarici qüvvələrin müdaxiləsi ilə bağlıdır və o müvəqqəti xarakter daşıyır. 1948-ci ildə Sovet qoşunları Koreyadan, 1949-cu

ildə isə Amerika qoşunları - çıxarıldı. Bir müddət iki Koreya dövləti kənardan birbaşa təzyiqlərdən azad idi və göründüyü kimi, hələ çox qısa müddətdə olan ölkənin bölünməsi problemini həll edə bilərdi.

***Lakin KXDR və Koreya Respublikasının üç illik müstəqil inkişafı - ölkənin parçalanmasını daha da dərinləşdirdi və Koreya müharibəsinə gətirib çıxardı.***

***15 avqust 1948-ci ildə Koreya Respublikasının elan edilməsi ilə Cənubi Koreyanın tarixində "Birinci Respublika" (1948) adlandırılan prezidenti Li Sınqmanın (1875-1965) hakimiyyəti dövrü başladı.***

***Koreya müharibəsi 1950-1953 XX-ci əsrin ikinci yarısında - Koreya tarixində ən faciəli hadisə oldu. Bu müharibə - Koreyanın növbəti beş onillikdə - öhdəsindən gələ bilməyən iki düşmən dövlətin (Cənubi və Şimalı Koreya) bölünməsinə gücləndirdi və gətirdi.***

Koreya qarşıdurmasında altı ölkə birbaşa iştirak edir:

KXDR və Koreya Respublikasına əlavə olaraq, bunlar- Rusiya, Çin və Yaponiyadır, həmçinin Koreya yarımadasına yaxın məsafədə yerləşən, eləcə də hərbi ittifaqla Koreya Respublikası ilə əlaqəli olan - ABŞ-dır. Bütün bu ölkələrin Koreya yarımadasında öz maraqları var, bunlar üst-üstə düşür, bu da həm nüvə probleminin həllində, həm də yarımadada bütün vəziyyətin sabitləşdirilməsində əlavə çətinliklər yaradır.

Əslində, iki Koreya arasında qarşıdurma - davam edən soyuq müharibə dövründəki mübarizənin əksidir.

Şimali Koreya ilə Koreya Respublikası arasında davam edən informasiya müharibəsi - vəziyyətə mənfi təsir göstərir.

Sənədlər:

1.KXDR-ın sosialist Konstitusiyası (Kim İr Çenin Konstitusiyası - Kim Çen İr) (27 dekabr 1972-ci ildə qəbul edilmişdir);

2. Koreya Respublikasının Konstitusiyası (17 iyul 1948-ci ildə qəbul edilmişdir);

3. Koreyanın Müstəqillik Bəyannaməsi, (1 mart 1919-cu il);

4. Koreyanın Yaponiyaya birləşməsi haqqında müqavilə, (20 avqust 1910-cu il);

5. 1994-cü ildə ABŞ və KXDR arasında Çərçivə sazişi;

6. Koreya yarımadasının nüvəsizləşdirilməsi haqqında Bəyannamə 1992.

*Mosolova Darya Oleqovna*

“**KXDR və Koreya Respublikası arasında münasibətlərin xüsusiyyətləri (siyasi, mədəni və informasiya aspektləri*)” – dissertasiya işi***

## CƏNUBİ KOREYA



Koreya Respublikası. Koreya yarımadasının - canub hissəsində yerləşən dövlət. Dövlət quruluşu - Prezident respublikası. Yaranma tarixi - 15 avqust 1948-ci il. Sahəsi - 99.720 $km^2$. Əhali - 52 milyon nəfər (2021 il). Ölkə - gözəl təpəli kəndləri, albalı ağacları, qədim Buddist məbədləri, sahilyanı balıqçı kəndləri, subtropik adaları və yüksək texnologiyalı şəhərləri ilə tanınır. Rəsmi dil - Koreya dili. Paytaxt şəhəri - **Seul**.

## ŞİMALİ KOREYA



**KXDR** (**Koreya Xalq Demokratik Respublikası**) - Koreya yarımadasının şimal hissəsində və qismən də materikdə\qitədə yerləşən – unitar sosialist dövlət. Yaradılma tarixi - 9 sentyabr 1948-ci il. Sahəsi – 120 540 $km^2$. Əhali - təxminən 25 milyon nəfər (2019 il). Rəsmi dil - Koreya dili. Paytaxtı - **Pxenyan.**

**Mövzu ilə bağlı ədəbiyyat:**

1. Qurbanov S.O. Koreyanın tarixi: qədim dövrdən -XXI əsrin əvvəllərinə qədər. -Sankt-Peterburq un-t nəşriyyatı., 2009.

2. Koreya tarixi. Yeni oxu / red. A.V. Torkunov. -
M., 2003.

3. Qafurov B.Q. Koreya tarixi. - M.: Nauka, 1974. T. 1.
4. Tixonov V.M., Kan M. Koreya tarixi: 2 cilddə - M.: Natalis, 2011.
5. Koreya mədəniyyəti: dərs vəsaiti. 1-ci hissə (qədim dövrlərdən 1910-cu ilə qədər) / komp. L. A. Andronova; Tomsk. politexnik un-t. − Tomsk: Tomsk nəşriyyatı. politexnik un-ti, 2014. - 139 s.
6. Tixonov V.M., Kanq Mangil. Koreya tarixi: 2 cilddə 1-ci cild: Qədim dövrlərdən 1904-cü ilə qədər - M.: Natalis, 2011.
7. Tolstokulakov İ.A. Koreya mədəniyyəti tarixinə dair oçerk: dərs vəsaiti - Vladivostok, 2002.
8. Mosolova Darya Oleqovna "KXDR və Koreya Respublikası arasında münasibətlərin xüsusiyyətləri (siyasi, mədəni və informasiya aspektləri)" – dissertasiya işi.
9.Koreyanın yeni və ən yeni tarixinə birgə nəzər,-"Qanun"nəşriyyatı,-2021.
10. "Koreana " jurnalı, payız 2007 il, № 3.

*Əlavə*

## Cənubi Koreyanın iqtisadi möcüzəsi
## Xanqanq çayında möcüzə

***Xan çayı möcüzəsi dövrü - 1960-cı illərdən- 1990-cı illərə qədər Koreya inkişafında nəhəng bir sıçrayış etdi və dəniz məhsulları ixrac edən geridə qalmış bir ölkədən - bütün dünyanı smartfonlar, kompüterlər, avtomobillər və məişət texnikalarla təcübləndirən* qabaqcıl texnoloji gücə malik olan ölkəyə çevrildi.**

***Xanqanq çayı üzərindəki möcüzə*** (kor. 한강의 기적 (漢江의 奇蹟) - xanqane kicok) - ***geniş yayılmış Cənubi Koreyanın iqtisadi möcüzəsi adlanan ümumi adıdır. O - Koreya Müharibəsi ilə viran qalmış aqrar ölkədən - yarım əsr ərzində - iqtisadiyyatı - yüksək texnologiyalı bir ölkəyə çevrilmişdir.* Bu proses - ixracyönümlü artıma, sürətli sənayeləşməyə, yeni texnologiyaların tətbiqinə, təhsilin inkişafına əsaslanırdı, bu da - həyat səviyyəsinin *eksponensial*** (*eksponensial artım- sürətin artımın- kəmiy-*

*yətin özünün dəyəri ilə mütənasib olduqda - kəmiyyətin artmasıdır; o - eksponensial qanuna tabedir*) **yüksəlməsinə, sürətli urbanizasiyaya**(*urbanizasiya (latınca "urbanus" - şəhər)- daha yaxşı iş və daha yaxşı yaşayış şəraiti axtarışında kənd yerlərindən insanların hərəkəti nəticəsində şəhərlərin böyüməsidir*), **modernləşməyə/müasirləşməyə səbəb oldu**. ***Xan çayı möcüzəsi*** - **Samsunq**, **LG** və **Hyundai** kimi **beynəlxalq korporasiyaları yaratdı**[1].

**Xanqanq** (Koreya dilindən hərfi ***Xanqanq*** - "***Xan çayı***" deməkdir) - ***Seulun sahillərində yerləşən çaydır: Koreya Respublikasının paytaxtın - ən böyük şəhəri və iqtisadi mərkəzidir.***

***Cənubi Koreya iqtisadiyyatının sürətli inkişafının başlanğıcı -1962-ci illə əlaqələndirilir, o zaman prezident Park Çonhi - birinci beşillik planın başlandığını elan edir. İqtisadi artım -1980-ci illərin sonlarına doğru azaldı, lakin 1988-ci il Seul Olimpiadasından sonra -insanlar "Xan çayında möcüzə" haqqında danışmağa başladılar. 1994-cü ildən Koreya Respublikası yüksək inkişaf etmiş olkə kimi sayılır (adambaşına düşən ÜDM(Ümumi daxili məhsul) baxımından).*** 1997-ci ildə Cənubi Koreya iqtisadiyyatı - Asiya maliyyə böhranına ducar oldu, lakin bu böhrandan uğurla çıxa bildi. ***Bundan sonra Cənubi Koreyada iqtisadiyyatın ənənəvi sektorları ilə yanaşı, ixracyönümlü şou-biznes də mühüm rol oynamağa başladı, buna "hallyu" - "Koreya dalğası" adı verildi.***

***1961-ci ildən - 2008-ci ilə qədər Koreya ÜDM-in Artım sürəti: Cənubi Koreyanın iqtisadiyyatı 50 il ərzində az müddətdə demək olar ki, sıfırdan bir trilyon dollardan çox artdı.***

***"Xan çayı üzərindəki möcüzə"nin üç mühüm amili var: ölkə rəhbərliyinin siyasi iradəsi; Koreya xalqının mentaliteti və Konfutsi etikasına və əxlaqına əsaslanan dəyərləri; Cənubi Koreyanın dünya iqtisadi sisteminə inteqrasiyası, həm ayrı-ayrı ölkələrdən (əsasən Yaponiya və ABŞ), həm də beynəlxalq maliyyə strukturlarından yardımıdır***[3].

***Cənubi Koreyanın "iqtisadi möcüzəsi" fenomenini*** araşdıraraq, onun digər "***Asiya pələngləri***"nin: Sinqapur, Honq Konq və

Tayvanın - iqtisadi yüksəlişi ilə oxşarlığını qeyd edirlər: onlar - həm göstəricilərin artımına, həm də iqtisadiyyatın strukturunda dəyişikliklərə diqqət yetirirlər. “Xan çayı üzərindəki möcüzə”ni dəyərləndirərək, onda - həm müsbət, həm də mənfi cəhətləri tapılır: iqtisadi artımı - Koreya Respublikasında əhəmiyyətli demoqrafik və sosial dəyişikliklərə səbəb olduğunu - qeyd edirlər.

## Ədəbiyyat


1. Dünya iqtisadiyyatı və beynəlxalq münasibətlər – “Pravda” nəşriyyatı, 2007, 5-8-ci saylar. - Səhifə 74

2. Kolesniçenko T. Xan çayı üzərində möcüzə // Pravda qəzeti. - 10 aprel 1991. - S. 5

3. Fetisov O. Bir daha Cənubi Koreya fenomeni haqqında // İş dünyası. - 1992. - 2 aprel. - səh.4

4. Borovoy Ya. Xanqanq çayında möcüzə // Yeni vaxt. - 1995. - No 47. - S. 3436

5. Anosova L. A. Cənubi Koreya- iqtisadi islahatlar ərəfəsində // Uzaq Şərq problemləri. - 1993. - No 6. -S. 71-81

7. Jukov S. “Cənubi Koreya möcüzəsi”nin yaradılmasında dövlətin rolu // Rusiya İqtisadiyyatı – 1993. – No 5. – S. 98104.

8 Brices Brayan. Seul Olimpiadası: İqtisadi Möcüzə Dünya ilə Görüşür // İdman Tarixinin Beynəlxalq Jurnalı - dekabr 2008, № 14. - S. 1939-1952. https://doi.org/10.1080/09523360802438983

9. Pol Kruqman. Asiyanın möcüzəsi mifi. - Xarici işlər, noyabr/dekabr 1994. - Cild 73, nəşr. 6; — S. 62

10. Rıbkina L. V. Samsung Electronics co, Ltd. Və ixrac məhsullarının ticarət siyasətinin xüsusiyyətləri // Kollokvium-jurnal. - 2019. - No 10 (34). doi: 10.24411/2520-6990-2019-10294.

11. Ağabəyov S.İ., Levina E.A. Korporasiyalar və iqtisadi artım. Cənubi Koreyanın təcrübəsi // Ümumrusiya iqtisadi jurnalı ECO. - 2017. - No 3 (513).

13. Novikov İ.V., Utkina V.A. Cənubi Koreyanın iqtisadi inkişafı // İqtisadiyyat və biznes: nəzəriyyə və təcrübə. - 2017. - No 4-2.

14. Şuirov A. A. Koreya Respublikasının iqtisadi siyasətinin inkişafının əsas istiqamətləri // Gənc alimlərin Kazan bülleteni. - 2019. - No 1 (9).
15. İ. Lyubimov, M. Kazakova, M. Qvozdeva, A. Ospanova. İqtisadi mürəkkəbliyin uğursuzluğu və zəfəri: XX-ci əsrin ikinci yarısında Argentina və Cənubi Koreyanın tarixi // İqtisadi Siyasət. - 2019. - № 5.
16. Uqaslov N. F. “Asiya möcüzəsi”ni -faktor nəzəriyyəsinin köməyi ilə izah etməyə çalışır. Təhsil xərclərinin rolu // Rusiya İqtisadiyyat və Hüquq Jurnalı. - 2013. - No 3 (27).
17. Pak Chung-hee heç nədən bir şey yaratdığına görə heyran qaldı The Korea Times, 25-10-2009
18. O. Kiryanov Cənubi Koreyalılar necə yaşayır və onlardan nə öyrənə bilərsiniz RBC-Style, 05.10.2018
19. M. Siruk "Xan çayında möcüzə"nin üç amili haqqında “.

**Suallar:**

1. İlk Koreya dövlətlərini xarakterizə edin.
2. Koryo dövlətinin xüsusiyyətləri.
3. Koreyanın yapon işğalından azad edilməsi.
4. Koreya hansı dövrdə iki dövlətə parçalandı?
5. Koreya müharibəsi 1950-1953.
6. Cənubi Koreyanın iqtisadi möcüzəsi.

**Sərbəst mövzular:**

1. Koreyada ilk dövlətlərin tarixi.
2. Koreya - Yaponiya işğalı zamanı.
3. Üç dövlətlərin dövründə mədəniyyətin inkişafı.
4. XX əsrin ikinci yarısında Koreya.

## Mövzu 3-4
## KOREYALILARIN HƏYATINDA MİFOLOGİYA, İNANCLAR VƏ DİN

### 1. İlkin inanc formaları

Koreya ərazisində yaşayan ibtidai insanlar - ətrafdakı əşyalara böyük hörmət və maraqla yanaşırdılar, onlar insan kimi, hər bir adamın, əşyanın ruhlarının olduğuna inanırdılar. Tədricən ***ibtidai ailələr*** genişlənərək, ***qəbilə*** və ***tayfalar*** kimi formalaşırdılar. Ətraf aləmlə maraqlanan qəbilə üzvləri - onu anlamağa və mümkünsə onunla razılığa gəlməyə çalışırdılar. Məhz o zaman təbiət qüvvələrinə, yer üzündəki bütün canlı və cansız varlıqların qüdrətli ruhların varlıqlarına və bu dünyada onların məskunlaşdığına inam yarandı. ***Qəbilə rituallarına - başçılar rəhbərlik edirdi***, lakin Koreyanın cənub hissəsində - tayfalar ***sam xan***, yəni ***üç xan*** tayfasından olan *bu funksiyaları yerinə yetirən* - ***xüsusi insanlar var idi***. Onların hər bir qəbilə ittifaqlarının - dövlətlərə çevrilmə zamanı, - hər birində ***kult sisteminə*** ehtiyac yarandı. Onalara da gələcəkdə - çoxsaylı icmaları birləşdirə biləcək imkanları yarandı. Beləliklə, ***Təsisçi /Qurucu (tayfanın, xalqın əsasını qoyan) kultu*** yarandı. Hakimiyyəti ələ keçirən *başçı-lider və ya hökmdar, Qurucunun qurbangahını* ziyarət edir və qurbanlar edirdi. Bu xüsusi *qurbangahlar* daha sonra *məbədlərə* çevrildi. Onların ***bəziləri*** - ***əcdadlara, ilk hökmdarlara***, ***digərləri*** isə ***sacik***lərə - ***yerin və məhsulun ruhlarına həsr edilmişdir***. Artıq ***Çoson*** əyalətində ***qurucusu-Van*** - **Teco** 1394-cü ildə yerin və məhsulun ruhlarının şərəfinə xüsusi növdən olan ***sacik-pan*** *qurbangahı* yaratdı, *burada ildə dörd dəfə dualar və qurbanlar verilirdi* [1. S. 163].

Koreyada ***Səma və Ayı - dini kultlarını*** özündə cəmləşdirən Koreya dövlətinin yaranması haqqında mif var. Qədim dövrlərdən bəri ***ayı*** - bir çox ibtidai tayfalar üçün **totem heyvanı** olmuşdur. Bu mifə görə, ***Göyün/Səmanın oğlu Hvanun*** - *dişi ayının və pələngin* dualarına qulaq asaraq,- *onları sınaqlara məruz qoyaraq*, ***dişi ayıya- insan şəklini verdi***. Sonradan ***dişi-ayı*** və ***Gö-***

***yün/Səmanın oğlu Hvanun*** ər-arvad oldu və onların oğlu- ***Tanqun Van*** eramızdan əvvəl 2333-cü ildə Koreya yarımadasında ***ilk*** **Ko Çoson** dövlətini qurdu [10. S. 9].

**Tanqun Van** - ***Göyün/Səmanın və yer üzündəki müqəddəs heyvanın təcəssümüdür, o - Koreya xalqının atası, böyük müəllimi, qanunvericisi və hökmdarı hesab olunur***. ***Hvanun (və ya Hanıl***) kultunun ibadətini aşılamaq və yaymaq üçün ***Tanqun-Göyə/Səmaya*** dualar oxumaq və ona təslim etmək rituallarını təsdiq etdi. ***E.ə. I-ci əsrdə Koreya yarımadasında artıq üç dövlət var idi:*** Koquryo***, Pekçe və Şilla*** və *bu əyalətlərdə ümumi dini ayinlər -* ***Göyə/Səmaya*** *dualar oxumaq və ona təslim etmək rituallarının mərasimini əhatə edirdi və sonra insanlar bütün gecəni rəqslə keçirirdilər*. Qəbilə rituallarına - *səmavi imperatorun elçiləri sayılan -* ***başçılar(rəhbərlər)*** rəhbərlik edirdilər [10. səh. 147–149]. ***Yalnız XV-ci əsrdə bu qədim kult - başqa dinlərin təsiri altında praktiki olaraq yoxa çıxdı.***

***Unsürlərə\təbii hadisələrə\elementlərə - ehtiram- Koreyanın dövlət bayrağında da öz əksini tapıb. Bayrağın ortasındakı dairə - hərküncdə bir olmaqla, dörd triqramla əhatə olunub***. **Onların hər biri - dörd elementdən birini simvoliza edırır: göy(hava), yer, od və su(*burada zərdüştlüyün təsinin görmək olar*).**

Əgər ***Göy/Səma***- koreyalılara atalarını və müəllimlərini- ***Tanqunu*** veribsə, qida verən - **Yer** isə - insan əlləri ilə sığallanmış-onun ***ehtiram poetikasını*** doğur. S**onanq** - ***daş yığını şəklində maddiləşmiş* Yer tanrısının təcəssümüdür**. *Onun ruhu* - **Sonanqdan** - ***bütün əkinçiləri birləşdirdi; hər yoldan keçən öz daşını ümumi yığına qoymağa- borclu idi.***

Bu gün də qeyd olunan **muçonq*(“göyə - rəqs”(yani:göyə həsr olunmuş rəqs)) - dini bayramı*** zamanı ***Koreyanın şimal-şərqindəki Şərqi Yui*** *əhalisi* - mahnı və rəqslərlə ***Göy/Səma Rəbbinə(Göy Tanrıya)*** sitayiş edirdilər. *E.ə. IV-III-cü əsrlərdə yarımadanın cənub bölgələrində meydana çıxan* ***üç Xan sülaləsi (Çinxan, Maxan*** və ***Pyonxan***) *dövründə yaşamış erkən koreyalılar* - ***Göy/Səma*** və ***Yerin*** ruhlarını çağırdıqları zamanı - xeyir-dua aldıqlarına inanırdılar. E.ə. III-cü əsrin sonlarında tərtib edilmiş "**Üç dövlətlərin tarixi**"nin bir

hissəsi olan "***Vey tarixi***" kimi müxtəlif Çin mənbələri qeyd edirdilər ki, onlar inanırdılar ki ***yaz bayramları keçirilməsində - oxumaq, xahiş və rəqs emək - zəngin məhsula gətirə bilər*** və ***payız bayramları*** isə - ***bu məhsul üçün təşəkkür deməkdir.*** Bu mənbələrdə qeyd edilirdi ki, *beşinci qəməri ayında* - toxum əkilməsi başa çatan zamanı-insanlar gecə-gündüz mahnı oxuyub, rəqs edib, şərab içiblər. Rəqs zamanı bir neçə nəfər dairəyə, çevrəyə düzülür və rəhbərin ardınca əllərini qaldırır, aşağı salır, musiqinin ritminə uyğun olaraq, ayaqlarını yerə vurur (*yallı oynayırlar*), ***yer və səma ruhlarının mərhəmətini oyadırlar*** [11. S. 22].

Koreya mifologiyasında ***su (Mul***) - ***sivilizasiyanın yaradılmasında və dövlətin formalaşmasında - fundamental elementdir.*** *Bütün kraliçaların və kraliça anaların əcdadı-* ***su ilahəsi Mülhəlmidir.*** Hər mərasimdən əvvəl bu mərasimdə iştirak edən insanlar - su ilə təmizlənmə ritualını yerinə yetirməlidirlər. ***Kainatın ən mühüm elementlərindən biri kimi - suyun təmizləyici gücünə inam - bu gün də bir çox mərasimlərdə/rituallarda və bayramlarda öz əksini tapır.***

Ənənəvi olaraq, *koreyalılar* **odu- *iki cür qəbul edirlər*, *bu da mənavi və utilitar anlayışlarla bağlıdır***: 1) ***od - insana tabe olmayan nəhəng və təhlükəli element kimi***; ***sehrli, müalicəvi və təmizləyici kimi;*** 2) **od** - ***yırtıcılara qarşı mübarizədə - silah kimi, həmçinin od - ocağın əlaməti və ailənin simvolu və himayədarıdır. Yondınqhve (Yandın(türkdilli qrupa aid söz)-hve) - atəşə pərəstiş kultundan ilhamlanan - bayramların ən parlağıdır. Bu gün,müasir dövrdə - o hər il keçirilən - Buddist fənər festivalıdır. İnsanlar inanırlarr ki, yer üzündə yanan od - həyat rəmzi olan günəş enerjisinin kiçik zərrəsidir [9. S. 77].***

## 2. Ağac kultu

***Ağaca hörmət və müqəddəslik - Koreya xalqının qədim ənənəsidir.*** Duyğuları, hissləri istilədən, təbiətin estetik qavrayışını zənginləşdirən, istilik və qida verən *Ağaca minillik hörmətli münasibəti* - ölkənin yeni nəsilləri üçün gözəl örnəkdir.

Əgər ağaca hörmətli münasibətin dərin köklərini axtarsaq, o zaman - dünya xalqlarının bir çoxunun "***dünya ağacı***" ilə bağlı arxaik ayin və ideyalarını, dünya haqqında universal konsepsiya yaradan - mifopoetik şüur üçün xüsusiyətli,xarakterik olan obrazları yada salmaq lazımdır. Bu silsiləni birləşdirən "***Həyat ağacı"*** - *həyat haqqında təsəvvürləri - tam mənaları ilə aktuallaşdırır*; həmçinin *bütövlük və kamillik vəziyyətlərinə nail olmaq,çatmaq üçün - varlıqlar arasında fərqləndirmə prosesini modelləşdirən* - "***bilik ağacı***" da aiddir[9. S. 76].

***Ağac kultu*** – XX-ci əsrin əvvəllərinə qədər Koreyada geniş yayılmışdı. Yol kənarında, dağ aşırımlarında və ya kəndin sərhəddində bitən **qoca ağaclar** (**suçon**) koreyalılar tərəfindən xüsusi diqqətlə əhatə olunub. İcmalar onları "övladlığa götürdü": onların yanında - daş bəndi tikilirdi, budaqlara -saman bağlamaları asılırdı. Belə ağacları - qırmaq, xüsusən də kəsmək - qəti qadağan idi. ***Müqəddəs ağaca – sağ-salamat doğulmaq, zadəganlıq və sərvət göndərmək, xəstəlikləri müalicə etmək və s.-müraciətlər,xahişlər olunurdu.***

Koreyalıların dini inanclarına görə, ***ağaclar, bütün əşyalar kimi***, - "***<u> şin</u>*** "***ə - bir növ <u>mənəvi gücə(enerjiya)</u> sahib idi***, buna görə də gədimlərdə ev tikmək üçün nəzərdə tutulmuş ağacları kəsmək üçün *amuletlər bağlanırdı* – ona görə ki, **mokşin ( ağacın ruhu**) –evdəki sakinlərə xəstəlik və bədbəxtlik göndərməsin. Evin tikilişində mərkəzi balkanın/şalbanın qoyuluşunda kənddə olan bütün kişilər, qonşular - damın altında cəmləşirdi və onlar - evin,torpağın ruhlarına qurbanlar verirdilər. Koreyalıların ritual praktikasında <u>*dövlətin, cəmiyyətin, ailənin himayədarları olan - müəyyən (səmavi, yer, dağlıq) ruhlar* üçün</u> <u>müvəqqəti məskan hesab edilən *ağaclar - namu kvişin*</u> - mühüm rol oynamışdır. *Bu ağaclara* - parçalar və başqa şeylər asılırdı və insanlara zərər verməmək üçün - ruhlara dua edirdilər.

Koreyalıların qədim inanclarına görə, ev ruhları - gəlinin arxasınca gedib - ərinin evinə gedirdilər. Onları ata evində saxlamaq və evin uçmaması üçün - gəlin - bəyin evinə gedən yolda birinci mehrabın yanında dayanıb və gəlinlik paltarından ağaca parça

bağlayıb, sonra xahişlə ruhlara üz tutub, onlara deyirdi ki,onlar onun arxasıca getməsinlər.

***Ağac kultu*** ***- icma üzvlərinin təsərrüfat fəaliyyətinin mühüm dövrləri ilə bağlı - icma mərasimlərinin tərkib hissəsi idi: yazda - tarla işlərinin başlaması ilə, payızda isə- məhsul yığımının başa çatması ilə - bağlı idi. Torpağın məhsuldarlığın artırılmasına, dənli bitkilərin və heyvanların həyatının artırılmasına həsr olunmuş sehrli-dini ayinlərdə - ağaclar mühüm rol oynamışdır. Kənd təsərrüfatı təqvimində ağaclar - ilin müəyyən fəsillərinin və müxtəlif kənd təsərrüfatı dövrlərinin simvolu, rəmzi kimi çıxış edirdilər. Ağac kultunun, eləcə də digər kultların yaşamasının səbəbi - Koreyanın sosial-iqtisadi sisteminin xüsusiyyətlərindədir, burada qəbilə münasibətlərinin qalıqları - güclü idi, icma strukturları - sabit idi. Kənd icmasında ağac kultu - icma kultun tərkib hissəsi kimi çıxış edirdi, bu da kollektiv icmasının şüurunu, onun ərazi və ətraf təbiətlə qırılmaz əlaqəsini əks etdirirdi*** [1. S. 164].

### 3. Koreyada totemizm

***Bu günə qədər koreyalılar arasında - əcdadların əsasınıqoyanları kimi çıxış edən - heyvanlarla bağlı müxtəlif inanclar mövcuddur***. *Ayıdan*, *qurbağadan* və ya *yumurtadan* çıxan və yaranan Koreya sülalələrinin qurucuları haqqında əfsanələr var. ***Hökmdarların - dişi ayıdan və ya yumurtadan mənşəyi, yaranması haqqında əfsanələr*** - **totemizmin əsas ideyasını** - ***insanların totemlərlə - yarı-heyvan, yarı-insan təbiətli varlıqlarla qohumluq qrup əlaqəsi ideyasını əks etdirirdi. Koreya miflərində*** - və *heyvan və ya quş əcdadları haqqında* ***nağıllarında*** - **totemizmin *bəzi xüsusiyyətləri var*.**

Yarı-heyvan, yarı-insan əcdadına inam - təkcə mifologiyada deyil, o - təsviri sənətdə də öz əksini tapmışdır. ***Koreya ərazisində(Misirdəki kimi) insan bədəni və heyvan başı olan çoxlu sayda fantastik canlıların heykəlcikləri tapılıb.*** Arxeoloji tapıntılar arasında - heyvanların fərdi heykəlcikləri var: ayı, it, donuz, ilan.

***Koreya və Çin yazılı mənbələrində* - *koreyalıların qədim dövrlərdə heyvanlardan olan(onların adından olan) nəsil adlarına malik olduqlarına dair - dolayı sübutlar vardır, misal üçün: toyuq, inək, donuz, at, it*** [1. S. 165].

Bu günə qədər Koreyada - ***pələng, dovşan, ilan, inək*** və s. kimi ***heyvanların*** **maskalı rəqsləri** - ***qorunub saxlanılmışdır*. *Koryo dövründə totem rəqslərinin qalığı*** kimi- geniş yayılmış ***pələng rəqsi*** hal-hazırda çox məşhurdur.

**Pələng** - ***gücün, cəsarətin, qorxmazlığın simvoludur, rəmzidir***. Buna görə də, koreyalılar inanırdı ki, cəsarət qazanmaq üçün - ova gedən koreyalı - pələng əti yeməli və ya bu heyvanın sümüklərindən,həmçinin bu sümüklərdən toz formasında (bulyona )qatılmış - bulyondan bir qurtum içməlidir. Yeni ildə bədbəxtliyin qarşısını almaq üçün – pis,mənfi ruhları və xəstəlik yaradan ruhları qorxutmaq üçün - mal-qara üçün tikilən evlərin və binaların qapılarına - Pələngin təsvirlərini asırdılar. Buna görə də koreyalıların rəqs sənətində - ***pələng obrazı - mühüm yer tutur.*** O - bir çox maskalı teatr tamaşalarında da istifadə olunur. ***Pələng rəqsi*** - çox tez-tez ifa olunur, beləliklə, koreyalılarının pələngə inamı - onları pis ruhlardan qurtarmaq qabiliyyətinə inamını ifadə edir.

Hal-hazırda ***pələng rəqsi*** - daha çox əyləncəli xarakter daşıyır, lakin o həmişə - *satirik vurğu ilə təqdim olunur*. ***Pələng maskalı rəqs*** - hələ də Hvanhedo əyalətində -“pis ruhun qovulması” ayinində müşahidə edilir. ***Bonsan*** və ***Pukçon əyalətlərində - pələng rəqsləri*** - qorunub saxlanılıb, burada o(pələng)- güc, cəsarət və hər yerdə güdrətli simvolu kimi çıxış edir. Rəqsin mahiyyəti ondan ibarətdir ki, pələngə qarşı- nəhəng döyüşçü qoşunları qoyulur - o, onlara qalib gəlir; ona qarşı tələlər qurulur - o, bu vəziyyətdən da çıxır. Nəhayət, pələng öldürülür, amma onun ruhu yaşayır. O gözəl qızın bedəninə öz ruhunu salır, solo rəqsindən sonra yenidən pələngə çevrilir.

***Şinçon əyalətində pələng*** - bütün bədbəxtlərə kömək əlini uzadan, mehriban yaşlı qadını təcəssüm etdirir. Bu rəqsdə pələng - yaşlı qadın şəklini alır, o xəstələrə şəfa verir, pulla kömək edir,

məsləhət verir və s. Sonra yenidən pələngə çevrilir və dağlara gedir [12. S. 157].

***İlan*** da - həmçinin koreyalılar arasında şaman ruhlarından biri idi. Onu - əsas, aparıcı, baş şaman haqqında fikirlərlə əlaqələndirirdilər. O - baş şamanın geyimində təsvir edilmişdir. Tunqusklar, buryətlar və aynular arasında İlan - şaman ruhu kimi də fəaliyyət göstərdiyi - məlumdur [12. S. 157].

***Erkən dini təsəvvürlərdə - ölmüş əcdadların totemlərlə əlaqəsi - inamla səciyyələnir.*** Koreya inanclarına görə, insan öldükdən sonar - ***ata, pələngə, donuza, ilana, tülküyə və ya qarğaya çevrilir***. Bu əlaqə - dəfn dövrünün müxtəlif rituallarında, məsələn, totem heyvanının dərisini geyinməkdə və onun hərəkətlərini təqlid edən rəqslərdə ifadə olunur. İnsanın öldükdən sonra - heyvana çevrilməsi inamı - bir çox Koreya rituallarında öz əksini tapmışdır.

Koreyalılar arasında hələ də ***it*** - bir əcdad olaraq - ***təsəvvür*** var. Onlar inanırlar ki, insan öldükdən sonar - *itə* çevrilə bilər. Koreyalıların dini inanclarında - itin rolunu hətta orta əsrlərdə bütlərin qarşısında - it şəklinin qoyulması da buna sübutdur. Koreyalıların bir çox qədim ayinlərində - it - qurbanlıq heyvan idi. *Dağlara sitayiş vaxtı, yağış duaları zamanı, kəndlərin "mühafizəsi"nə həsr olunmuş illik mərasimlərdə və s. zamanı o qurban kəsilirdi... Koreyanın bəzi bölgələrində it - dəniz sahibinə təqdim edilən qurbanlıq heyvan kimi çıxış edirdi.*

Koreyalılar arasında - ***ayı kultunun*** olduğunu təsdiqləyən məlumatlar toplusnda bir neçə fikirlərə rast gəlmək olar: bu məlumatlar - qədim ailələrinin - *ayı adı* ilə bağlıdır, ***Tanqunun dişi ayıdan*** - mənşəyi haqqında - əfsanəsidir, toy mərasimində "ayı"nın iştirakıdır. ***Ayı,*** eləcə də ***onun bədəninin müxtəlif hissələri - xəstəliklərdən qorunmaq və uğurlar gətirmək üçün- sehrli bir xüsusiyyətə aid edilirdi***. Doğuş zamanı olan qadına və yeni doğulmuş uşağa -ayı qaraciyərinin həlimi verilirdi, çünki o - ananın gücünü tez bərpa edir və yaxşılaşdırır və uşağını sağlam edir.

Koreyanın əsas qurbanlıq heyvanlarından biri - **inək** idi. XIX əsrin sonlarına qədər - payız və yaz qurbanları zamanı həmişə inək kəsilirdi**. İnək** - ibadət obyekti idi. Hər il - ikinci ayın birinci

günü - ağacdan inək fiquru düzəldilib, boyunduruğa qoyularaq - mərasim yürüşünün başında - musiqi sədaları altında o aparılırdı. İnək şəklinin ardınca gedən *yeri şumlayan adam – şumçunun hərəkətlərini təqlid edirdi.* Yürüşdə bir neçə maskalı insan iştirak edirdi: biri - quş maskasında - *rəngli qanadlı quş* idi, digəri isə - *ovçunu təsvir edirdi.* Quş maskalı adam - quşun taxıl dimdiklənməsini təqlid edirdi. Ovçu - cərgədən çıxırdı və kamanın köməyi ilə ox ilə quşu vururdu. Qadın paltarı geyinmiş iki kişi “rəqib arvadlar arasındakı davanı” təsvir edirdilər. Yürüşün sonundakı “ər” onları sakitləşdirirdi. *Bütün yürüş - bol məhsulun yığılmasını və onun uğurla başa çatmasını simvolizə edirdi.* Teatrallaşdırılmış tamaşadan sonra bir qrup insan- bol məhsul üçün dua edərək, rəqs edib, mahnı oxuyurdu. Bu - qədim Koreya adəti - hal-hazırda da canlandırılır, əlbəttə ki, o müasir bir formada təqdim olunur.

Qədim dövrlərdə koreyalılar, qonşu Sibir xalqları kimi, ***ayı bayramını*** keçirirdilər, burada - sarı dörd gözlü maska ilə və ayı dərisini geymiş rəqqas - *şər ruhu* - *Temyonu* qovulmasında- dini və ritual rəqsi edir.

Beləliklə, ənənəvi rəqslər- koreyalıların tarixi inkişaf prosesində yaratdıqları miflərə, kultlara, rəvayətlərə əsaslanan qədim adətləri əks etdirir, müqəddəs heyvanların təsvirləri isə rəqs sənətində mühüm yer tutur, koreyalıların qədim milli adət-ənənələri ifadə olunur və qoruyub saxlanılır. [13 . S. 69].

Totemist/totem əcdadların insanları və onların nəsillərinin taleyinə təsiri - inancları ilə əlaqəli - ən qədim fikirlərin izlərini bir çox Koreya rituallarında, məsələn, "***Yeddi Ulduz" kultunda - Puktu çilsonqda (Böyük dişi ayı bürcündə***) izləmək olar. Koreyalılar, *onların* (*Yeddi Ulduzun*) - hər kəsin taleyinə təsir etdiyinə inandıqları üçün, kult bu günə qədər saxlanılır və davam edir; o insanın doğulmasını və ölümünü idarə edir. Koreya əfsanəsi deyir: “Ata - sümüyü verir, ana - qan verir, Yeddi Ulduz isə - həyat verir”. Onlar - uşaqların himayədarları hesab olunurlar. Onlar *evdə* - əmin-amanlıq, *ailədə* - var-dövlət, *ailə üzvlərinə* - uzunömürlülük təmin etmək üçün- sitayiş edirlər. [1. S. 165].

## 4. Dağ və daş kultu

***Göylər, dağlar, ağac - bunlar şəcərə miflərinə görə əfsanəvi qəhrəmanların, ölkə hökmdarlarının doğulmasının əsas mərhələləridir*** [14. S. 214].

Koreya xalqı - ***dağları - həyat verən güc kimi adlndırırdılar***. Uşağı olmayan insanlar - övlad hədiyyəsi xahişi ilə - dağlara üz tutub - müraciət edillər. Koreya əfsanələrində - qəhrəmanların həyata gəlməsin əsası- çox vaxt dağda baş verir və ya "dağların ruhundan" gəlir. Koreyalılar arasında - dağların mifik əcdadın məskəni olduğuna dair inam geniş yayılmışdı.

**" Sonqhvanq "** - *ağacın altında və ya kolun yanında yığılmış daş yığınının və ya ehramların(piramidaların) adıdır*. Belə qurbangahı -yolun kənarında, bəzən kəndin girişində, hətta çox vaxt-yolların kəsişdiyi zirvələrdə tapmaq olar. Çox vaxt orada - kiçik bir ziyarətgah olur, burada - ümumiyyətlə hansısa heyvanın təsviri ilə, daha çox - ***dağların tanrısı – Sanşin-in*** təsviri ilə şəkil yerləşdirilir. Qurbangahın ibadəti - yemək təqdimi ilə müşayiət olunurdu. Adətən, qadın düyü ilə kiçik qabları - daşın üstünə qoyur, sonra o qatlanmış əllərini üzünə qaldırıb, baş əyib, kömək istəyir. ***Qurbangahlarda - parça və kağız parçaları, paltar parçaları, ayaqqabılar, pullar, saplar, kəndirlər və digər əşyalar görünür - bu da uzun ömür və xəstəlikdən qurtuluş istəyi,xahişi deməkdir.***

*Müəyyən yerlərdə daş yığınlarının düzülməsi, onlara daş və ya başqa əşyaların atılması adətinin* - bir çox xalqlarda yayılmasına baxmayaraq, onun mahiyyəti və mənşəyi məsələsi- hələ də mübahisəli və aydın deyil. Bu adətin mənşəyi ilə bağlı bir neçə fikir var. *Bəziləri* hesab edir ki, bunlar- hələ yolların olmadığı bir vaxtda səyahətçilər tərəfindən qoyulan yol nişanları və ya sərhəd dirəkləridir. Bu yığınlar - yollar tanrısına ithaf olunduğu üçün, o - qadağa, tabu sayılırdı. *Bəziləri i*sə, yığına daş atmağı - tanrı ilə birləşmə və ya onunla təmasda olmağını kimi görürdülər. *Üçüncü qrup alimlər*- daş yığınlarının olmasını - bəzi ölülərin, məsələn, zorakılıqla ölənlərin, sehrbazların və başqalarının qəbirləri üzərinə müxtəlif əşyalar atmaq adəti ilə izah edirlər. *Bir sıra tədqiqat-*

*çılar* - daş atmağı - şər qüvvələrdən və “pis gözdən” çəkindirmək vasitəsi kimi görürlər. ***Koreyalılar daş yığınlarına sitayiş edərək, onlardan-uzun ömrü, məhsuldarlığı, firavanlığı və xoşbəxtliyi xahiş edirdilər. Quraqlıq zamanı - daş qalıqların yanında - yağış haqqında dualar edilir, daşların üzərinə qurbanlıq heyvanların: inəklərin, donuzların, itlərin qanı tökülürdü*** [1. S. 166].

*Çin, Koreya və qonşu ölkələrdə* ***"xoşbəxt dağlar" təsəvvürü*** *- insanlar arasında dərin kök salmışdır*. Bu ifadə -əsasən əlverişli dəfn yerlərini nəzərdə tutur. Atası və ya digər yaxın qohumu üçün dəfn (və ya ikinci dəfn) üçün “***xoşbəxt dağ***” ***tapmaq - çox vacib məsələ hesab olunurdu***. Hətta bu “elmin” bütün qaydalarına əsasəslanaraq, “***xoşbəxt dağ” tapmaq bacarığında*** ixtisaslaşmış ***geomantların*** xüsusi peşəsi də var idi [8. S. 608].

Koreyalılar arasında daşa sitayişin müasir ayinləri- böyük ölçüdə öz sehirli-totemistik əsaslarını saxlayır. Totemik əcdadların xüsussiyyətləri- daş qalıqlarına köçürülmüşdür. Dini baxışların təkamülü ilə bağlı ritualların başa düşülməsi -qeyri-müəyyən formalar aldı. Koreyada o - şaman xüsusiyyətləri aldı: daş yığınları - ruhların yığılan yeri kimi elan edildi. Buddizm də köhnə ayindən öz məqsədləri üçün istifadə etməyə çalışırdı: Buddist təlimlərinə görə - ***ruhların, Yer və ya Su ruhların dahilərinin*** yaşadığı yerdə - daş yığınları ucaldılırdı [1. S. 167].

***Lüğət:***

***Geomansiya/ Geomantiya (***qədim yunan sözü γεωμαντεία γῆ - *yer* və μαντεία - *fal)* - yerin köməyi ilə falçılıq etmək; bir ovuc torpaq, çınqıl və ya qum dənələrinin atılması nəticəsində yaranan yerdəki işarələrin və ya rəsmlərin şərhinə əsaslanan falçılıq üsuludur.

Bəzi tədqiqatçılar **geomansiynı /geomantiyanı** - ***Çin nəzəriyyəsi və fen şui praktikasına***, eləcə də "***yerin üzü***" adlanan *fen şui* əsasında ***Yapon təcrübəsinə istinad edirlər***. O- yerüstü təbiət hadisələrinin geniş spektrinin müşahidələrinə, astronomiya, astrologiya, tibb, bioenergetika və landşaftşünaslıqda biliklərin sistemləşdirilməsinə əsaslanır. Yaşayış məntəqələrinin, evlərin yerləş-

məsi, bağların planlaşdırılması, həmçinin dəfn yerlərinin seçilməsi üçün o - ən münasib yerlərin seçilməsinə yönəlmişdir.

## 5. Mədəni qəhrəmanları haqqında miflər

***Mədəni qəhrəmanlar haqqında miflər*** - ***konquk şinhva - “dövlətin qurucuları haqqında miflər”*** - ümumi adları altında qruplara birləşdirilir. Məlumdur ki, qədim ***Çosonun Tanqun*** adlı əfsanəvi qurucusu haqqında - "***Tanqun kogi***" – (***mifi haqqında) yazısı*** var idi. ***“Tonqmyon Kogi”*** əsərində - təsisçiyə həsr olduğuna dair bir göstəriş qorunub saxlanılmışdır: *bir versiyaya/fikirə görə o* - ***Puyo dövlətinin qurucusu*** – **Tonqmyona** həsr olunmuş, *digər versiyaya/fikirə görə* isə - o - ***daha gec Koquryo*** dövlətinin banisinə (***Tonqmyona*** )həsr olunmuşdur. ***Kim Buşik-in "Samquk saqi" (XII əsr) və İren-in "Samquk yusa" (XIII əsr) Koreya orta əsr yazılarında - xeyli sayda onun haqqında miflər var.***

**Mədəni qəhrəmanlar** ***haqqında miflər*** göstərir ki, ***onların hamısı - qəhrəmanın qeyri-adi yaranmasının mənşəyi*** *ilə* ***xarakterizə olunur***. Bəzi miflərdə - ***qəhrəmanlar - Səmavi hökmdarın oğulları elan edilir.*** Belə ki, özünə yer həyatı arzulayan - səmavilərdən biri olan - ***Hvanun - Səmavi hökmdarı - Hvanin və onun qul-xanımın oğlu idi***. ***“Kore Sa Kogi” yazılan qədim mifə*** görə, ***Yer kürəsində ilk insanlar - güclü zəlzələdən sonra - Çecudo adasında peyda olublar***.

***Mədəni qəhrəmanlar haqqında miflərdə, müqəddəs yazılarda - bütün xalqların mifologiyasındakı kimi, ən qədim motivlərdən biri - geniş yayılmış - "saf doğulma" süjetidır (misal üçün - Məryam ana və İsə peyğəmbər). Qəhrəmanlar - ananın üzərinə düşən buluddan və ya onu işıqlandıran günəş şüasından doğulur.*** ***Həmçinin*** **Qəhrəmanın** - ***Yumurtadan çıxması haqqında süjet – geniş yayılmışdır*** (*bu e.ə.İ millikdə yaranan* ***brahmanizmdə (Hindistanda)*** *görmək olar:***Brahma** - *geniş okeanda üzən Qızıl yumurtadan yaranmışdır, onun düşüncə gücü yumurtanı 2 hissəyə:səmayə və yerə bölür, həyatın yaranma prosesində - su,od,*

*hava, efir, İlahi, ulduz, zaman, relyef, insanlar(kişi və qadın), heyvanlar və bitki yaranır.*).



*Salvador Dali*

Bu miflərin dövrü - Koreya ***ədəbiyyatında “ansen solhva” - "yumurtadan doğulanların əfsanəsi"*** ümumi adı ilə tanılır. Buraya - ***Pak Hyok-kose, Tarhe, Cumonqun yaranmsı haqqında mif və rəvayətlər*** daxildir.

***Qədim Koreya cəmiyyətində*** *sosial münasibətlərin inkişafı ilə bağlı* ***qəhrəmanın lap əvvəldən qeyri-adi yaranması ilə ətrafındakılardan seçildiyi - mədəni qəhrəmanlar haqqında miflər, əsas personajların -“tarixi” şəxsiyyətlərlə qohum olduğu - ortaya çıxan miflərlə əvəz olunur***. Beləliklə, ***Pekçenin “təsisçisi”*** **Onco** ***– Cumonqun oğlu, qədim Çosonun “hökmdarlarından” biri olan -*** **Kica** isə - ***Çijou vanın təbəəsi elan edilir***. ***Qəhrəmanların xarakterlərindəki məlum transformasiyası - onların “fəaliyyəti”ndə müşahidə etmək olar***. Şübhəsiz ki, **ən qədim təbəqə - miflərlə bağlıdır, onun qəhrəmanları - ünsürlərlə mübarizə aparır, heyvanları - insana çevirir, insanlara - əkinçilik və maldarlığı, geomansiyanın sirlərini, sənətkarlığı öyrədirlər**. ***Bu qədim təbəqə-Tanqun mifinin mərkəzi hissəsi olan – Hvanun haqqında mifdə- ən aydın şəkildə özünü göstərir.***

**Şəhərlərin yaradılması** - ***sonrakı mərhələdə Koreya miflərinin mədəni qəhrəmanlarına aiddir. Onlar - etnik qrupların yaradıcısı,***

***zadəgan ailələrinin - ilk əcdadları, dövlətin yaradıcısı kimi çıxış edirlər*.** Məsələn, **Tanqun** - ***qədim Çosonun qurucusu elan edilir*, Tonqmyon - *Puyo-nun qurucusu*, Cumonq- *Koquryo* *dövlətin*, Pak Hyokkose - *Şilla dövlətin*, Onco - Pekçe *dövlətin*, Kim Suro - *Kaya dövlətin qurucularıdılar***. Beləliklə, **Koreya miflərinin qəhrəmanı** - bütün dünya xalqlarının mifoloji irsinə məlum olan ***mədəni qəhrəmanlardan*** heç də fərqlənmir [1. S. 169].

## 6. Proqnozlar-Qabaqcadan hadisələri demək(fala baxmaq)

Proqnoz, Qabaqcadan hadisələri demək, fala baxmaq - insana həmişə xas olan öz taleyini bilmək və ona nəzarət etmək istəyindən yaranıb. ***Şilla səltənətində*** (e.ə. 57 – e. ə. 935) ***ilqvan*** – yani "***günəş məmuru***"n vəzifəsi var idi, onun vəzifələrinə: təbiətdə baş verən qeyri-adi hadisələri şərh etmək və kral üçün proqnozlar vermək daxil idi. ***Koryo dövründə*** (918-1392 illər) oxşar məmur **-** ***fal hakimi*** adlanırdı. O - meteoroloji hadisələri müşahidə edib- izah edir, hakim sülalənin gələcəyini, eləcə də ayrı-ayrı şəxslərin taleyini proqnozlaşdırırdı. Əvvəlcə proqnozlar - əsasən təbiət hadisələri ilə və ən mühüm həyat hadisələri ilə bağlı idi, lakin tezliklə kiçik məsələlərə və gündəlik həyatın hadisələrinə yayılmağa başladı.

Bəzi koreyalılar hələ də ***təbii hadisələrə əsaslanan-*** hər cür proqnozlara inanır, onlar- ***günəşin, ayın, ulduzların, buludların, yağışın, göy qurşağının və küləyin köməyi ilə- taleyin gələcək hadisələrini müəyyənləşdirirlər. Bu günə qədər yuxuların - gələcəydə proqnozlaşdıra biləcəyinə inanırlar***.

Geniş yayılmış ***proqnozlaşdırma üsulu - fizioqnomiya və frenologiya ilə bağlıdır.*** Çoxları hesab edir ki***, insanın taleyi - üz və bədənin forma və nisbətlərində, həmçinin- səsdə, dəri tipində və rəngində, əlin xətlərində və xallarında əks olunur.***

***Yım-Yan(in-yan) proqnozlaşdırma metodu*** - əks əsasları: ***yım (mənfi güc) və yan (müsbət güc)*** təsəvvürünə əsaslanır. **Yım** və **Yan-ın** qarşılıqlı təsirini tənzimləyən qanunlara tabe olmaqla, ilk ***beş elementi : metal, ağac, su, od və torpaq - yaranır və məhv olur -. Yim - yan*** *prinsipləri* və *beş ünsür təliminə* əsaslanaraq,

***toconq-pigyol*** adlı məşhur *proqnozlaşma forması* dayanır. Yeni qəməri ilinin başlaması ilə hər bir insan - növbəti **12 ay** üçün taleyini hesablayır. Bu - ay təqviminə görə - bir insanın doğulduğu gün və vaxt nəzərə alınmaqla, ***toconq-pigyol*** haqqında kitaba əsasən edilir. Bu cür proqnozlar - ***Yeni il günü və növbəti iki həftədə - məşhur əyləncə kimi hesab olunur***. Bu günlərdə bazarlarda, küçə künclərində və ya insanların toplaşdığı digər yerlərdə tez-tez ***toconq-pigyol*** haqqında kitabı olan *qocaya* rast gəlmək olur.

Proqnozların müxtəlif formalarından - təkcə yaşlı nəslin nümayəndələri deyil, gənclər də istifadə edirlər. Çox vaxt tələbələr və oxuyanlar - qarşıdan gələn imtahanlar, kolleca qəbulları və digər məktəb, biznes məsələləri, nigah ilə bağlı - proqnozlaşdırıcıya müraciət edirlər [1. S. 170].

## 7. Şamanlıq /Şamanizm

Koreya mədəniyyəti - bir çox əsrlər boyu inkişaf etmişdir. Ən qədim inanclardan biri olan - **şamanizm-** ***Sibirdə yaranıb*** və Koreya yarımadasına müasir koreyalıların əcdadları olan - neolit tayfaları tərəfindən gətirilib. Bu inanca görə, ***dünyada çoxsaylı xeyirxah və şər ruhlar məskunlaşıb və şaman - sehr, musiqi və rəqsləri özündə birləşdirən ritualları həyata keçirərək, nəinki ruhlar aləmi ilə əlaqə saxlaya bilər, o hətta onları sakitləşdirə və məğlub edə bilər.*** Müasir koreyalılar - şamanizmə fərqli yanaşır və hətta onu - rədd edə bilər, lakin bu qədim dünyagörüşü - hələ də onların düşüncə tərzinə güclü təsir göstərir. İnsanın - Təbiətin bir hissəsi olduğuna və yalnız onun qüvvələri ilə həmahəng olduqda - xoşbəxtliyə nail ola biləcəyinə inam və bütün nəslin keçmişini, indisini və gələcəyini daşıyan - əbədi həyat axınında bir zərrə kimi olan - insana münasibətdə bütün bunların öz köklərində - ***şamanizm durur***. [5. S. 7].

***Koreya yarımadasında şamanizmin tarixi*** - *Tunc dövrünə* gedib çıxır. Koreya yarımadasında tapılmış - *kral tacı, qaval, bıçaq, güzgü* kimi dini simvollarla bəzədilmiş arxeoloji əşyalar – *indi də şamanlar tərəfindən geniş istifadə olunur* [3. S. 44].

Müasir Koreyada bir neçə min ***şaman***, daha doğrusu ***şaman qadınları - mudanq*** rəsmi olaraq - təcrübə əldə edirlər. Ənənəvi olaraq, *Koreya mudanqları iki kateqoriyaya bölünür*: qabiliyyətlərini və çağırışını tanrıdan alan – ***kanqşinmu***(lar) və ***sesıpmu(lar)*** - əcdadlarından şaman keyfiyyətlərini miras almış irsi şamanlardır.

***Şaman mərasimlərini*** *əhatə dairəsinə görə* ***üç əsas qrupa bölmək olar.*** Onlardan *ən sadəsi* – ***pisondur-*** sözün əsl mənasında ***ovucları ovuşdurmaq deməkdir***. Adətən bu sadə ritual - ***uzaq və uzun bir səfərdən əvvəl təhlükəsizliyin və uğurların təmin edilməsi, sağlamlığın yaxşılaşdırılması və nikahda yaranan fəsadlarını aradan qaldırılması üçün həyata keçirilir.*** *Daha yüksək səviyyəyə* - ***Kosa*** və ***Phudakkeri*** mərasimləri daxildir. ***Kosa***- qəməri təqviminin onuncu ayında məhsul yığımı dövrünə aiddir; ***phudakkeri*** isə- il boyu olunur, bu mərasim - insan və ailə üzvlərində - xəstəlik, çətinliklər, uğursuzluq və maddi təqiblərə məruz qaldıqda, hər cür ***şər ruhlarını (çhapkvi***) qovmaq üçün edilir. Belə hallarda müştərinin evinə bir və ya iki *mudanq* gəlir və ***canqu-da*** (Koreya qum saatı formalı nağara) və ***çeqım-da*** (kiçik qonq) mahnı oxuyaraq, rəqs edərək və musiqi ifası ilə insanların istəklərini - tanrılara çatdırırlar. Məzmun baxımından bu mərasimlər sadədir və bir qayda olaraq, iki-üç saatdan çox keçmir. Müasir dövrdə onlar daha da sadələşdirilmişdir və adətən bir düyü qabının qarşısında bir neçə *baş-bel əyməsini-tə'zimi* edirlər.

Ən əhəmiyyətli şaman ayinlərindən biri - ***kut***dur, o müxtəlif elementlərdən ibarətdir. ***Kut*** - kimin, hansı səbəbdən və hansı məqsədlə sifariş verməsi ilə fərqlənir. İlk növbədə, müntəzəm olaraq keçirilən - ***kənd kutunu*** qeyd etməliyik, baxmayaraq ki, ayinlərin intervalıbəzən on ildən çox çəkə bilər. ***Kənd kutu*** - ilk növbədə, kəndlilərin ahəngdar həyatını, sağlamlığını və rifahını təmin etmək üçün nəzərdə tutulmuş ümumi ritualdır. ***Bununla belə, o, həm də el şənliyi - festival rolunu oynayırdı və onun proqramına- ip üzərində "gəzinti", "dağda döyüşlər", kəndli musiqisi, maskalı rəqslər, təlxəklik və s.oyunları,tədbirləri daxildir.***

***Koreyanın mədəniyyət tarixi aydın göstərir ki, şamanizm vasitəsilə - ənənəvi mədəniyyət qədim zamanlardan bu günə kimi***

***yeni nəsillərə ötürülüb. Koreyada şamanizm - xalq musiqisi, dramaturgiya, rəqs və ədəbiyyat kimi sənət növlərinə, xüsusən də şifahi ənənə və folklor janrına - böyük təsir göstərmişdir*** [1. S. 171].

Koreya şamanizminin - öz yeri var və mövqeyi- çox güclüdür. Koreyalılar (ortodoksal protestantlar istisna olmaqla) dini üstünlüklərindən asılı olmayaraq, hər ehtimala qarşı - şamanı dəvət edəcəklər (Koreyada o həmişə qadındır): yeni tikilmiş binadan pis ruhları qovmaq üçün, yeni maşını "təmizləmək üçün" və s. Şamanların xidmətlərinə - *dəniz əhalisinin - balıqçıların* arasında böyük tələbatı var. Ümumiyyətlə, risk dərəcəsinin artdığı və işin gözlənilməz təbii amillərlə əlaqəli olduğu hər yerdə - şamanları köməyə çağırırlar. Düzdür, ola bilər ki, sonradan onlar da adi kilsə və ya buddist məbədinə gedəcəklər. [7. S. 44].

Tarix - şamanizm üçün uzun ömür hazırlayıb. İndiyədək dünyanın müxtəlif yerlərində şaman ayinləri - ***kamlanlığı*** - bütün ləvazimatları ilə birlikdə, mühüm rol oynamaqda, tələbat olan xalqlar arasında - ictimai funksiyaları yerinə yetirməkdə davam edir [23. S. 58].

Şamanizm dəfələrlə qadağan edilirdi və Konfutsiçiliyə qarşı mübarizədə - Koreyanın rəsmi dininə qaytarıldı. Belə ki, XIX-cu əsrin sonlarında, Yaponiyanın hökmranlığı dövründə *Koreya kraliçası Min* milli din kimi - şamanizmi canlandırmaq cəhdi etdi və bu - faciəvi şəkildə başa çatdı:o 1895-ci ildə yaponlar tərəfindən öldürüldü.

***Şaman ritualları - Koreya xalqının musiqi və digər folklor ənənələrini qoruyub saxlamaq üçün - mühüm vasitə kimi xidmət edir*** [24. S. 149].

*Əlavə*

**Şimalı Asiyada - şamanizm**

***"Şaman"*** sözü <u>Tunqusk dilindən (*altay qrupunun dili -"evedi türen"*)</u> gəlib (*"saman", "şaman" - həyəcanlı, çılğın adam*). Bu söz - ruslar, avropalılar vasitəsilə bütün Sibirə yayıldı, sonra (XVI-XVII əsrlərdə) Qərbi Avropa dillərinə nüfuz etdi və beynəlxalq elmi terminə çevrildi. ***Sibirin digər xalqları öz şamanlarını fərqli adlandırırlar***: ***Cənubi Sibirin <u>türkdilli xalqları</u>*** –

**kam(kəm)** (bundan rus, avropa dillərinə daxil olan "kamlat" feli yarandı ), ***buryatlar*** - **bo**, ***yakutlar*** - **oyuun**, ***nenlər*** – **tadibəy**, ***ketlər*** - **sənin**, ***yukagirlər*** - **alma** və s. Amma adların və bəzi xüsusiyyətlərin fərqinə baxmayaraq, demək olar ki, şamanizm hadisələri bütün xalqlar arasında - çox oxşardır.

*Bir din forması olaraq,* ***Şamanizmdə - ən çox yayılmış şey - xüsusi insanların - yani şamanların - özünü çılğınlıq halına keçirərək - ruhlarla birbaşa ünsiyyətə girmək üçün -fövqəltəbii qabiliyyətə malik olduğuna inanması idi****.*

*Şamanın hərəkətlərinin adi üsulu –* ***kəmlanlıqdır (kamlanlıqdır) – yani - şamançılıq və ya şaman seansıdır.*** Bu ondan ibarətdir ki, ***şaman oxumaqla, dəf vurmaqla, rəqs etməklə və ya başqa yollarla özünü ekstaz, vəcd vəziyyətinə gətirir. İnsanlar inanırlar ki, bu zaman - şamanın ruhu - ruhlar aləminə gedir və orada onlarla ünsiyyətə girir, o onlarla ya danışıqlar aparır, ya da döyüşür.*** Eləcə də güman edilir ki, ***ruhlar bəzən şamanın çağırışına gəlir, ya onun bədəninə, ya da dəf-inə daxil olur və şamanın ağzı ilə danışır.*** *Şaman seansı - adətən axşam və ya gecə baş verir,o bir neçə saat davam edir və bundan sonra şaman özünü hədsiz tükənmiş, yorğun hiss edir və dincəlməyə ehtiyacı olur.*

*Şaman kəmlanlığının məqsədi* - ən çox - ***xəstələrin müalicəsidir***; *lakin bir çox xalqlar arasında şamanlar* - ***falçı hesab olunurlar, onlar itmiş əşyalar və ya heyvanlar,insanlar haqqında təxmin edirlər, informasiya verirlər, balıq tutmaqda uğurlar üçün - kəmlanlıq edirlər, dəfn mərasimlərində də - kamlanlıq edirlər və s.*** Şamanların bütün xalqlar arasında nüfuzu əvvəllər - çox yüksək idi, lakin adətən, onlardan qorxurdular.

***Tokarev A. Dünya xalqlarının tarixində din, - Moskva, - Siyasi ədəbiyyat nəşriyyatı, -1986, - S. 166-167.***

## Amerikada - şamanizm

**Şamanizm** - ***Şimali Amerika hinduları*** (***hinduların çoxu - türkdilli xalqların qrupuna aid idilər-Otto Reriq,Oskar Stiq Wikander və b.***)***arasında şəxsi himayədar - ruhlar və vizionizm kultu ilə sıx bağlıdır: hindlilər arasında şamanlar-əksər hallar-***

***da güclü görmə qabiliyyətinə malik olan və güclü himayədar-ruhları qəbul edənlər idi. Bu - şamanların peşə və gücünə görə bölünməsinə əsaslanırdı.***

Şamanlar - tayfalar arasında eyni rolları oynamasalar da, yerli Amerika şamanizminin bir çox ortaq xüsusiyyətləri - onlarda var idi.

***Şimali Amerika qəbilələrinin əksəriyyəti - şamanizmin heyvanların fövqəltəbii xüsusiyyətlərinə inamla əlaqəsi ilə xarakterizə olunurdu. Şaman - ayının*** *ruhu himayədarı* - ***ayıdır****.* ***Ayı, xüsusilə boz, - şaman gücünün ən çox yayılmış mənbəyi idi. Buna görə də bir çox şamanlar- ayı dərisindən geyim kimi istifadə edirdilər.***

*Hər yerdə şamanların əsas funksiyası* - ***xəstəlikləri müalicə etmək idi.*** Eyni zamanda, bəzi şamanlar - təkbaşına fəaliyyət göstərir, bəziləri isə - bütöv ittifaqlar yaradırdılar. ***Ojibeylərin- iki cür şamanları var idi***: ***vabino*** - tək işləyən və ***mide*** - xüsusi kult birliyində birləşmiş - ***midevivin*** (amerikalılar bu sözü "*böyük tibb lojası*" və ya "*böyük şaman birliyi*" kimi tərcümə edirlər) idi. ***Bu birliyin üzvləri - ictimai və dini mərasimləri - birgə həyata keçirirdi; Minabojo (Böyük Dovşan***)- *onun yaradıcısı və himayədarı hesab olunurdu -o- kult qəhrəmanı və demiurq, ola bilsin- dünyanın yaradıcısı sayılırdı.*

***Tokarev A. Dünya xalqlarının tarixində din, - Moskva, - Siyasi ədəbiyyat nəşriyyatı, -1986, - S. 131-132.***

## 8. Taoizm (Daosizm)

Koreya Taoizminin mənşəyi - qədim Çinlilərin dini inanclarına gedib çıxır. ***Taoizmin Koreyaya nüfuz etməsinin başlanğıcı - Samquk dövründə Üç Krallığa təsadüf edir***. Bununla belə, Koreyada - taoizm, digər xarici dinlər (Konfutsiçilik və Buddizm ) kimi əhəmiyyətli dəyişikliklərə məruz qalmış və müəyyən dərəcədə koreyalaşdırmışdır, yəni koreyalıların dünyagörüşünün, milli xarakterinin, dindarlığının xüsusiyyətlərinə uyğunlaşdırılmışdır. Koreyada taoizmi başa düşməyin açarı - onun qədim Koreya fəlsəfəsi ilə əlaqəsinin öyrənilməsində ola bilər [1. S. 172].

**Taoizm** (*çin. "tao" – yol*) ***e.ə. VI-V əsrlərdə qədim Çində yaranmış fəlsəfi və dini təlimdir. Onun yaradıcısı*** - yarı-əfsanəvi şəxsiyyət, Konfutsinin daha yaşlı müasiri - ***müdrik Lao Tszı*** hesab olunur.

***Taoizmin təsiri - koreyalıların milli xarakterinin- xoşbəxtlik, uzunömürlülük üçün şişirdilmiş, çox böyük istəyi və möhkəm qurulmuş sağlamlıq kultu(səcdə edilən) kimi xüsusiyyətlərində - ən aydın şəkildə özünü göstərir.*** Simvolizm səviyyəsində koreyalıların gündəlik həyatın estetikası - hələ də taoizmlə hopmuşdur: burada məişət əşyaları- ənənəvi olaraq "xoşbəxtlik" və "uzunömürlülük" ifadə edən heroqliflərlə bəzədilmişdir [15. səh. 219–220].

***VII-VIII-ci əsrlərdə Taoizm öz universal potensialının reallaşmasına və milli dindən-*** *dünya dinlərdən* olmasada, heç olmasa - ***regional bir dinə*** çevrilməsinə- həmişəkindən daha yaxın idi. *Buna - taoizmi himayə edən- Tan sarayının geniş beynəlxalq əlaqələri kömək etdi.* Koreya və Yaponiyada taoizmi yaymağa cəhdlər edildi. **Taoizmin ən güclü mövqeləri** - ***VII -ci əsrin əvvəllərində*** artıq Taoizm ardıcıllarının mövcud olduğu - ***Koreyanın*** **Koquryo** ***əyalətində idi. 624-cü ildə Tan imperatoru taoizmı yaymaq üçün - Koquryoyə - öz səfirini Laotzi şəkili ilə göndərmişdi. Koquryo kralı da öz növbəsində Budda və Laotzi dinlərini öyrənmək üçüm- Çinə 625-ci ildə səfiri göndərmişdi.***

***Kral Pocanqın hakimiyyəti dövründə Taoizmin - Koquyroda yayılmasında növbəti addım atıldı. Nazir Yon Kesomunun məsləhəti*** ilə ***kral*** **Koreyada** ***Buddizmın və Konfutsiçiliyin - Taoizmlə tamamlanmalı olduğuna inanaraq,*** <u>***"üç din"***</u> ***doktrinasını dəstəkləməyə başladı. Pocanqın xahişi ilə*** **643-cü ildə Çindən öz dinlərini təbliğ etmək üçün -** ***8 taoçu gəldi. Taoçular tez bir zamanda saraya güclü təsir etdilər, bu da Taoizmlə rəqabət aparan*** <u>***Buddizmin təqibinin başlanmasına səbəb oldu.***</u> Nəticədə, buddistlər- ölkədə taoizmin güclənməsini - çinpərəst qrupun intriqaları kimi hesab edirdilər, lakin bu - belə deyildi, çünki taoizmin əsas himayədarı - *Yon Kesomunun siyasəti- Çin əleyhinə idi.* ***Pekçe və Şillada*** – taoizm- rəsmi tanınmamışdı, "***Samquk Saqi-də***"

*isə yalnız bir qeyd var ki," 738-ci ildə Çin səfiri - Krala "**Tao Te Tzinq**"* və ***digər Taoist mətnlərini*** təqdim etmişdir [21. S. 166].

Taoizmdən/Daosizmdən qələn və ***Koreyanın qədim milli rəqs plastikliyində*** - Tao bədən texnikalarının yetişdirilməsindən, Taoizm bədən texnikalarının qədim ustalarının məşhur olduğu "***uçan Taoçular***" adlanan sözdə - yüksələn, uçan effekt möhkəmləndi və o - rəqsdə təsdiqləndi.

İfaçının bədəni - sanki möcüzəyə çevrilir: qollar- sinənin davamı kimi olur, ayaqları isə - yalnız bədənini yerə bağlayır və onun dayağı kimi - ona xidmət etmir. Beləliklə, Taoist bədən texnikalarına xas olan poza - düz arxa,bel və sinəsi isə - C hərifə oxşayır, bunu müşahidə edən tamaşaçı - rəqqasın gövdəsinin yuxarı hissəsinə - sanki görünməz iplərin yapışdırıldığını hiss edir, rəqqas - cazibə qüvvəsini unudaraq, onu yuxarı çəkən "ipləri ilə"- aradan qaldırdığı illüziyasına düşür.

Ola bilsin ki, burada ***insanın- ölməzliyi qazanması, onu yer üstü və kosmosda uçmaq qabiliyyətinə malik olan varlığa çevirməsi haqqında taoizm dini ideyasında təcəssüm olunurdu*** [16. S. 227]. (***Əlavə****: Koreyada"**Uçan Taoçular**"ın milli rəqsinin oxşarlığını - **Mövləvilərin** (Mövləvi, Mavlaviya; farsca və osmanlı □□□□□□, müasir türkcə - Mövlivilik)* ***Konya Səlcuqlu Sultanlığında*** *XIII-cü əsrdə qurulmuş* ***sufi təriqətçilərin – firlanan və ya uçan "səma-dərvişlərin qardaşlığı"nın rəqslərində görmək olar.*** *Burada (Mövləvidə) - musiqiyə, mahnı oxumağa və rəqsə önəm verilir.* ***Rumi hesab edirdi ki, ruh - səma (səma ilə,cənnətlə birləşmə) prosesində(rəqsində) cismani çəkidən azad olur və insanın hiss və düşüncə kimi varlığının sevincini- ancaq səmada ustalıqla əldə edə bilər. Fırlanma əsnasında dərviş sağ əlini - göyə, sol əlini isə - yerə tərəf tutur. Hərəkətlər əvvəlcə yavaş və sonra-surətli olur, musiqinin ritmi - tədricən sürətlənir, lakin heç vaxt nəzarətdən çıxmır.***

*Mövləvi ayinləri - mürəkkəb bir ritualdır. Bu - Məhəmməd peyğəmbərə həsr olunmuş bir şeir oxunmasından, musiqili improvizasiyalardan və "fırlanan" rəqsin ifasından ibarətdir, ardınca*

*“Salam” adlı dörd musiqi və rəqs bölməsinin ikinci hissəsi- instrumental musiqi ilə yekunlaşır.)*

***Müasir Cənubi Koreyada taoizm - yalnız mədəniyyətin bəzi simvollarında, rəmzlərində yaşamışdır.***

## 9. Konfutsiçilik

Koreya mədəniyyəti - ***Çindən götürülmüş konfutsiçiliyin mədəni ənənəsinə və onun Koreyada geniş yayılmış mədəni kompleksinə* əsaslanır.** Bununla belə, vurğulamaq lazımdır ki, koreyalılar üçün əsas olan kor-koranə başqalarının nailiyyətlərini təqlid etmək və kopyalamaq deyil, burada yad mədəniyyətinin həqiqi mənimsənilməsi və ***onu - öz milli ruhu ilə zənginləşdirilməsi idi*** [17. C. 544].

Qədim Çin fəlsəfəsi - hind və yunan fəlsəfəsi kimi, mifologiyanın qoynunda formalaşmışdır. Lakin bu- avtomatik proses deyildi. Mifologiyadan - fəlsəfəyə keçid üçün müəyyən sosial şərait lazım və zəruri idi. Fəlsəfi təlimin banisi - məşhur ***Kun Tzı*** və ya Avropa dünyasında Konfutsi kimi tanınan - **Kun-Fu Tzı** - hörmətli müəllim - **Kun** idi. ***Konfutsiçilik - Çin cəmiyyətinin mənəvi təməli hesab olunur.***

Konfutsiçilik - həyat və ölüm haqqında şaman qavrayışını heç vaxt tərk etməyib, ona görə də onun əcdadların anılması ilə bağlı bir çox ritualları - şamanizm ideyaları ilə sıx bağlıdır. Dindarların gündəlik ehtiyaclarına yaxınlaşmaq üçün - Konfutsiçilik və Buddizm təlimlərini - şaman inanclarının bəzi elementlərini öz dini sistemlərinə daxil etmişlər. Buddizmin yayılmasına - onun *müstəsna dini dözümlülüyü* çox kömək etdi, bunun sayəsində o- ***müxtəlif yerli dini kultlarla birlikdə yaşaya və onlarla simbioza(****simbioz-müxtəlif dini inancların qarşılıqlı təsiri və birgə olması****) girə bildi*** [15. S. 45].

Konfutsi İdarəetmənin prinsipləri - dövlət qulluğuna qəbul üçün ***kvaqo - yəni imtahan sistemi*** tətbiq edildikdən sonar- gücləndirildi. Beləliklə, *nəzəri cəhətdən* ölkəni idarə etməyə üçün - müntəzəm yerli və ümumdövlət imtahanlar yolu ilə seçilən- ən yaxşı alimlərin gəldiyindən sonra - dövlət sistemi yaradıldı. *Qəssablar, aktyorlar, musiqiçilər və həkimlərin daxil olduğu müəy-*

*yən, aşağı siniflərdən başqa, istisna olmaqla,* - ***imtahanlar - hamı üçün açıq idi.*** *İmtahanlardan uğurla keçənlər - qabiliyyətlərinə uyğun olaraq,* - ***mülki və hərbi vəzifələrə təyin edilirdilər. Vətəndaş/Dövlət qulluqçularına*** - *hakimlər, əyalət qubernatorları, saray əyanları daxil idi*; ***hərbi qulluqçularına*** isə - *ordu və dəniz zabitləri daxil idi.* Hər il ***Seulda*** - *yüksək vəzifələr tutmaq istəyənlər üçün* ***əsas dövlət imtahanları keçirilirdi*** və ***ildə iki dəfə - yaz və payız aylarında Konfutsinin şərəfinə təntənəli mərasimlər keçirilirdi***. **Payız mərasimləri** ***bu gün də Sungyunqvan Konfutsi Universitetində keçirilir.*** Konfutsi təlimi - güc və nəzarət sisteminin əsası kimi, əvvəlki rolunu itirsə də, buna baxmayaraq, demək olmaz ki, bu təlimi əsrlər boyu həyata keçirdikdən sonra koreyalılar - düşüncə tərzini dəyişyib, dini sistemlə bağlı - adət və vərdişlərdən əl çəkiblər. ***Beləliklə, bir tərəfdən - koreyalılar - yaşa hörmət edir, sosial sabitliyə dəyər verir, təhsilə və təkmilləşməyə hörmət edirlər***. ***Digər tərəfdən isə - koreyalılar keçmişi ideallaşdırmağa, sərt sosial iyerarxiyanı qorumağa, həmçinin bir növ mücərrəd dəstəyə düşməyə meyllidirlər, buna görə də dünyanı olduğu kimi deyil, onu - lazım olduğu kimi görməyə üstünlük verirlər.***

***İqtisadi cəhətdən inkişaf etmiş və tamamilə modernləşdirilmiş Koreyada - konfutsiçilik hələ də qüvvədədir.*** Koreya məktəblərində uşaqlar bu günə qədər “samqan orün” (üç prinsip və beş münasibət) və digər Konfutsi qaydalarını keçir [6. S. 35].

Sözün tam mənasında - klassik din sayıla bilməyən konfutsiçilik - koreyalıların ruhunda qalıb, onların bir çox vərdiş və adətlərini, eləcə də davranışlarını müəyyən edib. Düzdür, indi konfutsiçiliyi qəbul etmiş insanlar (əhalinin təxminən 1%-ı) - artıq çox azdır [7. S. 44].

## 10. Buddizm

***Koreyada buddizm - mənəvi mədəniyyətin vacib elementidir.*** O - ölkədə təkcə incəsənətə və ədəbiyyata, siyasətə, iqtisadiyyata və təhsilə təsir göstərməyib. Buddanın maariflənməsinə və müdriklik və mərhəmət təlimlərinə əsaslanaraq, o Koreya xalqı tərəfindən Koreya torpağında yaradılmışdır. ***Hindistan və Çin Bud-***

***dizmindən fərqlənən - Koreya Buddizmi-* üç unikal xüsusiyyətə malikdir**.

**Birincisi**, Koreya Buddizmi - universal və liberaldır, xüsusən də mədəni məsələlərlə məşğul olmaqda. Buddizmi - Koreya mədəniyyətinə daxil edərkən, heç bir xüsusi toqquşma və ya problem yox idi. Koreyalı buddistləri- artıq mövcud olan ənənəvi mədəniyyəti tanıdılar, lakin digər tərəfdən, onda - yeni anlayışlar və dəyərlər inkişaf etdirdilər. Nəticədə, Koreya buddizmi - Koreya xalqının ruhunu özünə yaxınlaşdırmaqla yanaşı, həm də onun bir parçası oldu.

**İkincisi**, Koreya Buddizmi- ölkəni və insanları qoruyur. Koreyada buddizmin dini məqsədlərini və ideologiyasını təyin edərkən, həmişə milli şöhrətə və sülhə diqqət yetirilirdi. Koreya Buddizminin uzun tarixi - ölkənin müdafiəsində onun kömək etməsinin bir çox hallarını bilir.

**Üçüncüsü**, Koreya Buddizmi - harmoniyanı simvollizə edir. O - nəinki bir-birinə zidd olan dini ideyaları və məktəbləri tənzimləyib, o həm də nəzəriyyə ilə təcrübə arasında dini fərqləri uzlaşdırdı [20. S. 177; 21].

Yuxarıda deyilənlərin hamısından belə nəticəyə gələ bilərik ki, Buddizm özü, demək olar ki, nəhəng bir dünyagörüşüdür. Bura - mənəvi, dini və mədəni ənənə, kanonik və postkanonik mətnlər, rituallar və simvollar sistemi və bir sıra sosial-dini institutlar daxildir. Mahiyyət etibarı ilə buddizm - bütöv bir sivilizasiyadır [22. S. 3]. Dünya dini olan-Buddizm, ilk növbədə,- Şərqin fəlsəfəsi, dünyagörüşü, dünya qavrayışıdır, bu da insanın özünütəhsilləşdirməsi, özünü inkişaf etdirməsi, özünü tənzimləməsi, daxili azadlığı, özünü təkmilləşdirməsi ideya və təcrübələrinin məcmuəsudur. Buddizmdə insan- özü özünü yaradandır.

Koreya Buddizmi – dindarlara Koreya mədəniyyətinin dilində və həyatın ən vacib dəyərləri haqqında milli ideyalarla danışan bir dindir. Ətrafdakı mədəni mənzərəyə ahəngdar şəkildə uyğunlaşma qabiliyyəti - Buddizmi digər dünya dinlərindən aydın şəkildə fərqləndirir. Uyğunlaşma qabiliyyəti - Buddizmə çoxlu sayda yerli inancları, kultları, xalq rituallarını: mədəni, ədəbi və bədii ənənələri,- mənimsəməyə imkan verdi. [9. S. 102].

Xüsusilə Buddizm - Koreya həyatının demək olar ki, bütün sahələrinə böyük təsir göstərmişdir. "Buddist qanunlarına görə, diqqətli mömin, dindar - xeyriyyəçilik və övladlıq sayqı idealı ilə xarakterizə olunmalıdır. Buddizmin ***mənəvi təcrübəsi - ən yüksək həqiqətə, nirvanaya nail olmaq ideyasına əsaslanır. Samquk dövründən (Üç Dövlətlərin dövrü) bu günə qədər bütün Koreya cəmiyyətini bəhrələndirən - Buddist təliminin məhz bu əsas aspektləridir.*** Bu gün də Koreyalıların hərəkətlərində - Buddist təlimlərinin əksini görmək olar. Məsələn, ölən əcdadlara və yaş və ya sosial statusa görə daha yaşlı insanlara pərəstiş,hörmət etməyidir. ***Koreyalılar hər hansı bir bayramı (Yeni il və ya Ad gününün ildönümünü) qeyd etdikdə, ilk işi - ölmüş əcdadlar üçün süfrəyə yeməklər düzmək, dualar oxumaq və yalnız bundan sonra böyüklüyünə görə yemək yerlərini tutmaqdır***" [18. S. 164].

***Buddizm və şamanizm - müəyyən mənada bir-birinə təsir edirdi. Məsələn, Buddistlər bəzi dini şaman prinsiplərini mənimsəyiblər. Bunlardan biri də - dağın ilahiliyi anlayışıdır,konsepsiyasıdır.*** Şaman tanrılarının Buddist məbədinin ümumi mənzərəsini mükəmməl şəkildə tamamladığı binanın tikintisini - Buddistlər layıhələşdiriblər . Digər tərəfdən, şamanizmdə "kut" adlanan bütün ritualların 30%-nin buddist kökləri var. ***"Yeddi Ulduz"*** kimi tanınan şamanizm ritualı - bunun bariz nümunəsidir. Bu ritualda Buddist təsbehi ilə rahib paltarı geyinmiş qadın-şaman, Buddistlərin "Sinclərlə rəqsi"ndə olduğu kimi, sinclərin müşaiyəti ilə "Enən tanrının rəqsi"ni ifa edir və Buddanın şöhrətinə sonsuz itaət edir. [19].

***Onun yayılmağa başladığı üç Koreya dövlətlərindən birincisi - Koquryo idi. Buddizmin Koquroyada ilk yayılma tarixi - 372-ci il hesab olunur: bu dövrdə rahib Sundo Koquryoya gələrək, özü ilə Budda şəkilini və Buddist ədəbiyyatını gətirir.***

***Li Son-Ge tərəfindən qurulan Çoson dövləti dövründə (1392-1910)- Buddistlər - kral ailəsinin siyasi cəhətdən nüfuzlu üzvləri arasında idi və bu din burada yüksəlişlə yaşadı. Bununla belə, Buddizmi dirçəltmək cəhdləri - Konfutsi alimlərin və mamurların güclü müqaviməti ilə qarşılaşdı. Yapon işğalı zamanı (1592-1598)*** **- Buddistlər - ölkənin müdafiəsinə kömək etmək üçün-**

**rahiblərdən ibarət ordular topladılar və bir sıra həlledici döyüşlərdə qələbələr qazandılar. Lakin, ölkənin müdafiəsinə verdiyi bu töhfəyə baxmayaraq, Buddistlərə qarşı rəsmi təqiblər - Çoson dövlətinin mövcudluğunun son illərinə qədər davam etdi.** ***Dinin vəhşicəsinə sıxışdırılması - Buddistləri məbəd və monastırlarını tikdikləri ucqar dağlıq bölgələrə sığınmağa məcbur etdi.*** **<u>Beləliklə, Buddizm - dünyəvi bir din kimi qəbul olunmadı, o - monahların dini oldu.</u>** ***Bu tarixi şəraitlər - buddist məbədlərinin əksəriyyətinin -ölkənin ucqar ərazilərində yerləşməsini izah edir.***

*Bütün bu dövr ərzində Konfutsiçilik - dövlət kultu və ya milli din idi və Buddizmi - məhdudlaşdırmaq və ona nəzarət etmək üçün bəzi krallar müxtəlif Buddist təriqətlərini zorla islahat edərək- birləşdirdilər.* 1910-cu ildə yaponlar Koreyada müstəmləkə rejimi qurduqda, ölkədə yapon buddist təriqətlərini yaymağa və ya koreyalılarla birləşdirməyə cəhdlər edildi. *Lakin bu planlar - uğursuzluğa düçar oldu, bəlkə də bu hadisələr - koreyalılar arasında əsl Buddizmə marağını –onun canlanmasına təkan verdi.*

***<u>Buddizm - rəssamlıq, heykəltəraşlıq, memarlıq, ədəbiyyat və musiqi sahəsində Koreya milli incəsənətinin bir çox elementlərinin formalaşması və inkişafı ilə bağlıdır.</u>*** Çinin fərdi bədii ənənələrini mənimsəmiş - ***Koreya incəsənəti - onu başqalarından fərqləndirən - özünəməxsus milli üslubunu inkişaf etdirmişdir*** [1. S. 174].

*Buddistlərin ən mühüm bayramı olan* - ***Buddanın doğum günü*** - *adətən may ayında (Koreya ay təqviminin 4-cü ayının 8-ci günü) qeyd olunur.* Bir həftə ərzində bütün ölkə - şənliklərdə və yürüşlərdə iştirak edir. *Möminlər bayrama əvvəlcədən hazırlaşırlar və ondan bir ay əvvəl* - ***hər yerdə fənərlər asılır: küçələrdə, bazarlarda, dağlarda, gəzinti yollarında, universitet şəhərciklərində, bütün Buddist məbədlərində.*** Adətə görə, fənərlər təntənəli yürüşlərlə küçələrdə aparılır. Adətən bu yürüşlər - ***Buddanın doğum günündə təşkil edilir***, lakin son illərdə - əsas bayramdan bir neçə gün əvvəl - adətən şənbə günü qeyd olunan ***"fənər paradını"***, demək olar ki, - müstəqil bayrama ayırmaq tendensiyası müşahidə olunur. O günü- Seulda ən izdihamlı yürüş təşkil olunur.

**Əlavə:**

| ÇİN |
|---|
| **TAOİZM /DAOSİZM(LAO-TZİ, ÇİN)** - E.Ə. VI-V ƏSRLƏR. **"LAO-TSİ"- "TAO\DAO VƏ DO HAQQINDA KİTAB"-"DAO"-** *YOL;NİZAM,MƏNA,QANUN*; **DAO-*DAİMİ, VAHİD,DƏYİŞMƏYƏN YOL*;"DO"-*İNSANIN LƏYAQƏTLƏRİ.*** DÜNYA-XİRDA,BÖLÜNMƏYƏN MADDİ HİSSƏCİKLƏRDƏN İBARƏTDİR. DÜNYA ƏKS TƏRƏFƏ KECİR:KÖHNƏ-TƏZƏYƏ;ƏYRİ-DÜZƏ; LAO TSININ FİKRİNCƏ,*İNSAN HEÇ NƏYİ DƏYİŞDİRƏ BİLMİR* VƏ **ÖZ YOLU İLƏ GETMƏLİDİR .*LAO TSI NƏZƏRİYYƏSİ:"HEÇNƏ ETMƏMƏK,HƏR ŞEY DAO-ALLAHIN İZNİLƏ BAĞLIDIR*"** ***LAO TSİ TƏLİMİ: "RUH ÖLMƏZDİR"*** |
| **KONFUTSİÇİLİK(KONFUTSİ,ÇİN)-**E.Ə.551-479 İLLƏR **KONFUTSİ(KON-MÜƏLLİM)-KUN-TZİ**. ***KONFUTSİ TƏLİMİ VƏ ELMI MÜHARİBƏLƏRİN QARŞISINI ALMIŞDIR VƏ KİÇİK DÖVLƏTLƏRİ BİRLƏŞDİRMİŞDİR .ONUN ƏSAS İSTİQAMƏTİ:CƏMİYYƏTDƏ VALİDEYİNLƏRƏ,BÖYÜKLƏRƏ,HÖKÜMDARLARA HÖRMƏTLƏ YANAŞMAQ.ONLARA SADİQ OLMAQ,BÖYÜKLƏRİN SÖZLƏRİNİ EŞİTMƏK VƏ QƏBUL ETMƏK.O YUXARL TƏBƏQƏYƏ ÜSTUNLÜKLƏ VƏ HÖRMƏTLƏ YANAŞIRDI .*** |
| **HİNDİSTAN** |
| **BUDDİZM**-E.Ə.V ƏSR.***ƏSASINI QOYAN-REAL TARİXİ ŞƏXS –ŞAXZADƏ*** **SİDDHARTHA QAUTAMA**(E.Ə.623-544)-***HİNDİSTAN***. 29 YAŞINDA O HƏYATIN BAŞQA –SƏRT VƏ DƏHŞƏTLİ TƏRƏFİNİ -XOŞBƏXT OLMAYAN QOCANI,XƏSTƏ PROKAZALI ADAMI, RAHİBİ, ÖLÜNÜ GÖRÜR VƏ GÖZƏL HƏYAT YOLDAŞINDAN,AİLƏSİNDƏN(SEVİMLİ OĞLUNDAN) VƏ VARLI HƏYATINDAN İMTİNA EDİR. SONRA ŞƏRİN SƏBƏBİNİ TAPARAQ,SƏRT ASKET HƏYATINI SÜRƏRƏK, NİRVANAYA ÇATIR VƏ |

BUDDA(SANSKRİT.-“İŞIQLI”) HƏQİQƏTİ VƏ YENİ HƏYATI GÖRƏN OLUR.40 İL O BUDDİZMİ TƏBLİQ EDİR VƏ ONUN DAVAMÇILARI ARTİR.
**BUDDANIN 4 NƏCİB HƏQİQƏTİ:**
**1.HƏYAT-İSTİRABDIR.**
**2.İSTİRABIN SƏBƏBİ-İNSANLARIN SONSUZ İSTƏKLƏRƏ,**
**ZÖVQƏ, ƏYLƏNCƏYƏ, EHTİRASLI MEYLLƏRƏ, YAŞADIĞI HƏYATIN ÖZÜDÜR;**
**3.İNSANIN ÖZÜ-ÖZÜNƏ QALİB GƏLMƏKLƏ İSTİRABLARDAN XİLAS OLA BİLƏR,ÇÜNKİ HEC NƏYİN AXIRI YOXDUR;**
**4.İSTİRABLARDAN QURTARMAQ ÜCÜN İNSAN GƏRƏK BUDDANIN GÖSTƏRDİYİ YOLLA GETSİN.**

Mir-Bağırzadə S.A. Kulturologiya: Dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi. Dərs vəasiti, - Bakı, -2020, - S.70

## 11. Xristianlıq

***Xristian missioner fəaliyyətinin dalğası - Koreyaya hələ XVII-ci əsrdə çatdı. Bu dövrdə Xristian Missiya üzvləri hər il Çin imperatorunun məhkəməsinə - xərac vermək və hədiyyələr mübadiləsi üçün göndərilən zamanı - Pekindən buraya - çin dilində katolik missionerı Mateo Riçinin əsərlərinin köçürülmüş sürətlərinin nüsxələrini gətirdilər. Bu əsərlərdə dini təlimlərlə yanaşı, Qərb alimlərinin müxtəlif sahələrdə əldə etdikləri nailiyyətlər haqqında məlumatlar öz əksini tapmışdır.*** Məsələn, onlar daha dəqiq təqvim sistemi və Sirhak hərəkatının diqqətini çəkən - digər məlumatları da təqdim etdilər. XVIII əsrə qədər bir neçə iman gətirən və ya katolikliyi qəbul edən adamlar var idi. Bununla belə, 1785-ci ilə qədər, yezuit ata Peter Qrammont gizli şəkildə sərhədi keçərək, insanları xristianlığa qəbul etdi: xristisnlıq təyin etməyə başlayana qədər - Koreyada ondan başqa bir keşiş yox idi [4].

***Koreyada "xristianlıq" sözü, ilk növbədə, protestantlığa aid idi.*** Katolikdən tez-tez eşidə bilərsiniz: "Mən xristian deyiləm, mən katolikəm". Protestantların - çoxluq təşkil etməmələrinə baxmayaraq, onlar- açıq şəkildə bütün digər məzhəblərdən - qat-qat təsirli və inanclarını yaymaq baxımından - daha aqressivdirlər [7. S. 44].

***Protestantlıq - Koreyada XIX-cu əsrin sonlarında meydana çıxdı. Bu fenomenin görünüşünün səbəbləri kimi, Yu.S. Kovalçuk ümumilikdə Şərqi Asiyada yaranmış vəziyyəti şərh edir: "Yaponiya və Koreya öz şəhərlərini əcnəbilərə açanda - Qərb təsirinin güclənməsi və makroregion ölkələrinin modernləşmə mərhələsinə daxil olması, bu da öz növbəsində, xristianlığın, o cümlədən - protestantlığın yerli əhaliyə təsirini gücləndirmək üçün imkanlar açırdı***"[13. S. 15].

*Xristianlığın yayılmasının ilkin mərhələsində* ***Koreyadakı Protestant Kilsəsi*** *- digər missioner kilsələri ilə müqayisədə-* ***onu daha üstün mövqeyə qoyan iki əsas aspektdən ibarət olan fərqli xüsusiyyətlərə malik idi.*** **Birincisi,** ***protestant missionerləri - əvvəldən Koreya dilində İncildən istifadə edirdilər***. Müqəddəs Kitab - xaricdə Koreya dilinə tərcümə edildi, buna görə də missionerlər özləri ilə tərcümə edilmiş İncili götürərək, Koreyaya gəldilər. Baxmayarağ ki, Roma Katolik Kilsəsi - Koreyaya protestantlıqdan ***bir əsr əvvəl daxil olsa da***, ortodoksal fikirlərinə görə - İncili - Koreya dilinə tərcümə etməyə, yaymağa və Koreya şürünün ana dilində dualar etməyə cəhd göstərmədi. **İkincisi,** protestant missionerləri- İncilin yayılması kimi çətin missiyanı -koreyalıların özlərinə həvalə etmişlər və onlar onu - ***kvonso (İncilin yayılması***) adlanırdılan. ***Kvonso*** - təkcə müqəddəs xristian kitablarının yayılması ilə deyil, o həm də Koreya əhalisi arasında savadsızlığın aradan qaldırılmasını və bir çox sadə(kasıb) insanların ***milli yazıda – Xanqüldə*** - tədrisini birləşdirən - həqiqi təbliğatla məşğul idi.

## 12. İslam

***Koreyanın müsəlman dünyası ilə ilk təmasları - İslam maarifçilərinin yeni coğrafi torpaqları kəşf etdiyi vaxta təsadüf edilir. Müasir müsəlman icması və İslamın yeni tarixi - XX əsrin ortalarından başlayır***. İslam missionerliyinin birbaşa Cənubi Koreyada - Koreya müharibəsinin (1950-1953) başlaması illərinə aiddir, bu Türkiyə hökumətinin BMT Təhlükəsizlik Şurasının tövsiyəsi ilə Koreyaya ordu briqadası göndərmək qərarına gəldiyi vaxta təsadüf edir.

***Koreyada İslam - yarım əsrlik tarixə malikdir. Koreya Müsəlmanları Federasiyası - islam dininın yayılmasında - dünya İslam ölkələri ilə əlaqələrin möhkəmləndirilməsi və inkişafı istiqamətində müxtəlif və böyük işlər görmüşdür. XX-ci əsrin sonlarında Koreyanın müsəlman icması - bir neçə min nəfərə yaxın, o cümlədən hal-hazırda ölkədə yaşayan islam ölkələrindən ibarət olan -70 min dindarı var*** [1. S. 179].

**Quran və Sünnə - İslam əxlaqının mənbələridir**, ***"ümmət"*** (*ərəbcə: أُمة - camaat, millət)* İslamda - dini icmadır *və İslam etikasında böyük rol oynayır*. ***İslam 5 əsasa söykənir: şəhadət*** *(şəhadət etmək)*, ***namaz*** *(5dəfə gün ərzində namaz qılınır(olunur)),* ***zəkat*** *(müxtəlif növ gəlir və daşınan və daşınmaz əmlakdan ödənilən İslam qanununda - illik məcburi vergidir (yoxsullar və möhtaclar istisna olmaqla)), o(zəkat) bütün müstəqil, azad, qabiliyyətli və yetkin müsəlmanlar tərəfindən möhtac din yoldaşlarının xeyrinə verilir ),* ***həcc*** *(Məkkəyə həcc),* ***oruc*** *(pəhriz etmək).*

Koreyalı müsəlmanlar - İslamı öz ölkələrində yaymaq üçün çox səy göstərirdilər. ***1968-ci ilin aprelində Koreya Müsəlmanları Federasiyası - Koreyada İslamı təbliğ etmək üçün - yeddi əsas prinsipi təsdiq etdi:***

1. Hər bir müsəlmandan ayda özü ilə üç nəfəri dini mərasimlərə aparması vacibdir.

2. Müsəlman İslam dinini öyrətmək və təbliğ etmək üçün qeyri-müsəlman dostlarının evlərinə baş çəkməlidir, bu da son nəticədə yeni insanları həqiqi imana dəvət etməkdir.

3. Qurani-Kərimdən, Hədislərdən - fraqmentlər oxunmalı, eləcə də İslam dünyası ölkələrindən gələn xəbərləri- yenidən çap edilməli və müsəlmanlar arasında yayılmalıdır.

4. Bavaninin "İslam: Naməlum Din" kitabını Koreya dilinə tərcümə olunaraq, bütün ölkəyə yayılmalıdır.

5. Hər bazar günü məsciddə - xarici müsəlmanların aparacağı müzakirələrlə bir saatlıq seminar keçirilsin.

6. Hər bazar günü məsciddə -ərəb dili dərsləri keçirilməlidir.

7. Bütün kütləvi informasiya vasitələrində - İslam dini haqqında məlumatların yayılmasına çalışmaq lazımdır [4].

## 13. Yeni dinlər

Hal-hazırda Koreyada, şərti olaraq, **"Yeni Dinlər" ümumi adı altında birləşən müxtəlif hərəkatlar və təlimlər** mövcuddur. ***250-yə yaxın yeni adlanan dinlər var***, lakin onların əksəriyyəti - sayca azdır və ölkənin konfessiya həyatında mühüm rol oynamır. ***Bütün yeni məbədləri*** **( kilsələr və s.)** ***və icmaları - mənşəyinə görə qruplaşdırmaq olar, məsələn: dünya dinlərindən hansı yeni inancın əsasını təşkil edir. Bu dinlərin əhəmiyyətli bir hissəsinin ideologiyası - sinkretik və ya hətta eklektik xarakter daşıyır, çünki buddizm, xristianlıq, konfutsiçilik, taoizm və digər dinlərin, inancların elementləri- burada əks olunur.*** Yeni dinlər - əsasən qeyri-sabitlik sosial şəraitində, dövründə çiçəklənirdi, lakin sonra Koreya cəmiyyəti gücləndikcə - onların sayı və təsiri azaldı. ***Yeni dinlərin əksəriyyəti - kənd yerlərində yarandı, sonra şəhərlərə yayıldı və ənənəvi dinlər kimi, sənaye cəmiyyətinin insanlarının ehtiyaclarına uyğunlaşmağa çalışdı.***

### Mövzu ilə bağlı ədəbiyyat

1. Kim G.N. Koreya Respublikası. - Almatı: Dike-Press, 2010. - 584 s.

2. Qurbanov S.O. Koreya tarixi üzrə mühazirələr kursu. - Sankt-Peterburq: Sankt-Peterburq un-t nəşriyyatı., 2002. - 626 s.

3. Şimal-Şərqi Federal Universitetinin bülleteni. 2014. T.11. № 5.

4. Koreya dinləri haqqında hekayələr [Elektron resurs]. URL: http://koryo-saram.ru/kim-g-n-rasskazy-o-religiyah-korei/ (Giriş tarixi 08/04/2016).

5. Koçeşkov N.V. Şərqi Asiya xalqlarının əxlaqı, adət-ənənələri: dərs vəsaiti. - Vladivostok: VGUES nəşriyyatı, 1999. - 27 s.

6. Qabrusenko T.V. Bu qəribə koreyalılar. – M.: Qarışqa, 2003. – 304 s.

7. Kiryanov O. Koreyalıları seyr edərək: Səhər təravətli ölkəsi. - M.: RIPOL Classic, 2010. - 351 s.

8. Tokarev S.A. Dinin erkən formaları. - M.: Politizdat, 1990. - 622 s.

9. Markov V.M. Koreya Respublikası, XX əsrin ikinci yarısının mədəniyyətində ənənələr və müasirlik. Rusiyadan baxış. - Vladivostok: Dalnevostok un-t nəşriyyatı., 1999. - 449 s.

10. Koreya. Bələdçi. - Seul: JAM, 2008. - 98 s.

11. Kim Sanq Quk. Kənd musiqisi // Çin-İlpo. - Seul, 2003. - 9 may. – S. 30–39.

12. İonova Yu.V. Koreyalıların dini ayinlərində totemizmin qalıqları // Şərqi və Cənubi Asiya xalqlarının dini və mifologiyası: məcmuə.– M.: Nauka, 1970. – 246 s.

13. Kovalçuk Yu.S. Koreya protestantizmi və onun XX-ci əsrin sonu – XXI-ci əsrin əvvəllərində Rusiya Federasiyasının Asiya hissəsində missionerlik praktikasının xüsusiyyətləri. (Etno-konfessional tədqiqat materialları əsasında): tarix.ü.f.d. disssertasiya … səmimi. ist. Elmlər. - Novosibirsk, 2006.

14. Afanasyev A.N. Həyat ağacı: seçilmiş məqalələr. – M.: Sovremennik, 1982. – 464 s.

15. Volkov S.V., Simbirtseva T.M. Koreya. – M.: Nauka, 2000. – 340 s.

16. Kravtsova M.E. Çin mədəniyyətinin tarixi. - Sankt-Peterburq: Lan, 2003. - 416 s.

17. Pak M.N. Koreyanın tarixi və tarixşünaslığı. – M.: Nauka, Şərq ədəbiyyatı, 2003. – 911 s.

18. Verholyak V.V., Qalkina L.V., Kojemyako V.N. Koreya dili dərsliyi. - Vladivostok: Dalnevostok un-t nəşriyyatı., 1998. Hissə 2. - 236 s.

19. Çumıl [Elektron resurs]. URL: http://www.sorabol.ac.kr/-atone/ (giriş tarixi 07/10/2016).

20. Mazurov V.M. Çox konfessiyalı Cənubi Koreya cəmiyyətində siyasi liderlik // Koreya Respublikası: modernləşmə təcrübəsi. - M.: Şərq ədəbiyyatı, 1996. - 212 s.

21. Ağadjanov A.S. XX-ci əsrdə Buddist Yolu: Dini Dəyərlər və Theravada Ölkələrinin Müasir Tarixi. - M.: Şərq ədəbiyyatı, 1993. - 295 s.

22. Torçinov E.A. Taoizm. Tarixi və dini təsvir təcrübəsi. - Sankt-Peterburq: Andreev və oğulları, 1993. - 310 s.

23. Karabanova S.F., Melnikova L.A. Maskadan – imicə doğru. - Vladivostok: Dalnauka, 2009. - 163 s.

24. Tolstokulakov İ.A. Koreya mədəniyyətinin tarixinə dair oçerk. -Vladivostok: Dalnevost un-t nəşriyyatı., 2002. - 238 s.

25.Tolstıh İ.N.Koreya mədəniyyəti:ənənələr və müasirlik,-dərs vəsaiti,-Vladivostok Dövlət İqtisadiyyat və Servis Üniversiteti,- Vladivostok VDİSU-nəçriyyatı.

26. Mir-Bağırzadə S.A. Kulturologiya: Dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi. Dərs vəasiti, - Bakı, -2020, - S.70.

## Suallar

1. Koreya inanclarının ilkin formalarını təsvir edin.
2. Əcdadlara kultu - hansı məna daşıyır?
3. Koreyada buddizmin formalaşması.
4. Taoizmin - Koreya mədəniyyətinə təsiri.
5. İslam missionerlik fəaliyyəti nə vaxtdan başlayıb?
6. Koreyada xristianlığın yayılması?

## Sərbəst mövzular:

1. Koreyalıların ən qədim inancları.
2. Koreya şamanizmi - mədəni fenomen kimi.
3. Müasir Koreyada şamanizm.
4. Koreyanın "Yeni Dinləri".

## Mövzu 5.
## KOREYADA ADƏT- ƏNƏNƏLƏR

### 1. Koreya ənənələri

***Əsrlər boyu Koreya xalqı öz mədəni ənənələrini inkişaf etdirmişdir.*** Yüksək mədəniyyət səviyyəsi artıq **Koreya incəsənətinin ən erkən nümunələrində öz əksini tapmışdır, onlar: mavi şüşə məmulatları (IV-VII əsrlər), Şillanın paytaxtı - Kyoncu şəhərinin astronomik qülləsi (VII -ci əsr), Kyoncu yaxınlığındakı - Sokquram mağara məbədi və onun divar barelyefləri, həmçinin Buddanın heykəlidir (VIII əsr) və s.** ***Koreya tarixində XV-XVI-cı əsrlər - feodalizm mədəniyyətin çiçəklənmə dövrü idi*** [1. S. 39].

***İnsan - ailənin, cəmiyyətin və dövlətin üzvüdür, bunun nəticəsində: Konfutsiçilər tərəfindən müəyyən edilmiş- beş insan münasibətlərinin formaları yaradılır, bunlar - (1) valideynlər və uşaqlar arasında,(2) monarx və təbəələr(ona tabe olanlar) arasında, (3) ər və arvad arasında,(4) böyük və kiçik qardaşlar və(5) dostlar arasında münasibətlərdir. Bu münasibətlərin ideal həlli*** - **“hyo”**ya əsaslanmalıdır, bu da o qədər də dəqiq ifadə olunmayan ***“oğlun - ataya hörməti, sayqısı, ehtiramı”*** *termini* ilə əlaqələnir, uzlaşır və o - ailənin, cəmiyyətin, dövlətin prototipi olduğu kimi - konfutsiçilər tərəfindən ***bütün insan münasibətlərinin prototipi hesab olunur.*** **“Hyo”** ifadəsi - ***beş əxlaqi keyfiyyətləri özündə ehtiva edir: xeyirhaqlıq, düşüncələrin düzgünlüyü, qüsursuz davranış, bilik sahibi olmaq*** və nəhayət, *məhəbbəti, ədaləti, başqalarını başa düşən, anlayan, müdrüklüyü və etibarı* özündə birləşdirən - ***düzgünlükdür*** [2].

***Böyüklərə hörmət - Koreya münasibətlərinin təməl daşı olub və olaraq qalır.*** Beş etik dəyərdən *ilk ikisi **(xeyirhaqlıq, düşüncələrin düzgünlüyü)*** bu gün öz əhəmiyyətini bir qədər itirsə də, ***Koreyada - müəllimə hörmət - kifayət qədər yüksəkdir. Müəllimlər günündə***(onların belə bir bayram var) - *bir çox koreyalılar- hörmət və ehtiram göstərmək üçün - onların evlərinə gedirlər.*

*Ailənin özündən* əlavə, hər hansı bir koreyalı - çoxdan eyni soyadlı və eyni "**bon**"(pon) olan bütün insanları əhatə edən -geniş bir qəbilə qrupunun üzvü olmuşdur. “**Bon**” - bu nəslin həqiqi və ya mifik əcdadının yarandığı ***ərazini göstərən coğrafi addır***.

Əlbəttə, bu o demək deyil ki, bu gün də bu qəbilənin bütün və hətta nəzərəçarpacaq sayda nümayəndələri - qəbilənin adını verildiyi ərazidə yaşayırlar. Ənənəyə görə, ciddi şəkildə ekzogam(***ekzoqamiya*** *(qədim yunanca εξω, exo - kənarda, + γάμος - evlilik) - müəyyən bir sosial qrupdan (çox vaxt qohumlardan)kənar olan nikah*) olan qəbilənın bütün üzvləri bir-birini qan qohumu hesab edir və bir-birlərinə hər cür köməklik göstərirlər. Ritual baxımdan, qəbilə birliyinin ən parlaq təzahürü - birgəolaraq, - əcdadlara qurbanlar verməlidirlər. Qəbilələrin əksəriyyəti - ildə 4 dəfə bu cür qurbanları - qəbilənin əfsanəvi qurucusunun vətənində keçirir. ***Eyni qəbilə üzvləri arasında, yəni eyni soyadlı və eyni ponlu insanlar arasında nikahlar bu günələrə qədər qadağa edilmişdir. Yalnız 1995-ci ildə bu qadağa rəsmən götürülsə də, qohumluq hesab edilən bu növ nikahlara - ictimai rəy hələ də mənfi münasibət göstərir*** [3. S. 216].

***Koreyalıların dəfn mərasimləri*** yalnız itki hissi və meyidin təcrid edilməsi ehtiyacının ifadəsi ilə məhdudlaşmırdı – onlarda-dini ritual hərəkətləri güclü idi. ***Dəfn adətlərinin tədqiqi - həyat və ölüm, ruh və onun ölümdən sonrakı taleyi, ölülər dünyası və sonuncuların dirilərlə münasibəti haqqında xalqın fikirlərini aydınlaşdırmaq üçün maraqlı material verir.*** *Koreyalıların dəfn mərasimlərində - qədim təsəvvürlərin izlərinə rast gəlmək olar, onların davranış normaları və bununla bağlı adətlərdə dəyişikliklər qeydə alınır* [4].

Koreya cəmiyyətinin *yuxarı təbəqələrində* ***mürəkkəb dəfn mərasimləri müşahidə olunurdu***, onların inkişafına - ***Konfutsi ideologiyasının böyük təsiri olmuşdur***. ***Konfutsiçilik - qədim əcdad kultuna müəyyən forma verdi və ölən valideynlərin şərəfinə mürəkkəb dəfn, matəm və anım mərasimlərinin keçirilməsinə təkan vedi.*** **XV əsrdə Koreya** hökuməti **“Hökuməti idarə etmək üçün Böyük(Möhtəşəm) Kodeks/Qanunlar**” nəşr etdi və bura-

da dini ayinlərə və mərasimlərə mühüm yer ayrıldı. XVII əsrin sonlarında **Böyük(Möhtəşəm) Kodeksa/Qanunlara** - əlavə edilərək, ümumi məlumat üçün nəşr edilmiş, anım mərasimlərində dəfnlərin aparılması, yas paltarlarının geyilməsi və qurbanların verilməsi ilə bağlı norma və tələblər müəyyən edilmişdir [5].

**Koreyada güclü ailə əlaqələrinin saxlanılması** - mühüm sosial və iqtisadi amildir, çünki bu - dövləti - bahalı sosial təminat sistemini saxlamaq ehtiyacından xilas edir, yəni bu - vergiləri -istənilən digər inkişaf etmiş ölkələrin standartlarına uyğun olaraq - çox aşağı səviyyədə saxlamağa imkan verir***. Koreya cəmiyyəti son dərəcədə iyerarxikdir / təbəqəlidir*. ***Bu - Koreya ailəsinə aiddir.*** Zəifləmiş formada olsa da, hələ də koreyalıların gündəlik həyatının çox hissəsini müəyyən edən ***Konfutsi ideyalarına uyğun olaraq***, ***ailədə yaşlı və cavana, kişi və qadına aydın bölünmə var.*** Bəzi ailələrdə yaşlı həyat yoldaşları ( arvadlar ) hələ də ərinə şərəfli formalarda müraciət edirlər (təxminən çox nəzakətli "***Siz"*** – azərbaycan nitqinə bərabərdir),ər/həyat yoldaşı isə öz xanımına – "*panmal"* deyilən qısa, kəsilmiş ifadələrlə cavab verir, bu da təxminən"*sən*"sözünə uyğun gəlir.

Eyni zamanda, belə təsəvvür olunur ki, evlilik - illəri keçdikcə - ailə işlərində həyat yoldaşının(arvadının) rolu nəzərəçarpacaq dərəcədə artır. Zərif səsi və zərif hərəkətləri olan iyirmi yaşlı utancaq xanım - qətiyyətli, köklü xanımı əvəz edir. Koreyalı qadınlar, xüsusən də orta yaşlı qadınlar – çox sərt və iddialıdırlar. Həm də maraqlıdır ki, həyat yoldaşının (arvadının) qərarı qəbul etdiyi rolu ilə - ailənin gəlir səviyyəsi arasında əlaqə mövcuddur [3. səh. 209–210].

Həm avropalı səyyahları, həm də müasir etnoqraflar tərəfindən daimə işıqlanıdran köhnə Koreya həyatının xarakterik xüsusiyyətlrindən olan, - ananın - uşağın 3 və ya hətta 4 yaşına qədər davam edən olduqca uzun müddətli ana südünu verməyi qeyd olunurdu. Qeyd etdiyimiz kimi, bu xüsusiyyət - əhalinin *ən yoxsul təbəqələrinin nümayəndələri arasında, xüsusən də kəndlərdə - bu günə qədər qorunub saxlanılmışdır.*

***Koreyalılar - uşaqları sevirlər, uşaqlara olan sevgisi, ehtirasları - heyrətamizdir.*** Oğul və ya nəvə haqqında sualı - hətta Koreyalı həmsöhbətlərinizin ən qeyri-dostı və ehtiyatlı adamlarını da yumşalda bilər. Ailədə uşaqlara - bütün mənəvi güc, bütün maddi imkanlar verilir. Eyni zamanda, uşaqlar - korlanmır, bütövlükdə tərbiyyə - ənənəvi Konfutsi qanunlarına uyğun aparılır. Valideynlərə hörmət - insani fəzilətlərindən - ən ucası hesab olunur.

***Koreyada azyaşlı uşaqlar - çox sərbəst tərbiyə olunurlar. 5-6 yaşdan kiçik olan uşağlara – çox şeyə icazə verilir. O - mənzilin ətrafında gəzə bilər, nə istəyirsə - götürüb baxa bilər, onun xahişləri - çox nadir hallarda rədd edilir.*** Körpəni nadir hallarda danlayırlar və demək olar ki, onu - heç vaxt cəzalandırmırlar, o - daim anasının yanında olur. ***Uşaq 5-6 yaşına çatdıqda və məktəbə hazırlaşmağa başlayanda - münasibət dəyişir. Bu andan etibarən- liberalizma/azadlığa və körpənin şıltaqlığına meyl - yeni bir tərbiyyə tərzi ilə əvəz olunur – o - çox sərt, ciddi, uşağı valideynlərə, müəllimlərə və ümumiyyətlə, məktəblərdə daha yüksək yerləri tutan hər kəsə - hörmətlə tərbiyə etməyə yönəldilir, burada - yaş və ya sosial iyerarxiya/təbəqələnmə mövcuddur. Uşağa – böyüklərə, ağsaqqallara - nəzakətlə müraciət etməyi, onlara - beldən əyilməyi(təzimləri), onların yanında sakit və təvazökar davranmağı, onların əmrlərini - şərhsiz yerinə yetirməyi - öyrədirlər.***

*Koreyalı uşaqlar Qərb yaşıdlarından fərqli olaraq- daha az oynayırlar*. ***Bununla belə, aydındır ki, koreyalı uşaqlar - sağlam ailə mühitində böyüməlırinə baxmayaraq (tek valideynli ailələr, alkoqolizm və küçə cinayətləri ilə dolu gettolar - Koreya həyatında olduqca nadirdir) bir növ yetkin həyatlarında - kifayət qədər ciddi həyata - erkən başlamaq məcburiyyətindədirlər. Bu - Koreya sosial mobillik(çevik) sisteminin səciyyəvi xüsusiyyətləri ilə bağlıdır: zirvəyə - yalnız bir yol tanıyırlar - təhsil yolu ilə, və buna çıxış- olduqca rəqabətlidir. Bu şəraitdə - uşaq çox erkən olaraq, öz hərəkətlərində - məsuliyyət hissi ilə yaşamağa başlayır və qeyri-konfutsi ölkələrindəki uşaqlardan seçilərək, onlar -***

***hәm mәktәb, hәm dә mәktәbdәnkәnar tәhsilindә - daha çox vaxt vә sәy sәrf edir .***

Buna baxmayaraq***, uşaqlıq - oyunsuz keçmir***. Qәdim dövrlәrdәn bәri әnәnәvi uşaq әylәncәlәrinә - ***gizlәnpaç,*** *elәcә dә* ***bәzi xüsusi Koreya әylәncәlәri daxildir.*** Bunlardan - ***volan (lәlәklәri vә ya geniş dalğalı halqası olan top) ilә oyunu*** qeyd edә bilәrik. Oyun zamanı topu - daima yuxarı atmalı, ayağın yan tәrәfi ilә vurmalı vә burada topun yerә toxunmasına icazә vermәmәk lazımdır. Ölkәdә - ***5 çınqıldan ibarәt oyun da mәşhurdur***: oyunçu çınqıl atmalı, sonra masanın üstündә qalan daşları - bir ovucda tutmalı vә bu ovucla havaya atılan çınqıllı daşı tutmalıdır. Bәxti gәtirsә, o, getdikcә daha mürәkkәb atılma kombinasiyalarını etmәlidir [3. sәh. 227–231].

***Әnәnәvi Koreya cәmiyyәti - sevgiyә, mәhәbbәtә әsaslanan evliliklәri demәk olar ki, bilmirdi***. Daha dәqiq desәk, tәxminәn **XVI әsrә qәdәr** müxtәlif, әks cinslәrdәn olan gәnclәr - kifayәt qәdәr azadlıqdan istifadә edirdilәr, onlar - bir-biri ilә görüşә bilirdilәr vә әn azı - *bәzi hallarda* ***gәnclәrin öz tәşәbbüsü ilә nikahları bağlana bilәrdi.*** Lakin sonradan – ***neokonfutsiçilik ideologiyasına rәsmi status verildikdәn sonara- keçmiş azadlıq bitdi, evlilik mәsәlәlәrindә gәlәcәk hәyat yoldaşlarının taleyi - valideynlәrinin sәlahiyyәtinә verildi.*** Әr vә ya arvadın ***valideyinlәr tәrәfindәn seçim qanunu*** - adәtәn *siyasi vә ya maliyyә mülahizәlәri,düşüncәlәri ilә diktә edilәn - elitanın ailәlәrinә* vә hәmçinin kәndlilәrin vә ya adi şәhәr әhalisinin ailәlәrinә dә aid edilirdi. ***Hәyat yoldaşı seçimi - qohumlar vә tanışlar, hәmçinin işdә-rәhbәrlik tәrәfindәn hәyata keçirilirdi, evlilik üçün - peşәkar vasitәçilәrin kömәyinә dә müraciәt etmәk - qadağa deyildi, lakin onların arasında qadınlar - çox az idi.***

***Son illәr nigahda gәnclәr - bu tәşәbbüsü özlәri öz üzәrinә qoyullar vә edillәr. Lakin bu müasir dövrdә dә әksәr hallarda gәlәcәk hәyat yoldaşları bir-biri ilә vasitәçilәr tәrәfindәn tanış edilir. Onlar - hәm peşәkar, hәm dә kömәkçi vasitәçi tәrәfindәn, әksәr hallarda isә - dostlar vә ya valideynlәr tәrәfindәn olunur.***

Vasitəçilərin təşkil etdiyi hər tanışlıq - evliliklə bitmir. Əksər hallarda gənclər bir neçə dəfə görüşərək, bütün həyatlarını bir-biri ilə ünsiyyətdə keçirmək istəmədikləri qənaətinə gəlirlər. Bundan sonra onların görüşləri dayanır və sonra onlar yenidən "həyat yoldaşı" axtarışını davam edirlər. Bir neçə dəfə, hətta valideynlər tərəfindən tapılan namizədlərə - belə rədd cavabı verilməsi - qınaq obyekti kimi sayılmır, baxmayaraq ki, həddindən artıq cəsarətli və "seçimli gəlin" və ya "seçimli bəy" reputasiyalı gənclər - valideynlərin və başqalarının gözündə yaxşı gəbul olunmur [3. səh. 234–240].

XXI-ci əsrdə Cənubi Koreya cəmiyyətində - *müasir* və *ənənəvi dəyərlərin* birləşməsi - mövcuddur və *sonuncusu(ənənəvi dəyərlər)* - hələ də mühüm rol oynayır. Eyni zamanda, *ənənəvi dəyərlər* - əhəmiyyətli dəyişikliklərə məruz qalır, xüsusəndə indi Qərbin - Asiya ölkələrinə təsiri çox böyük olan vaxtda. Beləliklə, *fərdin* və *onun şəxsi məkanın* getdikcə artan əhəmiyyətinə baxmayaraq, Koreya mədəniyyətinin bu cür ənənəvi elementləri- aktual olaraq qalır.

***Koreya mədəniyyətinin ənənəvi elementləri - koreyalıların həyatında öz əksini tapır: burada valideynlərin və qohumların böyük rolu var; koreyalılar hər hansı bir kollektivdə - cəmiyyətə mənsub olmaq istəyində, qrup halında işləmək istəyində, həddindən artıq tək işləmək istəməməyində, kömək etmək istəyində və s.- özünü bu xüsusiyyətləri ilə təqdim edirlər.***

***Təhsil sahəsində bütün müasirliyinə baxmayaraq,burada ənənəvi komponentləri də ayırd etmək olar.*** Onların arasında: Koreya məktəblərində və universitetlərində hələ də tez-tez müşahidə olunan xüsusi seminarlarda - debatlarda daxil olmamaq və ya istəməmək; faktların mexaniki əzbərlənməsinin vurğulanması; habelə koreyalıların gələcək taleyində həlledici rol oynayan daha çox təhsilin özü deyil, onun alındığı təhsil müəssisəsidir. ***Koreya Respublikasında təbiətə - ənənəvi ehtiramlı münasibət bəsləyirlər və doğma ölkələrində ekoloji vəziyyətə - qayğı buna misaldır. Ənənələrin özünə gəlincə, təkcə Koreya xalqı deyil, həm də öl-***

***kənin hakimiyyət orqanları - imkan daxilində onları qoruyub saxlamağa çalışırlar*** [6].

***Beləliklə, ənənəvi dəyərlər hələ də Koreya cəmiyyətinə nəzərəçarpacaq təsir göstərməkdə davam edir. Koreyalılar eyni etnik ailəyə mənsubdurlar, onlar - eyni dildə danışırlar və ümumi, ortaq mədəniyyətə malikdirlər. Şübhəsiz ki, Koreya mədəniyyəti-dünya birliyinin iqtisadi inkişafının, digər dövlətlərlə mədəni mübadilənin, qloballaşmanın təsiri altında dəyişikliklərə məruz qalır. Cəmiyyətin diqqəti - getdikcə Qərbə yönəlir. Koreya yarımadasının dövlətlərinə xas olan*** *dinlərlə* yanaşı, *xalqın adət-ənənələri də qismən unudulub.*

### *Mövzu ilə bağlı ədəbiyyat:*


1. İrgebayev A.T., Timonin A.A. Koreya Xalq Demokratik Respublikası: Məlumat kitabı. - M.: Politizdat, 1988. - 109 s.

2. Li G.N. Koreyalılarının adət və ritualları Rusiyada və MDB-da [Elektron resurs]. URL: http://koryo-saram.ru/li-grigorij-nikolaevich-oby-chai-i-obryady-korejtsev-rossii-i-sng/ (giriş tarixi 07/04/2016).

3. Lankov A. Koreya. Adı günlər və bayram günləri. - M.: Beynəlxalq münasibətlər, 2000. - 480 s.

4. İonova Yu.V. Koreyalıların dəfn mərasimləri [Elektron resurs]. URL: http://koryo-saram.ru/yu-v-ionova-pogrebalnye-obryady-korejtsev/ (Giriş tarixi 07/04/2016).

5. Dmitrevski A. Tsuşima adasındakı vilayyət rəhbərliyində tərcüməçi Otano Kiqaro tərəfindən tərtib edilmiş Qeydlər.Qərbi İmp. Rus coğrafi cəmiyyət- ümumi coğrafiyaya üzrə.SPb T. XII. - Sankt-Peterburq, 1884, No 4, əlavə (“Böyük Qanunlar Toplusu”).

6. Laçına E.V. Müasir Koreyada ənənəvi dəyərlər [Elektron resurs]. URL: http://koryo-saram.ru/traditsionnye-tsennosti-v-sovremennoj-koree/ (giriş tarixi 07/05/2016).

7.Koreyanın mədəniyyəti və adətləri [Elektron resurs] URL:http://www.all-lims.ru/publ/9-1-0-19 (07/05/2016 daxil olub).

8. Jdarilqasinova R.Ş., Krükov M.V. Şərqi Asiya xalqlarının təqvim ənənələri və ritualları. Yeni il. Krükov. – M.: Nauka, 1985. – 262 s.

9. Şərqi Asiya xalqlarının təqvim adətləri və ritualları. İllik dövr. Koreyalılar [Elektron resurs]. URL: http://koryo-saram.ru/kalendarny-e-oby-chai-i-obryady-narodov-vostochnoj-azii-godovoj-tsikl-korejtsy/ (giriş tarixi 07/05/2016).

10.Tolstıh İ.N.Koreya mədəniyyəti:ənənələr və müasirlik,-dərs vəsaiti,-Vladivostok Dövlət İqtisadiyyat və Servis Üniversiteti,- Vladivostok VDİSU-nəçriyyatı.

## Suallar:

1. Koreyalılara - konfitsiçılığın təsiri.
2. Hansı keyfiyətlər **"Hyo"** anlayışını açıqlayır?
3. Koreyalıların dəfn mərasimləri və onların keçrilməsi.
4. Koreyalıların ailə anlayışı.
5. Koreyalıların uşaq tərbiyəsi və təhsili.
6. Koreyada evlilik.

3\. Koreya həyatının əsas xarakterik xüsusiyyətləri - hansılardır?

5\. Müasir Koreya ailə qurmaq adətləri - ənənəvi ailə qurmaq adətlərindən necə seçilir və necə dəyişdi?

7\. XXI-ci əsrdə Koreya cəmiyyətində *ənənəvi dəyərlər.*

## Sərbəst mövzular:

1.Koreyalılarda - ailə və uşaq anlayışı.

2\. Uşaqların tərbiyəsində - oyunlar.

## Mövzu 6.
## KOREYA BAYRAMLARI

Koreyalılar - zəhmətkeş xalqdır. Heç kim bayramları və yaddaqalan tarixləri unutmur. ***Ölkə - iki təqvimdən istifadə etdiyi üçün, burada - kifayət qədər bayramlar var. Bəzi bayramlar- öz qədim adətlərini saxlamayıb***, lakin ***ilin iki əsas bayramı***, yəni **Aylı Yeni ili** və **Çusok -** ənənəyə uyğun olaraq qeyd olunmağa davam edir [7].

***Müəyyən təqvim tarixləri ilə bağlı bayramlar, adət-ənənələr və mərasimlər - koreyalıların mədəniyyətində və həyatında əsas yerlərdən birini tutmuş və tutmaqda davam edir. Bu bayramların və adətlərin mənşəyi - müxtəlifdir***: *bəziləri* - ***xalqın əmək fəaliyyəti ilə***, *digərləri isə* - ***aqrar kultlar və təbiət kultu ilə bağlıdır. Koreyanın Van sarayında və feodal saray dairələrində yaranan bəzi ayinlər*** - *rəsmi ideologiyanın və dövlət - dininin təsiri altında tədricən ölkənin şəhər və kənd əhalisi arasında -geniş yayılmışdır, vüsət almışdır.*

***XIX-XX əsrlərin kəsişməsində Koreya təqvim bayramları*** - *Koreya xalqının adət və mərasimlərinin, oyunlarının, əyləncələrinin, teatr tamaşalarının, dini, fəlsəfi, estetik və etik baxışlarının, uzun əsrlər boyu formalaşmış baxışların mürəkkəb məcmusu idi.*

***Qədim və erkən orta əsrlər Çin müəlliflərinin, eləcə də Koreya mifləriinin yazıları, həmçinin əfsanələri və adət-ənənələri bizə göstərir ki, qədim dövrlərdə və eramızın əvvəllərində qədim Koreya xalqlarının şənlikləri - kütləvi idi. Bu bayramlar - mahnılar, rəqslər, ayinlərlə müşayiət olunurdu və onları - bütün icma üzvləri, bütün xalq ifa edirdi.***

***Qədim əkinçilərin həyatında iki əsas mərhələ - tarla işlərinin başlanğıcı və məhsul yığımı vaxtı ilə bağlı bayramlar***- xüsusilə qeyd olunurdu [7. S. 3].

*Koreya bayramları*

| Tarix | Ad | Koreya dilində adlar | Əlavə | Dövlət bayramları | Bayraq | İstirahət Günü/ həftəsonu |
|---|---|---|---|---|---|---|
| 1 yanvar | **Yeni il** | 신정 | | yox | yox | Bəli |
| 1-ci Ayın 1-ci günü | **Koreya Yeni ili** | 설날 | | yox | yox | Bəli (3 gün) |
| 1 mart | **Koreyanın Müstəqillik Günə həsr olunmuş Deklarasiyasının elan edilməsi** | 3·1 절 | 1 Mart xatirəsinə - 1919-cu ildə 33 vətənpərlər - müstəqillik günününə həsr olunmuş Bəyannaməni oxudular | Bəli | Bəli | Bəli |
| 5 may | **Uşaqlar günü** | 어린이날 | 1961-ci ildən rəsmi olaraq qeyd olunur. Bu günün qeyd edilməsi təşəbbüsü - 1922-ci ildə uşaq yazıçısı Ban Conq Hvanq tərəfindən irəli sürülüb. (방정환) | yox | yox | Bəli |
| 4-cü Ayın 8-ci günü | **Buddanın ad günü** | 부처님 오신 날 | | yox | yox | Bəli |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 6 iyun | **Anım günü** | 현충일 | Müstəqillik uğrunda mübarizədə və ya hərbi xidmətdə həlak olanların xatirəsinə yaradılmışdır | yox | Bəli (o aşağa salınıb) | Bəli |
| 17 iyul | **Konstitusiya günü** | 제헌절 | 17 iyul 1948-ci ildə Koreya Respublikasının Konstitusiyasının qəbul edilməsi şərəfinə yaradılmışdır. | Bəli | Bəli | yox |
| 15 avqust | **Qurtuluş günü** | 광복절 | Yaponiyanın təslim olması şərəfinə bayram -1945-ci ildə təsdiq olunmuşdur. Həmin gün 1948-ci ildə Koreya Respublikası (Cənubi Koreya) elan edildi. | Bəli | Bəli | Bəli |
| 8-ci Ayın 15-i günü | **Çusok** | 추석 | Məhsul Günü və Əjdadların Anim Günü | yox | yox | Bəli (3 gün) |
| 1 oktyabr | **Silahlı Qüvvələr Günü** | 국군의 날 | Oktyabrın 1-i xatirəsinə təsis edilmişdir- 1950-ci ildə Koreya müharibəsi zamanı Koreya Respublikasının si- | yox | Bəli | yox |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | lahlı qüvvələri 38-ci paraleli keçdi. | | | |
| 3 oktyabr | **Ölkənin yaranma günü** | 개천절 | Bu gündə e.ə. 2333-cü ildə ***Tanqun hökümdarı*** tərəfindən qurulmuş - ***KoCosonun yeni dövləti yarandı*** | Bəli | Bəli | Bəli |
| 9 oktyabr | **Koreya əlifbası - Xangül/ Hanqıl günü** | 한글날 | 9 Oktyabrın xatirəsinə quruldu - bu gün 1446-cı ildə Van Seconqun fərmanı ilə *Milli Koreya əlifbası - Xangül/Hanqul* qüvvəyə minib. | Bəli | Bəli | Bəli |
| 25 dekabr | **İsa Məsihin Doğulması günü** | 크리스마스 | | yox | yox | Bəli |

*Qeyd: tərtibatçı Evqeniy Ştefan. Koreyada bayramlar // KIM. - 2014. - 25 dekabr*

**Koryo sülaləsinin hakimiyyəti dövründə illik dövrün(tsiklın) bayramları arasında *iki kateqoriya aydın şəkildə fərqlənirdi*: <u>“böyük, möhtəşəm bayramlar”</u>** <u>kimi müəyyən edilən</u> ***<u>rəsmi bayramlar</u>*** və *<u>fəsillərin dəyişməsi dövrlərində qeyd olunan</u>* **<u>xalq bayramları idi</u>. *Rəsmi bayramlar*** aşağıdakı ***kimi təsnif edilirdi:*** **<u>Fənərlər Bayramı (Yonqdınhve (*bu sözün kökündə türkdilli xalqların “yandın”, yanı “yanmaq” feli var*)</u>, 2-ci ayın 1-ci günü); <u>Səkkiz Ruhlar bayramı (Phalqvanhve</u>, 10-cı ayın 1-ci günü və ya 11-ci ayın 15-ci günü) və <u>Başın yuyulması və saçların</u>**

**daranması günü (Yudunal (*bu söz – türkdilli qrupun sözü "yudun"-"Yumaq" felindən yaranıb*), 6-cı ayın 15-i günü)**. **Koryo sülaləsinin** hakimiyyəti dövründə ***doqquz məşhur mövsüm bayramları*** var idi, bunu "***Koryo sülaləsinin tarixi "***sübut edir: ***Yeni il*** (***Sol***, 1-ci Ay ayın 1-ci günü); ***1-ciAy ayın Tam Ay Bayramı*** (***Conqvoldeborım, Sanqvon***, 1-ci Ay ayın 15-ci günü); ***Soyuq Yemək Günü*** (***Hanşik,*** qış gündönümündən sonra 105-ci gündə); ***İlanın ilk günü*** (***Sansa***, 3-cü Ay ayın 3-cü günü); ***Orta [ilin] bayramı*** (***Dano***, 5-ci Ay ayın 5-ci günü); ***Payız axşamı bayramı*** (***Çusok,*** 8-ci Ay ayın 15-ci günü); **Qoşa Doqquzun bayramı** (***Çunqu***, 9-cu Ay ayın 9-cu günü); ***Səkkiz Ruhlar Bayramının xalq növü,versiyası*** (***Phalqvan***, 10-cu Ay ayın 15-ci günü); ***Qış gündönümü günü*** (***Donqci***, 11-ci, bəzən 12-ci Ay ayın 20-ci günü).

***Yeni il ərəfəsində Koryo Van sarayın həyatində maskalı rəqslər ifa olunub.*** Onların arasında - Şilla dövründə yaranmış " ***Çhoyonq rəqsi***" adlı **teatr tamaşaları** xüsusi yer tuturdu. Bu təsəvvürrlər - rituallarla,ayınlarla bağlı idi, onlar gələn ildə - rifah, zəngin məhsul və firavanlıq üçün dualarla əlaqələndirildi. " ***Çhoyonq rəqsi***" sonrakı əsrlərdə də davam etdi.

***Koryo dövründə*** kəndlərdə **hoginori (qışqıran bayraqlar**) *adəti* geniş yayılmışdı, buna görə - gənclər evdən evə bayraqlarla gəzir, fənərlər yandırır və bunun üçün müəyyən mükafat alırdılar. Bu adət - ***Li sülaləsi dövründə də mövcud idi***. Onun haqqında ***görkəmli Koreya yazıçısı və musiqişünası, XV əsrin tanınmış siyasi xadiminin*** - **Sonq Hyon** -nun (1439-1504) əsərlərinin qeydlərində rast gəmək olar. O yazırdı ki, onun zamanında xalq arasında belə bir adət olub ki, bu adətə görə, gənc oğlanlar və cavanlar ***erkən yazda - Fənər bayramı ərəfəsində*** bir yerə toplaşırdılar. Kağızdan iri bayraqlar, balıq dərisindən isə- nağara düzəldirdilər. Sonra hamı birlikdə kəndləri gəzir və hər evdə fənərlər yandırırdılar, bunun üçün sahiblərindən hədiyyələr alırdılar (adətən parçaların bir parçası,hissəsi). Gənclərin hər evə səs-küylü əyləncə ilə, nağara sədaları altında yaxınlaşması səbəbindən bu adət "***qışqıran bayraqlar***" ***adlanırdı***.

XIX-cu əsrdə "***Donqquk Seşiqi***"-yə görə, *Yonqnam əyalətində* 3-cü ayın 15-ci günündə ***Konfutsi alimləri üçün ənənəvi ziyafət təşkil etmək adəti var idi. Bu şənlikdə bütün iştirakçılar - ciddi şəkildə yaş qruplarına görə yerləri tuturdular: 50 – yaşında olanlar, 60-70 - yaşında olanlar, 80-90- yaşında olanlar. Hər kəs öz yerində oturduqda, ağsaqqal andı oxuyurdu: "Ata-anası-na hörmət etməyən oğul - qovulsun. Qardaşı ilə dalaşmada, çə-kişmədə, ədavətdə yaşayan qardaş - qovulsun. Kim dövlət siya-sətini pisləyirsə - qovulsun. Əvvəla, bir-birinizə - qüsursuz dav-ranmağı, ikincisi, - tək analara kömək etməyi, üçüncüsü, - bir-birini qorumağı, dördüncü, - qarşılıqlı yardım göstərməyi - şid-dətlə tövsiyə edirik. Hər kəs öz əyalətində ata-anasına hörmət etməli, qardaşlıq, sədaqət, adət-ənənələrə riayət etməlidir."***

***Koreya incəsənətində*** - *qədim musiqi ifaçılığının, rəqsin və dramın sinkretizmi*- ritualla sıx bağlı idi və ***xalqla* - *Xanıl (Göy*) *tanrısı*** *arasında bir növ ünsiyyət idi. Tanrı* ilə *insan arasında va-sitəçi* kimi *musiqiyə* münasibətdən - *başqa aləmlərlə əlaqə yarat-maq üçün* səs çıxarmaq vasitəsi kimi çıxış edən *musiqi alətləri-nin- müqəddəs əşyalar* kimi qavranılması mövcud idi.

***Koreyalıların illik dövrünün ən əlamətdar bayramlarından biri* - Dano bayramı** idi. ***O 5-ci Ay ayın 5-ci günündə - otların və çiçəklərin - yaşıllaşması və çiçəkləndiyi dövrdə, meyvələrin yetişdiyi yay dövrünün yüksəkliyində qeyd edilirdi:bu vaxt alba-lı, şaftalı, gavalı meyvələri yetişib dəyirdi.***

Əvvəllər, bu vaxta qədər kəndlilər sahədə yazlıq bitkilərin sə-pinini, düyü çəltik tinglərinin əkilməsini başa çatdırırdılar. ***Əkin işinin başa çatması* - *xalq şənlikləri* - Dano bayramı** ilə müşayi-ət olundu. Bayramın mənşəyi - bir tərəfdən, əkinçilik dövründə əkin dövrünün başa çatması ilə, digər tərəfdən isə, təbiətdə dönüş nöqtəsi - yay gündönümü (Qriqorian təqviminə görə - 21/22 iyun) ilə bağlıdır, bayramın qədim adları ilə sübut edildiyi kimi – **o - İs-ti Günorta Mövsümü, Orta Göy Mövsümü bayramı adlanır-dı.**

**Doqquzuncu ay - bütün tarla işlərinin bitdiyi ay idi**. *Kənd-lilər qışa- özləri üçün müxtəlif tərəvəzlər (turp, sarımsaq, bibər,*

*kələm və s.) hazırlayırdılar.* ***Tez-tez ziyafətlər təşkil edilirdi, burada bütün kənd iştirak edirdi.***

***Payızın ən sevimli və qədim bayramlarından biri- 9-cu ayın 9-ci gündə qeyd olunan bayram*** - **Qoşa Doqquzuncu Çunqu bayramı** idi. **Bu gün - həm də Xrizantema/Payızgülü bayramı sayılırdı.** Çoxları bu bitkinin ən gözəl nümunələrini yetişdirmək üçün - hər cür səy göstərirdilər. **Xrizantema/ Payızgülü bayramı** zamanı - bu güllər adətən çiçəklənirdi; gözəl və iri güllərin sahibi- tanışlarını yanına çağırırdı, onlara - bitkinin ən yaxşı nümunələrini qürurla göstərirdi. Bu unikal bayram - zəngin, ləzzətli yeməklərlə tamamlanırdı. Vazgeçilməz bayram xörəkləri arasında - *sarı xrizantema/payızgülü ləçəklərindən və düyü unundan hazırlanmış pirojkilar* olurdu. Onlar - incə doğranmış narinçi(mandarin), armud, nar və qoz-fındıq ilə - şirin şirə ilə yeyilirdi.

*Köhnə ilin son günləri - müxtəlif rituallarla,ainlərlə dolu idi.* Ənənəyə görə, ilin sonuna qədər bütün işləri başa çatdırmaq, pul hesablaşmalarını həll etmək- çox vacib hesab olunurdu, ona görə də hər bir ailə - borcunu ödəməyə tələsirdi. Borc - ilin son günündə ödənilə bilərdi.

Konfutsi təlimlərinə sadiq qalan orta səviyyəli ailələrdə -ailə üzvləri məbədləri ziyarət edir, burada hörmət əlaməti olaraq- qohumlarının ruhuna - *təzim edirdilər/ baş, bel əyirdilər*. Bu *mərasim* "***köhnə illə vidalaşma***" adlanırdı. Bu gün - varlı və kasıb - hamı otaqlarını -kağız fənərlərlə işıqlandırırdı.

**Yeni il bayramı** - təbiətin oyanmasının ilk əlamətlərinin göstərildiyi dövrə düşür. ***Soyuq qışdan sonra yazın yaxınlaşması, təbiətin dirçəlişi və yeni həyatın bayramı kimi qeyd olunurdu***. Yeni *illik kənd təsərrüfatı dövrü* üçün hazırlıqlar başlanırdı; əlverişli hava və bol məhsul ümidləri bununla bağlı idi. Yüzlərlə nəsillər üçün bu- təbii rifah və xoşbəxtlik arzusu çox vaxt sehrli-dini xarakter alan - ciddi məcburi rituallara, ainlərə bürünmüşdür. Xalq inancına görə, insanın rifahı və xoşbəxtliyi - fövqəltəbii qüvvələrdən - təbiət qüvvələrindən və fantastik canlılardan asılı idi.

Buna görə də, düşmən natəmiz ruhları sakitləşdirməyə və insanları - onların zərərli təsirindən *qorumağa yönəlmiş rituallar* -

*mühüm yer tuturdu*, bunun üçün təbiətin gizli qüvvələrinin və əcdadların ruhlarının dəstəyi və köməyinə müraciət etmək lazım idi [9].Bu bayramlar - zədüştlük bayramların ayinlərinin təsiri altında inkişaf etmişdir. ***Bu bayramlar - həm də zərdüştilik dininin ayinlərinin əksi idi.***

***Zərdüşt*** - Ali tanrının, həmçinin yaradıcı olan - ***Ahura Məzdanın*** təsəvvürünü verən - ilk peyğəmbər oldu. ***Yaradan*** - şər qüvvələrlə mübarizə aparmaq üçün - çoxlu kiçik mələkləri yaratdı. Tanrı - bu dünyanı müəyyən bir məqsədlə yaratmışdır və bu dünyanın sonu - Xilaskarının gəlişi ilə elan ediləcəkdir. Zərdüşt peyğəmbər hesab edirdi ki, hər şey - insanın *yaxşı əməlləri ilə müəyyən edilir, insanın xilasi, nicatı isə - onun fikrilərinndən, sözlərindən və əməllərindən asılıdır* (insanda daimə üstünlük olanlar: ***yaxşı fikir (Humata), yaxşı söz (Xuhta) və yaxşı əməl (Xvarşta)***- olmalıdır və heç bir mələk - onlara müdaxilə edə bilməz) . Zərdüştilik təlimi - digər dinlər kimi, insanın əxlaqi inkişafı ilə səciyyələnir, burada - onun düşüncələri, sözləri, əməlləri - özündə nəcib məqsəd daşımalıdır. Zərdüştilikdə - haqq, ədalət, cəsarət, ədəb və xeyirxahlıq kimi məfhumlar ilə yanaşı, salehlik, müqəddəslik, əməksevərlik, qənaətcillik, sülh, firavanlıq, fəzilət kimi anlayışlar -mühüm yer tutur. Burada ən əsaslı - sözün müqəddəsliyidir. Zərdüşt təlimi - tövhidi və dünyada iki prinsipin - xeyir və şərin əbədi mübarizəsinin mövcudluğunu təbliğ edir və burada - xeyirxah qüvvələrin başında - Ahura Məzda, şər qüvvələrin əsasında isə - Əhriman dayanır, insanın əbədi məqsədi isə - onun yaxşılığın - şər üzərində mübarizəsidir. Yaxşılıq - bu döyüşdə qalib gəlməli və zəfər çalmalıdır və bu dünyada pisliyi - əbədi olaraq,- məhv etməlidir. Bu dinin əxlaqı: insana - səxavətli, dürüst, onun istəklərində - mülayim olmağı; zülm və qanunsuzluqdan - çəkinməyi tövsiyə edilir. Xarici tacirlər zərdüştilərlə sövdələşməni, müqaviləni bağlayarkən,- zərdüştilərin düzlüyünü, ədəbini, təmizliyini bilərək, onlarla iş qurmağa üstünlük verirdilər. ***Zərdüştilərin səciyyəvi cəhəti - təbiətə və heyvanlar aləminə - qayğı ilə yanaşı, bir çox bayramlarda öz əksini tapmış - dörd ünsürə: oda, suya, torpağa və havaya - müqəddəs münasibəti idi.***

Zərdüştilər - ***Ahura Mazdaya*** və ***Ameşa-Spentanın***("Ölməz müqəddəs" kimi tərcümə olunur) *altı mələklərinə* və onların sonradan ***qəhəmbər*** *kimi tanınan* ***yeddi yaradıcılığına həsr olunmuş*** *-* ***7 böyük bayramları*** *qeyd etdirdilər.* ***Otaranlar və əkinçilər üçün nəzərdə tutulan bu bayramları - Zərdüşt öz dininə uyğunlaşdırdı***. ***Bu bayramların məqsədi - insanları birləşdirmək, icma birliyini təşviq etmək, varlı ilə kasıbın, sadə ilə və savadlının arasındakı bərabərsizliyi - aradan qaldırmasıdır; ümumi şənliklərdə -çəkişmələrı, müharibələri - dayandırmaq və unutmaq, dostluq əlaqələri - möhkəmləndirməkdir.*** Bayramlar il boyu fəsillər üzrə qeyri-bərabər paylanırdı, məsələn, "**Yayın ortası** – ***Maydyoi-şema***", "***Taxıl yığımı bayramı***", "***Yazın ortası***" və s. ***Yeddinci yaradılışa - atəşə həsr olunmuş bayram*** - həmişə digərlərindən seçilib. Bu bayram - ***Novruz*** – *yanı* ***Yeni gün***, eləcə də ***Yeni il***, peyğəmbər - baharın gəlişinin - 20/21 mart tarixində qeyd edildiyi - *yaz bərabərliyinə həsr etmişdir*. Novruz bayramından əvvəl - ***4 ünsürlərlə: od, su, torpaq və hava/yel ilə bağlı - 4 çərşənbələr - silsilə bayramlar keçirilir***.

Zərdüşt təqvimində - hər biri - 30 gündən ibarət olan - 12 aya bölünmüş -360 gün var idi. 12 ayın hər biri və ayın - 30 gününün hər biri - bir mələyə həsr olunmuş və dini bayram kimi qeyd edilmişdir.Mələkin adı ilə adlanan - ay bayramı - xüsusilə təntənəli şəkildə qeyd edilirdi. Bayram günlərində - hər kəs - yemək, içki və əylənmək üçün - Atəş məbədlərində toplanırdı, bu - Tanrıya xoş gələn - xeyriyrli iş hesab olunurdu. [11], [12].

**Koreyada əsas rəsmi, təqvim bayramları**:

*1 yanvar* - **Yeni il,**

*1 Mart* - **İstiqlal Hərəkatı Günü** (1919-cu ildə 1 mart müstəqillik nümayişi şərəfinə həsr olunmuşdur),

*5 aprel* - **Ağac əkmə günü** (istirahət günü olmadı və deyil),

*Aprelin sonu - mayın əvvəli* - **Buddanın ad günü**,

*1 May* (**Əmək bayramı**)rəsmi olaraq bayram deyil, lakin dövlət qurumları və bir çox şirkətlər çox vaxt işləmir,

*5 May* - **Uşaqların Günü**,

*6 iyun* - **Şəhidlərin anım günü**,

17 iyul - **Konstitusiya Günü**,

*15 avqust* - **Qurtuluş Günü**,

*3 oktyabr* **Koreyanın - mifik hökmdarı- Tanqun tərəfindən qurulduğu gündür**.

*9 oktyabr* – **Xangül/Hanqıl Koreya Yazı Günü**,

*25 dekabr* - **Katolik Miladı**.

Beləliklə, ***müasir və son dövrlərdə ənənəvi adət və mərasimlər, xüsusən də təqvim bayramları,- milli mədəniyyətin təzahür formalarından biri kimi, xalqın etnik kimliyinin ifadələrindən biri kimi qəbul olunmağa başlayıb. Koreyalılar öz əqidələrini, inanclarını, xüsusən də bayram və adət-ənənələrə münasibətdə dəyişmir, çünki onlar - həyatda çox vacib və rəngarəng məqamlardır.***

### Mövzu ilə bağlı ədəbiyyat

1. İrgebayev A.T., Timonin A.A. Koreya Xalq Demokratik Respublikası: Məlumat kitabı. - M.: Politizdat, 1988. - 109 s.

2. Li G.N. Koreyalılarının adət və ritualları Rusiyada və MDB-da [Elektron resurs]. URL: http://koryo-saram.ru/li-grigorij-nikolaevich-oby-chai-i-obryady-korejtsev-rossii-i-sng/ (giriş tarixi 07/04/2016).

3. Lankov A. Koreya. Adı günlər və bayram günləri. - M.: Beynəlxalq münasibətlər, 2000. - 480 s.

4. İonova Yu.V. Koreyalıların dəfn mərasimləri [Elektron resurs]. URL: http://koryo-saram.ru/yu-v-ionova-pogrebalnye-obryady-korejtsev/ (Giriş tarixi 07/04/2016).

5. Dmitrevski A. Tsuşima adasındakı vilayyət rəhbərliyində tərcüməçi Otano Kiqaro tərəfindən tərtib edilmiş Qeydlər.Qərbi İmp. Rus coğrafi cəmiyyət- ümumi coğrafiyaya üzrə.SPb T. XII. - Sankt-Peterburq, 1884, No 4, əlavə (“Böyük Qanunlar Toplusu”).

6. Laçına E.V. Müasir Koreyada ənənəvi dəyərlər [Elektron resurs]. URL: http://koryo-saram.ru/traditsionnye-tsennosti-v-sovremennoj-koree/ (giriş tarixi 07/05/2016).

7.Koreyanın mədəniyyəti və adətləri [Elektron resurs]URL:http://www.all-lims.ru/publ/9-1-0-19 (07/05/2016 daxil olub).

8. Jdarilqasinova R.Ş., Krükov M.V. Şərqi Asiya xalqlarının təqvim ənənələri və ritualları. Yeni il. Krükov. – M.: Nauka, 1985. – 262 s.

9. Şərqi Asiya xalqlarının təqvim adətləri və ritualları. İllik dövr. Koreyalılar [Elektron resurs]. URL: http://koryo-saram.ru/kalendarny-e-oby-chai-i-obryady-narodov-vostochnoj-azii-godovoj-tsikl-korejtsy/ (giriş tarixi 07/05/2016).

10.Tolstıh İ.N.Koreya mədəniyyəti:ənənələr və müasirlik,-dərs vəsaiti,-Vladivostok Dövlət İqtisadiyyat və Servis Üniversiteti,- Vladivostok VDİSU-nəçriyyatı.

11.Azərbaycan mədəniyyətinin tarixi və nəzəriyəsinin oçerkləri (Azərbaycanda zərdüştlüyün tarixi 43-68s.).Monoqrafiya,-2019,-272S.

12. Boys M. Zərdüştilər. İnanclar və adətlər.- ingilis dilindən tərcümə - İ.M.Steblin-Kamenski, Moskva, - "Nauka" nəşriyyatının Şərq ədəbiyyatının baş redaksiyası, -1988, -303S.

## Suallar:

1. Koreyada ənənvi və dövlət bayramları və onların təqvimi.
2. Müasir Koreyada hansı ənənəvi Koreya bayramları öz gücünü itirməyib?
3. Koreyanın xalq bayramları.
4. Koreyanın Tano bayramı.

3.Koreyada mövsüm bayramları və onların Zərdüşt bayramları ilə əlaqəsi.

## Sərbəst mövzular:

1. Konfutsiçiliyin - Koreyalıların adət və davranışlarına təsiri.
2. Koreya xalqının müasir adət və ənənələri.
3. Şimali və Cənubi Koreyada bayramlar.

## Mövzu 7.
## KOREYA ETİKETİ /ƏDƏBİ

***Etnik spesifikliyinin anlanmasını, dərk etməsini - ənənənin*** öyrənilməsini nəzərdə tutur. Bu kontekstdə "**ənənə**" - həm ***həyatın gizli-dərin, müqəddəs axarıyla gedən***, həm də ***varlığın zahiri, məişət tərəfi ilə bağlı olan - bütöv bir dünyagörüşü***- nəzərdə tutulur. Bu və ya digər şəkildə, **nəsillədən nəsilə ötürmə, irsən alma, davamlılıq *ideyası - ənənədə mütləq mövcuddur.*** Aydındır ki, ***öz məzmununu ötürən ənənə - insan şəxsiyyətin bütün fəaliyyətinin müxtəlif sahələrində - intellektual, mənəvi, davranış fəaliyyətində - əks olunur***. [1, s. 54–55].

***Dünyanın müxtəlif xalqlarının adət-ənənələrinin mövcudluğu və ötürülməsinin müxtəlif formaları*** - uzun müddət ***etnoqrafiya elminin*** tədqiqat obyekti olmuşdur. *Bu formalardan biri də - **davranış mədəniyyətidir***. Son onilliklərdə davranışın etnik stereotiplərinin öyrənilməsi - ənənənin öyrənilməsinə xüsusi yanaşma kimi nəzərdən keçirilir.

Hamıya məlumdur ki, ***ənənəvi cəmiyyətdə gündəlik həyatın bir çox aspektləri: ailə münasibətləri və iş fəaliyyəti, dini-kult praktikası( dini ayinlər) və cəmiyyətin müxtəlif üzvləri arasında münasibətlər - nizamlanır***, bu da **sərt davranış sistemin *formalaşdırmasına gətirir***.

***İstənilən davranışın***, xüsusən də, ***ənənəvi davranışın strategiyası*** - ən yüksək sərvəti olan – formalaşmış ***müqəddəs, sakral sayılan - müəyyən dəyərlər sistemi ilə bağlıdır***. Bu və ya digər ***davranış stereotipinin qanuniliyini və zəruriliyini müəyyən edən - müqəddəs elementlərin mövcudluğu idi***.

***Müəyyən bir cəmiyyətdə - müqəddəsliyin təyin edilməsi mexanizmi, eləcə də onun ötürülməsi - ənənə ilə davranışın ən yüksək stereotipik forması – ritualın/ainlərin hərəkəti vasitəsilə həyata keçirilirdi.*** **Ənənə** - həmişə **rituala\ainlərə** yönümlü olub. ***Ritual*** isə - həmişə ***müqəddəslik sahəsi ilə əlaqələndirilmişdir***. Məsələ burasındadır ki, **ritual** – simvolik, rəmzi davranışı olaraq, əvvəlcədən müəyyən edilmiş nizamı bərpa etmək və qanunilәşdirmək məqsədi da-

şıyırdı. Deməli, ***ritualın əsas funksiyası*** - bu vəziyyətin ***müqəddəs obraza uyğunluğunu müəyyən etmək üçün, ritual vəziyyətini müqəddəs hadisə ilə əlaqələndirməli idi.*** Bir sözlə, **ritual - ümumbəşəri ənənə qanununun həyata keçməsi və kollektivdə müəyyən münasibətlər normasının təsdiqidir** [10, 18].

Gündəlik səviyyədə stereotip davranışın başqa, sadələşdirilmiş forması - **etiketdır**[10, 24].

**Etiket\ədəb** – ***cinsə, yaşa, cəmiyyətə, konfessiyaya və digər cəhətlərə görə fərqli olan cəmiyyət qrupları arasında - ünsiyyət qaydaları başa düşülür***. **Etiket sferasına** - ***salamlaşmanı müşayiət edən - jest və duruşlar; söhbət zamanı - insanın davranış tərzi; böyüklər və kiçiklər arasında münasibət qaydaları; cavan oğlan-qız, kişi-qadın münasibətlərində gözəl davranışı; insan bədəninin hissələrinin simvolizmi və məkanda ünsiyyət quranların ciddi şəkildə müəyyən edilmiş yerləşdirilməsini təyin edən- münasibətlər, eləcə də bəzi digər aspektlər daxildir*** .[11, 4].

***Ünsiyyətin bütün müxtəlifliyini yaradan və onun orijinallığını formalaşdıran - müxtəlif etiket üsullarının qarşılıqlı təsiridir.*** Başqa sözlə desək, ***etiketin\ədəbin əsas vəzifəsini müəyyən edən - cəmiyyət üçün vacib olan - bəzi sosial və bioloji qiymətləndirmə prinsiplərini simvollaşdırmaqdan ibarətdir, bu da sosial münasibətləri və cins, yaş və sosial status fərqlərini sistemləşdirməyə kömək etməlidir.***

***M.Moss "Bedənin Texnikaları"*** əsərində yazırdı ki, insanın hətta ən elementar fizioloji hərəkətləri – insanların oturması, yatması, yemək yeməsi və ya addım atması - çox cüzi də olsa, cəmiyyətdən cəmiyyətə və mədəniyyətdən mədəniyyətə fərqlənir. [7.].

Qeyd edək lazımdır ki, ***"etiket\ədəb" termini – çoxmənalıdır***. Yuxarıda qeyd edildiyi kimi, **etiket\ədəb** - ***genetik olaraq* ritualla *bağlıdır*. *Ritual kimi, etiket\ədəb* - *ictimai varlığın mühüm formasıdır, lakin o- sosial həyatın fərqli səviyyəsi ilə bağlıdır***.

**Ritual** - ***kollektivdə müəyyən münasibətlər normasını təsdiq edir***, **etiket** - ***onları tənzimləyir və normallaşdırır***. Beləliklə, **etiket** - ***ritualın davamıdır***, o - sanki ritualın qanuniləşdirdiyi münasibətlər formasını dəstəkləyir [10, 20].

**Ritual** - ***davranış qaydalarını izah edir, onlara "yaşamaq hüququ" verir*** və **etiket\ədəb** - ***onları təsvir edir***. ***Onlar birlikdə yaşayır və bir kompleksi təmsil edirlər, onların əsas vəzifəsi - cəmiyyətin ahəngdar mövcudluğunu təmin etməkdir***. ***Cəmiyyətin həyatında etiket və ritualın - müxtəlif yerlər tutmasına baxmayaraq, eyni hərəkət - həm ritual əlamətlərini, həm də etiket əlamətlərini birləşdirə bilər.***

İnsanın etiket davranışı, rituallaşma dərəcəsindən asılı olaraq, şərti olaraq - *iki qütb arasında yerləşə bilər*. Bunlardan biri - ritual davranışıdır, yəni o praqmatik məqsədlərdən çox - daha simvolik xarakter daşıyan- maksimum, çox işarəli davranışdır. Digəri isə, gündəlik davranış, yəni simvolik funksiyaların minimal olduğu praqmatik məqsədləri güdən - minimum işarəli - davranışdır. Vəziyyətdən və digər amillərdən asılı olaraq,- davranış sxemləri toplusu - rituallaşdırma miqyası boyunca hərəkət edərək, bu və ya digər qütblərə yaxınlaşa bilər [2, 17].

Yuxarıda deyilənlərdən aydın olur ki, etiket mövzusu- çoxşaxəlidir və müxtəlif hüdudlarda daraldıla və ya genişləndirilə bilər. ***Etiket\ədəb haqqında - sözün geniş və dar mənasında danışmaq olar***: birincisi(***geniş mənasında etiket***) o - *müəyyən bir cəmiyyətdə etik olaraq, müəyyən edilmiş davranış normalarının bütün topluların təyin edilməsidir,* ikincisi isə (***dar mənasında etiket***) o - *müəyyən bir insan dairəsi üçün – konkret,individual olaraq, ünsiyyət iştirakçılarının məkanda yerləşməsini, onların duruşlarını, jestlərini, mimikalarını, şifahi formulalarnıı və s. nəzərdə tutur.*

**Etiketdə\ədəbdə** - *ifadə olunan davranış sxeminin, modelinin öyrənilməsi- çox vacibdir*. **Etiket\ədəb** - ***bir növ maddiləşmiş institut kimi xidmət edir, onun vasitəsilə ənənə - öz "siyasətini", öz prinsiplərini və ideallarını həyata keçirir***. Bir tərəfdən- bu və ya digər davranışın səbəbləri - **ənənəvi şüur sferasında köklənir**, digər tərəfdən isə o-**ənənəvi-məişət mədəniyyətinin empirik müşahidə olunan təbəqəsində özünü göstərir** [3, 15].

Bir sözlə, ***etiketin öyrənilməsi - müəyyən bir xalqın ənənəvi mədəniyyətinin öyrənilməsinə kömək edən,- çox geniş mövzulara toxunmağa imkan verir.***

**Etiket\ədəb davranışı -** ***ənənənin** mövcudluğunun görünən və mühüm təzahürüdür*. Elmi mənada, onu aydın şəkildə müəyyənləşdirmək, rituallaşdırılmış davranışın digər oxşar formaları ilə müqayisə etmək və ya eyniləşdirmək - çətin və həlli olunmayan bir işdir.

Məhz burada - mədəni fenomenin öyrənilməsində böyük maraq var. **Etiketin\ədəbin öyrənilməsi -** digər əlaqəli anlayış və formalarla yaxından tanış olmağı nəzərdə tutur, başqa sözlə desək, ***o- həm mənəvi, həm də maddi mədəniyyətin müxtəlif elementləri haqqında hərtərəfli biliyi tələb edir***. **Etiketin\ədəbin öyrənilməsi - hər hansı bir ənənəvi mədəniyyətin - sintetik varlıq olduğunu,** yəni ***mədəniyyətdə hər şeyin bir-biri ilə əlaqəli olduğunu və ayrılmaz bir kompleksdə birlikdə mövcud olduğunu dərk etməyə gətirib çıxarır***.

Tək bir xalqın stereotip davranışının xüsusiyyətlərini öyrənərkən, müəyyən bir mədəniyyət sahəsində **etiket\ədəb** və **ritual** sahənin,sferanın inkişaf xüsusiyyətlərini də nəzərə almaq lazımdır. Aydındır ki, dünyanın müxtəlif ölkələrində - **ritual** və **etiket\ədəb** sahənin, sferasının inkişafı - *əxlaqi-etik normalarla bağlı yerli təsəvvürlər kontekstində baş vermişdir*.

***Koreyalıların etiketi\ədəbi, onun davranış stereotiplərinin öyrənilməsi - böyük maraq yaradır. Koreyalılar haqqında əvvəlcədən bir neçə söz demək lazımdır. Onlar - Koreya yarımadasının əsas əhalisidir. Koreyalılar - Koreya Respublikası və Koreya Xalq Demokratik Respublikasının əhalisinin demək olar ki, 100%-nı təşkil edir.*** **Antropoloji tipinə görə -** ***koreyalılar - monqoloid irqinin - Şərqi Asiya qoluna aiddirlər. Koreyalılar - Koreya dilində danışırlar, bu dil - təcrid olunmuş dillərə aiddir***.

***Koreyalıların etnogenezisinin*** bir çox sualları- hələ də həll olunmayıb. Aydındır ki, ***onların formalaşmasında müxtəlif mənşəli etnik qruplar iştirak etmiş, aparıcı rol isə - proto-altay dillərində danışan qruplara məxsus olmuşdur.***

***Koreya dövlətçiliyinin inkişaf tarixi - qüdrətli şimal-qərb qonşusu - Çinlə daimi təmaslarla səciyyələnir. Koreya - əsrlər boyu Çin mədəniyyətinin üstünlük təşkil etdiyi - mədəni əraziyə***

***daxildir.*** Məlum olduğu kimi, mədəniyyət sahəsi dedikdə,o - çox geniş regionda yaşayan əhalisi - bir sıra *amillərin* (*məsələn, sosial-iqtisadi inkişaf yollarının oxşarlığı, eləcə də güclü,möhkəm və çoxşaxəli əlaqələri və qarşılıqlı təsirləri)* oxşar mədəni və məişət xüsusiyyətlərini inkişaf etdirir. Əsrlər boyu Koreyanın Çinlə - davamlı əlaqələri olmuşdur. Koreyalılar - təkcə Çin heroqlif yazısını deyil,onlar həm də bütövlükdə Çin dilinin - həm leksikasını, lüğətini, həm də qrammatikasını götürüb istifadə etdilər. **Koreyada bütün *kargüzarlıq işləri - XX-ci əsrin əvvəllərinə qədər - Çin dilində aparılırdı*.** Əsrlər boyu Koreya yarımadasının ərazisinə - müxtəlif ***əxlaqi, etik və dini təlimlərin*** daxil olması - Çin vasitəsilə olmuşdur***: Çjusian formasında orta əsrlərin sonlarında Koreya cəmiyyətində çox geniş yayılmış- Buddizm və Konfutsiçilik idi.***

Müasir Koreya dilində "**etiket\ədəb**" anlayışı 예의 (禮義) [**yei**]1 sözü ilə ifadə edilir.

예의 (禮義) [**yei**] ***anlayışı - "cəmiyyətdə davranış qaydaları***" deməkdir. Gördüyümüz kimi, 예의 (禮義) [**yei**] termini 禮 [Çin dilində - li, koreya dilində - ye] simvolu ilə yazılmışdır. Bu heroqlifin mənası üzərində dayanmaq istərdik.

Çin heroqlifı 禮[Çin dilində - li, koreya dilində - ye ] -*geniş bir yaxın anlayışların mənasıdır* - "***davranış qaydaları, ayın, adət, ədəb, etik və ritual normalar***". Bu anlayış - Çin fəlsəfəsinin mərkəzi kateqoriyalarından biridir, əsasən konfutsiçılıqdan mənimsənilib və özündə iki əsas mənası - "***etika\ədəb***" və "***ritual***"ı birləşdirir. Terminın etimoloji mənası - heroqlifin ilkin formasında - "*qab ilə- kult\ayın hərəkəti*"ndə öz əksini tapmışdır. Bu anlayış - Konfutsi tərəfindən əvvəlki dövrlərdən götürülmüşdür.

"Şu tzin" və "Şi tzin" - ən qədim ideoloji abidələrdə - **禮**– [**li**] – **heroqlif** vasitəsilə - ritualların mənasını verilirdi, onlar - ***dünyanın birliyini*** nümayiş etdirməyə və ***müxtəlif siyasi münaqişələrin öhdəsindən gəlməyə*** imkan verirdi. Bundan əlavə***, onlar - məbəd və saray rituallarını, habelə hörmətli məmurların,şəxslərin xalqa münasibətdə - davranış formalarını təyin və əks etdirirdilər***. Konfutsi təlimi çərçivəsində semantik təkamül gedişində - kate-

qoriya 禮 [çin. “li”, kor. “ye”] - "***ədəb***” sözü - bir cərgədə ümummədəni və fəlsəfi anlayışları ilə bu mənalarla daxil etdi:

仁 (인) [Çin. “jen”, kor. “in”] - "***humanizm, insansevərlik***", 知 (지) [Çin. “çji”, kor. “ci”] - "***hikmət,müdrüklük***", 義 (의) [çin. “i”, kor. “ıy”] -"***ədalət***", 信 (신) [Çin “ sin“, kor. “şin”] - "***inam, etibar***" [4, 297–299].

Nəticə etibarı ilə **“li” anlayışı - daha çox rituallaşdırılmış etikanın\ədəbin əlaməti** və **insanın düzgün davranışının səciyyəvi xüsusiyyəti, başqa sözlə, normativ, tənzimləyici prinsipin əlaməti kimi *müqəddəs fəaliyyət simvoluna çevrilmişdir*.** ***Konfutsiyə görə, məhz ritual - insanlığın əsas şərti və onun insanlarda tərbiyə olunmasının təsirli vasitəsidir. Konfutsi – ritualda - bütün insan fəaliyyətinin əsas dayağını, bünövrəsini görürdü. Konfutsi ideyaları çərçivəsində -*** **ritual** - ***dünya nizamı ilə, ümumən ümumbəşəri qanunla, həmçinin bizim adətən “etika” dediyimiz anlayışla - eynilik təşkil edir. Ritual - insan həyatını tənzimləmək üçün- zəruri və kifayət qədər vacib mexanizm hesab olunurdu. Rituala- xüsusi münasibət*** - bir növ “***mənəvi metafizika”nın yaranmasına və etik və ritual kateqoriyalara - universal dünya təsviri mənasının verilməsinə kömək etdi. Güclü sosial və mənəvi qadağaların mövcudluğu - Konfutsi etik və ritual normalarının cəmiyyətin əksər üzvləri üçün - məcburi olmasına imkan verdi*** [9, s. 9].

Qeyd edildiyimiz kimi, Koreya mədəniyyətinin inkişafı - Çinlə daimi təmasda baş vermişdir. Şübhəsiz ki, Konfutsi təlimləri çərçivəsində Çində formalaşmış rituala - xüsusi münasibət -Koreyanın ritual və etiket sahəsinə, sferasına təsir etməməyə bilməzdi.

*Koreya mədəniyyəti tarixinə dair müxtəlif ədəbiyyatlarda* ***1392-1910-cu illərdə hökm sürən Li sülaləsi dövründə konfutsiçiliyin dominant,üstün təlimə çevrildiyinə dair istinadlar az deyil.*** *Tarixi ədəbiyyatda* ***Li sülaləsi dövrü*** *adətən- o dövrdə elan edilən* ***Çoson dövlətinin adı ilə xatırlanır***.

***Konfutsiçilik - Koreya yarımadasının ərazisində - qədim zamanlardan (təxminən bizim eramızın III əsrindən) yayılmağa***

***başladı.*** ***O vaxtdan Konfutsiçilik - həmişə təsirli bir ideoloji təlim olmuşdur. Koreya dövlətçiliyinin bütün inkişaf tarixi boyunca konfutsiçilik başqa bir böyük dini təlimlə*** - Çosondan əvvəlki Koryo (918-1392) dövlətinin əsas ideoloji təlim hesab edilən ***buddizmlə*** yanaşı mövcud olmuşdur. ***Bununla belə, qeyd etmək lazımdır ki, buddizmlə - konfutsiçilik arasında olmuş qarşıdurma - daha çox ideoloji və doktrinalı deyil, o - iqtisadi və siyasi zəmində baş verib*** [6, s. 217].

***Konfutsiçiliyin Çoson dövründə xüsusi rol oynamağa başlamasının səbəbləri - XIV-cü əsrin sonunda onun yeni bir sülalənin gəlişini təmin edən yeni islahat qüvvələrinin "bayraqına" çevrilməsidir. Onlar öz hakimiyyətini gücləndirmək üçün- konfutsiçilikdən nəzəri əsas kimi istifadə edirdilər. Məhz bu dövrdə konfutsiçilik -əsas ideoloji sistem kimi meydana çıxdı*** [6, s. 217].

***Bu baxımdan bu dövrdə*** **Konfutsi mərasimlərinin** ***xüsusi rolunu qeyd etmək lazımdır.*** Qeyd etdiyimiz kimi, ***konfutsiçilikdə - ritual -insan fəaliyyətinin əsası və cəmiyyətin əsas tənzimləyicisi hesab olunurdu***.

***Yeni sülalə - dövlət aparatının təşkili zamanı -"Altı palata" yaratdı, onların arasında*** - *Qoşunlar Palatası, Cəzalar Palatası* və s. ilə yanaşı, - **Etiket Palatası** da daxil olundu. ***Onun funksiyaları - təkcə dövlət daxilində deyildi, burada - xüsusən də ailə daxilində - ritual*** ***və*** ***etiket\ədəb sahəsinə nəzarət daxil idi.***

Koreyada 예치 ( 禮 治 ) [**yeçhi**]- xüsusi termin var idi, o "***ritual köməyi ilə hökm etmək***" mənasını verir və bu - ***ritual yolu ilə cəmiyyəti idarə etmə yollarından biri olduğunu göstərir***. **Ritual** - insanın bütün həyat dövrünü tənzimləyirdi. ***Həyat dövrü ayinlərinin əsası kimi*** olan ***Sun Çju Si sülaləsi dövründə yazılmış Çin neo-Konfutsi*** (朱熹) (주희) (1130–1200) 家禮 (가례) (Çin [jiali], Kor. [karye]) ***traktatı*** - "***Ailə təqvası/xeyirlişəraf haqqında***" ***risaləsi*** götürülmüşdür [5, s. 429].

**Karye** - ***dörd mərasimin: yetkinlik, toy, dəfn mərasimi, əcdadların ruhlarına sitayişi, - təsvirlərini özündə cəmləşdirən ritual və etiket/ədəb sistemidir.*** Bu traktat("***Ailə təqvası/xeyirlişəraf haqqında***") - Koreyada - Koryo dövrünün sonlarında (918-

1392) məşhur idi, lakin Konfutsiçılığın- dövlətdə aparıcı mövqe tutduğu - Li sülaləsi dövründə o - xüsusi əhəmiyyət kəsb etdi. ***Koryo dövrünün sonu və Çoson dövrünün əvvəllərində - traktatda qeyd olunan göstərişlər*** - *sadebu* (hərfi. "***alimlər və böyük adamlar,kişilər***") dairəsində — ***kiçik və orta torpaq sahibləri arasında həyata keçirilirdi. Onlar - Koryo sülaləsinin süqutu və Çoson dövlətinin əsaslarının formalaşması prosesində - əsas hərəkətverici qüvvələrdən birinə çevrildilər*** [13, s. 90].

Bununla belə, qeyd etmək lazımdır ki, ***Çoson erasının əvvəllərində konfutsiçiliyin ritual və etiket tərəfi - ölkənin bütün əhalisinin şüurunu dərhal ələ keçirməmişdi***. ***İdeologiyanın dəyişməsi - ləng bir prosesdir. Buna görə də, Koryoda irəli sürülmüş neo-Konfutsiçilik prinsiplərinə uyğun mərasimlərin bütün ölkədə həyata keçirilməsi üçün - bir əsrdən çox vaxt lazım idi.***

***Koreyada ritual və etiket\ədəb sahəsi - XVII-ci əsrdə xüsusi əhəmiyyət kəsb etdi. Koreya üçün XVII-ci əsr – həm sosial düşüncə üçün, həm də sosial və iqtisadi inkişafın bütün sahələri üçün - dönüş nöqtəsi oldu.*** XVII-ci əsrdə Koreyanın Uzaq Şərq dünyasındakı yeni rolunu- koreyalıların nöqteyi-nəzərindən yenidən nəzərdən keçirilməsi,- öz tarixi köklərini axtarmaq, təsdiqləmək və yenidən təsdiqləmək səviyyəsində baş verdi, bu da, qədim çinlilər kimi, öz tarixi köklərinı - qədim olmağının təsdiqi idi. [6, s. 250]. Bu zaman Koreya dövlətinin mövcud dəyərləri və metodlarının əsaslı şəkildə yenidən qiymətləndirilməsindən keçirdi. *Orta əsr Koreyasında* 예학 ( 禮 學 ) [***yehak***] - "***etiket\ədəb elmi***" *kimi bir anlayışın yaranması- ilk növbədə, ictimai həyatı tənzimləmək və nizamlamaq üçün zamanın obyektiv tələbi idi.*

XVII-ci əsrin əvvəlləri - Koreya tarixində xüsusi bir dövrdür. İmçjin müharibəsindəki qələbə (1592-1598), Koreya yarımadasının ərazisinə çoxdan gözlənilən sülhü gətirsə də, uzun illər davam edən xaos zamanı - yaranmış problem və ziddiyyətlərin dolaşıqlığını Koreya həll edə bilmədi. ***Mövcud xaosdan çıxış yollarından biri - ritual və etiket\ədəb münasibətlərinin islahatı idi***. Bildiyiniz kimi, Uzaq Şərq ənənəsində - insanlar arasında münasibətlər və ünsiyyət sisteminin pozulması - cəmiyyətdə sabitliyin pozul-

masına meylin yarandığına və xaosun başlanmasının qaçılmaz olduğuna işarədir. ***Məhz bu dövrdə Koreya Konfutsi alimləri sabit davranış və nitq standartlarını, aydın şəkildə müəyyən edilmiş ritualları və mərasimləri formalaşdırdılar. Müasir mədəniyyət daşıyıcılarının əksəriyyəti tərəfindən - ənənəvi davranış nümunəsi kimi qəbul edilən - bu ritual və etiket\ədəb normasıdır. Bu rituallaşdırma- ənənəvi Koreya davranışının etnik universaliyalarından biridir.***

XIX-cu əsrin ikinci yarısında Koreyanın əcnəbilərə açılması- ritual və etiket sahəsinə,sferasına təsir etməyə bilməzdi. XIX-cu əsrin 90-cı illərinin sonunda tarixə "***Kabo və Ilmi İllərinin İslahatları***" (müvafiq olaraq, ənənəvi dövrü/tsiklik xronologiya sisteminə görə - 1894 və 1895 illərdə) - adı ilə daxil olan - bir sıra islahatlar həyata keçirildi. Bu islahatlar, bir tərəfdən, ölkənin müasirləşməsinə, onun dövlət və iqtisadi sistemlərinin o dövrün dünya standartlarına çatdırılmasına yönəldilmişdir, digər tərəfdən isə, sosial sahədə o - ənənəvi həyat tərzini kökündən dəyişdirdi. Məsələn, ənənəvi saç düzümlərini qadağa etmək qərarı - şok reaksiyasına səbəb oldu. Ənənəvi saç düzümü - əsrlər boyu Koreyalıların görünüşünün vacib atributu olmuşdur. Məcburi saç kəsimi haqqında fərman - ənənəvi ritual və etiket sisteminə zərbə vurdu. Demək lazımdır ki, islahatlar xarici qüvvələrin, ilk növbədə, artıq Koreyanı ələ keçirmək planlarını həyata keçirən yaponların təzyiqi altında həyata keçirilmişdir.

Yuxarıda deyilənlərdən aydın olur ki, ***Koreya ritual və etiket sahəsinin çox dinamik inkişaf tarixi var. Bir çox cəhətdən,o - son əsrlərdə Konfutsi ritual və etiket anlayışları kontekstində inkişaf etmişdir.***

***Artıq dediyimiz kimi, stereotipik davranış formalarının tədqiqi- insanların ənənəvi dünyagörüşünün mühüm əsaslarını dərk etməyə və həyata keçirməyə kömək edir. Li sülaləsi illərində formalaşmış ritual və etiket sistemi - Koreya xalqının ünsiyyət mədəniyyətinin əsasını təşkil etmişdir.***

## Suallar:

1. Ənənə anlayışı.
2. Ritual və etiket\ədəb və onların fərqləri.
3. Koreya etiketi\ədəbi.
4. Koreya etiketində\ədəbində konfutsiçılıq və buddizm.
5. Kare- ritual-etiket\ədəb sistemı.
6. Koreyada müasir etiket\ədəb

ədəb anlayışı.

## Sərbəst mövzular:

1. Koreya etiketi\ədəbi.
2. Koreya davranışı.

## Mövzu ilə bağlı ədəbiyyat


1.Albedil M.F.Ənənələrin güzgüsü.SPb.,-2003.

2.BayburinA.K.Toporkov A.L.Ettiketin\ədəbin əsasında.M.,1990.

3.Bqajnokov B.X.Adıgeylərin etikası,-Nalçik,-1999.

4.Çinin mənəvi mədəniyyəti.T1.:Fəlsəfə,-Moskva,-2006.

5. Kobzev A.İ.Çin neokonfitçılığın fələsəfəsi,-Moskva,-2002.

6.Qurbanov S.O.Koreya tarixinin mühazirə kursu.SPb,-2002.

7. M.Moss "BedəninTexnikaları"// Cəmiyyətlər.

Mübadilə.Şəxsiyyət:sosial antropologiyaya aid əsərlər,-Moskva,1996,-s.243-264.

8.Raçkov Q.E. Koreya dilinin və mədəniyyətinin mərkəzində keçirilən "Koreya dilinin rus transkripsiyasının problemləri"seminarda-məruzə//Koreya dilinin və mədəniyyətinin mərkəzin Vestniki.SPb,2005,buraxılış 8, s.282-287.

9.Ənənəvi Çinin etikası və ritualı,-Moskva,-1988.

10.Ön Asiya xalqlarının etiketi,SPb.,-1999.

11.Cənub-Şərq Asiya xalqların etiketi,- SPb.,-1999.

12.Etnik stereotiplərin davranışı,-Leninqrad,-1985.

13.Son Çe Rün. Cu Si etiket haqqında elmin ideoloji forması,-magistr dissertasiyası,Koryo Universiteti,1985.

14.Samsonov D.A.Koreya etiketı: etnoqrafik tədqiqatın təcrübəsi,-SPb,-Elm.

## Mövzu 8.
## KOREYA AİLƏ ETİKETİ \ ƏDƏBİ

**Koreyanın geniş ailə icması**, - əksər ənənəvi mədəniyyətlərdə olduğu kimi, - ***nəsl təbəqələşməsi/stratifikasiyası ilə xarakterizə olunur.*** **Böyüklük** - ***əsas amildir, onların kollektiv daxilində imkan verən - bu və ya digər mövqe tutmağı- əsas xüsusiyyətdir*** [3.].

***Müəyyən bir nəslə mənsub olanlar - sanki yaş dərəcəli rütbəni formalaşdirir. Müvafiq olaraq, daha yüksək səviyyəyə mənsub olmaq - aşağı səviyyəli insanların yanında - nisbətən müəyyən üstünlüklər və imtiyazlar verir, yəni bu və ya digər ailə üzvünün müxtəlif səviyyəli nümayəndələrə münasibətdə davranışı -müxtəlif olurdu. Bundan əlavə, eyni nəsil daxilində - gender/cinsi fərqləri ilə müəyyən edilmiş özünəməxsus münasibətlər sistemi mövcud idi.***

***Hər bir insan - bir neçə sosial\ictimai rol oynaya bilər.*** Məsələn, **ailədə yaşlı kişi** - *ailənin başçısı*, ata-anasının *oğlu, əri, atasıdır*; **qadın** isə- *qız, arvad\həyat yoldaşı, evdar qadın, gəlin, anadır.*

***Ailə başçısı(kişi)*** *ilə* **evdar qadının** *rolları arasındakı əlaqəni nəzərdən keçirək.*

***Kişi və qadının təsərrüfat,məişət və iqtisadi funksiyaları- iki fərqli sahədə inkişaf edir.*** **Kişinin fəaliyyəti** - **xaricə yönəldilir**, **qadının funksiyaları** *isə - kişilərin ev təsərrüfatına yönəldilmiş funksiyalarına nisbətən daha* **introvertdir(daxildədir**). **Kişi** - sanki, **ailənin xarici**, **qadın** isə - əsasən **daxili münasibətləri** "***idarə edir***".

*Təsərufat işində* **kişi** - ***xüsusi fiziki səy tələb edən və müəyyən risk dərəcəsi ilə əlaqəli olan işləri yerinə yetirir: torpağı becərmək, suvarma sistemlərini qurmaq, düyü çəltiylərini əkmək və alaqlamaq, xırmanlamaq, evi tikmək, təmir etmək və s.*** **Qadın isə** - ***yalnız bəzən, ən ekstremal hallarda, yuxarıda göstərilən fəaliyyətlərin hamısında yardım göstərir.***

***Eyni zamanda ev işlərinin bütün yükü*** - **<u>qadının</u> üzərinə düşür. Qadının işi** - ***paltar yumaq, yemək bişirmək, tikməkdir. Kənd cəmiyyətində arvad/həyat yoldaşı - bu ev işlərindən başqa - evin yaxınlığındakı xırda tarlalarda - lobya, qarğıdalı və digər tərəvəzlər də becərir. Ev sahibəsi*** həmdə *bağçanı idarə edir: ev heyvanlarına və ev quşlarına (donuz, dovşan, toyuq və s.) baxır. Yaz aylarında* - qadınlar yeməli otlar toplamaq üçün dağlara gedirlər. *Yayda* - ərlərinin işlədiyi sahələrə - yemək aparırlar. *Payızda* - qadınlar bəzən məhsul yığımına kömək edir və *qış ayları üçün* - yemək, ərzaq hazırlayırlar. *Koreyanın bəzi sahil bölgələrində* qadınlar balıqçı kəndlərində - *dəniz bitkiləri və qabıqları toplayırlar.*

**<u>Evdə vəzifə bölgüsü</u>** - ***uşaqların tərbiyəsində də özünü göstərir***. Koreyalı bir ailədə - **<u>qadın</u>** - *uşaqlara qulluq edir:onları yuyuur, geyindirir, qidalandırır.* **<u>Atanın vəzifəsi</u>** isə - *dili öyrətməyi və düzgün ünsiyyət qurmağı öyrədir.* **<u>Ata</u>** - *həm oğlan, həm də qız uşaqlarının əxlaqi tərbiyəsinə cavabdehdir və ictimai sabitliyi təmin etməyə çalışır,* **<u>ananın vəzifəsi</u>** isə - ailədə *psixoloji (mənəvi) sabitlik yaratmaqdır.*

**<u>Qadın</u>** - <u>*evin içindəki müsbət emosional komponentə də* 정서 ( 情 緒 ) [**conqso**]- *cavabdehdir*</u>. *Çanqhenni* kənd (Cənubi Çhunçhon kəndi, Sosan şəhəri, Çiqok vilayəti) sakininin - xanım Mun Hınq-Suk (1926-cı il təvəllüdlü) sözlərinə görə - turşu və sousları duza qoyarkan, əsas inqrediyentlərə əlavə olaraq, vacib komponentlərdən biri də - **<u>conqso - *səmimiyyət və müsbət emosionallıq hissi vacibdir*</u>.** Belə hesab edilir ki***, yaxşı süfrə və yemək - xoşbəxtliyin və bütöv varlığın əsas təminatıdır və buna görə də yemək -"hisslə" hazırlanmalıdır*** [9, s. 71].

***Koreyalı ailələrdə təkcə məişət sahəsində,sferasında deyil, həm də <u>mənəvi sahədə - təsir sferalarının, sahənin bölgüsü var idi</u>*: **<u>ailənin kişiləri</u>** - əcdadların kultuna böyük sayqı ilə yanaşırdılar və əcdadlara ibadət edirdilər, **qadınlar** isə - *ev və ailə kultunun himayədarların* qayğısına qalırdılar.

**<u>Qadınlar</u>** - ***təkcə ev işləri ilə məşğul olub, uşaq böyütməklə yanaşı, həm də ailə evinin himayədar ruhlarına sitayiş edirdilər.***

*Evin hər yerinin: ocağın, darvazanın, qapının, tualetin -öz sahib ruhu olurdu.* Buna görə də evin mühafizəsi ilə bağlı rituallarda - *fetişlərə (qab, zənbil, saman dəzgahı) sitayiş - mühüm yer verilirdi.* Ev təsərrüfatlarının himayədar ruhlarının bütün panteonu - çox sayda personajdan ibarət idi, onların bir ümumi adı olub 가신 (家神) [***qaşin***] - "***ailə ruhları***". Bununla belə, ruhlar haqqında bütün təsəvvürlər - olduqca qaranlıq və qeyri-müəyyən idi və bölgədən bölgəyə - çox fərqli ola bilərdi. ***Evin və ailənin ruhlarına sitayişlə bağlı ayinlərin aparılması və burada qadınların rolu və cavabdehliyi- çox vacib idi*** [11, s. 14].

Mühüm mövsümi ayinlərdə - ***kişilər*** -əcdadlara ibadət etdikdə və ya kəndin himayədarlarına icma ayinləri və qurbanlar verdikdə, hər evdə ***qadınlar*** - öz ev ruhlarına sitayiş edirdilər.

Alim **Yu. İonovaya** görə, bu bölgü - qədim qohumluq əlaqələrinə və ***ana hüququna(matriarxata=anaxaqanlıqa***) gedib çıxır və güclü patriarxal normalara baxmayaraq, Koreya ailəsində - qədim ənənələrin sıxışdırılmadığını sübut edir. ***Qadının ailə həyatında və evdəki mühüm funksiyaları - ritual praktikada və dini təsəvvürlərdə öz əksini tapır*** [2, s. 135].

***Koreyalı ailədə - kişi və qadın münasibətlərinin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, onların hər biri - öz sahəsindəsuveren/müstəqil, eyni\bərabərdir və bir-birini tamamlayırdı.***

***Evdar qadın*** - bir qayda olaraq, ev sahibinin arvadı idi. Bütün Şərqi Asiyanın ölkələrində olduğu kimi, ***Koreyada da böyüklük - qadının ailədəki mövqeyi üçün vacib idi.*** Şübhəsiz ki, **qayınana və qayınatanın statusu** - *oğulun **arvadının** statusundan* **yüksək idi**. ***Məhz buna görə də oğlunun arvadı - tabe mövqe tuturdu*** [6, s. 160].

**Gənc ər** - **arvadının *adını çəkməməli və valideynlərinin qarşısında - ona təşəkkür etməməli idi. Ər - ən azı, kənar adamların gözü qarşısında - arvadına - etinasız yanaşmalı idi. O - onunla uzun-uzadı söhbətlərdən - qaçmalıdı, yanından keçəndə -nə salamlaşamalı, nə də fikir verməməli idi.***

***Evə qayıtdıqdan sonra- ər, ilk növbədə, valideynlərinə, sonra isə - həyat yoldaşına salam verirdi. Ər - həyat yoldaşı ilə danı-***

***şanda – ona hörmət və nəzakət bildirməməli, lakin ona - heç bir həqiqi bağlılıq göstərməməli idi. Koreyalı ailələrdə ərin - arvadına qarşı hisslərini göstərmək, xüsusilə valideynlərinin yanında, - adət deyildi.*** Əgər **ər** - valideynlərinə, onların simasında - ailəsinə sədaqətini nümayiş etdirmək istəyirdisə, o zaman **arvadı ilə** -yox, *valideynləri və qardaşları ilə daha yaxın və isti münasibətlər saxlamağa çalışırdı*. **Gənc arvad** da, öz növbəsində, *ərinə qarşı hisslərini, duyğularını ifadə etməkdən çəkinməyə çalışırdı*. "***Əgər ərə getsən, üç il lal-kar olmalısan***" deyirlər Koreyada [1, s. 158]. ***Yaxşı tərbiyə edilmiş arvad - əri ilə birbaşa və ya çox tez-tez söhbət etməməlidir***.

***Arvadın əsas vəzifələrindən biri***, xüsusən də evləndikdən və ərinin evinə köçdükdən dərhal sonra - ***ərinə deyil, ərinin valideynlərinə kömək etmək idi***. "***Bibər acıdır, amma ər evində xidmətindən pis deyil"*** [1, s. 158] - ***Koreya atalar sözüdür***. ***Gənc arvadın - ərinin qohumlarına münasibəti - ciddi şəkildə tənzimlənirdi: məsələn, yaşlı ailə üzvlərinin yanında o(arvad)-daimə durmalı idi, gözlərini aşağı dikərək, bütün suallara qısa cavablar verməli idi. Valideynlərə qarşı belə münasibət - ərin tərəfindən də minnətdarlıq hissini oyatmalıdır, çünki arvadın düzgün davranışı - həm də oğul övladının - hörmətinin təzahürlərindəndir.***

***Ər*** - *arvadına qohumları yanında kifayət qədər soyuq münasibət bəsləməsinə baxmayaraq, o – onu(arvadını) qoruya biləcək yeganə insan idi. Buna görə də arvad - həmişə ərinə yaxşı dost və məsləhətçi olmağa çalışmalı idı.*

***Uşağın, xüsusən də oğlunun doğulmasından sonra - gənc arvadın mövqeyi -güclənirdi. Bu vəziyyətdə -gənc arvadın statusu - əhəmiyyətli dərəcədə artırdı və o- xüsusi hüquqlar alırdı.***

***Ailədə ilk oğlunun dünyaya gəlməsi - çox mühüm hadisə idi. Hər bir həyat yoldaşı üçün- fərdi olaraq - bunun xüsusi mənası var idi. Oğul vərəsəsinin doğulması - gənc arvadın yerinə yetirməli olduğu - əsas vəzifəsidir. Oğul dünyaya gəldikdən sonra- ilk uşağın anası - ərin ailəsinin tam hüquqlu üzvü olur. Ata üçün ilk oğul uşağının doğulması - böyük əhəmiyyət kəsb edir-***

***di, çünki onunla birlikdə gənc ailə və özü də onun başçısı kimi-ailə münasibətlərində müəyyən yer tutmaq hüququnu alırdı.***

Koreya ailəsindəki "***valideyn-övlad***" münasibətləri kompleksinin ***əsası - "ata-oğul" münasibətləri təşkil edir***. İrsin ötürülməsində ***birinci oğulun doğulmasının əhəmiyyətini nəzərə alaraq, qeyd edilirik ki, ata ilə böyük oğul arasındakı münasibətə -xüsusi diqqət yetirilmişdir*** [12].

***Avropa ənənəsində ailə*** - kişi və qadının toyundan sonra formalaşır və valideyn-övlad münasibətləri - ər-arvad münasibətlərinin davamıdır. ***Ənənəvi Koreya cəmiyyətində*** isə - ***ailə həyatının başlanğıcı - özlüyündə nikah deyil, ailənin davamını təmin etməli olan - oğlan uşağının doğulması hesab olunurdu*** [7, s. 114].

Ənənəvi ailə sisteminin mərkəzi oxunu təşkil edən - **ata-oğul *münasibətləri*** - ailədən kənar "**böyük-kiçik**" prinsipi əsasında münasibətlərin formalaşmasının əsas meyarıdır. Bu baxımdan **"ata-oğul"** ***münasibətlərini*** ətraflı təsvir etmək lazımdır [7, s. 114].

Bu kontekstdə ***Cənubi Koreyanın tanınmış tədqiqatçısı, Seul Dövlət Universitetinin professoru*** - **Li Kvanq Kyu**-nun adını qeyd etmək lazımdır. Onun əsərləri - Koreyada ***patronik (ata) qruplarının*** keçdiyi yolun quruluşunun xüsusiyyətlərinə, həmçinin qədim dövrlərdən bu günə qədər ailədaxili münasibətlərə həsr edilmişdir [4; 5; 6; 7; 8].

***Li Kvanq Kyu tədqiqatlarının xüsusi dəyəri*** ondan ibarətdir ki, ***əsərlər - onun sahə(kənd ənənələri haqqında ) tədqiqatlarının materiallarına əsaslanır. O - XX-ci əsrin 50-ci illərinin ikinci yarısından başlayaraq, ölkənin müxtəlif rayonlarının kəndlərində, sonra isə 70-ci illərin əvvəllərində daha fəal və əsaslı şəkildə sahə işlərini apararaq, onları tədqiq etmışdır.*** *Onun bu mövzuda ilk çıxışları və nəşrləri - 1960-cı illərin ikinci yarısında ortaya çıxdı.* ***Onun topladığı məlumatlar - Koreya Respublikasının kənd yerlərinin həyat tərzini əks etdirdiyi üçün – o bu gün də böyük marağa səbəb olur.*** **Burada qeyd etmək lazımdır ki, onun Koreya Respublikasının regionlarına səfər-**

ləri - ***Koreya kəndinin aktiv modernləşdirilməsinin başlanmasına təsadüf edir.*** *Li Kvanq Kyu tərəfindən həyata keçirilən faktiki materialların toplanması - kənd həyat tərzinin əhəmiyyətli dəyişikliklərə məruz qaldığı bir vaxtda baş verdi.* Beləliklə, ***onun əsərlərində - ailə formalarının və münasibətlərinin ənənəvi ailə münasibətləri sistemini saxlayan - Koreya Respublikası(o vaxtlar o aqrar cəmiyyəti sayılırdı) üçün xarakterik olan xüsusiyyətləri - öz əksini tapmışdır. Sonrakı əsərlərində o - müasir Cənubi Koreya cəmiyyətində - ənənəvi ailə davranış nümunələrinin fəaliyyətinin sxemini - ətraflı şəkildə araşdırır.***

İngilis dili nəşrlərində *o* - Qərb oxucusu üçün ***ilk dəfə olaraq Koreya ailə quruluşunun mühüm xüsusiyyətlərini göstərdi***. ***Ənənəvi Koreya mədəniyyətinin mühüm aspektlərinin öyrənilməsində -onun əsərləri- hələ də aktualdır.***

***Ənənəvi Koreya ailəsində münasibətlər sisteminin inkişafında Çindən götürülmüş neo-Konfutsi prinsiplərinin mühüm rolunu göstərən Li Kvanq-Kyu bununla belə, ailənin xüsusi Koreya formasına xas olan - bir sıra mühüm xüsusiyyətlərini qeyd edir, burada - ailə daxilində müəyyən davranış münasibətlərinin formalaşmasına nəzərəçarpacaq dərəcədə təsir edən - Koreya ailə formasıdır və qohumluq sistemidir. Onlar - kiçik Koreya ailə daxilində - ünsiyyətə, həmçinin miras sisteminə aiddir***. Araşdırma kontekstində *koreyalı alimin* ***məhz bu düşüncələri-xüsusi maraq doğurur.*** O - ***Koreyada "ata-oğul" münasibətlərinin*** aşağıdakı ***xüsusiyyətini qeyd edir***: ***yalnız əcdadları ilə eyni qan axdığı şəxsə - ata-baba ibadət mərasimini yerinə yetirmək üçün vacib hüquq verilir***. Təbii ki, *oğlu* da, *qızı* da - *atasının övladlarıdır, amma qız - ərə gedəndən sonra, ərinin evinə getdiyi üçün - birbaşa olaraq, atasının ailəsindən kənarda qalır və o-atasının qohumluğundan çıxır.* ***Koreyada oğul- təkcə atanın davamçısı deyil, o - həm də onun bədəninin və ruhunun bir hissəsi olduğu sayılır. Oğul- atanın yeni təcəssümüdür, onun həyatını davam etdirir və onun ölümündən sonra - onun fəaliyyətini davam edir.***

Burada ***Li Kvanq Kyu***-yaya görə, ***qadının*** - *tarlaya bənzədilməsi ilə bağlı arxaik fikirlər öz əksini tapıb*. Əgər bu

tarlada buğda əkilsə, onda buğda çıxacaq, əgər düyü əkilsə - düyü bitəcək. "Hər ata - bir oğulda təcəssüm edilir və hər oğul isə, hadisələrin düzgün gedişatında - ata olacaq. Oğul - öz əcdadlarının təbii məhsuludur və o - ənənəvi olaraq, doğulacaq nəslinin öz əcdadına çevrilir" [4, s. 53].

***Atadan - oğula böyüklüyun verilməsi, onun hazırlığı və varisiyin tərbiyəsi - uşaqlıqdan başlanır. Ailədaxili ünsiyyət - böyük oğlunun xüsusi statusunu vurğulayır.*** *Yemək yeyərkən* ***-yalnız böyük oğula- kişi cərgəsindəki yaşlı nəslin nümayəndələri, ata və baba ilə - eyni masada oturmasına icazə verilirdi; evladlardan yalnız böyük oğul - tapşırıq və istiqamət ala bilərdi. Çox kiçik yaşlarından böyüklərlə ünsiyyət - uşağın özünüdərketməsinin artmasına kömək edirdi. Beləliklə, böyük oğul uşaqlıqdan situasiyaya uyğun- davranmağı, müstəqil qərar qəbul etməyi öyrənirdi.*** [8, s. 168].

*Kiçik yaşlarından* ***böyük oğul - atasına hörmət əlaməti göstərməli idi.*** *Bu - qarşılıqlı məsuliyyətdən irəli gəlirdi: ata- oğluna həyat verir, onun insan olmasına kömək edir, oğul isə -onun əvəzinə- hörmətli davranışla cavab verir. Məsələn,* ***oğull atası ilə görüşəndə-" col" adlanan- tə'zimlə - başını, belini dərin əyməli və qarşılamalı idi. Oğul atasının yanında - siqaret çəkə və spirtli içki içə, ayaqlarını uzadıb otura, arxası üstə uzana bilməzdi. Bu - azad, sərbəst hərəkətlər qadağası – oğulun - atasına hörmət və ehtiramının ifadəsi idi. Anası və ya qardaşları ilə ünsiyyət qurarkən****, belə hərəkətlərə -icazə verilirdi, buna görə də* ***oğul özünü -anası ilə daha təbii və azad hiss edirdi.***

***Qardaşları ilə münasibətdə -böyük oğlunun da xüsusi yeri var idi. Kiçik qardaşlara*** *- böyük qardaşa xüsusi nəzakətli,hörmətlli nitqlə müraciət etmək tapşırılırdı. Valideynlər uşağın özünüdərk hissini artırmaq üçün -böyük oğlunu təkcə öz səhflərinə görə deyil, həm də kiçik qardaşlarının səhflərinə görə də cəzalandırırdılar. Beləliklə, uşaqlar arasında xüsusi münasibətlər sistemi formalaşdı,* ***burada böyük oğul - aparıcı rolu tuturdu, bu da gə-***

***ləcəkdə ailə münasibətlərini daha da möhkəmləndirməli idi*** [8, s. 163–164].

***Böyük oğlun evliliyi*** *də ailə və bütövlükdə bütün patronik (ata) qrupu üçün xüsusi əhəmiyyət kəsb edirdi.* ***Evlilik - hər bir Koreyalının həyatında - vacib bir an idi. Ənənəvi Koreya hüququ normalarına görə, nikaha daxil olan gənc - yetkin sayılır və cəmiyyətin tamhüquqlu üzvü olur. Xüsusilə qeyd etmək lazımdır ki, nikahdan sonra böyük oğul və arvadı -valideynlərinin evində yaşamağa, kiçik qardaşların ailələri isə - nikahdan sonra - ata evini tərk etməli olmalıdılar.***

***Böyük oğlun xüsusi statusu - əmlakın varisliyində özünü göstərirdi.*** *Uşaqlar - yetkinlik yaşına çatana qədər* ***məişət məsələlərinin çoxunu - yalnız ata həll edirdi. Böyük oğlu evləndikdən sonra - ata, bir qayda olaraq, yalnız böyük oğlu ilə məsləhətləşdikdən sonra - müəyyən qərarlar verməli idi.*** Bir müddətdən sonra - ata işlərdən uzaqlaşır. ***Çox vaxt, atanın 60 yaşı tamam olduqdan sonra böyük oğul - ailə başçısı olur. Qardaşların ailəsi ilə valideynlərinin evində birgə yaşamalarına baxmayaraq, böyük qardaş - əmlaka, mülkə, təsərüfat işlərinin gedişinə- özü baxırdı*** [10, s. 336].

***Atanın ölümündən sonra - böyük oğul- mülkün əsas varisi olurdu. Valideynlərin ölümündən sonra - əmlak bölündükdə, böyük oğul - evi və mirasın böyük hissəsini alırdı. Ailədə iki oğul varsa, böyük oğul - əmlakın 2/3 hissəsini, kiçiyi*** *isə* ***- 1/3-ni, ailədə üç oğul varsa, böyüyə - yarısını 1/2, kiçiklərinə*** *isə* ***- ¼ dörddə bir hissəsini alırdılar***. Bir sözlə, ***böyük oğul*** - *əmlakın və evin çox hissəsini*, ***kiçik qardaşlar*** isə - *yalnız əmlakın qalan hissəsini bölərək onu alırdılar və həyatlarında müstəqil olaraq, özləri üçün - yeni ev tikməli idilər.* ***Əmlakın böyük hissəsini - böyük oğluna verilməsi və onu varis etməsı - onun atasının ölümündən sonra - ailə başçısı rolunu və nəticə olaraq, bu statusla ona həvalə edilmiş vəzifələri əldə etməsini izah və təsdiq edir.***

Yuxarıda qeyd edildiyimiz kimi, **ailə başçısına** - ***maddi xarakterli (icazəsiz satışı qəti qadağan olunmuş evə qulluq etmək, qonaq qəbul etmək, yaxın qohumlara kömək etmək) vəzifələri***

***yerinə yetirməklə yanaşı, həm də <u>mənəvi-əxlaqi vəzifələr qoyulmuşdur: əcdad kultu ilə bağlı ayinlərin icrası</u>.***

***Əcdadların ruhuna sitayiş mərasimi*** - müqəddəs məna ilə yanaşı, ictimai xarakter daşıyırdı: ölkənin müxtəlif yerlərində yaşayan patronimik/ ata qrupunun üzvləri - belə mühüm mərasimlərdə görüşürdülər (bu mərasim- kollektivin birliyinə kömək edirdi).

***Evləndikdən*** *və bir neçə il valideynləri ilə birlikdə yaşadıqdan sonra* - ***kiçik qardaşlar*** - öz evlərinə köçürdülər. Bu - onların əsas evdən - iqtisadi və sosial müstəqilliyini nəzərdə tuturdu. Bununla belə, onlar -böyük qardaşın evi ilə mənəvi bağlı idilər, çünki ata, baba və digər əcdadların ruhlarına sitayiş mərasimləri - məhz böyük qardaşın ailəsində keçirilirdi. Məsələ burasındadır ki, ***əsas ailə statusu olmayan ailələrdə, yəni kiçik qardaşların ailələrində - əcdadın ruhuna sitayiş mərasimləri - keçirilmirdi. Buna görə də, ailənin birinci nəslin kiçik üzvləri - əsas ailədə mərasimlərin icrasında iştirak etməli idilər. Kiçik qardaşların evlərində mərasimlər - yalnız özləri öldükdən sonra keçirilməyə başlanırdı. Belə mərasimləri - onların böyük oğulları edirdilər. Bir sözlə, kiçik qardaşların evlərində mərasimlər - yalnız nəsli(oğulları) olanda keçirilməyə başlanıdı.***

***<u>Müasir Koreya Respublikasında - ayrı,müstəqil ailəyə aktiv keçid var.</u> Getdikcə gənclər daha çox öz ailələrini quraraq, müstəqil həyata başlamağa çalışırlar. Bu - daha çox sosial münasibətlərin fərdiləşməsi ilə bağlıdır***. Bununla belə, ***ənənəvi ailə quruluşu - Koreya cəmiyyətində hələ də çox şeyi müəyyənləşdirir.***

***Müasir Koreya Respublikasında - böyük oğlun - valideynlərindən ayrı yaşaması- artıq norma hesab edilsə də, bu hadisəni tam olaraq kiçik qardaşların yaratdığı kimi - ayrıca ailənin formalaşması adlandırmaq olmaz. Müasir cəmiyyətdə kiçik qardaşlar kimi - böyük oğlunun ayrıca yaşayış yeri - ayrı ailənin formalaşmasından fərqlənir. <u>Ayrı-ayrılıqda yaşayan böyük oğul - ata-anasının qayğısına qalır, müəyyən günlərdə əcdadların ruhuna - qidalanma mərasimini keçirir.</u> <u>Lokalizasiya nöqteyi-nəzərindən - ailənin yaşayış yeri dəyişir, lakin münasibətlər sistemi – olduğu kimi qalır.</u> <u>Bu baxımdan həyat tərzindəki dəyişik-</u>***

***liklərin təsiri altında - ənənəvi ailə formasının modifikasiyası haqqında danışmaq olar.***

*Təkcə özü ilə deyil, həm də cəmiyyətlə - ahəngdar yaşama - gündəlik yaşamaq üçün zəruri olan rahatlıq və mənəvi sabitlik hissinin yaranmasına əhəmiyyətli dərəcədə kömək edir.*

***Koreyada ailənin harmoniyası və ailənin davamı - bəşər cəmiyyətinin dayandığı təməlləri hesab olunur.*** *Bu arada cəmiyyət, mahiyyət etibarilə,- ailənin əsasını təşkil edən- münasibətlərin maksimum genişlənməsindən başqa bir şey deyil.* ***Koreyanın sosial ideologiyası - ailə yönümlüdür. Bu o deməkdir ki, bütövlükdə ailənin firavanlığı və varlığı - onun fərdi üzvünün şəxsi xoşbəxtliyindən və uğurundan yüksəkdir. Koreya cəmiyyətində ailəyə bağlılıq - təbii qəbul edilir. Ənənəvi Koreya ailə ideologiyası - kollektivizmə əsaslanır, bu da fərddən - fərd kimi deyil, statusuna uyğun davranmağı tələb edən ailənin bir elementidir. Beləliklə, fərd - ancaq ailə çərçivəsində mövcud ola bilər.***

**Mövzu ilə bağlı ədəbiyyat**


1.Lik Su.Koreya xalqının qızıl sözləri,SPB,-2003.

2..İonova Y.B.Koreyada adət-ənənələr və onların sosial funksiyası.XIX-XXə.əvvəli,Moskva-1982.

3.Confusianism and the Family/ Ed. by Slote Walter H.N.Y.,-1998(Konfutsiçilik və ailə/redaktor S.Volter H.N.Y.,-1998 ).

4..Lee Küang-kyu. Comporative Studies on Korean Family,Language and Culture,- Daegu,2003.( Li Kvanq Kyü. Koreya Ailəsi, Dili və Mədəniyyətinin Müqayisəli Tədqiqatları,- Daequ,2003.)

5. Lee Küang-kyu. Corean family and Kingship,Seoul,1997.( Li Kvanq Kyü. Koreya ailəsi və kral ailəsi - Seul,1981 )

6.Li Kvanq Kyü. Koreya ailəsinin psixoloji problemi, Seul,1981.( Li Kvan Kyü. - Seul,1981)

7. Li Kvanq Kyü. Koreyada ailə.,- Seul,1999.

8. Li Kvanq Kyü. Müasir Koreya ailəsinin dərk eidilməsi,Seul,1996.

9. Çönxön kəndi: kənd və həyat haqqında hekayələr.,- Seul,2004.
10.Çxe Gi Xo. Gündəlik etiketdə Şəxsiyyətin tərbiyyəsini həyata keçirilməsi haqqında tədqiqat, - magistr dissertasiyası, - Çoson Universiteti,-1995.
11..Hvan Son Mo. Etiketin və ənənənin müasir mənası, Mənəvi mədəniyyət, - payız,- Seul,1982.
12. Samsonov D.A. Böyük oğlunun statusu haqqında:ənənə və müasirlik//Koreya: yeni üfüqlər, - Moskva, - 2005,- s.142-148.
13. Samsonov D.A.Koreya etiketı: etnoqrafik tədqiqatın təcrübəsi,-SPb,-Elm.-2013.(Kunstkamera Petropolitana).
14. Tolstıh İ.N.Koreya mədəniyyəti:ənənələr və müasirlik,-dərs vəsaiti, - Vladivostok Dövlət İqtisadiyyat və Servis Üniversiteti,- Vladivostok VDİSU-nəçriyyatı.

**Suallar:**

1.Koreyada ailə: kişinin və qadının yeri, vəzifələri, işlərin təyinatı.

2. Yeni qurulmuş ənənəvi Koreya ailəsində - ərin və arvadın rolu.

3. Li Kvanq Kyu tədqiqatlarında Koreya ənənələri, ailə münasibtləri haqqında - fikirləri. Koreyada ***patronik (ata) qruplarının*** keçdiyi yolun quruluşunun xüsusiyyətləri, həmçinin qədim dövrlərdən bu günə qədər ailədaxili münasibətllər.

3. Koreya klassik ailəsində - valideyinlərin statusu; ata - böyük oğlun, böyük oğlun - kiçik qardaşları ilə münasibətləri, ailədə - onların rolu; əmlakın bölünməsi.

5.Müasir Koreyada –ailə münasibətləri.

**Sərbəst mövzular:**

1. Koreya ailəsinin formalaşması və inkişafının xüsusiyyətləri.

2. Ənənəvi Koreya ailəsində - ənənələr.

3.Müasir Koreya ailəsi və ənənvi dəyərlər.

*Əlavə*

**Koreya qohumluq sistemi**

Davranış qaydaları, eləcə də ümumilikdə sosial təcrübə- Koreyalılar ailəsində dərin dərk edilir. Hər hansı digər mədəniyyətdə olduğu kimi, ailə də nəsildən-nəslə ötürülən ənənəvi Koreya dəyərlərinin əsas qoruyucusu kimi çıxış edir. Bildiyimiz kimi, uşaqların ilkin sosiallaşması - məhz ailədə baş verir, insanın bütün həyatı boyu davranışına güclü təsir göstərən- ideoloji münasibətlər formalaşır. İnsan cəmiyyətin sosial həyatına daxil olduğu üçün uşaqlıqda öyrənilən iyerarxiya/təbəqələşmə, dərəcələr və davranış normaları anlayışları - ailə daxilində inkişaf edən qanunauyğunluqlar əsasında qurulan sosial münasibətlərə keçir: bu müxtəlif nəsillərə mənsub - insanlar arasında müəllim və tələbə, tabe və rəis, vətəndaş və dövlət münasibətidir. Bu - xüsusən də Koreya cəmiyyətinin həyatında ənənəvi dəyərlərin daşıyıcısı kimi- ailənin böyük rolunu izah edir.

Ailə daxilində bu və ya digər davranış sxemini təsvir etmək və təhlil etmək üçün - ***Koreya qohumluq sisteminin*** əsas prinsipləri haqqında qısaca danışmaq lazımdır.

**Qohumluq sistemi** dedikdə, ***o - ayrılmaz bir quruluşda təşkil edilmiş və xüsusi terminlərlə işarələnən - qohumluq münasibətlərinin məcmusu başa düşülür*** [1].

Qeyd etmək lazımdır ki, *yerli Koreyaşünaslıqda qohumluq sistemlərinin problemləri - ətraflı öyrənilməmişdir*.

Bildiyimiz kimi, *qohumluq sistemlərinin problemləri ilə bağlı hər hansı bir tədqiqat* - mürəkkəb materialı tam işlətməyə və qohumluq məsələlərinin bütün müxtəlifliyini aşkar etməyə imkan verən - **çox ciddi terminologiyaya malikdir**.

Yerli koreyaşünaslıqda bu mövzunun işlənilməməsi səbəbindən hal-hazırda koreyalı anlayışların köklü tərcümələri və yerli etnoqrafiyada qəbul edilmiş terminlər çərçivəsində şərhləri yoxdur. Beləliklə, ümumən Koreya qohumluq sisteminin təsvirinin və bəzi terminlərin istifadəsinin sadələşdirmələrdən azad olma ehtimalı güclüdür.

Koreya cəmiyyətinin əsas sosial institutları haqqında bir neçə söz demək lazımdım.

Koreyada XX-ci əsrin əvvəllərinə qədər ölkənin iqtisadi və siyasi həyatında - ***böyük ailə birlikləri*** – **yani :patronimli,ata adlı, ortaq bir kişi əcdadından aparıcı nəslin yaranmasında - ata şəcərəsi - əsas və böyük rol oynayırdı.** [2, s. 894].(Qeyd etmək lazımdır ki, müasir Cənubi Koreya cəmiyyətində belə ailə birliklərinin rolu və əhəmiyyəti öz aktuallığını itirməmişdir.).

***Belə ata adlı qrupları - Koreyada*** 종족(宗族) [***çonqcok] adlanırdı*** (*Bu sözün Koreya-Azərbaycan lüğətində olan əsas mənası -* ***"nəsl"*** *deməkdir. Məişət etnoqrafiyası ənənəsində "****nəsl****" anlayışının təfsirinin mürəkkəbliyini nəzərə alaraq, yuxarıdakı termini "ata adlı qrupu" kimi şərh etmək olar, xüsusən də Koreya dilinin izahlı lüğəti və s. ixtisaslaşdırılmış lüğətlərdə bu termini- bu cürə şərh etməyə imkan verən qaydaları var*.).

Koreyalılar - belə qruplara mənsub olduqlarını – dərk edirdilər. ***Bu - təkcə*** 성**(姓)** ***[sonq(= oğul)] soyadının mənası açmırdı, o - həm də*** **uzaq əcdadının gəldiyi ərazinin adını nəzərdə tuturdu**, ***bu da Koreya dilində*** 본(本) **[bon ]** ***adlanırdı*** [3, s.284].

Eyni soyadların yaranması - yerini təyin etmək zərurətindən yaranmışdır, bu - vahid Şilla dövründə (e.ə.680-918-ci illər) müxtəlif ailələrin eyni Çin soyadlarını qəbul etməsindən sonra başlanmışdır [3, s. 273].

Belə bir ***ata adlı qrupu(ata qrupu)*** daxilində münasibətlərin qurulmasının əsas prinsipi - ***kişi nəsillərinin böyüklüyü və ailədə oğlunun, kişinin doğulmasından irəli gəlirdi***. Ata adlı qrupu daxilində ailələr arasında münasibətlər - iyerarxiya/təbəqələşmə və tabeçilik əsasında qurulmuşdu, bu da nəsildən-nəslə uşaqların yalnız ataları ilə əlaqəsini nəzərə alan qohumluğun hesablanması üçün ataxətti qaydasına əsaslanırdı***. Beləliklə, nəsillər və əcdadlar arasında davamlı əlaqə - yalnız kişilər tərəfindən qorunurdu***.

***Hər bir ata adlı qrupu -*** 족보 ( 族譜 ) ***[çokbo] - öz şəcərə kitabını saxlayırdı. Bu kitablarda - ailənin tarixi haqqında məlu-***

***matlar göstərilirdi: ilk əcdadı, onun doğulduğu yeri, xidmətləri və yaxın övladları haqqında məlumatlar var idi. Çokbo-da - görkəmli əcdadlarının bütün xüsusiyyətləri, fərqləri, məziyyətləri, şücaətləri qeyd edilirdi, bundan əlavə, bu kitablara - ailənin yeni doğulmuş üzvləri də daxil edilirdi. Belə kitablar - bu gün də böyük əhəmiyyət kəsb edir və indi də böyük məna verir. Müasir Koreya Respublikasında belə şəcərə kitablarının kütləvi nəşri ilə məşğul olan cəmiyyət var.***

***Çonqcok*** - ata adlı qrupunun əsas struktur elementi - 소종 (小宗) [***soconq***] - özünməxsus qruplar idi. Bu terminin hərfi tərcüməsi -"***kiçik nəsl***"dir. Bununla belə,yuxarıda qeyd etdiyimiz kimi, "***nəsl***" anlayışının şərhində məlum mürəkkəbliyi dərk edərək, bu termini - "***qohum qrup***" kimi təyin etmək məqsədəuyğun olar.

Belə bir ***ailə qrupu – dörd əsas- yüksələn nəsli və dörd yan xətti birləşdirirdi***. Belə qohumluq qruplarının müəyyən edilməsi - Koreyanın dördüncü qohumluq dərəcəsinə qədər olan qohumlar üçün ***anım mərasimlərinin keçirilməsi ənənəsi ilə bağlıdır.*** Mərasimlər - ***"sədan"*** adlanan xüsusi otaqlarda - dədə-baba məbədlərində qeyd edirlirdi. Belə ***qohumluq qruplarının*** *adları* 당내 (堂 内 ) [*tanqne*] (hərfi. "məbədin daxilində") - buradan gəlir.

***Soconq/tanqne*** üzvləri - yaxın qohumlar hesab olunurdu. ***Soconq/tanqne*** -nin bir hissəsi olan *ailələrin hüquqi, sosial və böyük ölçüdə iqtisadi statusu*- onların - tabe ailələrin, bir ortaq əcdadın birbaşa və yan kişi *nəslinin mürəkkəb sistemində - tutduqları yerdən asılı idi.*. Bir ***Soconq/tanqne*** daxilində - ailələr arasında münasibətlər- bütövlükdə ata adlı qrupunda olduğu kimi eyni prinsipə əsaslanaraq qurulmuşdur: ***ata-xəttli qohumluq hesabı - kişi nəsillərinin birinci doğulan oğlu ilə bağlı ailələrin iyerarxiyasına/təbəqələşməsinə əsaslanır.***

Ailə quran və ərin ata qrupunun üzvü olan **qadınlar**- öz qohumları ilə əlaqəni kəsmirdilər. Onlar ***"sonq"*** *adlanan* öz soyadlarının – saxlayırdılar, onunla yanaşı - Koreya ənənəsinə görə, *uzaq əcdadının yarandığı ərazinin adı da* - "***bon***" çəkilirdi. [4, s. 96].

***Soconq/tanqne*** qohumluq qrupunun əsasını - bir neçə nəsil birləşdirən - *həyat ailəsi* təşkil edirdi. Məhz o - bu qohum birliyin lokallaşdırılmış hissəsi kimi xidmət və onun mühüm struktur nüvəsini təşkil edirdi, o müxtəlif iqtisadi, məişət və əmək məsələlərinin təşkilində aparıcı rol oynayırdı, **o** - əslində ***böyük bir ailə icmasını təmsil etmişdir***.

Belə bir cəmiyyətin üzvləri - yaşlı valideynlər və həmişə valideynləri ilə birlikdə yaşayan, evi və əmlakın çox hissəsini miras ğötürən - ***böyük oğlunun ailəsi ola bilərdi***, çünki bu, ***Koreya ailəsində başçılığın əsas əlaməti olan*** - ***birinnci doğulan oğulunun varisliyi idi***. [5; 6; 7; 78]. Bəzən bir neçə evli oğulunun ata evində birlikdə yaşaması - ümumi təsərrüfat idarə etməsini təsdiq edirdi. Lakin bir neçə evladdan ibarət ailənin ata evinin damı altında birgə yaşaması- müvəqqəti xarakter daşıyırdı. Gec-tez kiçik uşaqlar -öz ata-ana evlərini tərk etməli idilər. Bu- müstəqil həyatı təşkil etmək üçün kifayət qədər vəsaitı aldıqdan sonra baş verirdi. Çox vaxt müstəqil bir həyat qurmağın səbəbi- bir uşağın doğulması idi. Kiçik oğlunun valideyn evində qalma müddəti: 3 ildən - 10 ilə qədər çəkə bilər. ***Lakin o - istənilən halda ata evini tərk etməyə məcbur olmalı idi***.

***Ata*** - ailənin başçısı idi. *Onun vəzifələrinə* - ***ən yaxın qohumların qayğısına qalmaq, ailənin birliyini qorumaq, qonaqları qəbul etmək və ailə qəbiləsinin əcdadlarının kultunu yerinə yetirmək – daxil idi***. ***Valideynlərlə yanaşı, böyük oğul da ailədə- əsas mövqe tuturdu***.

Erkən uşaqlıqdan Koreyalı - ozünu düzgün idarə etməyini öyrənir. Ən yaxın qohumları ilə ünsiyyət quraraq, həmsöhbətə -düzgün müraciət etməyə və vəziyyətdən asılı olaraq, özünü və həmsöhbətini - düzgün adlandırmağa alışır. Bunun əsasında əldə edilən bacarıqlar - istənilən təmasda - ünsiyyət etiketi normalarına əməl etməyə və münasibətlər sistemində tez bir zamanda düzgün istiqamət almağa imkan yaradır. Şəxsin statusunun formalaşmasında - onun sosial əlaqələrin ciddi şəkildə tənzimlənməsinə və nizamlanmasına gətirib çıxarır, onların istiqamətini müəyyənləşdirir: müəyyən bir vəziyyətdə bir insanın kimə münasibətdə - bö-

yük, kimə münasibətdə isə - kiçik rolunda, cəmiyyətin digər üzvlərinə münasibətdə - insana müxtəlif vəzifələr qoyur: o ona vəzifəsinə xas olan hüquq və imtiyazlar verir.

## Mövzu ilə bağlı ədəbiyyat:

1.Butinov N.A. Qohumluq tipologiyası // Etnoqrafiyada tipologiya problemləri. Moskva, 1979. S. 66–75.

2. Dünya xalqları və dinləri: Ensiklopediya. Moskva, 1998.

3. Li Kvanq Kyu. Koreyada nəsl və ailə . Seul. 1999.

4. Çho Hye Çjonq. Soyad, ailə və mədəniyyət. Seul, 1997

5. İonova Yu. V. Koreyada rituallar, adətlər və onların sosial funksiyaları. XIX-cu əsrin ortaları - XX-ci əsrin əvvəlləri,- Moskva, 1982.

6. Qurbanov S. O. Əcdadların ruhuna qurban vermə mərasimlərinin növləri, icra qaydası və mahiyyəti // Koreya Dili və Mədəniyyəti Mərkəzinin Xəbəri. 1997. Buraxılış. 2.S. 160–173

7. Janelli R. L. Ancestor worship and Korean society. Stanford, 1982. (Canelli R. L. Əcdadlara ibadət və Koreya cəmiyyəti. Stanford, 1982)

8. Lee Kwang-kyu. Korean Family and Kinship. Seoul, 1997. (Li Kvanq-kyu. Koreya ailə və qohumluq sistem;. Seul, 1997.)

## Suallar:

1.Ailə etiketində\ədəbində - davranış qaydaları.

2.Koreya qohumluq sistemində - əsas prinsiplər.

3.XX əsrin əvvəllərinə qədər böyük ailə birlikləri.

4.Ailədə ata-evladların rolu və xüsusiyyətləri, ailə və onun varislik qanunları.

## Mövzu 9.
## İCTİMAİ ETİKET/ƏDƏB.
## QEYİM ETİKETİ/ƏDƏBİ.
## KOREYA ETİKETİNİN/ƏDƏBİNİN KİNESTETİK (TOXUNMA) ASPEKTLƏRİ

### İctimai etiket\ədəb

***Ənənəvi Koreya cəmiyyətində insan davranışının sxemi və ona münasibət sxemi - onun statusu və ətrafındakıların statusu ilə sıx bağlıdır.*** Koreya cəmiyyəti - planetdə yaşayan bir çox başqa cəmiyyətlər kimi, həmişə ***müxtəlif istiqamətlərdə özünəməxsus status sərhədləri ilə kəsişib***, bəziləri - daha az görünən idi, digərləri isə -daha dəqiq görünürdü. Cəmiyyət daxilində *belə sərhədlər* - sosial orqanizmin mövcudluğu üçün vacib olan xüsusiyyətlərə əsaslanaraq çəkilirdi. Adətən ***bu xüsusiyyətlərə - cins və yaş, sosial status və sərvət səviyyəsi - daxil idi.*** Bir sözlə, bu- cəmiyyətin ahəngdar mədəni və sosial varlığı üçün - ən vacib idi. Məhz bu cür sərhədlərin vurğulanması – insanlar arasında ünsiyyət sxeminin seçiminə təsir etdi. ***Bu fərqləri əks etdirən və cəmiyyətin stratifikasiyasının/təbəqələşməsinin xarici göstəriciləri kimi çıxış edən etiket üsulların toplusuna aid olan :*** *salamlaşmanı müşayiət edən* ***- jest və duruşlar(pozalar)***, **ünsiyyət zamanı *özünü aparma bacarığı, habelə müvafiq xarici atributlar (papaqlar, üst geyimlərin kəsimi,tikilişi, paltarın rəngi və s.) - daxildir***. Beləliklə, müəyyən cəmiyyət üçün vacib olan qiymətləndirmənin - *sosial,* eləcə də *bioloji prinsipləri - ünsiyyət zamanı qiymətləndirmənin xarakterini simvolizə edir.* **Bu vəziyyətdə *etiket üsulları* - fərqli bir stratifimasiya (təbəqələşmə) stauslu sisteminin yaradılmasına təkan verən -** *qarşılıqlı uyğunluq əlaqələrinin formalaşmasına və müəyyənləşdirilməsinə kömək edən - bir* ***mexanizm kimi çıxış etməlidir.***

Sosiologiya elmdə olan ***"Stratifikasiya/Təbəqələşmə" termini*** - geologiyadan götürülmüşdür, burada o - yerin təbəqələrinin yerləşdiyi yerə aiddir. ***Sosial strasifikasiya (təbəqələşmə)*** - təxminən eyni sosial statusa malik olan müxtəlif sosial mövqeləri birləşdi-

rərək, cəmiyyətin xüsusi təbəqələrə (stratlara), qruplara və siniflərə bölünməsidir, və onlarda üstünlük təşkil edən - ***sosial bərabərsizlik ideyasını əks etdirir***, o - şaquli (sosial iyerarxiya) boyunca qurulur: bir və ya bir neçə təbəqələşmə meyarlarılə (sosial statusun göstəriciləri ilə) xüsusiyyətlənir.

Sistemlə bağlı ənənəvi Koreyanın təbəqələşməsinə aid maraqlı və faydalı materiallar – XIX-XX - ci əsrlərin sonunda Koreyaya səfər edən avropalı diplomatların və səyahətçilərin qeydlərində tapmaq olar. Misal üçün, Koreyada olan italiyalı diplomat ***Poccio M. A. "Koreya haqqında oçerklər"*** da ilk etnoqrafik araşdırma olan Koreya haqqında oçerklərində deyir: "***həyat yoldaşları eyni evdə birlikdə yaşasalar da, vaxtı ayrı keçirdillər: ər qonaqlarını – kişilər arasında qəbul edir, arvad isə bütün vaxtını- qadınlar arasında sərf edir.*** " [18].

***Yazılı Qeydlər - Koreya cəmiyyətinin müxtəlif təbəqələrinin canlı və parlaq təsviridir. Onlardan - bir insanın statusunun necə müəyyən edildiyi barədə fikir əldə edə biləcəyimiz mənbələr kimi istifadə edilə bilər.*** Müəlliflərin əksəriyyətinin peşəkar şərqşünas olmamasına baxmayaraq, onların təhsil səviyyəsi, diqqətliliyi, sözə hakim olması oxucuda - tədqiq olunan məsələ haqqında kifayət qədər geniş təsəvvür formalaşdırmağa imkan verir.

## Qeyim eiketi\ədəbi

***Milli geyimin*** inkişafı və formalaşması - koreyalıların hələ kifayət qədər öyrənilməmiş mürəkkəb etnomədəni tarixini əks etdirirdi. Şimalı-Şərqi Asiya ərazisindən köçmə ilə əlaqəli olan - *şimal* və koreyalıların etnogenezisində Kiçik Asiya dünyası ilə əlaqəli olan - *canub haqqında* elmdə irəli sürülən versiyalardır. Çox güman var ki, Koreya kostyumu ilə - *Sibir türk xalqlarının* və Şərqi Asiya xalqlarının geyimləri arasında da əlaqə var.

**Geyim** - insana xarici mühitin təsirindən qorunmaq üçün (bunun üçün o, heyvan dərilərindən və bitkilərdən istifadə edirdi), eləcə də bəzək üçün xidmət edirdi, bunu - insanların paltarlarını bəzəmək üçün istifadə etdikləri - çoxsaylı formalar, rənglər və naxışlar - min illər sübut edir. Bədəni bəzəmək ehtiyacı - paltarın

özündən daha əvvəl yaranmışdı, çünki geyimdən çox əvvəl -insanlar bədənlərini müxtəlif rənglərə boyayırdılar.

Əvvəlcə geyimin sehrli mənası var idi. Dişləri, pəncələri və caynaqları olan vəhşi heyvanların dərisini geyərək, insan bu heyvanların qüvvələrini sehr edə bildiyini düşünürdü [6. S. 5]. İbtidai cəmiyyətdə geyim və zərgərlik məmulatlarının hazırlanması -hər bir insanın şəxsi işi idi. Nəticədə, qəbilə icması daxilində daha bacarıqlı adam -möhtəşəm bəzəklərlə zəngin olan paltarlara sahib ola bilərdi [6.S. 6].





***Ənənəvi Koreya kostyumunun estetikası*** - materialın nəcibliyindən, məhsulların formasının və dizaynının sadəliyindən irəli

gəlir. ***Koreya kostyumunun iki hissədən ibarət bölgüsü*** (***qadınlar üçün*** - *üstündə* ***<u>çoqori</u>*** - *gödəkçə* və *altındakı* ***<u>çima</u>*** - *yubka*; ***kişilər üçün*** - ***çoqori*** *və* ***paci*** *şalvarları*) qədim zamanlardan bəri ona xas olub, o müəyyən bir ritmi və insan bədənin nisbətlərini ahəngdar şəkildə əks etdirir və gözəllik haqqında milli təsəvvürlərə cavab verir. Koreyalıların milli adət-ənənələri ilə rəqs plastikliyi arasındakı əlaqə- geyimin estetikası haqqında fikirləri ilə vasitəçi olur, çünki Koreya rəqsində - çılpaq bədəni – həm qadın, həm də kişi nümayiş etdirmək- ***qadağa idi və adət deyildi***.

***Koreya sözü olan "geyim" heroqlif qrafikasında*** - 옷감- ayaqları - bir-birindən ayrı, qolları - üfüqi şəkildə yayılmış bir insanın sxematik təsviri kimi görünür, yəni, o - ***dünyaya tam açıq olan insandır***. Bu heroqlif - Koreya əlifbasının ixtiraçısı, dövlət başçısı- **Kral Seconq** tərəfindən hazırlanmışdır və o - geyimin, onu geyənin xarakterini, insanların xarakterini əks etdirdiyini iddia edirdi.

*Ən məşhur ənənəvi rəqslərdən* biri olan - ***Buçeçum*** və ya ***Yelpiklər ilə rəqs'i*** ifa edərkən ***<u>rəqqaslar milli xanbok(hanbok) kostyumu geyinir</u>*** ***və əllərində rəngli lələkli yelpikləri tuturlar***. Yelpiklərin köməyi ilə “dalğa”, “çiçək” və digər rəngarəng elementlər yaradılırdı” [7], *lakin bu məsələnin bütün diqqəti*- ***Koreyada geyimin|kostyumun böyük rolunu vurğulamağa yönəldilib,*** yəni: ***<u>xanbok(hanbok) - Koreya xalqının ənənəviliyin simvoldur, onun mədəni dəyərlərinin qorunmasıdır və xüsusiyyətlərinin, fərdiliyinin ifadəsidir</u>***. ***<u>Kostyumun\geyimin tarixi- özünəməxsus şəkildə maraqlı və unikaldır.</u>***

Əvvəllər ***xanbok(hanbok)*** - isti havada sərinlik hissi verən, soyuq havada isə - istiliyi saxlayan çətənə parçadan hazırlanırdı. ***<u>Sarımtıl təbii rəngli çətənə xanboku - həyatın bütün təbəqələri tərəfindən geyildi: həm qəbilə zadəganları, həm də yoxsullar.</u>*** Lakin ***eramızın 1-ci minilliyinin sonunda Koreyada zərif Çin ipəkləri meydana çıxdı, bu da tezliklə zadəganlar və məmurlar üçün paltarı hazırlamaq üçün üstünlük təşkil edən parça oldu.*** XIV-XV əsrlərdə koreyalılar ***pambığı*** becərməyə başladılar və ***pambıq xanbokları(hanbokları) - bütün siniflərin yaz paltarı kimi geniş yayıldı.***

***Ənənəvi xanbok(hanbok) kostyumu*** - Yapon və Çinli həmkarlarından-əhəmiyyətli dərəcədə fərqlənir, onun görünüşü və daxili obrazlı mənası, mesajı - milli Koreya mədəniyyətinin xüsusiyyətlərini başa düşmək üçün açardır. ***Geyimdə - insanların özünün həyat tərzini və xarakterini izləmək olar.*** "**Xanbok**"/ ***"hanbok"*** adı - çoxmənalı və yığıcamdır (***onun semantik mənası "Koreya kostyumu"- buna dəlalət edir***), ***o - həm kişi, həm də qadın geyimində istifadə olunur.*** [1. S. 11].

***Bu sözün mənasında - köhnə Koreyaya xas olan bir çox geyim növləri var***.

***Xanbok(hanbok)*** - *koreyalıların ənənəvi geyimidir, onların xüsusi milli ruhunun təbii və əvəzolunmaz xüsusiyyətidir*. Elə günlər olur ki, sanki bütün koreyalılar xanbok(hanbok) geyinir. Belə günlərin birində, *dövlət bayramı olmayan* - ***Buddanın doğum günündə*** - **xanbokı(hanbokı) geymiş** və ***rəngli kağız fənərlərlə çıxmış*** yüz minlərlə koreyalı - ölkənin əsas stadionlarından birində toplaşır. Buddanın həyatından - folklor səhnələri olan müxtəlif bayram arabalarında və xüsusi konstruksiyalarda - bütün karnaval atributları ilə ritual nitqləri və nəğmələri ifadə etdikdən sonra - hamı bir çox kilometrlı yollarla dolaşıaraq, şəhəri gəzir [17. S. 288].

***Koreya xanbokun(hanbokun)- quruluşu - iki hissəyə bölünür - yuxarı və aşağı***: *o kainatda mövcud olan hər şeyin dualizmi(ikiliyi)* - ***ım*** və ***yan-ı***(Çin. ***İn*** və ***Yan***-a uyğundur) *haqqında kosmoloji fikirləri əks etdirir(burada həmçinin zərdlüştliyin iki antoqonist –"xeyir" və "şər" fikirləri də əks olunur).* ***Üst hissəsi***-həm kişi, həm də qadın variantında - eynidir. ***Xanbokun***(***hanbokun***) əsasını - sərbəst yellənən *kaftan* təşkil edir, onun önü - açıqdır və insanın cinsindən asılı olmayaraq, sağ tərəfdə enli lentlə - yani ***qorım kəməri*** ilə bağlanır. ***Qorım*** - təkcə funksional element deyildi. ***Kəmər*** – geyimdə - *rənglərinə görə fərqlənərək, dekorativ bəzək rolunu oynayırdı*. Avropa kostyumu üçün xarakterik olan geyim detallarının(bağlayıcıların yerləşməsi) - kişi və qadına ciddi şəkildə fərqləndirilməsi - ***xanbokda***(***hanbokda***) mövcud deyildi. Ümumiyyətlə, ***Uzaq Şərqdə geyim tendensiyaları - həmişə fərqli müstəvidə olub, onlar - məşğuliyyət və sosial statusu mü-***

***əyyən edən, insanın hansısa bir dinə mənsubluğunu və s.aid olduğunu göstərib və göstərir***.

**Li sülaləsi** (1392-1910) ***dövründə inkişaf etmiş <u>xanbokun (hanbokun) qadın variantı</u>*** - sinə səviyyəsinə qaldırılmış beli olan *uzunsov paltar* və ya ***<u>çima</u>*** - yüksək beli olan *uzunsov yubka* ilə birləşdirilmiş *qısa enni bluza(kofta)-**<u>çoqori</u>*** idı. Həcmli siluet effekti yaratmaq üçün - ***<u>çimanın</u>*** altında - *bir neçə yubka* geyilir. ***<u>Çima</u>*** - sinə altında hündür kəmərlə bağlanır və dabanlara qədər büzmələr şəklində(skladkalarla) enir. Kətan və ya pambıq parçadan hazırlanmış qısa və ya uzun geniş *şalvarları (**<u>qocenqi</u>***) - yubkanın və ya paltarın altından geyiilirdi. Onlar - alt paltarı kimi xidmət edir və sanki ***çoqori*** *koftasının/bluzasının* davamıdır. Koftanı bərkidmək üçün - *<u>bant şəklində parlaq parçadan bir lent tikilir</u>*. Ehtimal olunur ki, ***bu cür geyim - Koreya qadınlarına xas olan - qadın fiqurunun çatışmazlıqlarını gizlədir və onların ləyaqətlərini maksimum dərəcədə vurğulayır, o - qadınların yerişini və hərəkətlərini yumşaq və zərif edir, üstəlik, belə uzanmış,- zəngə\gümbəzə bənzər yubkada - Koreyalı qadın - daha incə və hündür görünür*** [1. S. 11].

***Xanbok (hanbok ) - Koreya şəhər və kəndlərinin küçələrində və hətta Parisdəki moda nümayişlərində görülə bilən Koreya incəsənətinin ən əlçatan növüdür. Koreya milli <u>xanbok(hanbok)</u> geyimləri - müxtəlif parçalardan sifarişlə hazırlanır və istifadəçinin yaşından və şəraitdən asılı olaraq, müxtəlif rənglərdə ola bilər***. **<u>Qızlar</u>** - ***<u>parlaq qırmızı</u> <u>çima sarafan–yubkaları</u>*** **və** ***<u>rəngarəng zolaqlı qolları olan - qısa sarı çoqori koftaları/ bluzları</u>*** geyinirlər; **<u>gənc evli qadınlar</u>** - ***<u>qırmızı yubka və yaşıl koftalar/bluzlar</u>*** geyinirlər. **<u>Yaşlı qadınlar</u>** isə-***<u>müxtəlif canlı,parlaq rənglər və naxışlar arasından seçim edə bilərlər</u>***. **<u>Xüsusi təntənəli mərasimlərdə</u>** - ***<u>həm qadınlar, həm də kişilər - daha gözəl -geyinmiş,bəzənib-düzənmiş xanbok (hanbok) geyinirlər</u>***. ***<u>Soyuq mövsüm üçün</u>***- *ipəkdən və ya atlasdan xanbok (hanbok **)** tikilir, **<u>yaz-yay dövrü üçün paltarlar</u> isə** -yüngül parçalardan tikilir* [10. S. 39].

Koreya mədəniyyətində belə bir fikir üstünlük təşkil edir ki, ***xanbok (hanbok)*** - ölkənin iqlim şəraitinə ideal şəkildə uyğun

gəlir və o - milli estetikanın təcəssümüdür, ölçüsüz ***çima*** və ***paci*** (***yubka*** *və* ***şalvar***) isə milli xarakterə xas olan - genişliyi və emosional istiliyi ifadə edir. Bədən formalarını gizlədən və insan fiqurunu yuxarıdan aşağıya örtən bu kostyum - həm də ***Konfutsi cəmiyyətinin etik dəyər-normativ ideyalarını əks etdirirdi***, burada ***niyyətin düzgünlüyü və qəlbin təmizliyi - kişinin ən ali fəziləti, qadınlar üçün isə - pakizə davranış hesab olunurdu.***

***Çindən gələn dəbin*** təsiri ilə **Koreyanın** ***kişi zadəganları*** -**geniş şalvar və kəmərli jaketlər**, ***zadəgan qadınlar*** isə **-** ***uzun ətəkli yubka-şalvar və uzun jaketlar geyinməyə başladılar*** (bu *Üç Dövlətllərin dövrün sonlarına aiddir*). Sonralar - ***monqol modasının*** təsiri ilə **-** ***jaketlər qısaldı, yüksək belli yubkalar istifadə olundu***. XV-ci əsrə qədər - ***yubkalar*** - ***qoltuqların altından bağlanmağa başlandı***, ***jaketlər*** - ***qısaldıldı və o vaxtdan bəri qadınların xanbok (hanbok) paltarları - az dəyişdi***. ***Maili qollar, dar ağ yaxalıq və paltarın bir tərəfindəki bant - qadın xanbokunun((hanbokunun) gözəlliyini qiymətləndirən -üç elementi oldu.***






***Kişi geyimi/kostyumu*** - qadın kostyumundan onunla fərqlənir ki, ***çima*** - ***yubka*** əvəzinə - onlar geniş ***paci*** - ***şalvar*** *geyir,* həmçinin kişi - ***çoqori*** *koftasi*- qadınların ***çoqori*** koftasından - *uzundur və belə qədər çatır,* əslində ***o - uzunsov kaftandır. Alt paltarın forması- çoqori*** *və* ***pacinin*** *xüsusi variantlarından* istifadə edir. Əlavə olaraq, **cokki** - *jileti* və **maqoca** - *qısa pəncəyi* ilə tamamlanır.

***Kişi geyiminin*** əvəzolunmaz hissəsi - **baş geyimi** olub, o ***sosial vəziyyətindən asılı olaraq*** - *at tükündən* (***ənənəvi papaqqat***), *nazik bambuk hissəsindən, yağlı kağızdan* (***kalmo***) və ya *düyü samanlarından tikilirdi.* ***Kişilər saçlarını*** - sıx bir hündür düyünlə toplayırdılar və başlarının ətrafında **manqon** - *bir parça zolağını* bağlayırdılar. *Bu adət - kənd yerlərində indi də geniş yayılmışdır.* ***Pis havalarda və soyuq mövsümdə*** - *kişilər və qadınlar* ***xanbokun(hanbokun)*** üstündən - *qolsuz plaşı* - **durumagi** geyirdilər. *Zəngin insanlar üçün o* - pambıq və yunla astarlanırdı və üstü - xəz ilə bəzədilirdi. **Ayaqlara** - **poson** altlıqlarla örtülmüşdür *corablar* - geyirdilər. ***Ayaqqabılar*** - müxtəlifliyə görə fərqlənmirdi: *bunlar- parçadan tikmə-bəzəklə tikilmiş tapkalar* - **kotşin** adlanırdı, *saman çarıq ayaqqabıları* isə - **cipşin** adlanırdı. XX əsrin əvvəllərindən bəri *kauçuk və rezin ayaqqabılar* - **komuşin** - yayılmışdır.

***Təyinatına görə geyim- üç növə bölünürdü: məişət (adi məişət geyimi), ritual (bayram və ritual geyimi) və hərbi geyim*** [1. səh. 11–12].

***Koreya milli geyimində*** **rəng** ***-dərin simvolik məna daşıyır.*** **Ağ** - *ənənəvi olaraq,* ***gündəlik geyimlərin sevimli rəngi*** *hesab olunurdu.* Ondan əlavə, *geyimin əsasını* - **qırmızı, göy, qara və sarı təşkil** edirdi. ***Hər rəngin - özünəməxsus mənası var idi***: **qırmızı** -***xoşbəxtlik və zənginlik***, **göy (indiqo)** - ***davamlılıq,stabillik***, **qara** - ***sonsuzluq və yaradıcılığın əvvəli***, **sarı** - ***dövlət hakimiyyətinin nüfuzu, xarizması***, **ağ** - ***təvazökarlıq və saf düşüncələrin rəmzi idi.***

***Şənlik paltarları*** – ***kontrast(bir-birinə zidd)- rəngli parlaq parçalardan tikilirdi.*** Avropalılar üçün qeyri-adi olan **qırmızı-**

yaşıl-sarı rəng - *həmişə koreyalıların gözlərini sevindirib*. Ancaq **ağ** - ***ən məşhur rəng idi, çünki - təvazökarlığı və mənəvi düşüncələrin saflığını simvolizə edirdi***. **Rəngin - fərqli sosial simvolizmi, rəmzi *mövcuddur***: məsələn, **toyda** - *bəyin anası üçün* - ***göy paltar***, *gəlinin anası üçün isə* - ***çəhrayı rəng*** nəzərdə tutulurdu, *bluzanın yaxasının* ***pürrəngi rəngi*** - *qadının* - ***evli***, ***mavi manjetlər*** isə - *onun* - ***oğlu olduğunu bildirir***, ***sarı kofta, qırmızı yubka*** isə - ***subay qızların*** *(ərə getməli qızların)* görünüşü üçün- ***bayram bəzəyi kimi xidmət edirdi*** [10. səh. 272–274].

***Milli geyim - müxtəlif aksessuarlarla:*** *lentlər, pul kisəsi, cüzdanlar\ kulonlar və digər əşyalarla* ***tamamlanırdı. Çoson dövrünün zadəganları/ aristokratları - uzun saç üçün*** - *dekorativ lentlər* tikirdilər, *kişilər və qadınlar* üçün - *ipək pul kisələri* - ***pokcumoni*** tikmək üçün yüzlərlə saat sərf edirdilər. Onlar ***norige*** düzəldirdilər - o *yuxarıda bir ilgək və uzun ipək qotaz ilə asqılardır*, onlar- *koftanın/ bluzanın - bantın altından bağlanırdı.* Onun üzərlərinə - naxışlar vurulmuş və oyulmuş yaşma və ya kiçik gümüş xəncərlə bəzədilmişdir.

***Kişi aksesuarları*** - *əsasən at tükündən hazırlanmış sərt papaqdan* (bu cür papaqlar ***Şilla dövründən*** bizim əsrin əvvəllərinə qədər yayılmışdı) *və sinəsinə bağlanan-uzun ipək şnurdan ibarət idi*. Hal-hazırda - kişilər bu geyim elementlərindən- yalnız xüsusi hallarda istifadə edirlər [10. S. 96].

Müasir dövrdə ***milli geyimlər*** - *yalnız təntənəli mərasimlərdə - toyda, yeni il gecəsində və ya qohumun, tanışın 60- illik yubileyi ilə bağlı şənliklərində geyilir*. Amma yenə də ***xanboku(hanboku)*** demək olar ki, hər gün küçələrdə və metroda, xüsusən də daha çox ənənəvi paltar geyinən yaşlı insanlarda görmək olar [10. S. 39]. Bu onu göstərir ki***, bu gün ənənəvi milli geyimi geymək - koreyalıların öz əcdadlarının mədəni irsini qorumaq və möhkəmləndirmək istəyi ilə izah olunur. Xanbok(hanbok)*** - sosial əsasların toxunulmazlığını simvollaşdırdı, buna görə də *rəqs sənətində o- fiziki plastikliyi kimi, estetik təsirin bədii vasitəsidir*.

***XIX əsrin ikinci yarısından bu günə qədər Koreyada -Avropa yanbok kostyumu*** və ***Avropa modası yayılır***. Buna görə də, **Xanbok(*hanbok) - əsasən təntənəli və müqəddəs bir məna qazandı*.** Lakin ***o - ikinci doğuşunu - ənənəvi xoreoqrafiya sənətində aldı, burada koreyalılar - milli ənənələrə sadiq qaldılar və ənənəvi geyimlərini - orijinal formada qorudular. Xalq rəqslərindən başlayaraq- saray və ritual rəqslərə qədər - bütün rəqslər, məsələn Salpuri, Çoyon rəqsi, Bülbül rəqsi və s., - ciddi şəkildə ənənəvi geyimlərdə ifa olunur (rəqsin mənasını nəzərdə alınmaqla).*** *Müasir xoreoqrafiyada mühüm əhəmiyyət kəsb edən - müasir dövrdə ənənəvi rəqs sənətinə* - təbii ki, ***ənənəvi geyimə qayıdış var***. Biz bunu - *"**Yelpiklərlə rəqs**"də, "**Qılıncla rəqs"**də, milli baletdə "**Sadiq Çunhyanqın əfsanəsi**ndə və digər tamaşalarda müşahidə edirik.*

Ayinların, ritualların icrası - həm vizual - emosional təsiri olurdu, həm də - o - müəyyən funksional yük daşıyırdı. Demək olar ki, ***hər mərasim - öz geyimini tələb edi*rdi**. *Bəzən müəyyən rituallar, ainlar zamanı əsas gəhramanın paltarı - fantastik mənzərə kimi təqdim olunurdu, bu da hərəkətin özünün sirli kontekstində çox əhəmiyyətli idi.*

***Ənənəvi Koreya xanbok(hanbok) kostyumu*** (Şəkil 1)- *Yapon və Çinli həmkarlarından əhəmiyyətli dərəcədə fərqlənir,* ***onun görünüşü və daxili obrazlı mesajı - milli Koreya mədəniyyətinin xüsusiyyətlərini başa düşmək üçün açardır. Geyimdə - xalqın özünün həyat tərzini və xarakterini izləmək olar. Koreyalıların milli geyimlərində - Çin və hətta Türk, Monqol köklərinin təsirini görmək olar, lakin onlar - yerli iqlim şəraitinin, sosial-iqtisadi və siyasi amillərin, populyar zövqlərin və üstünlüklərin təsiri altında o qədər dəyişiblər*** ki, bu gün *kimono- yaponlar üçün olduğu kimi,* ***xanbok(hanbok)*** - koreyalılar üçün, Koreyanın müstəsna milli simvolu kimi səslənir. (şək. 1).



***Şək. 1. Ənənəvi xanbok/ hanbok***

***Qadın geyimlərinin*** **rəngi** - yaşdan asılı idi: *qızlar və gənc qadınlar*- parlaq parçalardan geyimlər tikirdilər: ***qırmızı, göy, yaşıl, sarı və s***.; *otuz yaşdan yuxarı qadınlar*- **bənövşəyi**; *yaşlı qadınlar* isə - əsasən ***ağ geyim geyə bilərdilər.*** Kəndli qadınlar iş üçün - **göy**, əsrin sonunda isə - ***qara qısa yubkalar*** geyirdilər. Qadınlar küçəyə çıxarkən, *başlarına - xalat atıb*, kənar kişilərlə

görüşəndə - xalatın ətəyi ilə üzlərini örtürdülər. Bu adət - daha çox *zadəganlar və şəhər əhalisi arasında yayılmışdır* [4].

***Ağ poson corabları*** və ***ipək naxışlı kotşin ayaqqabıları*** - xanımların paltarını tamamlayır (şək. 2,3).



***Şək. 2. Poson***



***Şək. 3. Kotsin***

***Uşaq paltarları*** - böyüklərin paltarlarını təkrarlayırdı. Uşaq yeriməyə başlayan kimi, ona ***şalvar və kurtka*** hədiyyə edirdilər. ***Qızların geyimləri beş yaşından sonra oğlanların paltarlarından fərqlənirdi.*** **Yayda uşaqlar** - *qısa kurtkalar* geyinib ətrafda gəzirdilər [3] (şək. 4).



***Şəkil 4.***

***Xanbok(hanbok)*** ***- müasir dünyada dəyişir, o - daha rahat olur və müasir koreyalıların həyatına dəbli və bahalı geyimlər hüquqilə daxil olur. Bu gün onu - yalnız bayramlarda və toylarda geynirlər.*** Cəmi bir neçə il ərzində Koreyalı moda dizaynerləri - gənclərin milli üslubunu - gündəlik geyimlər üçün ***xanboku(xanboku)*** inkişaf etdirə bildilər və bu - rahat, zərif kostyumlar - bol Koreya geyim bazarında tez bir zamanda özləri üçün yer tapdı və qazandı. Həm uşaqlar, həm də gənc qızlar, seçici modaçılar tərəfindən - modernləşdirilmiş ***xanbok***(***hanbok***) geyinməyindən məmnundurlar. "***Gündəlik xanbok***(***hanbok***)"-***un*** yeganə çatışmazlığı - onun yüksək qiymətidir. Parçanın rənglənməsi də, tikilməsi də - əl işilə həyata keçirilir, bu da təbii ki, qiymətdə özünü göstərir [1. S. 286].

***Nəcib qadınlar*** *təntənəli mərasimlərdə süni və ya üstəqoyulan kəsilmiş saçlar və şpilka ilə / uzun saç sancaqları ilə başlarına yüksək və mürəkkəb* ***saç düzümləri*** *düzəldirlər.* ***Tszian şəhəri*** *yaxınlığındakı* ***Koquryo yaşayış məntəqəsində*** aparılan qazıntılar zamanı - ***hər birinin uzunluğu 13 sm-ə qədər olan bir neçə zərli bürünc saç sancaqları tapılıb.*** "***Samquk saqi"-də qeyd edilir ki, kral ailəsi, zadəganlar və sadə insanlar - müxtəlif saç sancaqları - binyo–nı taxmalı idilər. Bu əlyazmaya görə, müxtəlif saç düzümləri və saç sancaqları taxmaq ənənəsi -Üç Dövlətlər dövrünə gedib çıxır. Yüksək saç düzümü edərkən - lentlər geniş istifadə olunurdu.***

***Saç düzümü və baş geyimləri*** - çox maraqlıdır. Əsasən ***nəcib xanımlar*** **saçda -** düz ayrılıq (probor) və saçları düz, hamar yığırdılar, saçın böyük hissəsi - başın arxasındakı bir düyün kimi bağlanırdı və ya hörük kimi-bouyn arxasında idi. Bu saç düzümü-saç sancaqları ilə bəzədilirdi (şək. 5).



***Şəkil 5. Saç sancağı***

***Koreyanın ənənəvi saç düzümləri - çoxlu sayda üstəqoyulan süni hörüklərdən ibarət idi;*** həmçinin, ***qiymətli metallardan hazırlanmış - xüsusi saç şpilkalardan*** və ***saç sancaqlarından*** istifadə olunurdu. (şək. 6).



***Şəkil. 6. Saray xanımının gündəlik saç düzümünün bir variantı. Qiymətli daşlar və yaşma ilə qızıldan hazırlanmış saç sancaqları ilə.***

***Gəlinin müasir toy saç düzümü - <u>khın mori</u> ("böyük saç***") ***- Koquryo saç düzümlərinə aiddir. Gündəlik həyatda - <u>daha təvazökar, adi, hamar saç düzümü</u> - geniş yayılmışdı, onlar - <u>bəzən lentlərlə bəzədilmişdir</u>*** [2. S. 12].

***<u>Koreya mədəniyyətində geyim - vacib və mühüm rol oynayır.</u> Rusiya-Koreya müqaviləsinin imzalanmasından (1884) qısa müddəttən sonra <u>Koreyaya səfər edən ilk məmurlarından biri olan</u>-<u>knəz K.N.DadaşKaliani</u> 1885-ci il tarixli hesabatında yazırdı ki, "Koreyada - təkçə saray və ictimai, həm də şəxsi ailə həyatı - ciddi qaydalara və ya mərasimlərə tabedir. Kostyumun geyinməyi; ailə üzvləri arasında, qonaqlar arasında, təbəqələr arasında -münasibətlər; yemək vaxtı oturmaq qaydaları, qonaqları qəbul etmək qaydaları, narinci (mandarin)ilə işləmək - bu və daha çox şey - ən kiçik detallara qədər qaydalarla, etiketlə təqdim edilir. <u>Heç bir koreyalıya müəyyən edilmiş qaydaları</u>***

***pozmağa icazə verilmir***" [17, s. 64]( Koreyaya Səyahətlər 1885-1896 M., 1958.).

**K.N.DadaşKaliani** Koreyada çox qalmadı, lakin o - ***status sərhədlərinin mövcudluğunu və onların müxtəlif vasitələrlə fərqləndirilməsini - bu cəmiyyətin xarakterik xüsusiyyətlərindən biri adlandırırdı. K.N.Dadaş Qalianinin diqqət yetirdiyi ilk şey - statusu bildirməkdə böyük rol oynayan - geyimdir***. **K.N.DadaşKalianinin *hesabatında belə qeyd olunur*: *"Kostyum\Geyim - koreyalılar üçün çox vacibdir; burada paltarına görə - kimin hansı təbəqəyə aid olduğunu öyrənmək olar; onunla insanın evli və ya subay olması, kimə yas tutması və s. vəziyyətlərini təyin etmək olar"*** [17, s. 56] (Koreyaya Səyahətlər 1885-1896 M., 1958.).

*Əlavə:*

***1885-ci ildə knəz K.N.DadadaşKaliani Koreyaya səfər etdi***. O Amur general-qubernatorunun dəftərxanasında xidmət edirdi.

***Koreyadan qayıdandan sonra K.N.DadaşKaliani "Koreyanın müasir vəziyyətinin qısa oçerki"nı dərc etdi (K.N.DadaşKaliani "Koreyanın müasir vəziyyətinin qısa oçerki".: "Asiya haqqında materiallar toplusu ", - 1884, buraxılış 22***) [16].

***Oçerkinin** birinci bölməsində* müəllif - ***Koreyanın qədim və orta əsrlər tarixi haqqında qısa məlumat verir***; ***ikinci bölmədə*** Naqasakidən-İnçhona - dəniz marşrutunun ətraflı təsvirini verir və Koreya yarımadasının orta zolağının coğrafi icmalını təqdim edir. Burada onun flora, fauna və minerallarının ətraflı təsviri verilmişdir. ***"Əhali və sosial/ictimayi həyat" bölməsində*** müəllif koreyalıların xarakterlərindən, dinlərindən, adət-ənənələrindən bəhs edir və Koreya cəmiyyətinin sinfi bölünməsini göstərməyə cəhd edir. K.N.DadaşKalianinin - koreyalılara münasibəti - Qərbi Avropa missionerlərinin irqçi baxışlarından əsaslı şəkildə fərqlənirdi. **K.N.DadaşKalianinin fikrincə**, "***Koreyalılar - hazırcavab, çevik, təsuratli və maraq göstərəndilər. Koreyalıların fərqli xüsusiyyətləri -sülhpərvərlik, xeyirxahlıqdır*** ... " ( ***K.N.DadaşKaliani "Koreyanın müasir vəziyyətinin qısa oçerki".: "Asiya haq-***

***qında materiallar toplusu”, - 1884, buraxılış 22, səh. 74***). [16,s.74]

**Mövzu ilə bağlı ədəbiyyat:**


1. Qabrusenko T.V. Qəribə koreyalılar. – Moskva: Qarışqa, 2003. – 304 s.

2. Danilova O.N. Xarici Asiya xalqlarının kostyumu. - Vladivostok, 2011. - 19 s.

3. Koreya geyiminin xarakterik xüsusiyyətləri və onun inkişafının bəzi məsələləri [Elektron resurs]. URL: http://koryo-saram.ru/yu-v-ionova-harakternye-cherty-odezhdy-korejtsev-i-nekotorye-voprosy-ee-razvitiya/ (giriş tarixi 07/04/2016).

4. Tolstix İ.N. Koreyalıların xoreoqrafik sənətinin etnomədəni xüsusiyyətləri:dissertasiya - Elm. - Vladivostok, 2010. - 183 s.

5. Koreya milli geyimi [Elektron resurs]. URL: http://korea-blog.livejournal.com/24536.html (07/04/2016 daxil olub).

6. Til E. Kostyumun tarixi / . – M.: Yüngül sənaye, 1971. – 104 s.

7. Çumıl [Elektron resurs]. URL: http://www.sorabol.ac.kr/-atone/ (giriş tarixi 07/10/2016).

8. Maleviç İ.A. Dünən Avropada, sabah Koreyada olanda. - Minsk: Məhsul, 2002. - 304 s.

9. Koreya Respublikasına xoş gəlmisiniz! - Seul: Xarici Ölkələr üçün Koreya İnformasiya Xidməti, 2008. - 195 s.

10. Volkov S.V., Simbirtseva T.M. Koreya. – M.: Nauka, 2000. – 340 s.

11. İonova Yu.V. Koreyada şamanizm (XIX - XX əsrin əvvəlləri) // Xarici Asiya xalqlarının kult və rituallarının simvolizmi: İncəsənət. – Moskva: Nauka, 1980.

12. Markov V.M. Koreya Respublikası, XX əsrin ikinci yarısının mədəniyyətində ənənələr və müasirlik. Rusiyadan görünüş. - Vladivostok: Dalnevostok un-t nəşriyyatı., 1999. - 449 s.

13. Bişop I.B. Koreya və onun qonşuları. - London, 1898. - 452 s.

14. Samsonov D.A. Koreya etiketı: etnoqrafik tədqiqatın təcrübəsi,-SPb, - Elm.-2013.(Kunstkamera Petropolitana).

15.Tolstıh İ.N.Koreya mədəniyyəti:ənənələr və müasirlik,-dərs vəsaiti,-Vladivostok Dövlət İqtisadiyyat və Servis Üniversiteti,-Vladivostok VDİSU-nəçriyyatı.

16.K.N.DadaşkKaliani. Amur general-qubernatorunun dəftərxana ilə bağlı olan knəz K.N.Dadşkaliani tərəfindən Koreyanın hazırkı vəziyyətinin qısa təsviri /oçerki(1885), ***K.N.DadaşKaliani "Koreyanın müasir vəziyətinin qısa oçerki ".: "Asiya haqqında materiallar toplusu ", -1884, buraxılış 22, səh. 74.***

17. "Koreya boyunca səyahətlər 1885-1896, M., 1958, s.59. Koreyaya Səyahətlər 1885-1896 M., 1958.

18. Poccio M. A. Koreya haqqında oçerklər. Sankt-Peterburq, 1892, s.200.

## *Əlavə*
## Koreya etiketinin\ədəbinin kinestetik(toxunma) aspektləri

**Jestlər** - ***statusun nümayiş etdirilməsində mühüm rol oynayır.***

**Jestlər** - ən azı ***bir neçə funksiyanı yerinə yetirir: onlar təkcə hadisələri, vəziyyətləri, obyektləri, real dünyanın xüsusiyyətlərini təsvir etmir, onlar - həm də onlara işarə edir***. **Jest göstərişləri** - ***həmişə konkretdir, qeyri-mücərrəddir, çünki o - konkret obyektlər və situasiyalarla məşğul olur və əsasən- gözlər tərəfindən qəbul edilir. Kiçik ailədə*** *ünsiyyət iştirakçıları arasında* ***münasibətlər*** - *tanınmış semantik(mənalı) elementlər üzərində qurulur*. ***Etiket\ədəb situasiyasının modeli - qohumluq münasibətlərinə görə əsaslanır və burada davranış nümunəsi aydındır. Böyük ailədə və kollektivdə ünsiyyət qurarkən, burada etiket modelinin formalaşması və onun nümayiş etdirilməsi tələb olunur.***

***Status sərhədlərinin mövcudluğunu və xarakterini nümayiş etdirə bilən ən xarakterik vəziyyətlərdən, situasiyalardan biri - salamlaşma və vidalaşma üsullarının seçimidir. İnsanların ünsiyyətə girmə, daxiletmə tərzi və onu necə bitirməsi - Koreya***

***mədəniyyətində insan davranışı normalarının məlum və tanınmış müxtəlifliyini əks etdirə bilər***.

***Salamlama variantları*** status sərhədlərinin nümayiş etdirmək və hər bir halda ünsiyyətdə olan tərəflərdən birinin - digərinə münasibətdə ***hörmət ifadəsinə arxalanmaq baxımından - dərin mənalarla dolgundur.***

***Koreya salamının əsas elementlərindən biri – tə'zimdir - baş, bel əyməsidir. Ənənəvi baş, bel əyməsi/təzim*** – bu günə qədər ünsiyyətdə mühüm rol oynayır. ***Baş, bel əymə/ təzim - çox qədim mənşəli, sosial və kommunikativ nöqteyi-nəzərdən - çox vacib olan etiket jesti, daha doğrusu- jestlər sinfidir(təsnifatıdır).***

*Avropada baş,bel əyməsi/ təzimi* - ritual jestı kimi təqdim olunurdu və onun istifadə dairəsi - məhdud idi. ***Şərqdə*** isə - fərqli olaraq, ***baş,bel əyməsi/ təzimi - məişət jesti olub və qalır***. Baş, bel əymələr/ təzimlər - bir sıra digər mədəniyyətlərdə də: Çin, Yapon, Hindistan və s ., - çox geniş istifadə olunur.

***Koreya baş, bel əyməsi/ təzimi - Koreya xalqının ifadəliliyini və emosionallığını təcəssüm etdirən salamlaşmanın- ən ahəngdar yolu kimi adlandırıla bilər.***

***Baş, bel əyməyin/ təzimin müxtəlifliyi və qaydaların istifadəsi - cəmiyyət tərəfindən hazırlanmış bir növ davranış kodudur***.

***Koreya baş, bel əyməsi/ təzimi*** haqqında xüsusi qeydlər - qədim zamanlardan başlayaraq, bütün tarixi salnamələrində rast gəlmək olar [**1**, s. 298]. Buna görə də *o* - onun praqmatik mənimsəməsindən çox, onun ***xüsusi sosial və mədəni əhəmiyyətini vurğulayır. Koreya ədəbiyyatında - cəmiyyətdə əxlaq və mənəviyyatın tərbiyəsinə və təhsilinə həsr olunmuş,*** eləcə də ***salamlaşma zamanı insanların düzgün etiket davranışını təsvir edən - baş, bel əyməsinin /təziminin müxtəlif növlərini - salamlaşmanın xüsusi jest növlərini kimi təqdim edirdilər*** və *müəliflər burada ilk növbədə* ***"nəzakət" "və "mərifət" ideyalarını insanlara, oxuculara çatdırırdılar.*** Burada qeyd etmək lazımdır ki, bu *əsərlərin müəllifləri* - əsasən ***XVII-ci əsrin Orta əsr Konfutsi alimlərinin traktatlarına/risalələrinə istinad edir*** və *baş, bel əyməsi/təzimi* və *salamlamaların* bir qədər müasirləşdirilmiş/modernləşmiş vari-

antlarını təklif edirlər. Bir sözlə, ***Koreya cəmiyyətində əsaslı kimi qəbul edilən - salamlaşma və baş, bel əymə/ təzim forması - konfutsiçiliyə aiddir (o Konfutsi adət- ənənlərinə əsaslanır).*** Koreyada digər ***baş, bel əymələrin/ təzimlərin növlərinin***, xüsusən də ***Buddist baş, bel əyməsinin/ təziminin istifadə edilməsinə baxmayaraq, onların əhatə dairəsi - bu dinin sırf dini sahəsi ilə məhdudlaşır***. *Müasir koreyalıların əsas hesab etdikləri* ***baş, bel əymə/ təzim*** forması - **koreyalı *konfutsı alimlərin*** əsərlərindən götürülmüşdür [**2**, s. 20].

*Ən çətin növü -* 절 [***col***]- ***dərin baş, bel əyməsidır / təzimidir***. Ənənəvi Koreyada tətbiq edilən bu tip ***dərin baş, bel əyməsinin/ təziminin klassik forması -*** bu gün nadir hallarda görmək olar. ***Onun tətbiqi - müəyyən sosial dairələrdə ənənəvi xarakter daşıyan mərasim-ritual sfera, sahə ilə məhdudlaşır***. Məsələn, ***bu tip dərin baş, bel əyməsi – tə'zimi - görkəmli tarixi şəxsiyyətlərin: hökmdarların, alimlərin, hərbçilərin xatirəsinə həsr olunmuş yas mərasimdə geniş istifadə olunur***. Belə mərasimlər - məzarlarda, "***şöhrət məbədlərində***"- yani - ***sovon****-larda keçirilir*. Bir qayda olaraq, onları - görkəmli insanların birbaşa nəslin nümayəndələri tərəfindən təşkil edilir və aparılır. Bu ***dərin baş, bel əyməsiinin/ təziminin*** bir qədər dəyişdirilmiş formaları daha çox yayılmışdır.

***Dərin baş, bel əyməsi / təzimi - col*** - ənənəvi forması- bir neçə *əsas elementlərdən ibarətdir*: ***əllərin yerləşməsi*** 공수 (拱手) [***qonqsu*** ], ***bel əyilməsı*** 읍례 (揖禮) [***ımne***] və ***əyilmə*** 배(拜) [***be*** ].

Müasir gündəlik həyatda ***bel əyməsi/ təzimi -*** 경례 ( 敬 禮 ) [***kyonqne***] geniş istifadə olunur. Ənənəvi Koreyada ***kyonqne - bel əyməsi*** şəklində salamlama - *yox idi*. O - yalnız XX-ci əsrin əvvəllərində meydana çıxdı və geniş yayıldı. *Bu salamlaşma formasının yaranması -həyat tərzinin dəyişməsi və Qərb dövlətlərinin nümayəndələri ilə əlaqələrin artmasılə əlaqədar idi.* Bu gün ***kyonqne - bel əyməsi*** *- salamlaşmaq və cəmiyyətdə münasibətləri saxlamaq üçün- əsas üsuldur*. Bu salamlaşma formasını - ***ım-***

***ne(bel əyilməsı)*** kimi *adlandırmaq olar,o - salamlaşmanın "Qərbləşmiş" variantıdır.*

Gündəlik məişət ünsiyyətdə ***kyonqne - bel əyməsi*** - çox vaxt nitq müşayiəti ilə olunur, lakin ***baş, bel əyməsi/ təzimi*** *mərasimlərində (müxtəlif bayramlarda, rəsmi tədbirlərdə*) - söz tələb olunmur.

***Koreya mədəniyyəti –cinsə, yaşa, təhsil səviyyəsinə və sosial statuslarına əsaslanan - status sərhədləri ilə xarakterizə olunur. Artıq qeyd etdiyimiz kimi, ailə münasibətlərində - kişinin statusu- qadının statusundan daha prestijli hesab edilir***.

## Ədəbiyyat:


**1.** Koreya etiketi: məqalələr məcmuası,Seul, 2001. № 3.

**2.** Düzgün milli etiket. Seul, 1999.

**3**. Samsonov D.A. Koreya etiketı: etnoqrafik tədqiqatın təcrübəsi,-SPb,-Elm.-2013.(Kunstkamera Petropolitana).


## Suallar:
## İctimai etiket\ədəb.

1.İctimai etiketın\ədəbin anlayışı.

2.Cəmiyyətin stratifikasıyasının/təbəqələşmənin xarixi göstəriciləri.

3.Koreyada olan İtaliya səfiri - Poccio M. ailə daxilində etiket qaydaları haqqında.

## Sərbəst mövzular:

1.Koreya ictimai etiketin/ədəbin xüsusiyyətləri.

2.Koreyada olan səyyahların və səfirlərin ictimai etiket\ədəb haqqında yazılar, qeydlər.

## Suallar:
## Qeyim etiketi\ədəbi

1. Qadın kostyumu - hansı hissələrdən ibarətdir?
2. Xanbok/hanbok ilə hansı ayaqqabılardan istifadə olunur?
3. Uşaq xanboku - hansı hissələrdən ibarətdir?

4. Xanbok kostyumunun növləri.

5. Oğlan və qızlar neçə yaşından ənənəvi geyimlər geyinməyə başlayırlar?

6. Ənənəvi Koreya geyimlərinin xarakterik xüsusiyyətləri.

7. Koreya qadın kostyumunun rəngini - nə müəyyənləşdirir?

8. Kişi qeyimin xüsusiyyətləri.

9.Koreyada saç düzümü və atributlar.

10. Rusiya-Koreya müqaviləsinin imzalanmasından (1884il) qısa müddəttən sonra Koreyaya səfər edən ilk məmurlarından biri olan - ***knəz DadaşKaliani* 1885-ci il tarixli hesabatında Koreya geyim etiketii haqqında.**

**Sərbəst mövzular:**

1. Koreya qadınların milli geyimlərinin xüsusiyyətləri.
2. Koreyada toy mərasimləri üçün kostyumlar.
3. Ənənəvi Koreya kostyumunda rəngin rolu.

**Koreya etiketinin\ədəbinin kinestetik(toxunma) aspektləri**
**Suallar**

1. Koreya etiketinin\ədəbinin kinestetik(toxunma) aspektlərindən biri - jestlər; onun funksiyası və göstərişləri.

2. Salamlaşmanın - ən ahəngdar yolu adlandırıla bilər - tə’zim - baş, bel əyilməsi.

## Mövzu 10.
## DEKORATİV-TƏTBİQİ SƏNƏT

### 1.Üç Dövlətlərin dövründə dekorativ-tətbiqi sənət

1.Üç Dövlətlərin kurqan (kurqan – *təpədir, xüsusən də qədim xalqlar arasında - məzar təpəsidir*) freskalarına əsaslanan *zəngin rəngkarlıq ənənəsi-* hamıya məlumdur**. *Samquk rəngkarlığının*** janr məhdudiyyətini (freskalar(divar rəsmləri) istisna olmaqla, başqa təsvirlər burada yoxdur) və onun Şimali Koreyanın Koquryo kurqanlarında aydın lokalizasiyasını/yerləşməsini qeyd etmək lazımdır**. *Əgər yarımadanın Şimal hissəsində çox sayda freska ilə 70-ə yaxın abidə qazılıbsa, Pekçe və Şillada freska tapıntıları - müstəsna bir hadisədir***. Divar təsvirlərinin əksəriyyəti - Amnokkanq çayın sağ sahilindəki- *Koquryo erkən paytaxtı olan – Hvando-dakı,* Tunkou rayondakı(Tsian,KXR) kurqanlarilə və nəhayət Anak və Kanqso-dakı (Cənubi Pyonqan) məzarları ilə əlaqələndirilir. Koquryo freskalarının diqqətəlayiq xüsusiyyəti - onların əla vəziyyətdə olmasıdır, digər iki dövlətin məzarlarının divarlarındakı rəsmlər isə - zəif qorunub saxlanılıb və fraqmentlıdır(*yani* qisməndir, parça-parçadır ).

*Freskaların yaradıcıları* - ***iki növ: bitki və mineral - boyadan istifadə edirdilər.*** Koquryoda - *oxra* istisna olmaqla, *yalnız bitki boyaları- istehsal olunurdu, mineral boyalar* isə - *Çindən gətirilirdi*. Bahalı ***mineral boyalar*** - bu günə qədər öz təravətini itirməmişdir və təəssüf ki, *onların* ***bitki analoqları*** - zamanın sınağından çıxmamışdır. Texniki baxımdan freskalar - demək olar ki, eynidir,identikdir: əvvəlcə *təsvirin qara konturunu(xəttini) çəkirdilər,* sonra - *qalın ştrixlərlə onu rəngləyirdilər*. Rəsm quruduqdan sonra, təsviri daha aydın çəkmək üçün - freskanın bəzi detalları - yenidən kontur boyu ilə - qara boya ilə çəkilirdir [1. S. 78].

Kurqan dəfnlərinin hərtərəfli tədqiqi zamanı - divar rəsmləri IV-VII-ci əsrlərə aid edilmişdir. V əsrin sonlarına qədərki dövrə aid olan erkən freskalar- konturun sərtliyilə xüsusiyyətlənir, frontal/üzbə-üz oturmuş insan fiqurlarının, mərhumun və onun həyat

yoldaşının, habelə malikanənin təsviri ilə seçilir. Orta dövrün rəsmləri (VI əsrin əvvəli - sonu) - müxtəlif plan və perspektivlərin (*perspektiv - aydın görüntü, panorama, uzaqlara baxış, geniş məkanın şəkli,layihəsi)* təsvirində maraqlıdır, mərhumu və onun ətrafını - müxtəlif həyat vəziyyətlərində: ziyafətdə, ovda, mərasimlərdə; - insanların təsviri ilə yanaşı, şərti mənzərədə təqdim olunur. Son freskalar (VI -cı əsrin sonu - VII -ci əsrin əvvəlləri)- mifoloji məzmunlu təsvirləri, *əsasən dünyanın dörd əsas istiqamətlərinin (şimal,canub,qərb,şərq) ruhlarını* canlandırır. İstisnalara baxmayaraq, *dörd qoruyucu ruhların* təsvirləri - IV əsrin birinci yarısına, gündəlik freskalar isə - VII -ci əsrə aid olduqda, rəsmlərin *süjetinin gündəlik, məişət* mövzulardan- *ictimai* süjetlərə qədər öz inkişafında aydın bir tendensiya izlənilir, sonralar isə onlar - *müqəddəs və mifoloji mövzulara əsaslandı.*

Divar rəsmlərinin erkən və orta varintları - Amnokkanq çayının orta axarında Tunqoy yaxınlığında ( vaxtilə o Koquryo paytaxtlının yerləşdiyi yer idi)geniş şəkildə təmsil olunur. IV -cü əsrin sonu - V əsrin birinci yarısına aid - Samşilçonq, Sallyonhvaçonq ("***Düşən Lotuslar Türbəsi***"), Kakcoçonq, Muyonqçhon, VI-cı əsrə aid - Saşinçonq (***Dörd Qoruyucu Ruhun Türbəsi***) qəbirlərdir.

Sallyonhvaçonq otaqlarından birinin tavanında - lotos çiçəkləri ilə haşiyələnmiş - günəş, ay və ulduzlarla göy qübbəsi - heyrətamiz şəkildə təsvir edilmişdir. Kakcoçonq - janr süjetləri haqqında təsəvvür verir, bunlardan ən diqqəti çəkən -iki yarıçılpaq güləşçi arasında şiddətli döyüş təsvir olunur. Muyonqçonqda - musiqiçilər, rəqqaslar, aktyorlar və akrobatların iştirak etdiyi ziyafətini təsvir edən böyük kompozisiya - Xan sülaləsinin Çin divar rəsmi üslubunu təqdim edir.

Bir sıra böyük freskalar - Ssanqyonçonq türbəsinin divarlarını (şək. 7), və ya "***İki sütunlu məzarlar***"ını (Tokhvari, Cənubi Pyönxan, 409il) əhatə edir.



*Şəkil 7. Ssanqyonçonq məqbərəsinin rənglənməsi*

Onların əksəriyyəti - ***məişət janrına*** aiddir. Məsələn, atlı və döyüş zirehlilər - ekipajdan sonra hərəkət edir, burada bir zadəgan çətir altında oturur. Duvar rəsmləri - geyimlərin, silahların, arabaların və memarlıq abidələrinin görünüşünü - təfərrüatlı şəkildə əks etdirir, qulluqçuları və aristokratları - aydın şəkildə fərqləndirilir, belə detallı materiallar - təkcə bədii deyil, həm də tarixi əhəmiyyətə malikdir. "***İki sütunlu məzarlar***" freskalarının başqa bir xüsusiyyəti - sırf mineral boyalardan istifadə edilməsidir, bunun sayəsində rəsmlər yaxşı qorunub saxlanılır və qəhvəyi-qırmızı, mavi-yaşıl, qızılı, oxra və ya sarı-qəhvəyi tonları və *kinovarın/civə sulfidın(al qırmızı rəng)* – polixromla(çoxrəngli) birləşməsi - heyranlıq gətirır. Onların istifadəsi -mərhumun ailəsinin nəcibliyinə və zənginliyinə dəlalət edir [1. səh. 78–79].

***Son dövrlərdə Koquryo freskalarının simvoluna,rəmzinə çevrilmiş - Sammyonun üç məzarı (Kanqso, Cənubi Pyonqan)-dünya şöhrəti qazanmışdır***. Onlardan əsas olan - ***Demyo*** ("Böyük məzar", 565il) - ***Van Yanqvonun*** (545-558) dəfn yeri hesab olunur, burada *dünyanın dörd əsas istiqamətlərinin (şimal,ca-*

*nub,qərb,şərq) qoruyucu ruhlarını* təsvir edən - mifoloji divar rəsmlərinin şah əsərləri- *“**Saşin”*** təqdim olunur.



***Şəkil 8. Böyük türbənin divar rəsmisi – Tünd qırmızı quş, Cənubun mühafizəçisi***



***Şəkil 9. Böyük türbənin divar rəsmisi - yaşıl əjdaha, Şərqin mühafizəçisi***

***Zərif, sakit tonların bitki və mineral boyaları ilə - mifik heyvanların monumental təsvirləri təqdim olunmuşdur*: *ilanla dolanmış tısbağa*** (*Şimali mühafizəçisi - hyonmu*), ***tünd qırmızı cucak quşu*** (*Cənubun mühafizəçisi*, - onu *simurqla*, *fenikslə* müqayisə etmək olar)( şəkil 8), ***yaşıl əjdaha - chonnyon*** (*Şərqin qoruyucusu*, şəkil 9) və ***ağ pələng - bekho-dır*** (*Qərbin müdafiəçisi*, onun təsviri - zəif qorunub saxlanılmışdır) – ***onlar bu günə qədər Koreyada - yer və göy elementlərinin vəhdətinin kosmoqonik ideyasını, təbiət və insan dünyası haqqında taoizm və buddizm fikirlərinin əks etdirən - qədim dövrlərin ən mükəmməl təcəssümü hesab olunurlar***. *Digər iki Sammyo məzarlarının freskalarında - oxşar mifoloji mövzularla yanaşı, mənzərə rəsm cizgiləri də var* [1. S. 80].

***Erkən Koreya sənətkarlığın nailiyyətlərindən*** danışarkən, ilk növbədə məzarlarda tapılan ***kral taclarını*** xatırladırlar. Bir qayda olaraq, ***taclar -bürüncdən hazırlanmış və qızılla örtülmüşdür.*** Bununla belə, ***xalis qızıldan hazırlanmış dörd Şilla tacı tapılıb. Tacların forması - heyvanların buynuzlarına bənzəyir. Burada - erkən Koreya mədəniyyəti ilə Sibir (skif) mədəni təbəqələri arasında əlaqəni izləmək olar.***

Bundan əlavə, ***Koquryo, Pekçe və Şilla kral məzarlarından- qızıl sırğalar, gümüş saç sancaqları, tunc güzgülər, şüşə qablar (küplər, qədəhlər, muncuqlar), həmçinin atlar uçun-qoşqu taqımı və daha çox şey tapılmışdır.*** *Koreyanın şimal-qərb və ya mərkəzi hissəsindən fərqli olaraq, Koreya yarımadasının cənubunun qutaracağında*, döyüşlər getmədiyi ərazidə yerləşən *Şilla məzarlarında- ən çox - əl işləri qorunub saxlanılmışdır.*

***Üç dövlətin bütün saxsı məmulatları*** – ***gildən idi***. ***Çini(farfor) - Koreya yarımadasının ərazisində çox gec meydana çıxdı. Yuxarı təbəqə - bəzən qızıl, gümüş və tuncdan hazırlanmış qablardan istifadə edirdi. Bürünc əşyalar - daha çox yayılmışdır.***

***Koquryo və Pekçe'də - qara keramika ən çox inkişaf etmişdir***, ***Silla'da*** isə - ***daha açıq, boz-qara və ya boz keramika idi***. ***Üç dövlətlərin hamısında keramika mənulatları- ənənəvi qırmızı gildən hazırlanırdı. Şilla keramikasında - qabların divarlarında - mifik heyvanların relyef təsvirlərinə və müxtəlif naxışlara tez-***

***tez rast gəlmək olar. Koquryoda - üç ayaqlı və dörd qulaqlı qablardan geniş istifadə olunurdu. Pekçe keramikası - xətlərin daha səlisliyi, rəvanlığı ilə seçilir. Pekçe tarixinin ilk dövründə - əsasən tünd rəngli saxsı qablar hazırlanırdı. Daha sonra - boz üçayaqlı qablar populyarlıq qazandı. Çox vaxt istilik emalı nəticəsində əmələ gələn Pekçə qablarında - "təbii naxışlar"ın izləri qalırdı*** [2. S. 63].

***Üç Dövlətlərdə rəsm -əsasən qəbirlərin divarüstü rəsmləri ilə təmsil olunurdu.*** Tarixi mənbələrə görə, *kağız və ipək* üzərində *klassik Uzaq Şərq rəsminin Koquryo, Pekçe və Şillada da inkişaf etdiyini iddia etmək olar*. Lakin o əsərlərinin heç biri - bu günə qədər gəlib çatmayıb. Yalnız ayrı-ayrı rəssamların adları məlumdur: məsələn, V-ci əsrin **Pekçe rəssamı** - ***Insa Raa***, **Koquryo Buddist rahib rəssamı** - ***Tam Çjin-dır*** (579-631). Hər ikisi - vaxtilə Yaponiyada yaşayıb və yapon rəssamlığının inkişafına mühüm töhfə verib.

***Üç Dövlətlərin divar rəsmləri - adətən dörd əsas kateqoriyaya bölünür:***

***1) Buddist olmayan dini divar rəsmləri;***

***2) Buddist dini divar rəsmləri;***

***3) Məişət,buddizməqədər divar rəsmləri;***

***4) Məişət, buddist divar rəsmləri***.

***Buddist olmayan dini motivlərə - günəşin, ayın, ulduzların, Səmavi Hökmdarın (kainatın ali tanrısı), üçayaqlı quşun və əsas dünyanın dörd qoruyucu ruhunun təsvirləri daxildir. Qırmızı simurq - cənub üçün "cavabdeh idi", şərq üçün - göy əjdaha, qərb üçün - ağ pələng, şimal üçün -"qara ordu" idi, yəni Tısbağa ilə ilan.*** Ən çox yayılmış ***Buddist motivi - lotos*** şəklidir. **Lotos** - ***buddizmin xüsusi çiçəyidir, o - saflıq və gözəllik rəmzidir və bataqlıqda, bütün dünya palçığının ortasında bitir. Heykəltəraşlıq və rəssamlıqda - lotos obrazı - çox vaxt - Budda fiqurunun (heykəlinin) qoyulduğu yerdə - postament rolunu oynayır. Buddist motivlərinə - svastika da daxildir - o - Budda ürəyinin möhür simvoludur, həmçinin Buddist rahiblərin təsviridir.***

***Üç Dövlətlərin rənkarlığında/rəsmində*** - Buddizmdən əvvəlki dövrdə - gündəlik, məişət elementlərə aid - dəfn olunanların, onun ətrafının təsvirləri, ***mərhumun həyatından müxtəlif səhnələr***: *ov, mərasim yürüşləri, tabeliyində olan hörmətli şəxslərin qəbulu* - ***daxildir***. Həmçinin qəbirlərin divarlarında - *mənzərə rəsmlərini, sadə insanların əmək fəaliyyətinin səhnələrinin təsvirlərini görmək olar*.

**Buddist məişət motivləri** - zəif ifadə edilir. Bir qayda olaraq, *onlar - ayrı-ayrı naxışların və ya landşaft(yerin mənzərəsi) fraqmentlərinin təsvirinin xüsusiyyətlərində, buludların stilizə(hansı-sa üsluba oxşar) edilmiş təsvirlərində görünür* [2. S. 63].

## 2. Birləşmiş Şilla incəsənəti

Mütəxəssislər hesab edillər ki, heykəltəraşlıq tarixi - ***Koreyada Buddist heykəltəraşlığının nüfuzu və yayılması ilə başlamışdır***, çünki sənət nümunələri - əvvəllər tapılmamışdır. ***Digər tərəfdən, qəbirlərin divarlarındakı relyef (yer səthinin qabarıq təsviri) təsvirləri və keramika üzərindəki relyef parçaları - Üç Dövlətlərdə heykəltəraşlığın Buddizmdən əvvəl də inkişaf edə biləcəyini göstərir.***

*Əvvəlcə heykəltəraşlıq təsvirləri* - ***yalnız Buddizm məzmununda idi***. ***Vahid Şilla dövləti dövründə*** - *insanların və heyvanların heykəlləri yaranmağa başladı*. Xüsusi maraq - məhəbbət səhnələrini əks etdirən - kiçik keramika heykəlcikləri ərsiyə gəlməsidir, ümumiyyətlə, Koreyanın nə əvvəlki, nə də sonrakı heykəltəraşlığı üçün- bu süjet xarakterik deyildi.

***Buddizm*** - Koreya yarımadasında hələ IV-cü əsrdə nüfuz etməyə başlasa da, qorunmuş və saxlanılmış bütün heykəllər – VI-cı əsrdən sonrakı dövrə aiddir. Eyni zamanda, *onun(heykəllərin) üç növü var : qızılı tunc, daş və gil*. Hesab olunur ki, ***gil heykəltaraşlığı - əsasən Koquryö üçün xarakterikdir, qalanları isə - Pekçe və Şillaya aiddır.*** Bununla belə, *bütün üç dövlətlərdə heykəltəraşlığın bütün növlərinə rast gəlmək olar*.

***Üç Dövlətlərin Buddizm heykəltəraşlıq növü - Çin növü*** kimi müəyyən edilir, lakin bəzi dəyişikliklərlə, məsələn, *Pekçe Buddist*

*personajların heykəlləri - heyrətamiz dərəcədə mehriban və geniş təbəssümü ilə seçilir.*

***Buddaların və bodhisatvaların*** aşkar edilmiş ***heykəltəraşlıq təsvirlərinin xüsusiyyətləri - aşağıda əks olunub:*** *saçlar – yumru, şişka formalı saç düzümü şəklində hörülüb; saç yumruları/şişkaları- çox və ya yalnız bir ola bilər; gözlərdə - dar, badamvari bir kəsik; dodaqlarda - "sirli təbəssüm"; boyunda - üç qat (üç "boyunbağı") var, bəzən - bir boyunbağı ola bilər. Paltarların qıvrımları,skladkaları -adətən -N- və ya -Y -formalı olur.*

***Erkən Koreyada*** *sənətkarlığın nailiyyətlərindən danışarkən,* adətən məzarlarda tapılan ***kral taclarını*** xatırladırlar. Bir qayda olaraq, ***taclar*** - bürüncdən hazırlanmış və qızılla örtülmüşdür. Bununla belə, *xalis qızıldan hazırlanmış* ***dörd Şilla tacı*** tapılmışdır (şək. 10). Tacların forması - heyvanların buynuzlarına bənzəyir. Bu ***erkən Koreya mədəniyyəti*** ilə ***Sibir (skif) mədəni təbəqələri*** *arasında əlaqəni izləmək olar.*



***Şəkil 10. Şilla dövlətinin hökmdarlarından birinin qızıl tacı. VI-cı əsrin əvvəlləri***

***Koquryo divar rəssamlığının*** inkişaf tarixi - **3 mərhələyə bölünür**. ***Birinci mərhələ*** - *V əsrə qədər davam etdi*. O vaxtı - qəbrin dəfn kamerasının divarlarında - arxa fonda - *mərhum ("qəbrin sahibi")*, *onun həyat yoldaşı* və *yaxınları ilə* təsvir edilmişdir. ***İkinci dövr*** - *VI əsrin birinci yarısına təsadüf edir*. O zaman qəbrin mərkəzi otağında - *yalnız mərhumun və onun həyat yoldaşının portretləri yerləşirdi*. Qonşu otaqların divarlarında - *yaxın adamların və qulluqçuların portretləri vardı. Qoruyucu ruhlarının* təsvirlərinə- məzarın girişində və ya rəsmlərin kənarlarında rast gəlmək olardı. ***Üçüncü dövr*** - *VI əsrin ikinci yarısından- VII əsrin birinci yarısına qədər davam etdi*. O zaman *sahiblərin təsviri- tamamilə yox oldu* və ***dünyanın dörd əsas istiqamətinin qoruyucu ruhları* - divar rəsmi üçün əsas motivi oldu.**

***Pekçe divar rəsmlərindən*** - demək olar ki, heç nə qorunub saxlanılmayıb. *Müasir Kyoncu* və *Puyo şəhərlərinin ərazisindəki* bəzi məzarlarda - təsvir çəkildiyi yerlərdə - gipsin/şkaturkanın olduğuna rast gəlmək olar. Bu günə qədər - yalnız *qoruyucu ruhların - mavi əjdaha və ağ pələngin təsvirlərinin fraqmentləri qalmışdır*.

***Şilla qəbirlərinin*** - qəbir kameralarının divarlarından tapılan boya örtüyünün qalıqları - divar rəngkarlığının Sillada inkişaf etdiyini sübut edir. Lakin *tavandakı* ***lotos çiçəklərinin təsvirinin***, ***insan və at fiqurlarının yalnız fraqmentləri*** - bu günümüzə qədər gəlib çatmışdır. ***Şillada*** - atları təsvir etmə tərzi - *Koquryodakı texnikaya bənzəyir: küləkdə eyni vaxtda çırpınan quyruq və yerdən yuxarı qaldırılmış dörd ayaqlardır*.

Koreyanın *şimalında* - ***freskaların,*** *cənubda* isə - ***qəbir əşyalarının, ləvazimatının*** *ən yaxşı şəkildə qorunub saxlanılması* - əsasən dəfn yerlərinin coğrafi yerləşməsinin xüsusiyyətləri ilə bağlıdır. ***Pxenyan ərazisində (Koquryonun keçmiş paytaxtı***) iqlim- ***K Kyoncu (Şillanın paytaxtı***) ilə müqayisədə - daha qurudur. Digər tərəfdən, ***Kyoncu*** - həm Üç Dövlətlərin özləri, həm də şimal və qərb qonşuları ilə əsas döyüş meydanlarından uzaq idi**.** ***Pxenyan*** - əksinə, ölkənin şimal-qərb sərhədlərindən bir o qədər də uzaqda

yerləşdiyi üçün - xarici təcavüzkarlar tərəfindən daha tez-tez hücuma və talanlara məruz qalırdı [2. səh. 78–80].

## 3. Koryo dövründə dekorativ-tətbiqi sənət

***Buddizmin - hakim din olması və dövlətdən dəstək alması səbəbindən - Koreyada çoxlu Buddizm monastırları tikilmişdir**. **Yalnız Koryo paytaxtının yaxınlığında - 70-ə yaxın böyük və kiçik monastır tikilmişdir***. Onalar - əsasən *taxtadan* olduğuna ğörə, monastırların əksəriyyətindən (pavilyonların bünövrələri, həmçinin daş paqodalar və Budda heykəlləri istisna olmaqla) demək olar ki, heç nə qalmamışdır. Bununla belə, *Koreyanın cənubi hissəsində* - çoxsaylı müharibələrin az təsirlərindən - *Koryo dövrünə aid bir sıra monastırların taxta binaları* - qorunub saxlanılmışdır. ***Bunlar: Bonqconqsa monastırının Kın-nakçon pavilyonu və Şimali Kyonqsanq əyalətindəki - Busoksa monastırının Muryanq-sucon pavilyonu, həmçinin Cənubi Çhunq-çhonq əyalətindəki Sudoksa monastırının Teunq-con əsas pavilyonudur.***



***Şəkil 11. Busoksa monastırının Muryanq-sucon pavilyonu***



***Şəkil 12.Sudoksa monastırının Teunq-con pavilyonu***

***Koryo dövrünün ən əzəmətli Buddist monastırlarından biri-1067-ci ildə*** tikintisi başa çatan paytaxtın ***Hınqvanqsa monastırı*** idi. Onun binasında - ***2800 otaq var idi***.

Artıq qeyd edildiyimiz kimi, ***Koryonun daş paqodaları*** (*Buddist məbədləri*) - əvvəlki dövrlərə nisbətən - formaca daha müxtəlif idi, *onun* ***səkkizbucaqlı və hətta dairəvi yarusları var idi. Şimali Koreya*** *ərazisində* - ***Burilsa*** (5 yaruslar; 951 il, Kesonq şəhəri), ***Hyonhvasa*** (7 yaruslar, 1020 il, Kesonq şəhəri), ***Pohyonsa*** (9 yaruslar, 1044 il, Myohyanqsan dağları) ***monastırlarının*** *paqodaları* xüsusilə qeyd olunur. ***Cənubi Koreya*** *ərazisində* ***Volconqsa monastırın*** (8 tərəfli, 9 yaruslar, XI-XII-ci əsrlər, Kanqvon əyaləti), ***Kyonqçons****a* (10 yaruslar, 1348 il, Kyongi əyaləti) ***monastırının*** daş paqodaları var.




***Şəkil 13. Volconqsa monastırı***

***Koreyada Buddaların heykəltəraşlıq təsvirləri*** - *daşdan, qızıldan və ağacdan hazırlanmışdır*. ***Koreyada Maytreya*** - *Buddanın ən məşhur və eyni zamanda ən böyük daş heykəli* - ***Kvançoksa*** (***Cənubi Çunçonq əyaləti***) ***monastırın*** *heykəldir*. Qeydlərə görə, hündürlüyü - 21 metrədən çox olan heykəlin yaradılmasına - 38 il vaxt sərf olunub və o - yalnız 968-ci ildə monastırda quraşdırılıb. ***Koryo dövrünün əvvəllərinə aid*** - 2,78 metrə hündürlüyü ilə ***Amitaba Buddanın unikal taxta heykəli*** - Şimali ***Kyonqsanq*** əyalətindəki ***Busoksa məbədində*** tapılmışdır [2. S. 141].

***Koryo rəngkarlığı - dövlətin diqqət mərkəzində idi***. *Paytaxt sarayında - idarələrdə* ***təsviri sənət məsələləri ilə məşğul olan xüsusi idarələr yaradıldı.*** Onlar - ***Dohvavon (Rəsm və Şəkillər Palatası/Evi***), ***Hvaquk*** (**Təsviri Sənətlər İdarəsi**) adlanırdılar. ***Koryoda*** - ***mənzərə rəngkarlığı - yüksək səviyyəyə çatdı***. Koreyalı **rəssamı - Li Nyonqun** (XII-ci əsrin əvvəlləri) məharətinin şöhrəti- ***Çinə qədər çatmışdır***. **Li Nyonq** - təkcə **Çinin** ***Sun sülaləsi*** dövründə yaşamamış, o həm də öz sənətini- Çinli rəssamlara öyrətmişdir. XI-ci əsrin sonu – XII-ci əsrin əvvəllərində rəssam **Conq Dıkqonq** -***balıqları təsvir etməkdə xüsusi məharəti ilə tanılırdı***.

Koryo dövründə yaradılmış rəsmlərin çoxu - bu günə qədər gəlib çatmayıb. Onların arasında: ***Buddist Pusoksa monastırının*** (***Şimali Kyonqsanq*** əyaləti) - ***Cosadanq pavilyonunda*** **olan** ***divar rəsmi(rəngkarlığı), Sosu sovonunda*** saxlanılan - ***Hve Honq konfutsi alimin portreti*** (1318, naməlum müəllif, ***Şimali Kyonqsanq əyaləti***). **Dövlət başçısı** ***Konqmin-Van*** (1351-1374)- ***xəttatlıq və rəssamlıq sənəti ilə məşhur idi.*** Onun çəkdiyi ***"Səma dağları yaxınlığındakı Böyük Ov şəkili" ("Çonsan deryobdo")*** qorunub saxlanılmışdır. Koryo dövrünün, əsasən buddizm məzmunlu ayrı-ayrı rəsmləri -Yaponiyada saxlanılır.

Koryonun - *Çində olan* - *Monqol Yuan* sülaləsindən asılı olmasına baxmayaraq, ***Koreya - öz milli mədəniyyətini qoruyub saxlaya bildi və XIV əsrdə islahatlar yoluna qədəm qoydu və əvvəlki müstəqilliyini bərpa etdi*** [2. S. 149].

## 4. Çoson dövrünün təsviri və dekorativ sənəti

### 1. Təsviri sənət

Çinlə iqtisadi və mədəni əlaqələrin sürətli inkişafı - Çoson rəssamlarına - XIII-XV əsrlərə aid Çin rəssamlığı ilə tanış olmaq imkanı verdi. Onun Koreya incəsənətinə təsiri - danılmazdır, lakin o- Konfutsiçilik və Taoizmin fəlsəfi konsepsiyalarının qavranılmasında əks olunur. XV-XVI-cı əsrlərdə Koreya təsviri sənəti - mükəmməl mənəvi və fiziki harmoniya idealını təcəssüm etdirən- bütün Konfutsi ölkələri üçün ümumi olan estetik normalar əsasında inkişaf etməkdə davam edirdi. ***Əsasən Buddist ənənələrinə əsaslanan Koryo incəsənəti - Çoson krallığının ustalarının yaradıcılığı üçün - əsas rolunu oynadı***, lakin ***Konfutsi sisteminin mütləq üstünlüyü – təsviri sənət sahədə ciddi dəyişikliklərə səbəb oldu.***

***Buddizm - xarici formalara diqqət yetirməklə, əsərlərin təsvir tərəfinə daha çox təsir göstərmişdir***. ***XIV-XVI əsrlərin sonunda Buddist ənənəsinin*** *zəifləməsi* - ***konfutsiçiliyin*** *rolunun artması ilə müşayiət olunurdu*. ***Müəyyən sərtliyi və həddən artıq tənzimləməsi ilə seçilərək, o - formaya üstünlük etməyərək, simvolizmə diqqət yetirirdi.*** Buna görə də, ***Konfutsiçiliyin dominant təlim kimi gücləndiyi şəraitdə inkişaf edən Çoson krallığının ilkin dövrünün bütün incəsənəti - açıq simvolizmi ilə seçilir və forma baxımından- eynidir, yanı o həmişə bir qaydada olandır***. ***Eyni zamanda***, ***Buddist və Konfutsi kanonlarının, onların motiv və obrazlarının birləşməsi və bir-birinə qarışması - orijinal təsviri və tətbiqi sənət əsərlərinin yaranmasına səbəb oldu.***

***XVI əsrin sonlarında*** (Koreya feodal sisteminin böhranının başlandığı vaxt) ***mədəniyyət tədricən antiklerikal və humanist xarakter alır***. *Əvvəlki dövrlərdə* - ***təsviri sənətin əsas mövzusu - dini mövzular idi***, ***burada - tanrıların və kilsə rəhbərlərinin təsvirləri əks olunurdu***, *bu dövrdə isə* - <u>***rəssamlıq bu həyatı - bəzəmək, gözəlləştirmək üçün - insanların və təbiətin real həyatına müraciət etmişdir.***</u> ***Rəssamlar*** <u>***janr səhnələrini***</u> ***– kağız üzərində***

***çəkərək və yaşayış evlərinin divarlarını rəngləyərək, parlaq, çoxrəngli yerin gözəlliyini rəsm ilə çatdırırdılar, burada: gavalı çiçəkləri, qırmızı ağcaqayınlar, çiçəklər və ağaclar təsvir olunurdu.*** **Onların əsərləri -** ***Buddist cənnət və cəhənnəmin mistik şəkillərilə*** **və** ***konfutsi*** **və ya** ***taoist fəlsəfə ruhunda*** **–** ***monoxrom(bir rəngli,bir tonlu) mənzərələri*** **ilə tamamlayırdı** [1. səh. 93–94].

***Koreya mədəniyyətinin xəzinəsinə mühüm töhfə - erkən Çoson sənətkarlığı, rəngkarlığı və memarlığı tərəfindən verilmişdir***. Bu zaman ***Koryo tipli yaşıl-göy keramika*** dəbdə olur və ***stilizasiyadan azad olan - ağ keramika - punçhon*** geniş yayılır.

***Koryo dövründə olduğu kimi, Li sülaləsinin padşahlarının sarayında - rəssamların işini və həyatını təşkil edən- xüsusi bir şöbə - Rəngkarlıq Akademiyası (Dohvaso)*** var idi. ***Əsas rəngkarlıq janrları - mənzərə, eləcə də quş və heyvan təsvirləri idi.*** *Bu günə qədər* – XV-XVI-cı əsrlər Koreya rəssamlarının ***Kanq Hian-nın "Suya baxan, düşünən müdrük***" (1419-1464), ***An Gyon-ın "Yuxuda çiçəklənən şəftəli ağaclarına səyahət*** " əsərləri gəlib çatıb. Buddizmi burada təqib edilməsi və tədricən dominant, üstün ideologiya kimi Konfutsiçiliğin ortaya çıxması ilə əlaqədar olaraq, Buddist incəsənəti və memarlığı inkişaf olmadı. ***Erkən Çosonun*** *binalarından ən əhəmiyyətlisi və əzəmətlisi* - ***saray kompleksləridir***, məsələn, Seuldakı Çanqdokkunq (XIV-cü əsrin sonu - XV -ci əsrin əvvəlləri). Seul şəhərin Cənub Qapıları(Darvazaları) (Namdemun, 1448 il) və Pxenyandakı Pothon(Pothonmun, 1473) çayı yaxınlığındakı Şəhər Qapıları(Darvazaları) - iki müasir Koreya paytaxtının "vizit kartı" oldu [2. S. 159].

Çoson krallığının formalaşması vaxtında - monqol ordusunun olduğu zamanı - pozulmuş Xan Çini ilə ənənəvi əlaqələrin normallaşmasına böyük diqqət yetirildi. XV-ci əsrin əvvəllərində Min imperiyası - Li sülaləsini dəstəklədi, iki dövlət arasında əlaqələr gücləndi, əsrin ilk onilliklərində Çinli ustaların bir çox əsərləri - Seula gətirildi.

*XV-XVI əsrlərin təsviri sənət sistemində* - ***rəngkarlıq sənəti üstünlük təşkil edir. Fırça ustalığı - cəmiyyətdə yüksək mədə-***

***niyyətin əlaməti və Konfutsi fəzilətlərindən biri kimi qəbul edilir.*** Məhz buna görə ***1392-ci ildə*** *Li Songyenin kral sarayında* ***Dohvaso rəssamlıq müəssisəsi yaradıldı (o XIX-cu əsrə qədər mövcud idi***) və *Min Rəssamlıq Akademiyasından* nümunə götürərək, ***Dohvaso rəssamlıq müəssisəsi*** - təkcə peşəkar rəssamların yetişdirilməsinə xidmət etmirdi, burada həmçinin rəssamların işində - dövlətin nəzarəti var idi. *Dohvaso Akademiyasında* "***Dohva***" adlanan ***rəsmi rəssamlar qrupu*** yaradıldı. Ən yüksək peşəkarlar olduqları üçün - onlar rəssamlığın bütün müasir janrlarına və texnikasına yiyələnməli idilər, lakin ***Konfutsi akademiyasına mənsub olmaları olduğuna görə - onlardan ilk növbədə portret janrında işləməyi tələb edirlirdi***. ***Konfutsi dünyasında bu rəngkarlıq janrı - bir kulta çevrilir, o - əcdadlara ehtiram ayinlərilə və beş fəzilətlərlə sıx əlaqəli idi***. Koreyadakı kimi heç bir Uzaq Şərq ölkəsində ***portret*** janrı - əhəmiyyətli bir mövqe tutmamışdır. ***Rəsmi rəssamlar - hökümdarların, zadəganların, konfutsi alimlərin, məmurların və onların ailələrinin kanonik(qanunlaşmış) portretlərini çəkirdilər***. ***Portretlər*** - rəsmin incə qrafik çekilməsinə və rəng parlaqlığına əsaslanaraq, şimal Sun ənənələrinə ciddi şəkildə uyğun olaraq yaradılmışdır. Kanonlardan (formalaşmış qanunlardan) kənara çıxmaq - icazə verilmirdi; o - pozasını, üz ifadəsini və dönüşünü, mərasim geyimini müəyyən edirdi. Portret o qədər qanunlaşdırılmışdır ki, üzərində təsvir olunan görkəmli şəxsin şəkili- ölümündən sonra məbəddə və ya digər ritual otaqda - ibadət üçün nümayiş etdirilən bir növ Konfutsi "ikonasına" çevrildi.

Ən görkəmli rəngkarlıq portret ustaları - **Kanq Hian** (1418–1465) (şək. 14) və *onun davamçısı* **Li Şinhım** (1570–1631) idi, ***onlar üstəlik - yüksək dövlət vəzifələrini tuturdular***.



***Şəkil 14. Kanq Hian. Su üzərində düşünmək. XV-ci əsr Milli Muzey, Seul***

Rəsmi ***dohva məktəbi*** ilə paralel olaraq**,** ***muninhva*** adlanan ***həvəskar rəssamların*** *istiqaməti* inkişaf etdi. ***Muninhva*** *nümayəndələri* - *özlərini* - ***Koreya ənənəsinin qoruyucuları hesab edirdilər, lakin onlar eyni zamanda yumşaq mürəkkəblərin yuyulması və onun çalarları ilə - Cənubi Sun texnikasından istifadə edirdilər***. Rəsmi Konfutsi məktəbindən uzaqlaşmaq - onlara ***sərbəst yazı tərzi ilə daha sərbəst rəsm üslubunu - inkişaf etdirməyə imkan verdi***. ***Muninhva rəssamları*** - böyük bir rəssam kütləsi ilə təmsil olunurdu, onlar - *dohva ustalarından* fərqli olaraq, ***öz əsərlərinə- imza atırdılar***. ***Kult portretləri***, bir qayda olaraq, ***imzaya malik deyildi***, *buna görə də* ***müəlliflik haqqında praktiki olaraq, heç bir məlumat yoxdur***.

***Mənzərə/peyzaj rəngkarlığı*** - yarı-rəsmi janr kimi hesab etmək olar, onunla *Dohvanın bəzi nümayəndələri* və demək olar ki, bütün *həvəskar rəssamlar- məşğul olurdular*. ***Mənzərə/peyzaj*** –

XV-XVIII-ci əsrlərdə ***dünyəvi rəssamlığın aparıcı janrına çevrilir***, o *Sun üslubunda olan- "dağlar və sular" (sansuxva) Çin mənzərə eskizlərinə - maksimal dərəcədə mümkün qədər yaxın idi.* ***Konfutsi rəssamların***( ***Kanq Hian, An Gyon*** ) əsərlərində ***epik başlanğıc***- ön plana çıxır, ***burada - bütün təbiət hadisələri - müəyyən nizama tabe olunur*** [1. səh. 94–95].

**Kanq** - rəngli mürəkkəblə rəsm çəkirdi və insan və təbiət arasındakı ayrılmaz əlaqəni vurğulayırdı, lakin mənzərə klassikləri çox vaxt sülh və daxili tarazlığı təsvir etməyə diqqət yetirərək - ***emosional rənglərdən məhrum idilər***. XV əsrin ortalarında rəsm əsərlərini yaradan **An *Gyon - tez-tez ya realistik peyzaja, ya da Taoist mistisizmə meyl edərək, kanondan kənara çıxırdı. Taoist rəssamları - təbiətin qavranılmasında öz həyacanlarını çatdırmağa çalışırdılar.*** **An *Gyon*** *məhz bununla məşhurlaşdı*. ***XV-ci əsrdən başlayaraq,*** **portret** və ***mənzərə janrlara*** əlavə olaraq, ***Koreya milli rəssamlığının*** *digər janrları da formalaşır: onlar -* ***dekorativ janrıdır*** və o -***"çiçəklər və quşlar" janrına*** əsaslanır (***Ço Çok, Hvanq Cipcunq, Şinsa İmdanq, Li Qyö-ho), "dörd mükəmməllik" janrı*** (***O Monnyön***, ***Li Conq***), ***gavalı çiçəklərini, orhideyanı, xrizantemaları və bambukları,*** *həmçinin* ***heyvanları təsvir edən- animalistik rəngkarlıq janrıdır*** (***Ko Un, Li Am***).

***Rulon/yığılmış rəsmlər*** - ipək, kağız və bitki lifli parçalar üzərində, əsasən mürəkkəb və mineral əsaslı sulu boyalarla yazılmışdır. ***Onlar - məbəd və saray pavilyonlarını bəzəməkdə xidmət edirdilər. Monoxrom(təkrəngli) qara mürəkkəblə çəkilmiş* - *hva*** və ***mopilhva*** - öz xəttatlığı, zənginliyi və nüanslarının incəliyi ilə - ən çox qiymətləndirilirdi. *Mürəkkəbin yuyulması ilə seçilən* ***Munhva rəngkarlığı*** - xüsusilə məşhur idi. Təəssüf ki, İmdjin müharibəsi zamanı - Çoson Krallığının erkən rəsmlərinin əksəriyyəti - məhv oldu, lakin sağ qalan əsərlər – XV-XVI-cı əsrlərə aid olan rəssamlarının yüksək məharətindən xəbər verir. [ S. 96].

Çox vaxt ***xəttatlıq*** - rəngkarlıq silsilənin müşayiətedici komponenti və ya müstəqil təsviri sənət növü kimi çıxış edirdi. ***XV-XVI-ci əsrlər - Koreya xalqına dörd böyük xəttatın: Şahzadə An***

***Phyonq, Kim Qu, Xan Ho və Yanq Saon-un,- ən zəngin miraslarını qoyub. Onların işi - virtuoz texniki ustalıqla seçilir***.

Rulon\yığılmış xəttat işi - rəngkarlıq əsəsrləri kimi- məbədləri, sarayları və təhsil ocaqlarını bəzəyirdilər, onlar - hətta təhsil almış insanların şəxsi evlərində də tapılmışdır. Xəttatlıq sənəti -savadın ən yüksək təzahürü kimi dəyərləndirilirdi; zadəgənlardan/aristokratlardan, alimlərdən və rahiblərdən - rəssamlığın əsasları ilə yanaşı,bu sənətə yiyələnmələri də tələb olunurdu.

Koryoda aparıcı yer tutan - Buddist məbəd rənkarlığının rolu-əhəmiyyətli dərəcədə azaldı, Çoson krallığında artıq cəmiyyət və dövlət tərəfindən belə bir yayilma və tələbat yox idi.

Ölkənin təcrid/izolasiya dövrünün (XVII-XVIII əsrlər) ***Koreya təsviri sənətində - iki əsas istiqamətini müşahidə etmək olar.*** Bu, bir tərəfdən, bütün idealları - keçmişə yönəlmiş hakim feodal sinfinin ideologiyası ilə bağlı ***köhnə ənənələrə sadiqliyidir***. Digər tərəfdən, bu - ***reallığın yeni bədii dərk edilməsidir***, *Koreya cəmiyyətinin yeni yaranan təbəqələrinin dünyagörüşünü əks etdirən-* ***yeni formaların yaradılması istəyidir.***

***Ənənəvi Konfutsi rəssamlıq məktəbi ilə təmsil olunan birinci istiqamət* - estetik kateqoriyalara və köhnə incəsənət formalarına əsaslandığı üçün - əsaslı şəkildə konservativ olaraq qaldı**. ***Köhnə kanonlar - öz canlı məzmununu itirdi və bədii təfəkkürün inkişafına mane olmağa başladı.*** *Bu- XVIII-ci əsrin ikinci yarısında ənənəvi rəssamlığın tənəzzülünü izah edir.*

***Rəngkarlıqda yeni cərəyan yaranır***, onun inkişafında əsas rolu ***müxtəlif sosial təbəqələrin nümayəndələrinin***, ***o cümlədən, şəhərin artan ticarət və sənətkar əhalisinin bədii dəyərlərin əsas istehlakçılarına və yaradıcılarına çevrilməsi olmışdır.***

Koreyalı rəssamları üçün - *yeni olan Avropa rəngkarlığının texnikasına böyük maraq oldu*. Qərb texnikaları - ən tez - **qravüra(oyma sənəti)** janrının ustaları tərəfindən mənimsənildi. XVIII-XIX əsrlərin sonlarında Avropa rəngkarlıq texnikasının bəzi üsullarından, o cümlədən - yağlı boyadan istifadə edən - ilk Koreya rəssamları meydana çıxdı.

***Təsviri sənətdə yeni cərəyanların yayılması*** - ***<u>rəssamlıqda realist motivlərin və təzahürlərin güclənməsi ilə bağlıdır.</u>***

***Milli Koreya <u>mənzərə/peyzaj</u> üslubunun*** sonrakı tərtibatında və ***xalqın məişətini, həyat tərzini və işini əks etdirən - rəngkarlığ janrının yaranmasında – <u>realizm(istiqaməti)</u> - maksimum dərəcədə üzə çıxdı.***

***Koreya mənzərəsinin yaradıcısı***,- ilin müxtəlif vaxtlarında Çinin əfsanəvi yerlərini və ya mücərrəd təbiət şəkillərini təsvir etməkdən imtina edən - görkəmli rəssam - **Çonq Sonq**-u hesab etmək olar. **Çonq Sonq** - ***doğma təbiətinə üz tutdu, onun gözəlliyini və əzəmətini əks etdirməyə çalışdı***. ***Rəssamın yeniliyi ondadır ki***, o, ***<u>Sirhak fəlsəfəsi prinsipini</u> təsviri sənətə daxil etdi***: ***bu prinsip*** - ***ətraf aləmin real tərəfinə və praktiki ehtiyaclarına əsaslanır.*** XVIII-ci əsrin başqa bir görkəmli mənzərə rəssamı da - eyni prinsipə sadiq qaldı, o - ***Şim Saconq -dır.***



***15.Çonq Sonq" İnvansan yaxınlığındakı vadidə - tənha ev"***

***Janr üzrə rəngkarlar*: *Yun Duso, Şin Yunbok və Kim Duryanqın* -** öz əsərlərində - reallığa diqqətlə yanaşması ilə fərqlənirdi. ***Onların rəsmlərində - xalqın gündəlik həyatı, adət-ənənələri, məişət səhnələri, xalq tərəfindən sevilən -nağıl və əfsanələrdən şəkillər - öz əksini tapıb. Kim Duryanq - əsas yaradıcılıq mövzusu kimi - Koreya kəndinin reallıqlarını seçib*. *Kim Dıkşin*** və ***Kim Sokşin qardaşları*** - gündəlik kənd və şəhər həyatından bəhs edən ***məişət janrda rəsmlər*** çəkmişlər. Bilavasitə ətrafı reallıqda gördüyü - Koreya rəssamlığında ***qadın obrazlarının meydana çıxması*** - **Şin Yunbokun** adı ilə bağlıdır (şək. 16).



**Şəkil 16.** ***Şin Yunbok " Dano Festivalı günü su kənarında əyləncə"***

***Portretdə - demokratik meyllər də müşahidə olunurdu***: klassik konfutsiçi portretlə yanaşı, portret rəssamları *dünyəvi portret* sahəsində də fəaliyyət göstərirlər. Li Myonquk, Yun Duso - ***muninhva ənənəsini davam etdirərək*, *adi insanları, kənd işçilərini öz əsərlərinin qəhrəmanına çevirir.*** **Animalistik(heyvanların təsviri) janrı** - populyar olaraq qalır, *lakin burada da təsvirin obyekt mövzusu dəyişir:* ***rəssamlar Kim Şik, Kim Ce və Byon Sanqbyok-un*** marağlarını- ***kanonik "quşlar - pişiklər - itlər" deyil***, onları - ***real həyatın heyvanları: öküz, at, yarasa,siçan və s***.-

***cəlb edir. XVIII əsrin sonlarının ən məşhur rəssamı, bütün aparıcı janrlarda məşhurlaşan* Kim Honqdo-dur**: o - *öz əsərlərində- mənzərələr, kanonik və dünyəvi portretlər, janr eskizləri, heyvanları və bitkiləri təsvir etmişdir.*



***Şəkil 17.Kim Honqdo" Rəqqasə və musiqiçilər"***

Rəssamlığın klassik sahələrindən biri - **xəttatlıq** - uzun müddət yalnız – kanona\qanuna uyğun olaraq inkişaf etmişdir. XVIII əsrin ikinci yarısında o -Çin ənənəsinin çərçivəsindən çıxa və qurtula bildi. Bunu – ***"çusa" adlı orijinal xəttatlıq üslubu yaradan*** usta - **Kim Conqhi** edib,o ***orijinal xəttatlıq üslubu yaradır.***

***XIX əsrin rəssamlıq sahəsində*** - XVIII-ci əsrə xas olan- realist meyllərin itirilməsi müşahidə olunur. Rəssamlar - adi insanların həyat və məişətinin təsvirindən əl çəkib, yenidən təbiətin müşaidəsinə diqqət yetirdilər. Ənənəvi ***mənzərə*** janrları, ***natürmort(təbiət rəsmləri)***, "***dörd kamillik***" üslubunda yazılmış ***klassik rəsmlər*** - yayıldı. Məşhur ustalar - **Şin Myonq-yon -yonq** və **Pek Inbe** idi. ***Realist ənənələri***ni - **Şinq Vi** - saxlamağa çalışırdı. ***XIX-cu əsrin rəssamlığının zirvəsi - realist üslubda yazan və Avropa texnikasına yiyələnməyə çalışan*** - **Canq Sınqopa-dır** [1. səh. 97–100].

XIX əsrin sonu - XX əsrin əvvəllərində, xüsusilə əhəmiyyətli olan **rəngkarlıq** və ***incəsənət əsərləri*** *yaradılmadı*, ***lakin Koreya ustalarının yaradıcılıq prosesi - sosial düşüncədə qabaqcıl cərəyanların inkişafı və Avropa sənətinin texnikalarının mənimsənilməsi ilə müəyyən edildi.***

## 5. Dekorativ-tətbiqi sənət

***Koreyada ənənəvi tətbiqi sənət növləri inkişaf edir, onlar: ipək üzərində tikmə, keramika və çini istehsalı, tunc qabların və soyuq silahların istehsalıdır.*** Ümumiyyətlə, bu dövrün tətbiqi sənəti - müxtəlif sosial təbəqələrin həyat tərzinin tələbatını ödədiyi üçün- kifayət qədər rəngarəng idi. Koreya incəsənəti və mədəniyyəti üçün yeni olan –***bəzək, dekorasiya və təmtəraqlı əzəmət tendensiyaları*** - məmur-feodal elitasının və formalaşmaqda olan şəhər təbəqəsinin həyat tərzi və mədəni tələbləri ilə əlaqələndirilirdi.

***Keramika və çini - xüsusi yer tuturdu***. ***Koreyalı sənətkarlar müxtəlif məhsulları: hər növ vazalar, dolçalar, kəsalar və qablar - istehsal edirdilər.*** Onlar *çini üzərində kobalt boyama texnikasını mənimsəmişdilər* (əvvəllər belə məhsullar - Min Çinindən ixrac olunurdu), *qar kimi ağ çini qabların hazırlanmasını öyrənərək*, istehsal edirdilər. Lakin ***çini istehsalı*** sahəsində *yaradıcı axtarışların əsas məqsədinə* - nə XV əsrdə, nə də sonrakı dövrdə - nail ola bilməyiblər.

Monqol hökmranlığı dövründə Koryo tətbiqi sənətinin qüruru olan - ***məşhur mavi-yaşıl*** (rənginə görə ***malaxitə*** çox yaxın idi) ***çini seladon və onun rəngli gillərlə bəzədilməsinin inkrustasiya (sanqam çhonqja texnikası) istehsalının sirri - geri qaytarılmaz şəkildə itirildi.*** Bir çox ustaların ***seladon istehsalını*** bərpa etmək cəhdləri - uğursuz oldu. O - təəccüblü düz konturları olan - ağ rəngli çini ilə əvəz olunur.



***Şəkil 18. Əjdaha şəklində qab***



***Şəkil 19. Sanqam texnikasılə işlənən dolça***

***Li dövründə - boyalı və sədəf ilə bəzədilmiş laklı məmulatları və mebel istehsalı - geniş yayılmışdır, bir qayda olaraq,onlar- qara və ya açıq lakla və naxışlı metal ornamentlərlə örtülmüş- dür*. Məcməyilər/ podnoslar, yemək masacıkları, mücrülər, sandıqlar və digər əşyalar - ağac fakturasının gözəlliyini və formanın mükəmməlliyini birləşdirir, onların zərifliyi - Kore- ya dövlətindən kənarda da məşhur idi** [1. S. 109].

***XV əsrin sonlarında, bəziləri isə - XVII-XVIII əsrlərin dövründə meydana çıxan yeni növ keramikaların*** geniş yayılması - əlamətdar hadisə olmuşdur. ***Onun fərqli xüsusiyyətləri - ağ fonda tətbiq olunan mavi və göy rəngli təsvirlər idi. Buna görə də dulusçuluq -"çhonqhva bekca" adlanırdı, o da "mavi çiçəkli ağ qab" mənasını verirdi.*** Bununla belə, *rənqlənmə* - yalnız çiçəkləri təsvir etməklə məhdudlaşmırdı. Təsvirlərdə - dağlar, ağaclar, quşlar ola bilərdi. ***Koreya tarixşünaslığının nöqteyi-nəzərindən - ağ və göy keramika - xüsusi Koreya rəngləri, koloriti ilə seçilir və Çin və ya Yaponiya keramikalarına bənzəmir*** [2. S. 199].

***XII-ci əsrin əvvəllərindən seladonun dekoru daha mürəkkəbləşdi***, mənzərəli relyefi və yapılma dekorasiyalar (şir, təkbuynuzlu, qırqovul, ördək və s.heyvanların həcmli heykəlcikləri ilə bəzədilmiş çoxsaylı ***mebyonq*** *tipli vazalar*) - populyarlıq qazanır. ***Seladon keramikasının*** əsl şah əsərləri -qapaqlarında heykəltəraşlıq fiqurları olan *buxur yandırıcılardır*.



***Şəkil 20. Buxur yandırıcısı***

***XVII-XVIII əsrlərdə Koreya tətbiqi sənətinin bir çox parlaq və orijinal nümunələri yaradılmış, onların bir çoxu - xaricdə yüksək qiymətləndirilmişdir. Naxışlı ipək parçaları, lak məmulatları, ipək sapla ənənəvi tikmə istehsalı inkişaf etmişdir. Zərgərlik və bambuk toxuculuğu, taxta məmulatların sədəflı(perla-***

***mutr) dekorasiyası populyarlaşdı. Sədəf inkrustasiyası ilə örtülmüş ev mebelləri - xüsusilə qiymətləndirilirdi: onlar geyim şkafları, sandıqlar, yazı masaları və kağızlar üçün masalar və s.-dir. Yeni bir dəb - mebelin zəngin ağac oymalarla bəzədilməsi idi.***

Bununla yanaşı, *Koreyada tətbiqi sənətin* ümumi bədii səviyyəsinin müəyyən dərəcədə aşağı düşdüyünü vurğulamaq lazımdır. Buna *İmcin müharibəsi illərində çoxlu sayda sənətkarların əsir düşməsi səbəb oldu,* ayrı-ayrı sənətkarlıq məktəblərinin sirləri-uzun müddət, hətta geri qaytarılmayacaq şəkildə - itirildi. *Məmulatların bədii səviyyəsinin aşağı düşməsinin başqa bir neçə səbəbləri var: bu - sənərkarların əsir olması, böyük istehsalın yaranması kimi qəbul edilməsidir: sənətkarlar daha çox məhsul istehsal etməyə çalışırdılar və çox vaxt o - onların keyfiyyət xüsusiyyətlərinə zərər vururdu.* ***Bu xüsusilə - çini istehsalında nəzərə çarpırdı.***

***Dövrün dekorativ-tətbiqi sənətində kifayət qədər spesifik xüsusiyyətlərə malik olan- üç istiqamət var idi.*** **Birincisi** - ***çini və tekstil(toxuculuq) fabrikləri əsasında – bədii sənayesinin inkişafıdır.*** **İkincisi** - ***müxtəlif ixtisaslar üzrə usta və rəssamların peşəkar yaradıcılığıdır: keramika, çini, toxuculuq, parça rənglənməsi, lak, metal məmulatları, ağac və s.*** **Üçüncüsü** - ***xalq bədii sənətkarlığıdır: əl toxuculuğu, məişət keramika, toxuculuq, oyuncaqlar və s. Bütün istiqamətlərin ümumi inkişafı - iki cərəyan əsasında formalaşmışdır: ənənəviçilik və qeyriənənəviçilik***

**Birincilərin** *nümayəndələri* - ***köhnə nümunələrə əsaslanırdı, onlar unudulmuş ənənələri canlandırmağa, qədim istehsal üsullarını bərpa etməyə çalışırdılar.*** **İkincilərin** *tərəfdarları* - ***Koreya texnologiyasını - Avropa formaları və dekor ilə birləşdirərək, ənənələri yenilənməyə çalışırdılar*** [1. S. 102].

## 6. Koreya müxtəlifrəngli daşların rəsmi

**Qiymətli, yarımqiymətli daş tozlarından yaranan əsər** - "**bosokhva**" - yeni rəngkarlıq növüdür, o - təbii və süni qiymətli daşlardan istifadə edilən - ***plastik bədii sənət təsviridir.*** Spesifik ma-

teriallar və müxtəlif təsvir üsulları - şəkilə gözəllik qatmaqla yanaşı, insanda müstəsna olaraq özünəməxsus emosionallıq yaradır.

“**Bosokhva**”- materialların nadirliyi, təsvirin incəliyi və zinət əşyaları baxımından- Koreya təsviri sənətinin - ən yüksək əsəridir.

Koreya təsviri sənətinin yeni bir növü - gənc rəssam ***Şin Bonq Hva*** tərəfindən ***1980-ci illərdə yaradılmışdır***. “Pekin-88” beynəlxalq ixtira sərgisində o qızıl medala layiq görülmüşdür.

Bu iş növünün əsas xüsusiyyəti ondan ibarətdir ki, təsvir - təbii qiymətli, yarımqiymətli daşlardan olan tozlardan istifadə edilməklə kətana əks etdirilir, ona görə də təsvirin parlaqlığı- uzun illər qalır.

***Bosokhva rəsm əsərləri*** - gözəl rəng tonlarının geniş diapazonu və hamar təsvir xətləri ilə xarakterizə olunur. Təbii materiallardan istifadəni- müxtəlif rənglənmə üsulları ilə birləşdirən ***Bosokhva rəsmləri*** - Koreya rəssamlıq ustalarının yaradıcı axtarışlarını və bədii istedadlarını göstərir. Bunlarda "Göyərçinin rəqsi", "Visteriya çiçəkləri və itin balaları", "Yağan qar", "Pektu dağının pələngi", "Fevralda Tedonqan çayı ", "Qırqovullar", "Tovuz quşları" və s.görmək olar.

Bu rəngkarlıq növün tədqiqat işi - Koreyada 1984-cü ilin may ayının əvvəlində başlanılmışdır. O vaxtlarda Koreya rəngkarlığı əsasında təsviri incəsənət sahəsində bütün növ və formalarının inkişaf etdirilməsi istiqamətində fəal iş aparılırdı.

Boyaların və digər bədii materialların dəyişməzliyini təmin etmək üçün - gərgin iş aparılmışdır.

Rənglər - əsərlərin canlılığına zəmanət verən - əsas amillərdəndir. Ona görə də onları yaradan zamanı - rəssamlar əsərlərin rənginin dəyişməsinin qarşısını almaq üçün - *rəng uyğunluğuna ciddi fikir verirdilər*.

Qədim rəsmləri tədqiq edən Koreya rəssamları- minilliklər keçməsinə baxmayaraq, Koquryo dövləti dövrünə aid olan qədim qəbirlərin solmayan freskalarına diqqət yetirməyə başladılar. N-binasının tikinti meydançasında - onların diqqətini - binanın fasadının çoxrəngli daş tozlarından hazırlanmış - möhtəşəm bəzəklər cəlb etmişdir. Onlar - Koquryo dövrünə aid qəbir divarlarında və

binanın cəlbedici bəzəklərində təsvirləri təsəvvür etdilər. Rəssamların fəhlə və mütəxəssislərlə birgə apardıqları yorulmaz yaradıcılıq axtarışları -onlarda yeni rəngkarlıq növünün yaradılması imkanlarına inam yaratmışdır [3. S. 2–3].



***Şəkil 21.*** “**Bosokhva**” üslubund*a əsərin işlənməsi*



***Şəkil 22. Kim Yonq Ho, Şin Yo Son. Mənzərə.2020***





***23.Ağ tovuz quşu,***
***müəllif Li Rür***

***24.İt, müəllif***
***Pak Xyon Çhor***



***25.Fillər: müəlliflər***
***Li Rür və Li Ho Hyok***

1987-ci ilin mayında - təbii daşların tozundan yaradılmış yeni rəsm növü - dövlət ixtira hüququna layiq görüldü.

***Koreya rəssamları*** - təkcə ***portret*** deyil, həm də ***mənzərə, animalistik(heyvanların)janrda rəsmləri*** yaratmağa müvəffəq oldular,onlar ***təbiət hadisələrini təsvir etməkdə*** də uğur qazandılar.

Bu müddət ərzində onlar - qiymətli daş tozundan rəsm yaratmaq üçün - zəruri olan maddi hissələri təkmilləşdirmişdilər, həmçinin rənglərin solmazlıq xüsusiyyətləri üzərində işləyirdilər; Koreya xalqının milli hiss və emosiyalarına uyğun gələn - Koreya rəssamlığının gözəl texnikalarını- yaradıcılıqla öz işlərində təcəssüm etdirmişlər.

Nəticədə, plastik sənətin əsas növlərindən biri və yeni müstəqil rəsm növü olan - **daşların tozundan rəsmi** janrı inkişaf etməyə başladı.

***Koreya daş rəssamlığı*** anlayışı- əlbəttə ki, qiymətli daşlardan və yerli materiallardan istifadə mənasını ehtiva edir, lakin daha vacib olan - onun daş kimi parlaqlığı yayan və tamaşaçılarda müstəsna emosionallıq oyadan- rəsmlərin canlı təsviridir [3. səh. 3–4].

## Mövzu ilə bağlı ədəbiyyat

1. Koreya mədəniyyəti: dərslik. 1-ci hissə: Qədim dövrlərdən 1910 -cu ilə qədər / komp. L.A. Andronov; Tomsk. politexnik un-t. - Tomsk: Tomsk politexnik un-tın nəşriyyatı, 2014.

2. Qurbanov S.O. Koreyanın tarixi antik dövrdən - XXI əsrin əvvəllərinə qədər. - Sankt-Peterburq: Sankt-Peterburq un-t nəşriyyatı., 2009.

3. Koreya qiymətli daş rəssamlığı. - Pxenyan Juche 98, 2009. - 30 s.

4. Ksenofontova R.A. Qədim Koreya keramikası // Sat. MAE. 1987. T. 41.

5. Qluxareva O.N. Koreya incəsənəti qədim zamanlardan - XIX-cu əsrin sonuna qədər. - Moskva: İncəsənət, 1982. - 256 s.

6. Tolstıh İ.N.Koreya mədəniyyəti:ənənələr və müasirlik,- dərs

vəsaiti,-Vladivostok Dövlət İqtisadiyyat və Servis Üniversiteti,- Vladivostok VDİSU-nəçriyyatı.

7. Milli Xəzinə - Bosokhva əsəridur.

https://koreanradio.info/national-treasure-painting-ponikva/

## Suallar:

1. Buddist rəssamları - qravüra sənətinə neçənci əsrdə yiyələniblər?

2. Koryo keramikasının inkişaf xüsusiyyətlərini təsvir edin.

3. *Dohva Rəssamlıq müəssisəsi* hansı dövrdə yaradılmış və inkişaf etmişdir?

4. Koreya müxtəlifrəngli daşların rəsmi - Bosokhva.

## Sərbəst mövzular:

1. Çhonqhva bekca dulusçuluğunun xüsusiyyəti.

2. Koreya qravürü.

3. Koreyada Buddist qravüraları.

# Movzu 11.
# KOREYADA XƏTTATLIQ SƏNƏTİ VƏ ÇAP İŞİ. KİTABXANALAR

## KOREYADA XƏTTATLIQ VƏ ÇAP İŞİ

### Koreya xəttatlığı

Koreya xəttatlığı (Koreyaca: 서예) - Koreya hecalı həriflərlə və Çin heroqlifləri ilə - müvafiq olaraq - ***xangül(hanqıl***) və - ***xanca/hanca*** -da yazılan - gözəl yazıların Koreya ənənəsidir.

***Xangüldə(hanqılda***) - dairəvi xüsusiyyətlər yarandı.

Çin yazısı - Koreyada hələ II-III-cü əsrlərdə, ola bilsin ki, buddizmin yayılması ilə əlaqədar olaraq, - meydana çıxmışdır [1]. Tan sülaləsinin mədəniyyətinə, o cümlədən Çin xəttatlığına heyranlıq - Vahid Şilla dövründə artdı. VIII-ci əsrdə yaşamış ***Kim Sen - Koreya xəttatlığının ən erkən ustası kimi tanınır*** və Çinli xəttat - *Van Siçjhi* ilə müqayisəli olunan əsərlər yaradır[2]. *Koreyalı şair* - ***Çhve Çhivon*** - həm də *xəttat* kimi tanınırdı, onun nümunəsi – Pusan-dakı Heunde dağında həkk olunub.

Erkən Tan sülaləsi ustaları - Yuy Şinan, Ouyan Sün və Yan Çjentsin-in *bucaq üslubu* - XIV-cü əsrə qədər davam etdi, sonralar - Çjao Menfu-nun daha *dairəvi üslubu* - dəb halına düşdü. [1] Sonrakı illərdə *Koreya xəttatlığı* - getdikcə formal xarakter aldı [3]. XIX-cu əsrin əvvəllərində Kim Conq Hi - qədim Çin *lişu* üslubundan ilhamlanaraq, *çusa* adlanan üslubu təqdim edərək, Koreya xəttatlığında inqilab etdi. 1910-1945-ci illərdə Koreyanın - Yaponiya işğalı zamanı *xəttatlıqda* - Çin heroqlliflərindən istifadə edildi. Sonralar Koreyada milli hisslərilə qururlu olan xalq - bu günə qədər müasir xəttatların işində - üstünlük təşkil edən - yerli ***Xangül/Hanqıl əlifbasını*** istifadə etdi və o - onun populyarlaşmasına səbəb oldu.



***Xan/Han Ho tərəfindən - Xanci/Hanci  xəttatlığı istifadə olundu və  o - "Cınqyu yocanq soçop"(증유여장서첩) adlandırıldı.***

***Ədəbiyyat:***

1.Koreya xəttatlığı.  Wayback Machine-də -arxiv kopiyası-30 aprel 2015-ci ildə.

2.Chen, Tingyou (3 mart 2011), Çin Xəttatlığı. Wayback Machine-də -arxiv kopiyası-1 fevral 2014-cü ildə.

3.Yi, Ki-baek (1984), A New History of Korea, Harvard University Press -Arxiv  kopiyas 26 sentyabr 2016-cı il, Wayback Machine-də.

4. Koreya xəttatlığı https://ru.wikipedia.org/wiki/%D0%9A%D0%BE%D1%80%D0%B5%D0%B9%D1%81%D0%BA%D0%B0%D1%8F_%D0%BA%D0%B0%D0%BB%D0%BB%D0%B8%D0%B3%D1%80%D0%B0%D1%84%D0%B8%D1%8F



*“'Məhkəmə-tibbi ekspertiza üçün bələdçi” XVIII-ci əsrin ksiloqrafı*

***Koreyada kitab işinin başlanğıcı - bizim eramızın (I)birinci əsrlərinə təsadüf edir. Yazılı mənbələrdən məlum olduğu kimi, artıq Üç Dövlətlər dövründə (Koquryo, Pekçe və Şilla: e.ə. I əsr – b.e 7-ci əsrlərdə) - tarixə, ədəbiyyata və mədəniyyətə aid əsər-lər yazılmışdır.*** Çin filosoflarının və tarixçilərinin yazıları və Buddizmin nüfuzu ilə (IV-VI əsrlər) - Buddist traktatlar da geniş yayılmışdı. ***Ən qədim Koreya kitabları əl ilə yazılmış - əlyazma-lar idı.*** Onlar - **Venyan**-da (qədim Çin ədəbi dili), **Hanmun\Xan-mun**-da (**Venyan-ın** - Koreyalı variantı, versiyası) və ya **İdu**-da (Koreya dilinin qrammatik formalarını təmsil etmək üçün - müəy-yən heroqliflararın istifadə edildiyi sistemdır) yazılmışdır. **1444-cü ildə koreyalı alimlər - Koreya fonetik əlifbasını (*onmun*) yaratdılar.** *O vaxtdan ana dilində yazılmış kitablar yayılır.* Bu-nunla belə, ***klassik, rəsmi və elmi ədəbiyyat*** – **hanmun/xanmun**-da və ya **idu**-da çıxmağa davam edirdi. Dövrümüzə gəlib çatan ən erkən əlyazmalar - XI-XII-ci əsrlərə aiddir. ***Əlyazmaların yara-dılması mərkəzləri - kitabxanalar, monastırlar və məbədlər idi. Koreya əlyazmalarında və kitablarında vərəqdəki işarələr - yu-xarıdan aşağıya düzülür, onların şaquli zolaqları isə - sağdan sola düzülür və oxunurdu.*** Əlyazma üçün nəzərdə tutulmuş və-rəqdə - əvvəlcədən nazik xətlərlə bir neçə şaquli zolaqla - ayrıl-mış xüsusi çərçivə yaradılırdı. Kitabin kötüyü boyu ilə (vərəqlə-rin yığılan və tikilən hissəsi) beş-altı yerdən kitabın yuxarı və ya aşağı hissəsində-ucunda düyünlə bağlanmış - burulmuş sapla bağlanırdı. **Əlyazma kitabdan - XX-ci əsrin əvvəllərinə qədər geniş istifadə edilmişdir. Əlyazma kitabların ən böyük saxlan-ğıcı - Şimali Koreyada, Cənubi Koreyada, *Yaponiyada, ABŞ və SSRİ-də (Leninqrad (Sankt-Peterburq) və Alma-Ata)-da* yerləşir.**


內閣裒輯

李忠武公全書

乙卯活印

***Li Sun Şhin.  Tam seçilmiş əsəsrlər. 1795. Başlıq\Titul  səhifəsi***



***"Gəmidə gəzmək" rəqsi. Ksiloqraf. 1878***

## Kitab nəşrinin başlanğıcı. Nəşriyyat işi

**Koreyada ağac oyma çapının - ksiloqrafik üsul ilə yaranması - b.ə. VIII-ci əsrin əvvəllərinə təsadüf edir.** (*Ksiloqrafiya–* taxta oyma çapııdır, o - çoxsaylı, tirajlı qrafikasının bir növüdür, o - həkk olunmuş taxta lövhədən - güzgü\əks şəklinin çapı ilə - kağız üzərində çap üsuludur. Ksiloqrafiya termininin adı iki yunan sözündən ibarətdir: *ksilo* - ağac və *grapho* - yazmaq..Mənbə: https://veryimportantlot.com/ru/news/blog/ksilografiya)



**Beş Əxlaq Qaydasının - illüstrasiyalı surəti (yuxarıda) və ksiloqrafiya(aşağıda-sağda).**

***Koryo sülaləsinin hakimiyyəti dövründə (918 – 1392 illər) çoxsaylı Buddist kanonik kitablar, konfutsi alimlərin əsərləri - bu şəkildə çap edilmişdir. Ksiloqrafların çapı ilə - həm dövlət***

***qurumlarında, həm də Buddist monastırlarında məşğul olurdular***. 1011-ci ildən bəri Buddist əsərinin -" **Decanqgyonq" ("Buddist Sutraların Böyük Kitabı"**) - 6000-dən çox mətnləri - 60 ildən çox müddətə çap edilmişdir. **1085-ci ildə Koreyalı <u>buddist alim Iyçon</u> - Hvaom monastırında xüsusi mətbəə yaratdı, burada ksiloqrafiya üsulu ilə "Sokcanqgyonq" ("Buddist sutralar toplusunun davamı") əsərlərinin 4769 mətnləri çap olundu**.


弗摩訶目揵連摩
訶迦葉摩訶迦旃
延摩訶拘絺羅離
婆多周利槃陀伽
難陀阿難陀羅睺
羅憍梵波提賓頭
盧頗羅墮迦留陀
夷摩訶劫賓那薄
二

***Dokcusa məbədi tərəfindən nəşr olunan "Amitabha Sutra" - 1572-ci ildə Çoson sülaləsinin kralı - Sonco dövründə (1567-1608-ci illərdə) çap edilmişdir.***



***"Yay meşəsində pavilyonda - veteranın təsviri" Qin\Tsin sülaləsinin imperatoru Qianlonqun/Tsianlonqun hakimiyyəti dövründə (1735–1796) yaradılmışdır.***

XIX əsrin sonlarına qədər Koreya ustaları oyulmuş taxta lövhələrdən - ksiloqraflarda çap etdilər, onların hazırlanması üçün – sıx və sərt ağacdan (*palıd, şimşək, şümşad(buxsus;samşit) ağacları*) istifadə edildi. Lövhə - tam vərəq formatında kəsilirdi. Əlyazma - əslin, orijinalın - relyef, güzgü şəklinə,təsvirinə - mürəkkəb çəkilmiş və kağız üzərində çap edilmişdir. Çap - kağızın yalnız bir səthində aparılırdı, bundan sonra vərəq ortada qatlanır, - beləliklə - sağ və sol vərəqlər alınmırdı. ***Taxta blok lövhələr*** - *kli-şe,ştamplar* kimi qorunub saxlanılmışdır. **"Decanqgyonq"un** ikinci nəşrinin çapı üçün 1237-1253-cü illərdə hazırlanmış -

81.258-dən çox ***taxta blok*** (***panmok***) Koreyada bu günə qədər saxlanılıb qalmışdır (1232-ci ildə birinci nəşrin ***taxta blokları*** yanıb). Hər ***taxta blokun*** **ölçüsü**: hündürlüyü - 22,7 sm, uzunluğu - 48,4 sm, qalınlığı - 3,9 sm, çəkisi - 5 kq. **Blokda** - 22 şaquli xətt var idi; bir xəttdə - ən çox sayda heroqlif -14 idi. Ağacın çürümə və deformasiyadan qorunması üçün - *bloklar laklanırdı*; taxta lövhəciklər - sağda və solda, metal lövhəciklər isə - künclərdə gücləndirilmişdir. 1237-1253-cü illərdə bu lövhələrdən(onların vasitəsilə) - 6895 mətn çap olunub. XII-XIII əsrlərdə - 17 mindən çox - mətn çap edilmiş, 200 mindən çox - blok hazırlanmışdır. ***Koryo sülaləsinin hakimiyyəti dövründə kitablar*** - təkcə paytaxtda (***Kegyonq, müasir Keson***) deyil, həm də *bütün böyük şəhərlərdə və monastırlarda çap olunurdu*. Koreya və xarici ədəbiyyat topluları, məcmuaları yaradılmışdır. **Çonqyonqak və Bomunqak Dövlət Kitab Saxlanğıcları** - ***Koreyanın qonşu ölkələrində tanınırdı.***

***Li sülaləsinin hakimiyyəti dövründə*** (1392 – 1910 illər) Koreya ağac oyma çapı - ksiloqrafları xüsusi ***monoqramma*** ilə qeyd edilirdi: ***qaranlıq bir sahədə - ağ fiqurların təsviri: dörd və ya altı yarpaq kimi açılmış,genişlənmiş formada***. <u>**Əsrlər boyu Koreya - möhkəm və açıq kağızı ilə məşhurdur .**</u>

**KXDR-də <u>taxta bloklar</u> üçün - <u>ən böyük saxlanma mərkəzi - Myohyangsan dağlarında yerləçən Muzeydir(Phyonqan-Bukto vilayəti</u>), burada XV-ci əsrdə Buddist rahib Samendana mənsub olan - 4296 çap lövhələri görmək olar**. **Cənubi Koreyada - Heinsa Məbədi Muzeyində (Kyonsanq - Namdo əyaləti) 1488-ci ildən - 1237 - 1253-cü illərdə yaradılmış çap blokları (81 258 blok)saxlanılır.**

**Dünyada ilk dəfə olaraq Koreyada - <u>*metaldan hazırlanmış-*</u> <u>hərəkətli şrift</u>** ***geniş istifadə olunmağa başladı*** (metaldan hazırlanmış hərəkətli şriftın əsası - Sun Çinində qoyuldu, lakin qeyri-kamil texnologiyaya görə o orada təcrübədə tətbiq olunmadı). Baxmayaraq ki, hərəkətli şriftin Koreyada - Çinə nisbətən - gec meydana çıxsa da, **Koreya - bu sahədə böyük irəliləyiş əldə edib və <u>ilk mis tipoqrafiya şriftinin doğulduğu yer hesab olunur</u>**. Bəzi alimlər Koreyada ***hərəkətli metal şriftin*** növündən -

XII-ci əsrin sonu və XIII-cü əsrin əvvəllərində istifadə olunmağa başladığına inanırlar (bu şriftin daha əvvəl, XII-ci əsrin ikinci yarısından gec olmayaraq istifadə olunduğuna dair bir fərziyyə də var); Əksər tədqiqatçılar - 1234-1241-ci illərə əsaslanaraq, - həmfikirdirlər. **Artıq XIV əsrdə kitablar - təkcə paytaxtda deyil, əyalət şəhərlərində və monastırlarda da *hərəkətli metal şriftlə* çap olunurdu**. ***XV əsrin əvvəllərindən bu şriftlə çap edilmiş bir çox kitablar - dövrümüzə qədər gəlib çatmışdır***. *XVI əsrin sonlarında - Yapon hücümü dövründə çapın, poliqrafiyanın inkişafına xeyli ziyan dəydi*; işğalçılar çox sayda ***hərəkətli metal şriftlın işarələrini*** *məhv etdilər və ya çıxardılar*.**Hərəkətli metal şriftlə çapın inkişafında yeni yüksəliş - XVIII-ci əsrə təsadüf edir.** ***1772-1777-ci illərdə*** **"Donquk munhon biqo" Koreya ensiklopediyasının** ***çapı ilə əlaqədar olaraq - 300 mindən çox işarələr - metaldan tökülüb yaranmışdir;*** 1795-1796-cı illərdə - təxminən 600 min işarələr - metaldan tökülüb yaranmışdir. Həmin illərdə - ən sərt ağacdan yeni literaların(hərflərin) tökülməsi üçün - maket kimi 32.000 taxta *puansonlar* (çapda *puason*(*zımba*) - şriftli *matrisaların(formaların,ştampların*) istehsalında təsviri çıxarmaq üçün - istifadə olunan hərf və ya işarənin relyef təsviri olan polad çubuq) hazırlanmışdır. 1770-1797-ci illərdə çoxlu sayda kitablar - ***hərəkətli metal şriftilə*** çap olundu.

**Müasir nəşriyyat işinin formalaşması və müasir Koreya mətbuatının doğulması - XIX -cu əsrin sonlarına təsadüf edir və o - mütərəqqi burjua - vətənpərvərlik, mədəni-maarif hərəkatının yaranması ilə bağlıdır**. ***Bu dövrdə - Koreya milli əlifbası ilə yazılan kitabların sayı xeyli artdı. XIX əsrin sonlarında*** - **qarışıq heroqlif-hərf yazı sistemi (qukhanmun)** istifadəyə verildi.

1910-cu ildə Koreyanın Yaponiya tərəfindən ilhaqından(*İlhaq /Anneksiya- beynəlxalq hüquqda bir dövlət tərəfindən başqa bir dövlətin ərazisinin hamısının və ya bir hissəsinin birtərəfli qaydada zorla ilhaq edilməsidir*) sonra - Koreya nəşrlərinin əksəriyyəti - qadağan edildi. Koreya xalqının ***1 mart günü çıxışı*** (1919il) nəticəsində *Yaponiya hakimiyyəti Koreya dilində ədəbiyyatın və bəzi qəzetlərin nəşrinə - icazə verməyə məcbur oldu*. Ancaq 1930-cu illərin ortala-

rında Yapon müstəmləkə hakimiyyəti - Koreya dilində - kitab, qəzet və jurnalların çapını, demək olar ki, tamamilə qadağan etdi.

## ŞİMALİ KOREYA - KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI (KXDR)

### Nəşriyyat işi

**Koreya - Yaponiyanın müstəmləkə hökmranlığından azad edildikdən (1945il) və Koreyanın şimal hissəsində Koreya Xalq Demokratik Respublikası yarandıqdan (1948 il) sonra** ***nəşriyyat işi sosializm yolu ilə uğurla inkişaf etməyə başladı***. Azad edildikdən sonra cəmi ***14 il ərzində KXDR - təxminən 167 milyon nüsxə tirajla 19 634 kitab nəşr etdi***. **Kim İr Senin** "***Seçilmiş əsərləri***" ***və ayrı-ayrı əsərləri, Koreya Əmək/Fəhlə Partiyasının sənədləri və digər siyasi ədəbiyyatlar iri tirajlarla çap olunur, müxtəlif bilik sahələrinə aid kitablar, bədii ədəbiyyat əsərləri çap olunur***.




***"Koreya Milli Oyunları". Pxenyan, 1964. Kitabın üz qabığı***

**KXDR-də əsas nəşriyyatlar** (1975 ildə) bunlar idi: ***“Çoson nodonqdanq çulpansa” (Koreya Fəhlə Partiyasının nəşriyyatı); “Kvahaqvon çulpansa” (“Elm”)- KXDR Elmlər Akademiyasının nəşriyyatı; " Sahvecue nodonq çonnyonq çulpansa" (Sosialist Əmək Gəncləri İttifaqının nəşriyyatı); " Ciqob donqmen çulpansa" (Birləşmiş Həmkarlar İttifaqlarının nəşriyyatı); " Vequqmun çulpansa" (Xarici dillərdə ədəbiyyat nəşriyyatı); “ Çoson munhak yesul çonqdonqmenq çulpansa" Birləşmiş Birliklərin Koreya Ədəbiyyat və İncəsənət Xadimləri); " Sahve Kvahaqvon çulpansa" (İctimai Elmlər Akademiyasının nəşriyyatı); “Adonq doso çulpansa” (“Uşaq ədəbiyyatı”); “Çeyuk çulpansa” (Bədən tərbiyəsi və idman nəşriyyatı); müxtəlif sahələr nəşriyyatları*** və s.

**KXDR-də 1949-cu ildən - elmi, xüsusi, peşəkar və bədii ədəbiyyat, qəzet və jurnallar - heroqlifsiz - tamamilə Koreya əlifbası ilə (qukmun) çap olunur.**




***"İnqilabçı döyüşçülərin həyatı və fəaliyyəti" cild 3.***
***Pxenyan, 1969. Üz qabığı.***

## Kitabxana işi

***Şimali Koreyada azad edilmə ərəfəsində - cəmi 7 kitabxana var idi. 1964-cü ildə KXDR-də artıq - 228 kitabxana var idi (13 - mərkəzi və əyalət, 178 - şəhər, 37 - uşaq)***. 1950-1953-cü illər müharibəsi zamanı KXDR kitabxanalarına ciddi ziyan dəysə də, üç ildən sonra onlar tamamilə bərpa edilib. Bunu kitab fondunun artımı (min nüsxə ilə) sübut edir: 92 - 1946-cı ildə, 437 - 1953-cü ildə, 4758 - 1959-cu ildə, 7164 - 1964-cü ildə. ***KXDR kitabxanaları - üç qrupa bölünür: dövlət-ictimai, elmi, ali təhsil müəssisələrinin kitabxanaları.*** Bundan əlavə, ölkədə müəssisələrdə ***stasionar kitabxanalar və səyyar kitabxanalar şəbəkəsi*** inkişaf etdirilir. **Ən böyük kitabxanalardan biri - Pxenyandakı Dövlət Mərkəzi Kitabxanasıdır (1945-ci ilin noyabrında yaradılmışdır)**. 1957-ci ildə kitabxanada - dünyanın 15 dilində 430.000-dən çox kitab cildləri var idi. Onların arasında marksizm-leninizm klassiklərinin əsərləri, Koreya Fəhlə Partiyasının sənədləri, elm və texnikanın müxtəlif sahələrinə dair monoqrafiyalar, bədii ədəbiyyat var. Köhnə Koreya kitablarının - 50 mindən çox mətni var. 70-ci illərin əvvəllərində kitabxana fondu - 4 milyondan çox mətndən ibarət idi. Kitabxana – dünyanın 600 kitabxanası ilə kitab mübadiləsini edir və dəstəkləyir. Onun - o dövrdə Lenin adına SSRİ Dövlət Kitabxanası (indiki Rusiya, Moskva) ilə və SSRİ-nin digər kitabxanaları ilə sıx əlaqələri var idi. ***Dövlət Mərkəzi Kitabxanası - biblioqrafik nəşrləri "Köhnə Koreya nəşrlərinə - şərhlər", "Kitabxana həyatı" və s.çap edirdi.***

***1952-ci ildə KXDR - Elmlər Akademiyasının (EA) Kitabxanası yaradılmışdır, burada təbiət və humanitar elmlərə dair ədəbiyyat var.*** 1962-ci ildə kitabxananın fondu - 2 milyon cilddən ibarət idi***. Kitabxanada unikal nəşrlər var: "Li sülaləsinin salnaməsi"; XVIII-ci əsrin məşhur Koreya ensiklopediyası. 100 cilddə "Donquk munhon biqo" və s. 1956-cı ildə Kim İr Sen adına Universitetdə kitabxana yaradılmışdır.***

## CƏNUBİ KOREYA

**Cənubi Koreyada inkişaf etmiş poliqrafiya-çap sənayesi var**. ***Kitab nəşri - özəl kapitalist firmalarının işinə aiddir.*** **Elmi, xüsusi, bədii, qəzet və jurnallar - qarışıq heroqlif-hərf yazısından istifadə etməklə çap olunur**.

**Cənubi Koreyada Kitabxanalar** - ***dörd kateqoriyaya bölünür: ictimai kitabxanalar, ali təhsil müəssisələrinin kitabxanaları, məktəblər kitabxanaları, ixtisaslaşdırılmış kitabxanalar***. ***Böyük kitabxanalar*** - ***Seulda cəmləşib***. 1968-ci ildə **Dövlət Kitabxanasında** təxminən 414 min kitab cildi var idi. 1968-ci ildə ali təhsil müəssisələrində - 125 kitabxana fəaliyyət göstərirdi. Onlardan ən böyüyü - ***Seul Universitetinin Kitabxanası*** (təxminən 625 000 cild), həmçinin ***Koreya Universitetinin Kitabxanasıdır*** (təxminən 224 000 cild). ***İxtisaslaşdırılmış kitabxanalardan*** - **Milli Assambleya (Yığıncaq) Kitabxanası** (təxminən 105 000 cild) və **Koreya Bankının Kitabxanası** (təxminən 30 000 cild) - ***ən çox və yaxşı tanınır***.

### Ədəbiyyat:

1. Koreya tarixi. (Qədim dövrlərdən bu günə qədər), cild 1 - 2, M., 1974;

2. Pak M.N., Koreyada hərəkətli metal tipli çapı nə vaxt yaranıb?, “Şərqşünaslıq problemləri”, 1959, No 6, səh. 142 - 44;

3. Pak Şi Hyon, Koreyada hərəkətli metal şriftli çapının növünün ixtirası və təkmilləşdirilməsi, internet:

4. Şərqşünasların iyirmi beşinci Beynəlxalq Konqresinin materialları, c. 5, Moskva, 1963, s. 290 - 94;

5. "Hunmin Conqım" ("İnsanlara düzgün tələffüzü öyrətmək"). Tədqiqat və tərcümə L. R. Kontseviç, M.oskva 1979, s. 145 - 50;

6. Petrova O. P., Koreya mədəniyyətinin yazılı abidələrinin təsviri, c. 1 - 2, M. - L., 1956 - 63; Müasir Koreya. İstinad nəşri, Moskva, 1971.

R. I. Carlıqasinova. http://redkayakniga.ru/knigovedenie/item/f00/s01/e0001002/index.shtml

**Suallar:**

1.Koreya xəttalığı haqqında nə bilirsiniz və onun əsas yazısı.

2. Koreyada çap işi və hərəkətli metal şriftli çapının növünün ixtirası.

3.Koreyada(Şimalı və Canubi) kitabxana işi.

**Sərbəst mövzular:**

1. Koreya xəttatlığın inkişaf yolu.
2. Müasir Canubi Koreyada çap işi.
3 Müasir Şimalı Koreyada çap işi.

## Mövzu 12.
## MEMARLIQ VƏ HEYKƏLTARAŞLIQ

### 1. Ənənəvi yaşayış yeri - ev

Koreya kənd evi - həmişə bir mərtəbəlidir və ***iki növ otaqdan*** ibarətdir. ***Ailənin istirahət otağı*** - adətən **ondol** *istilik sistemi ilə qızdırılır*: istilik və onun tüstüsü - ya mətbəx sobasından, ya da həyət ocağının yeraltı tüstü bacasından gəlir. **Ondol** ilə otağındakı gil divarlar - taxta dirəklərə əsaslanır, *sürüşən qapı və pəncərələr* - istiliyi təəccüblü dərəcədə yaxşı saxlayan - **qalın kağızla** örtülür. ***Ondol otağı*** - koreyalıların həyat tərzinə tamamilə uyğundur. *Oturacaqlar/stullar və çarpayılar* - *otaqda yoxdur*. İnsanlar düz yerdə yastıqların üzərində oturur və axşamlar *həsirlərin üstündə yatırlar*, gün ərzində isə onları qatlayıb, çıxardillar. Belə bir ***otağın mebeli*** - əsasən ***laklı sandıqlardan və rəflərdən, kitab oxumaq üçün altlıqdan və qatlanan şirmalardan ibarətdir***. Bundan əlavə, ***ənənəvi Koreya evində*** - ***"maru " - taxta döşəməli otaqlardan*** ibarətdir**.** Bir qayda olaraq, "***maru***" - *nun bir tərəfin divarı yoxdur və birbaşa həyətə açılır*, lakin *daha varlı ailələrdə - bu otaq – sürüşən şüşəli qapı ilə hasarlanır.* “***Maru***” ***otaqlarında***, xüsusilə *isti aylarda* - adətən, ailə şurası toplanır, sahiblər - qonaqlarla danışır və bütün ailə - televizora baxır. ***Ənənəvi evin həyətində - kiçik bağ, quyu, ailə türbəsi, müxtəlif yardımçı otaqlar və anbar otaqları var*** [2. S. 8].

***<u>Memarlığa görə</u>, koreyalıların yaşayış binaları - <u>üç əsas növə bölünür</u>:***1. ***bir sıralı ev*** - *bütün otaqlar- bir xətt boyunca yerləşir*;

2. ***iki sıralı ev*** - *yaşayış və yardımçı otaqlar - iki paralel cərgəyə bölünür*; nəhayət,

3. *binaların üç paralel cərgədə yerləşdirildiyi* - ***üç sıralı evdir.***

***Koreyada ən tipik olan - mətbəxdən, aşağı və yuxarı otaqlardan və açıq sahə-verandadan ibarət olan - <u>bir sıra çərçivəli(karkaslı) -sütunlu ev</u>***<u>dir.</u>

***Adi bir koreyalının evi***: ***damı*** - samandan, ***divarları*** - gildən olan ***bir-mərtəbəli binadi***. ***Çox vaxt evlər - rus hərfləri Г və П***

***prinsipinə əsasən tikilirdi ki, hər evdə daxili həyat olsun***. *Belə evlər* - ***Çoson sülaləsi dövründə geniş yayılmışdır***. [4]

Zəngin,varlı koreyalıların **xanok|hanok** adlanan- ***ənənəvi yaşayış yeri - bir həyətdə yerləşən, bir divarla əhatə olunmuş bir neçə binadan ibarət idi.*** Giriş qapısı – ***saranqban** adlanan ailə başçısının evinin* yerləşdiyi həyətə açılırdı. Hər iki tərəfdə - ***qulluqçular üçün otaqlar*** var idi. Ev sahibinin evinin arxasında - həyətin arxa tərəfində -bir *otaq var idi* - ***ançe,- orada evin xanımı yaşayırdı***. ***Saranqçe***-nı və ***Ançe***-nı - bir divar ayrır. ***Ançe*** nin bir neçə otağı var - ***anban*** (sahibənin yaşadığı otaq), ***konnonban*** (onun qarşısındakı otaq), ***mətbəx***, ***anbar*** və s. ***Mətbəx*** - ***anbanın yanında yerləşir və orada nəinki yemək bişirilir, hətta evin istiliyi də oradan gəlir.***



***26.Xanok|hanok – Koreya ənənəvi yaşayış evi***

***Ənənəvi Koreya evi - qadın və kişi hissələrinə bölünürdü***. ***Anban - adətən evin xanımının yaşadığı otağıdır***. ***Ər və ya ailə üzvlərindən başqa - kənar adamlar bu otağa girə bilməzdi***. ***O-giriş qapıdan daha uzaqda, evin arxasında yerləşirdi və bir qayda olaraq, mətbəx - ona bitişik idi. Anbanda ər-arvad yatıb və yemək yeyirdilər. Bütün ailənin paltarları və yataq dəstləri- bu otaqda saxlanılırdı. Saranqban - bir otaqdır ( varlılarda isə o - ayrıca evdir), burada ev sahibi və ailə başçısı vaxtının çox hissəsini keçirirdi, xüsusilə Çoson dövründə,- ölkədə konfutsiçiliyin***

***çiçəkləndiyi və elmə, biliyə böyük əhəmiyyət verildiyi bir vaxtda geniş yayılmışdı.*** [3. S. 442].

*Koreya yaşayış binasının mütləq hissəsi-* **<u>taxta döşəməli bir terrassa (maaru</u>)** idi. Kiçik kəndli evlərində - ölçüsünə qörə - o sadədır və kiçik bir binanın perimetrinə (***perimetr*** -(*yun. περίμετ-ρον — çevrə, yaxud yun. περιμετρέο — ətrafı ölçürəm*) — *fiqurun sərhəddinin ümumi uzunluğu (əsasən müstəvi üzərində).*)uyğun gəlir və onunla - ümumi bir dam örtüyü var. Bu halda - onun konstruktiv təşkilini həll etmək - daha asan olur [7].

***<u>Xanok|Hanok</u> - pazlarla bağlanmış və birləşmiş - taxta şalba-nardan(balkalardan) tikilmiş binadır***. Divarlar - gillə üzlən-miş(üstünə sürtərək), sonra gil və əhəng qarışığı ilə suvanmış, üs-tündən də – bir qat -ağ gil ilə çəkilmişdir. Belə divarlar - nəmi udur və soyuğu buraxmırdı.

**Xanok Koreya ənənəvi evin planı**




**Saranqçhe otağı** / 사랑채 - böyük, yaşlı kişilərin yatması və yemək yeri kimi xidmət edirdi; **ançe otağı**/ 안채 - qadınlar və uşaqlar üçün nəzərdə tutulmuşdur (bəzən o-evlilik yataq otağı kimi istifadə olunur); **henqnançe** - qulluqçular üçün otaqdır;

**sadanq** / 사당 - mərhum əcdadların ruhlarına ehtiram göstərildiyi otağdır; **deçonq** - otaqları birləşdirən *geniş terrasadır*. Maraqlıdır ki, -qadınların küçəyə sərbəst çıxmasının qarşısını almaq üçün - ***ançe*** -evin içəri hissəsində yerləşirdi. Uşaqlar 7 yaşına qədər ***ançeda*** böyüyürdülər, sonra oğlanlar - ***saranqçe otağına*** - kişi hissəsinə köçürdülər, qızlar isə - ***ançedə*** qalırdılar.



**27. Ailəni bir yerə yığan- ançe otağı**



28. **Əcdadların məbədi**

Otaqlardan əlavə, *xanokum|hanokun* - ***deçonq*** verandası da var, onun döşəməsi - yerdən yüksəkdir, o da - nəmin daxil olma-

masına və istidə sərin olmasına imkan verir. O - *anban* və *kon-nonban* arasında idi, onun üzərinə - damın kölgəsi düşür və adətən *kirəmitlə(dam örtuyun - gildən düzəldilmiş kiçik keramik plitalardır*) örtülür.



***Şəkil 29.*** **Xanok**

***Evin xarici və daxili divar hasarları olub***, onları - naxışlarla, müxtəlif rəngli yazılarla bəzəyirdilər. Yuxarıdan divarı - evin damına uyğunlaşmaq üçün - kirəmitlə və ya qamış toxunuşu ilə örtürdülər [3. S. 443].



**Binalar** - *adətən daş təməli üzərində dayanır*, burada *istilik sisteminin kanalları vasitəsilə - döşəməni qızdıran –* ***ondol*** mövcuddur. (**Ondol** - Çin dilində "isti boşluq" mənasını verən - *məşhur Koreyalı yeraltı istilik sistemidir.* ) Burada döşəməyə - xüsusi diqqət yetirilir. Koreyalının həyatında o - böyük rol oynayır: onun üzərində yatırlar, yemək zamanı otururlar və s.

Buna görə də ***o - xüsusi təmizlikdə saxlanılır və evə ayaqqabı ilə girmək adət deyil*** [7].



***Şəkillər 30,31. Ondol sistemi ilə qizdırılan - Koreya ənənvi ev***

## 2. Heykəltəraşlıq



***Şəkil 32. Avalokiteşvara bodhisatvanın heykəli***

Koreya heykəltəraşlığının inkişafına - **buddizm** *böyük təsir göstərmişdir*. Koreyada tapılan təbii qayalarla oyulmuş - nəhəng, 20 metr hündürlüyü olan - ***dairəvi buddist fiqurlar*** – ***buddist hey-***

***kaltaraşlığı hesab olunu***r və buna görə də o - milli Koreya əsərlərinə aid edilmir [6. S. 780].

***Samquk dövrü - Buddist heykəltəraşlığının inkişafı və onun hər yerdə yayılması ilə yadda qaldı. Vahid sistemin formalaşması -Çindən gətirilən Buddizm heykəllərinin və miniatürlərinin təqlidi, oxşarlığı ilə başladı.*** Süjet baxımından – onlar - Buddanın müxtəlif yeni formalarının təsvirləridir. Tək və qrup obyektləri arasında - mərkəzdə - Buddanın özünün yerləşdiyi, həmçinin **bodhisattvaların,** ən çox **Avalokiteşvara** və **Maytreya** obrazlarının yenidən yaratması təqdim olunur. ***Əsas material* - *sadə və qızılı tunc idi*** *(şək. 32).* ***Daşdan, gildən və ağacdan hazırlanmış heykəllər də aşkar edilmişdir*** [8. S. 56].

Koreyada erkən heykəltəraşlığın diqqətəlayiq abidəsi - 654-cü ildə Koreyanın Pekçe əyalətindən olan heykəltəraş tərəfindən Yaponiyada Naradakı Yakusidzi məbədində yerləşən Buddizm tanrısının taxta heykəli - ***Kannım bothisatvadır.*** Fiqurda - daxili ritm hiss olunur; geyim xətləri - plastik incəliyi ilə seçilir. Obraz - təntənəli və əzəmətlidir (şək. 33).



***Şəkil 33. Kannım Bodhisatvanın heykəli***

Nara-dakı Horüdzi ansamblının əsas məbədində yerləşən və sonradan Nara Muzeyinə təhvil verilən - *klassik Kannım heykəli*- daha məşhurdur. O - Koreyalı heykəltəraş tərəfindən ağacdan hazırlanmış və olduqca az rənglənmişdir. Böyük monumental heykəl (hündürlüyü 2 m-dən çox) - sərt görkəmi ilə diqqəti çəkir.

Hündür və uclu **nimb** (***nimb – müqəddəs insanın başının ətrafındakı bir parlaq dairə və ya digər fiqurlardır***) ilə vurğulanan uzanmış nisbətlərin arxitektonikası - Kannının fiquruna möhtəşəmlik və ciddilik verir [9].

Ənənəvi Buddizm heykəltəraşlığı - uzun müddət Koreya mədəniyyətinin ayrılmaz hissəsi olmuşdur. Qədim heykəltəraşlıq əsərləri - bu gün də təkcə *məbəd* və *monastırların* deyil, o həm də təbii mühitdə və şəhər mənzərəsində - ***muzeylərin* və ya *açıq ərazilərin - ayrılmaz atributu olaraq qalır*** [10].

***Monumentallıq və mənəvilik*** - Koreyanın erkən daş heykəltəraşlığı üçün də xarakterikdir, buna misal olaraq - tünd boz bazaltdan oyulmuş Kannım tanrısının başını göstərmək olar (VIII-X əsrlər). Ənənəvi saç düzümü: alnından yuxarı qaldırılmış saç telləri - xətlərinin axıcılığı və yumşaqlığı ilə üz xüsusiyyətlərinin - kişiyə xas olan ciddiliyi ilə gözəl birləşir.

Hələ 602-ci ildə Üç Dövlətlərin birləşməsi şərəfinə- ***monolitdən nəhəng daş tısbağanın fiquru oyulmuşdu***. Heykəl - formaların sərt sadəliyi və əla daş emalı ilə seçilir [9] (şək. 34).



***Şəkil 34. Tısbağa***

Üç Dövlətlərin heykəltəraşlığın dövrü - Koreyaya məxsus təsvirlərin xüsusi mənəviyyatı və formaların yumşaqlığı ilə - Çin orijinallarının xüsusiyyətlərini saxladı. ***Pekçedə hazırlanmış gənc üzllü, çox böyük ölçülü olan - baş və qollar və oturmuş Budda fiqurunun möhkəmliyinə, dərin olmayan oymalara və formaların sadəliyinə görə - təsvirin mücərrədliyi kimi xüsusiyyətlər - Koreya incəsənəti üçün xarakterikdir. Fiziki kamillikdən daha üstün olam - mənəviyyatın ötürülməsi*** **- vacib bir məqsəd olaraq qaldı.** Erkən Koreya təsvirlərinin ən xarakterik xüsusiyyəti - "Avropa tərzli" pozasında oturan bodhisattvadır: bir ayağı əyilmiş, digər ayağı isə- yerə endirilmiş və əlin barmaqları - yanağa toxunur. Bu cür şəkillər - Şərqi Asiyada, xüsusən də Koreyada - çox populyarlaşıb. Bu fiqur - adətən gələcəyin ***Buddanın*** *– bu dünyanı xilas etmək üçün- onun qaçılmaz yenidən doğulmasını gözləyən* - ***Maytreya*** *obrazı kimi müəyyən edilir* [11] (şək. 35).



***Düşünən Bodhisattva***



***Şəkil 35. Gələcəyin Buddanın heykəli - Maytreya***

Şilla dövrünə aid ***məbəd heykəltəraşlığı***- Ölkədə Buddizmın yayılması illərində yarandı.O Hindistanda və Çində olan biddizm heykaltaraşlıq qanunlarını davam edib, lakin eyni zamanda öz(Koreya) orijinal başlanğıcını qoruyub saxlayayıb. Burada obrazlar - bir qədər mücərrəd olsa da, onlar dərin mənəviyyətlə ifadə olunur. VII-IX-cu əsrlərə aid Koreya heykəllərinin formaları-özünəməxsus yumşaqlığı, xətlərin plastik axıcılığı və hərəkətlərin zərifliyi ilə xarakteriza olunur.

Bütün bu xüsusiyyətlər - erkən Koreya heykəltəraşlığının bir sıra əsərlərində, məsələn, - **“Oturan və fikirləşən Buddanın”** kiçik qızıl heykəlində (VII-ci əsr) - parlaq şəkildə təcəssüm olunur.

Təsvir olunan tanrının - daxili həyətsevərliyinin üzə çıxarılmasında- canlılıq hiss olunur [9].

Əvvəlcə heykəltəraşlıq təsvirləri - yalnız Buddizm məzmununda idi. ***Birləşmiş Şilla dövründə - insanların və heyvanların heykəllərini görmək olardı***. Xüsusilə maraqlıdır ki, *məhəbbət səhnələrini əks etdirən - kiçik keramika heykəlcikləri*, ümumiyyətlə, nə əvvəlki, nə də sonrakı Koreya heykəltəraşlığına xas deyil [3. S. 408] (şək. 36).



***Şəkil 36. Dilsiz itlərin heykəlləri (Birləşmiş Şilla dövrü)***

***Buddaların və Bodhisatvaların heykəltəraşlıq təsvirinin aşağıdakı xüsusiyyətləri fərqləndirir.*** Saçlar - girdə/şişka formalı saç düzümü ilə hörülür: çoxlu və ya yalnız bir girdə/ şişka ola bilər. Gözlər - dar kəsikli, yarılmış formadadır. Dodaqlarda - "sirli təbəssüm"əks olunmuşdur. Boynunda - üç qat,büküm var (üç "üzük"), bəzən də - bir boyunbağı ola bilər. Paltarların qıvrımları, bir qayda olaraq, N və ya У şəklindədir.

Heykəllərin əksəriyyəti (həm kiçik tunc zərli heykəlciklər, həm də monumental daş heykəllər) - Şilla krallığından (sonralar

Birləşmiş Şilla) - günümüzə qədər gəlib çatmışdır. Onlar VII-VIII-ci əsrlərə aiddir. Bununla belə, nadir Koquryo və Pekçe nümunələri var. Onların arasında - ən məşhurları - 1963-cü ildə Cənubi Kyonqsanq əyalətinin Haçyonni kəndində aşkar edilmiş - 539-cu il tarixli ***Budda Amitabanın*** ("Qərb Cənnəti"nin himayədarı) Koquryo bürünc zərli heykəlciyi - bodhisatva **Avalokiteşvaranın (**Koreya dilində - Kvanım) VI əsrin sonuna aid Pekçe qızılı bürünc heykəlciyidir, o - Cənubi Çolla əyalətindəki Kun-suri kəndində keçmiş monastırın yerində aşkar edilmişdir [1. S. 62].

Hazırda Koreya heykəltəraşlığı - *Seuldakı* ***Milli Müasir İncəsənət Muzeyində,*** *Çecu adasındakı* **Heykəltəraşlıq Parkında** (430 eksponat), ***Moran İxtisaslaşdırılmış İncəsənət Muzeyində*** (106 eksponat) və **Mokham İncəsənət Muzeyində** (166 eksponat) - *Kyongi vilayyətində* geniş şəkildə təmsil olunur. 200-dən çox heykəltəraşlıq kompozisiyasından ibarət olan gözəl kolleksiya -***"Hoam" özəl muzeyində*** yerləşir. Heykəltəraşlıq qruplarının əksəriyyəti- muzeyin ərazisində açıq havada quraşdırılmışdır. Ölkənin *görkəmli şəxsiyyətlərinin muzeyləri və abidələri* ilə yanaşı, ***heykəltəraşlıq*** - çoxdan küçələrin, meydanların, ictimai binaların və ofislərin interyerlərinin *mülkiyyətinə* çevrilmişdir.

## Lüğət

**Bodhisattvalar, bothisatva, bodisatva** - (sanskrit. बोधिसत्त्व IAST: [bodhisattva], pali बोधिसत्त IAST: [bodhisatta]; hərfi-"oyanmağa çalışan məxluq" və ya; "***bodhi*** "- oyanış + "***sattva*** "mahiyyət; varlıq" ) - Buddizmdə bodhiçitta olan varlıq (və ya şəxs); o- varlıq - bütün varlıqların xeyrinə -Budda olmaq qərarına gəlir.

Belə bir qərara can atması, motivasiyası - bütün canlıları - əzabdan xilas etmək və yenidən "samsaradan"= doğulmaların sonsuzluğundan "- çıxmaq istəyidir. Mahayana Buddizmində "bodhisattva”- bütün canlıları xilas etmək üçün -nirvanaya getməkdən imtina edən - maariflənmiş şəxs adlanır.

**Maytreya** - (Sanskrit. मैत्रेय, IAST: maitreya, "Sevgi adlanan və olan məxluq"; Pali: Metteya; həmçinin Maytreya, Maytri, Maydari) -

bodhisattva və gələcək Budda – o - bu kalpanın(zaman vahidi) sonunda - Tuşita cənnətindən görünəcək, hal-hazırda o - orada yaşayır.

**Avalokitesvara -** Sanskrit. **अवलोकितेश्वर** Avalokiteśvara IAST, "Hər şeyi görən hökmdar ", Tibet. སྤྱན་རས་གཟིགས Çenreziq; Monqolca: Janraysiq, Çin. 觀世音 Quanşiyin; yapon 観音 Kannon; Boer. Aryaa-Baala - bodhisattva-dır, o-bütün Buddhaların sonsuz şəfqətinin təcəssümüdür. Atributı - tovuz quşunun quyruğundan olan yelpik.

## 3. Memarlıq

***Koreyaya nüfuz etməsi ilə - Çinlilərin dini ideyalarının məbəd memarlığı - Buddist ənənələri və qanunları əsasında inkişaf etdi. Klassik Buddizm məbədi - bir neçə tikilidən ibarət idi**: **xarici ,bayır darvazası, əsas pavilyon, xütbələr üçün məbəd, zəng və ya nağara qülləsi, xəzinə, kitab saxlanılan yer və bir və ya daha çox yaruslı/səviyyəli paqodalar(paqoda**-Buddanın məbədidir**)**.*

Koreyada IV-cü əsrin sonlarından Çin missionerlərinin rəhbərliyi ilə tikilmiş ilk məbəd binaları - adi Koreya yaşayış və məbəd binalarından kəskin şəkildə fərqlənirdi: onlar görünməmiş memarlıq formaları və parlaq çoxrəngli dekorasiya ilə insanları heyrana gətirirdi. ***Kyoncu** şəhərinin* yaxınlığında, ***Cənubi Koreya*** mütəxəssisləri tərəfindən təsdiqlənmiş - 533-566-cı illərdə tikilmiş Buddist tikilisi kimi tanınan, Şilla dövrünün məşhur ***Hvannyonqsa məbədi*** var: cənubdan şimala doğru uzanan bu məbəd ansamblı -19 min kvadratmetr ərazini tuturdu və daş divarla əhatə olunmuşdu [8. S. 53].

Yüksək səviyyədə memarlıq inkişafının sübutu - Üç Dövlətlərin dövrünə aid olan qədim məzarlardır,onlar - əsasən Koquryo və Pekçedadir. Hər üç dövlətlər - ***məqbərə və kurqan**, şəklində **dəfn tikililərinin inşası** ilə xarakterizə olunur.*



***Pekçe. Maytreya Buddanın şərəfinə Mirıksa məbədi***

Qəbirlərin ***məqbərə/mavzoley tipi*** - olduqca nadirdir. Belə yerüstü tikili - Koquryonun paytaxtı - ***Hvandonun*** yaxınlığında qorunub saxlanılmışdır. Təpənin üstündə yerləşən yeddi pilləli **Canqunçon** piramidasının və ya **"Sərkərdə türbəsi"sinin** girişi - cənub-qərb tərəfdə idi, onun hündürlüyü - 13 m. [8. S. 55] (şək. 37).



***Şəkil 37. Tunqou. Tunqou yaxınlığındakı - sərkərdə Canqun -un məzarı, 412 il***

**Canqunun məzarı** - Koreyanın qədim daş memarlığının monumental xüsusiyyələrinə dəlalət edir, onun əsas keyfiiyyətləri - formaların sərtliyi və ciddi sadəliyi idi.

İş\biznes və ticarət mərkəzlərinin, mehmanxanaların- həm yerli, həm də beynəlxalq biznesin inkişafı ilə əlaqəli digər binaların müasir memarlığı - Qərbin təsirinə məruz qalır. İlk növbədə, bu Seul göydələnlərə,əsasən də - 55 mərtəbəli **Koreya Beynəlxalq Ticarət Mərkəzinin** binasına aiddir. Binanın konstruktiv əsasını - pəncərə çərçivələri olmayan qızıl plitələrlə örtülmüş - güclü parallepiped təşkil edir. ***Koreya paytaxtının digər göydələnləri - hamıya məlumdur – bunlar 30 və 20- mərtəbəli iki düzbucaqlı "Posko Senter" qülləsi, "Dehan" sığorta şirkətinin 63-mərtəbəli binası, "LG(El-Gi)"-in iki qülləli 35-mərtəbəli binalar kompleksi şirkəti, "Samsung" şirkətinin ofisi, ultra müasir üslublu göydələn "Tonban Plaza", "Qızıl Göydələn" və s.-dır.***



***LG şirkətinin baş ofisi. Seul***

***Son otuz illik inkişafda Koreya Respublikasının memarlığı - irəlliyə doğru mühüm addım atmışdır*.** **Koreya Memarlar İttifaqının -** bu gün peşəkar memarları olan - 1100 üzvü var. Milli miqyasda bu - çox şeyə nail olmağa qadir olan - böyük yaradıcı

qüvvədir. İndi ***Koreya memarlığında müxtəlif üslub və cərəyanların qarşılıqlı əlaqə prosesləri gedir, lakin XXI-ci əsrdə memarların qarşısında - ənənə və müasirliyi ahəngdar şəkildə birləşdirmək vəzifəsi durur*** [3. S. 410].

## Mövzu ilə bağlı ədəbiyyat


1. Qurbanov S.O. Koreyanın tarixi: antik dövrdən -XXI əsrin əvvəllərinə qədər. -SPb.: Sankt-Peterburq un-tin nəşriyyatı., 2009.

2. Koçeşkov N.V. Şərqi Asiya xalqlarının adət-ənənələri: dərs vəsaiti - Vladivostok: VGUES nəşriyyatı, 1997.

3. Koreya Respublikası / G.N. Kim. – Alma-Atı: Dike-Press, 2010. - 584 s.

4. Koreya bələdçisi [Elektron resurs]. URL: http://koreamuseum.ru/arh.html (Giriş tarixi 08/07/2016).

5. Müxtəlif ölkələrdə memarlıq və tikinti [Elektron resurs]. URL: http://nastroike.com/stroitelstvo-v-raznykh-stranakh/803-arkhitektura-yuzhnoj-korei-kreposti-dvortsy-khramy (giriş tarixi 05/07/2016).

6. Vörman K. İbtidai tayfaların, xalqların xristianlığa qədərki dövr və qədim əsrlərdən - XIX əsrə qədər dövrlərdə - Asiya və Afrika əhalisinin incəsənəti. - Sankt-Peterburq: MMC "Poliqon nəşriyyatı", 2000. 1-ci cild: Bütün dövrlərin və xalqların incəsənət tarixi. – 944 səh.

7. Koreya klassik sənəti: məqalələr toplusu. [Elektron resurs]. URL: http://koryo-saram.ru/korejskoe-klassicheskoe-iskusstvo-sbornik-statej/

8. Koreya mədəniyyəti: dərs.vəsaiti / komp. L.A. Andronov; Tomsk. politexnik un-t. - Tomsk: Tomsk politexnik un-tın nəşriyyatı., 2014. Hissə 1. - 139 s.

9. Koreya incəsənəti [Elektron resurs]. URL: http://www.bibliotekar.ru/Iskuss2/32.htm (07/04/2016 daxil olub).

10. Heykəltəraşlıq [Elektron resurs]. URL: http://www.ruskorinfo.ru/wiki/skulptura/ (07/05/2016 daxil olub).

11. Uzaq Şərq ölkələrinin incəsənəti [Elektron resurs]. URL: http://artclassic.edu.ru/catalog.
asp?cat_ob_no=19489&ob_no=20130 (09/04/2016 daxil olub).

12. Tolstıh İ.N.Koreya mədəniyyəti:ənənələr və müasirlik,- dərs vəsaiti,-Vladivostok Dövlət İqtisadiyyat və Servis Üniversiteti,- Vladivostok VDİSU-nəçriyyatı.

**Suallar:**

1. Koreya memarlığının xüsusiyyətlərini müəyyənləşdirin.
2. Buddist məbədlərin tikintisi nə vaxt başlanmışdır?
3. Koreya evinin quruluşu.
4. Koreya şəhərinin, Koreya evinin və **interyerinin** xüsusiyyətləri hansılardır?
5. Dövrümüzün ən məşhur memarlıq abidələri.
6. İlk heykəllər - hansı dövrdə yaranıb?
7. Budda və bodhisatvaların heykəltəraşlıq təsvirinin xüsusiyyətləri.
8. Koreyada müasir incəsənətin,memarlığın - ən geniş yayılmış formaları, əsərləri.

**Sərbəst mövzular:**

1. Koreya memarlığının xüsusiyyətləri.
2. Koreya memarlığının ənənəvi üslubları.
3. Koreya heykəltəraşlığının əsas növləri.
4. Koreya memarlığına Avropanın təsiri.

**Lüğət:**

**İnteryer** - evin, binanın- memarlıq və bədii tərtibatla tərtib edilmiş, insana estetik qavrayış və əlverişli yaşayış şəraitini təmin edən- **daxili məkanıdır**;

**Eksteryer** (fr. extérieur < lat. exterior - **zahiri**, antonim - *daxili)* – hər bir şeyin- (***binanın***, avtomobilin və s. / ***memarlıq dizaynın***, həmçinin heyvanların (atların, itlərin) bədəninin quruluşu və s. .)- **zahiri görünüşü və ya memrlığda- xarici məkanıdır**,o - insana müsbət estetik qavrayış təmin edir.

# Mövzu 13.
# ƏDƏBİYYAT

## 1. Cənubi Koreya ədəbiyyatı

Koreya ədəbiyyatı - eramızın ilk əsrlərində, yarımadada dövlətlərin yarandığı, dövlət quruluşu ideallarının formalaşdığı vaxtlarda yaranmışdır. ***Yazılı ənənənin yaranması*** - ilkin dövlətlərin formalaşması dövrü ilə bağlıdır. Həmin qədim dövrə aid abidələr -qorunub saxlanılmamışdır, yalnız ***sonrakı dövr (XII-XIII əsrlər) - tarixi yazılarına daxil edilmişdir: burada nəsr və poetik mətnlər -günümüzə qədər gəlib çatmışdır***. *Onlarda -* ***epik ənənənin*** *nümunələri - Koreya dövlətlərinin qurucuları haqqında tarixi əfsanələr və qədim* ***hyanqa - ritual mahnıları*** *əks olunur: burada dünyanı dərk etmək üçün, xaos və kosmos qüvvələrinin qarşılıqlı əlaqəsi üçün anlayışlı modeli təqdim edən - mətnlər var. Bu model - Koreya poeziyasının və nəsrinin görünüşünü,xüsusiyyətlərini müəyyən etmişdir* [3. S. 11].

B.e.1000-ci ildə ***Hanmun poeziyası*** - Koreyada seçilir. Koreya mədəniyyəti üçün bu proses - qaçılmaz idi, çünki ***buddizm və dövlətçilik kimi hadisələrlə*** əlaqələndirilirdi.

Koreyada ***na hanmune*** *şeiri* ilə yanaşı, ***na idu*** *nəsri* də var idi. *Yalnız bir neçə* ***epiqrafik yazı*** *- günümüzə qədər gəlib çatmışdır.* Bunlar- *müxtəlif illərdə* - ***daşlar, məbəd zəngləri, Budda heykəlləri, stelalar(stela-*** *üzərində mətnlər və ya təsvirlər həkk olunmuş- daş, mərmər, qranit və ya taxta şaquli plitədir.****) üzərindəki yazılardır.*** *Onlar -* ***qısadır və əsasən iş yazılarını, ismarıçılarını*** ehtiva edir. ***Yazıların əksəriyyəti - Buddist yazılardir*** [7. S. 115].

***<u>Hyanqa</u>*** adı - ***"doğma ölkənin mahnıları" və ya "ana dilində yazılmış mahnılar" kimi tərcümə edilə bilər. O - IV-VII əsrlərdə Koreya yarımadasının cənub-şərqində yerləşən - Şilla əyalətində*** (***Şilla dövləti*** *VII əsrdə - X əsrə qədər bütün yarımadanı öz hakimiyyəti altında birləşdirdi - əlavə qeyd*) - ***geniş yayılmış poeziyanın ümumi adıdur.*** Koreya dilində yaradılmış poeziyanın ***<u>hyanqa</u>*** anlayışı - ön plana çıxarılır və onu – ***VII-IX-cu əsrlərdə***

***Çin poetik əsərlərin Tan dövlətinin poeziyası ilə (buna** tanqsi - tan şeyirləri* deyilirdi ***)*** qarşı qoyulur. Beləliklə, lap əvvəldən ***Koreya mədəniyyətində*** "***özününkü***" və "***yad***" arasında aydın fərq qoyulur, özünün isə - başqasından heç də az dəyərli olmadığını - ortaya çıxarılır [3. S. 20].

***Ən erkən ədəbiyyat*** - ilk dövlətlərin yaranması və dövlət quruluşunun formalaşması ilə bağlıdır. Bu dövrdən - yalnız ayrı-ayrı əsərlərin adları və sonrakı dövrə aid - tarixi əsərlərə daxil olan bəzi fraqmentlər qalmışdır. ***Tarixi yazılar*** - erkən Koreya dövlətlərinin meydana gəlməsini təsvir edərkən, adətən qeyri-adi mənşəli, yaranması və ya hətta başqa bir dünyadan gələn "***təsisçisini\əsasını qoyanı***" vurğulayır. ***Koreya və Çin tarixçilərinin qeydlərinə daxil olan mətnlər*** - əsasən - günümüzə qədər gəlib çatmışdır. ***Koquryo*** dövlətinin banisi - **Tonqmyon-Cumonq** və ***Çoson*** dövlətinin banisi - **Tanqun-Vanqom** haqqında əfsanələr xüsusi yer tutur [7. S. 114].

***Klassik Koreya ədəbiyyatının kökləri - Koreya yarımadasının xalqlarının ənənəvi inanclarına və hekayələrinə əsaslanır. O, həmçinin Konfutsiçilik və Buddizmdən və müəyyən dərəcədə Taoizmdən təsirlənmişdir. Çin " hanca" heroqlifləri ilə yazılmış ənənəvi Koreya ədəbiyyatı*** - *yarımadada orijinal Çin yazısının meydana çıxması ilə eyni vaxtda yaradılmışdır*. ***Hələ eramızdan əvvəl IV-cü əsrdə Koreya alimləri - klassik Çin üslubunda yazılmış şeirləri - qoşub, yazırdılar***. Bəzi tarixçilər bu əsərləri - Koreya ədəbiyyatından çıxararaq, onların - sadəcə Çin ədəbiyyatının formaları olduğunu iddia edirlər. Digərləri isə - iddia edirlər ki, Çin heroqliflərdən istifadə edilməsi - bu əsərləri - klassik Koreya ədəbiyyatından kənarlaşdırmaq üçün əsas deyil, xüsusən də ona görə ki, ***onlar - Koreya düşüncə və təcrübəsini - şerlərdə əks etdirdirirdilər***. *İlk dəfə* ***vahid Şilla Koreya ədəbiyyatını təbliğ etmək üçün*** - *xüsusi olaraq* ***Milli akademiya*** *quruldu*. Həmin dövrün çox hissəsi üçün - ***Koreyada ali təhsil – ikidilli: koreyadillı və çindilli idi*** [4].

Məlumdur ki, ***VII-IX-cu əsrlərdə müəlliflərin bioqrafik nəsr topluları,*** məsələn, ***Çve Çivonun "Nazirlərin və rəhbər müəllim-***

***lərin həyat-yazıları” və “Görkəmli rəhbər-müəllimlərin biloqrafiyası(həyat və yaradışılığı)”, Kim Demunun “Kərimdən( olan,çixan) müxtəlif biloqrafiyalar\tərçümeyi-hallar” kitabları*** var idi. Bu əsərlər- Koreya dövlətlərində - çin dilində inkişaf etmiş ***tarixi nəsrin*** mövcud olduğunu söyləməyə imkan verir, bu da ***nəsrin,*** xüsusilə, ***-bioqrafik janr nümunələrini- ərsiyə gətirdi*** [3. S. 28].

***VIII-ci əsrdə Şilla krallığında Koreya ədəbi yazısının ilk abidəsi yaradıldı,*** o - ***idu*** adlanan ***Çin heroqliflərdən istifadə edərək, - yazılmışdır - bu yazı üsulu - Koreya nitqini çatdırmaq üçün adlandırılmışdır***. İndiyədək ***İdu dilində*** *yazılmış və* “***hyanqa” adı*** *verilmiş* ***- cəmi 25 şeir bu günə qədər gəlib çatmışdır.***

***Koryo poeziyası - Tan ənənəsindən, nəsr isə - Sun ənənəsindən çox təsirlənmişdir***. ***Koreya ədəbiyyatı - həmçinin yaponlar tərəfindən təsirlənmişdir, bunu- “tanka” poeziyası sübut edir.*** (***Tanka*** *(yapon. 短歌 - tanka, "****qısa mahnı****")- beş sətirli və yeddi sətirli- metrik vahidləri (5–7–5–7–7) dəyişən 31 hecadan ibarət -* ***5 sətirlik lirik Yapon şeiridir***. ***Tanka*** *- yapon feodal lirik poeziyasının əsas növü hesab olunur və “****vaka” janrının növüıdür*** *(yaponca: 和歌 vaka, "Yamato mahnıları"). Erkən orta əsrlərdə inkişaf edən* ***tanka poetikası- ən dolğun ifadəsini- Kokin(vaka)sü-antologiyasına daxil olan əsərlərdə əksini tapmışdır***.-qeyd S.M.) ***Koryoda - ksiloqrafik çap texnikası - geniş yayılmışdı, onun köməyi ilə - 10 min cilddən çox Buddist mətnləri (“Decangyon”, “Sokçangyon”) çap edilmişdir*** [6. S. 342].

***Koryo dövrünün orta dövründə*** - *yeni Koryo janrı-* “***kayo”*** populyarlaşdı və sonralar *ən maraqlı janr –* “***şico” yarandı, bu lirik poeziya - adətən üç misradan ibarət idı(****o "****hokku****-ya və ya* ***hayku****-ya"-* ***cəmi üç misradan ibarət olan- qısa yapom şe”rə*** *oxşayır)****.*** Bu sıxılmış formada -müəyyən hisslər, düşüncələr oxucuya çatdırılır. ***XV-ci əsrdə Xangül əlifbası yarandıqdan*** sonra - ***daha bir neçə növ məhəbbət lirikası meydana çıxdı.***

***Çoson dövründə*** ana dilində nəşr olunan ***mənzərə poeziyası - “kasa” janrı*** geniş yayıldı. *Şairlər - öz şeirlərində doğma təbiətin gözəlliyinə heyran olduqlarını bildirirdilər*. ***Koreya ədəbiyyatın-***

*da dəyişikliklər* – XVII-ci əsrdə Şirhak hərəkatının - ***bütün ölkəyə yayılandan sonra başlandı. Qərbin təsiri - yazıya təzyiq etdi, bütün insanların bərabərliyi ideyası ortaya çıxdı.*** Əsərlərin müəllifləri -təkcə peşəkar şairlər deyil,onlar həm də adi insanlar idi; ***ölkədə Xangüldə yazılan əsasrlər- geniş yayıldı.*** [5].

***Koreyada - tarixi yazıların iki növü məlumdur – bu- Konfutsi və Buddist tarixi yazılardır.*** **Birinci dövr** - *bu iki növdə,tipdə olan* - ***"Üç dövlətlərin tarixi qeydləri"*** *ilə* - təmsil olunurdu. ***"Üç dövlətlərin tarixi qeydləri" - 1145-ci ildə tərtib edilmişdir. O - konfutsi tarixşünaslığın,tarixiqrafiyanın - aparıcı abidəsi və Koreya dövlətlərinin tarixinə dair- yeganə qalmış əsər idi*** [3. S. 47].

***Koryo ədəbiyyatnı tarixinin ikinci dövrü - şair və nasirlərin abidələri və böyük adları ilə daha zəngindir.*** Bu - Çin dilində poeziyanın çiçəklənməsi və eyni zamanda- ***öz xalq sənətinə olan həvəsi ilə xarakteriza olunan dövr idi.*** *Aparıcı yazıçılar-* ***əfsanələri və xalq mahnılarını toplayır,*** *onları - Çin dilinə tərcümə edir və* ***toplular tərtib edirdilər. Nəsr*** - *ilk növbədə, yüksək vəzifəli Buddist müəllimlər tərəfindən tərtib edilmiş -* ***qeyri-rəsmi tarixi yazılar***, *həmçinin* ***küllüyyat toplusu "pesol" - "aşağı danışıq,dil" (onlar qeyri-rəsmi hekayələr növünə aid idi***) ilə təmsil olunurdu, ***onların müəllifləri - məşhur şairlər- Li İnno, Çhve Ça, Li Kyubo və Li Çehyön idilər.*** [3. S. 54].

***Klassik Koreya bədii ədəbiyyatının ilk əsəri-*** **Kim Şi-Sıb**-in müəllifi olduğu ***"Kımo Şinhva"dır ("Kımo-nun nağılları***"). Bu əsər - Çin heroqliləri ilə yazılmışdır. ***XVII-ci əsrdən bəri bədii ədəbiyyat-*** *daha populyarlaşır və oxucu üçün - daha əlçatan olur.* ***Bədii ədəbiyyatın xüsusi məşhur forması - XVII-ci əsrin sonu və XVIII-ci əsrin əvvəllərində*** **meydana çıxan -*"pansori"*** idi, ***o - dövrün sadə insanları və onların stereotipləri haqqında şifahi hekayələr əsasında hazırlanmışdır*** [4].

***XII-XIV-cü əsrlərdə - "pesol" janrında qeyri-rəsmi hekayələr*** *geniş yayılmışdır.* Janrın adı -***"bayquan ven'sue"*** (Koreya dilində "***peqvan mun-hak***") *termini - eramızdan əvvəl - ilk əsrlərdə mövcud olduğu vaxtda - Çində yarandı və oradan gəldi.* ***"Bayquan***

***syəoşo*** – ***"xırda məmurların ədəbi yaradıcılığı"-dır***. Erkən Koreya "***pesol"***-unun *müəllifləri - öz dövrlərinin artıq xidmətdə olmayan- aparıcı şairləri idilərdilə*r (o illərdə bu şairlər- "*mənasız,lazımsız sözlər*"in toplularını yazırdılar) [3. S. 65].

***XII-XIV əsrlərin şairləri***- Koreya ədəbiyyatına ***zərif nəsrin yeni janrını*** - ***allegoriya və ya psevdobioqrafiyanı(yalan,uydurulmuş bioqrafiya, tərcümeyi-hall)*** təqdim etdilər. *Bu qısa əsər - ənənəvi bioqrafik(tərcümeyi-hal) qaydalarına uyğun tərtib edilmiş və **Çon Ş** işarəsi ilə işarələnmişdir: əvvəlcə - qəhrəman haqqında müqəddimə verilir, sonra - onun əməlləri, yaradıcılıq haqqında danışılır, sonda isə- "tarixçinin fikri " izah edilir.* Bununla belə***, allegoriyanın qəhrəmanı - təkcə insan deyil, o - həm də ətraf aləmin istənilən obyekti ola bilər***. **Alleqoriyalar** bizi - ***Uzaq Şərq ədəbiyyatının yeni tipli əsərlər yaratmaq üçün - ənənəvi janrdan istifadə forması*** kimi- ***Uzaq Şərq ədəbiyyatın hadisəsilə*** tanış edir. Bu əsərlər - *ənənəvi bioqrafik janrdan* fərqli olaraq, ***bədii uydurmaya*** (*uydurma personajları və hadisələri əks etdirən - məlumat ismarıcdır*) yönəlmişdir. ***Psevdobioqrafiya*** - "Koreya ixtirası" deyildi, o Çindən gəlmişdi və *bu janrın məşhur ustaları* - ***Tan dövrünün şairləri***: ***Han Yuy*** və ***Lü Tsunq-yuan*** (VIII-ci əsr) idilər [3. S. 89].

***Yazının yaranması - bu dövr ədəbiyyatının xüsusiyyətlərini müəyyənləşdirmiş və milli şeir və nəsr janrlarının inkişafına töhfə vermişdir. Çoson dövrünün ədəbiyyatını - təxminən üç əsas dövrə bölmək olar:***

1. ***XV-XVI əsrlər (Yaponiya ilə İmcin müharibəsindən əvvəl***) - **şico** və **kasa-nın milli poeziya janrlarının** ***yaranması və çiçəklənməsi.***

2. ***XVII-XVIII əsrlər*** - **milli nəsr janrlarının yaranması və inkişafı** - ***koreya və çin dillərində olan*** - **"canpyonq sosol"-"gündəlik romanları" adlanan iri povest formaları,** ***Koreyada*** **- canqşico çhanqsiçeyu (uzun şico), kihenq kasa (səyahət haqqında oxunan, melodik misralar) və kyubanq kasa (qadınların oxunan,melodik misraları)-*şeirlərinin yeni janrlarıdır.***

3. ***XIX-cu əsr*** – ***bu dövrdə Koreya və Çin dillərində ənənəvi poeziya və nəsr janrları ilə yanaşı, Koreya dilində*** **- orta və kiçik ölçülü nəsr (povest və hekayələr)**, ***çin dilində - dram***, **pansori -xalq dramı üçün müəllif mətnləri -** ***meydana çıxdı*** [3. S. 103].

**Çoson dövrünün** ortalarında ***hikmətli və ibrətli hekayələr -*** *meydana çıxdı və bu dövrün sonlarına doğru- yazıçılar - klassik Çin ədəbiyyatının ortodoksal qaydalarından uzaqlaşmağa başladılar və tezliklə* ***tacir və ya oğru kimi adi insanlar haqqında hekayələr - adi hala çevrildi***. [4].



***Kvanqeto-van stellası***

XVI-XVII əsrlərdə - ***on və ya daha çox şeiri əhatə edən-təbiət haqqında üç böyük şe"r silsiləsi*** meydana çıxdı. Onların müəllifləri -*tanınmış şairlər, filosoflar və dövlət xadimləri*: **Li Hvanq** (1501–1570**), Li Yi** (1536–1584) və **Yun Sonqdo** (1587–1671) idilər (şək. 38). Şairlər- məcburi təqaüdə çıxdıqları dövrlərdə - əyalətlərdə, doğma yerlərdə yaşadıqları zamanı - öz əsərlərini yaradırdılar [3. S. 123].



***Şəkil 38. Yun Sondo***

***XVI-XVII əsrlərdə*** Koreyanın mərkəzi və cənub əyalətlərində yeni folklor - ***pansori*** janrı yaranır və geniş populyarlıq qazanmağa başlayır – burada ***oxunan hekəyələr*** - *Koreya puk nağarasılə və insanın səsilə müşıayət* olunurdu. ***Müasir dövrdə də bu xalq sənətin növü - Koreya mədəniyyəti üçün əhəmiyyətini itirmir***.

Qədim Çin dilində olan - ***rəsmi yazılı Hanmun dilində yazmağa başlayan - təhsilli təbəqə - Koreya xalq dastanlarına*** böyük maraq göstərdi. ***Beləliklə, şifahi xalq yaradıcılığı - ədəbiyyat statusu almışdır. Ən məşhur hekayələr toplusu -***

***XVIII əsrdə tərtib edilmiş -"Yaşıl təpələrin [ölkəsinin] qeyri-rəsmi hekayələri***" ("***Çhonqu Yadam***") olmuşdur [2. S. 185].

***Bununla belə, Son Çoson dövrünün ədəbi həyatında - ən diqqətəlayiq inkişaf - Koreya əlifbasından istifadə edərək,- Koreya dilində yazılmış məşhur bədii xalq ədəbiyyatının sürətli inkişafı oldu.*** Məlum olan və dövrümüzə qədər gələn ilk əsər – *XVI-XVII-cı əsrlərin arasıında yazılmış -* "***Honq Gildonq əfsanəsi***"dir ***("Honq Gildonq con " - Xalq üsyanının lideri haqqında hekayə)****, onu - nasir, şair və çox çətin taleyi olan yüksək rütbəli şəxsiyyət* - **Ho Gyun (1569-1618)** *yazmışdır. Lakin Koreya dilində yazılmış - dövrün ən məşhur nəsr əsərlərinin müəllifi - məlum deyil.* Üstəlik, bəzi ədəbi əsərlər - şifahi xalq dastanlarının *yazılı formada olan* - ***pansori*** kimi təsnif edilir. Onlardan ən məşhurları bunlardır: "**Çunhyanq haqqında dastan" ("Çunhyanq Con"** - aşağı sinifdən olan qız - ***Çunhyanq*** və ***yanqban*** - gəncın sevgisindən bəhs edir), "**Şimçon dastanı**" (" **Şimçon Con** " - qayğıkeş qızı haqqında dastandir), "**Hınqbu haqqında dastan**" ("**Hınqbu Con** " – kasıb və varlı iki qardaşlar haqqında hekayə), "**Dovşan hekayəsı**" ("**Tokki Con**" - ***"Üç dövlətlərin tarixi qeydləri"ndə qeydə alınmış Koquryo mifinin yeni variantı***), "***İmcin [illərinin] qeydləri***" ("***İmcin nok" – İmcin müharibəsi hadisələri haqqında hekayə***) və s. [2. S. 186].

***Orta əsr Koreya ədəbiyyatının ən yaxşı əsəri olan*** - "**Çunhyanq haqqında dastan"** - sinfi maneələri tanımayan, əsl sevgidən, insanın öz ləyaqətini qorumaq, xoşbəxtlik hüququnu müdafiə etmək istəyindən bəhs edir.

*Məhəbbət və sədaqət* - əsərin leytmotivini, onun əsas mövzusunu təşkil edir və bu - hətta hekayənin baş qəhrəmanının adında da öz əksini tapır: *"Çun-**hyanq**"* - *"**Bahar ətri**" deməkdir.* ***Bahar - yenilənmə və sevgi vaxtıdır. Məhz bu zaman - hekayənin qəhrəmanları görüşür*** **[8].**

Koreya azad edildikdən sonra - ***yaradıcı ziyalıların əsas vəzi-fələrindən biri - milli ədəbiyyatı dirçəltmək idi.***



***Şəkil 39. Sadiq Çun-hyanq: XVII-XIX-cu əsrlərin Koreya klassik hekayələri***.

Bununla belə, ədəbi dairələrdə, eləcə də bütün Koreya cəmiyyətində - ***kommunizm ideyaları ilə Qərb demokratiyasının qarşıdurması nəticəsində - ideoloji parçalanma yarandı***. *Millətin parçalanması - vahid milli ədəbiyyatın sərhədlərinin müəyyənləşdirilməsinə gətirib çıxartdı. Koreya müharibəsi zamanı və ondan*

*sonra - solçular istiqaməti - Cənubi Koreya ədəbiyyatının səhnəsindən yoxa çıxdı.*

***Cənubi Koreyada köhnə ustadlar - şeir və nəsrdə ənənəyə sadiq qaldılar. Qardaş müharibəsindən sağ çıxan gənc müəlliflər - həyatda yeni məna axtarmağa başladılar. Onlar - suallarına cavab tapmayaraq, öz əsərlərində bədbinlik və nihilizmi(hər şeyi - inkar və şübhə etməsi fəlsəfəsi) ifadə edirdilər. Sxematik olaraq, qeyd etmək olar ki, 1960-1970-ci illərin ikinci yarısı bədii ədəbiyyatda - durğunluq dövrü kimi səciyyələnir, bu da ilk növbədə-ölkədəki hərbi diktatura şəraiti ilə bağlıdır, 1980-ci illər - ideologiya, 1990-cı illər isə -fərdi həssaslıq dövrüdür*** [1. S. 366].

## 2. Müharibədən sonrakı dövr ədəbiyyatı

***Cənubi Koreya ədəbiyyatının inkişafında dönüş nöqtəsi - 1950-ci illərin ikinci yarısı - yeni nəsil - gənclərin meydana çıxması ilə əlaqədərdir. Bir çox şair və yazıçılar - hərbi xidmətə getmiş, döyüşlərdə iştirak etmiş və bu şəxsi həyat təcrübəsi - onların yaradıcılığının əsasını təşkil etmişdir.*** Ədəbiyyat səhnəsinə ***"müharibədən sonrakı nəsil" adlanan istedadlı gənc modernist -müəlliflər çıxdı.*** Onlara: ***O Sanqvon*** (1930–1985), ***So Givon*** (d. 1930), ***Çve Inhun*** (d. 1936), ***Sonq Çanqsop*** (1922–1959) və başqaları daxildir. ***Bu yeni müəlliflər - müharibənin faciəsi və onun nəticələri haqqında - öz baxışlarını çatdırmaq üçün - qeyri-ənənəvi ədəbi-bədii vasitələrdən istifadə etməyə çalışırdılar.*** [1. S. 366].

***Müharibədən sonrakı dövrdə - Koreya yazıçılarının yaradıcılığı - həyatın epik təsviri, xalqın qəhrəmanlıq keçmişi və sosialist Koreyasında - fəhlə və kəndlilərin əmək nailiyyətləri haqqında geniş ədəbi əsərlər yaratmaq istəyi ilə səciyyələnir. Ədəbiyyatda - vətənin birləşdirilməsi probleminə həsr olunmuş əsərlər - xüsusi yer tutur***. Onların arasında: ***Pak Te Von-un "Vətən üzərində şəfəq" romanı, Sok Yun Gi-nin "Dövrün doğulması" epopeya-qəhramannaməsi, Çon Se Bonq-un "Fəlakətlər tarixi" romanı və Hvanq Qon-un "Vətən üzərində şəfəq" romanı, Li Gi Yonq-un "Bir qadının taleyi" hekayəsi, İm Çunq Cu "Gənclik***

***avanqardı"romanı, Çon Se Bonq-un "Dumanda yeni sahil"romanı, Sok Yun Gi-nın "Sıxlıqda böyüyən günəbaxanlar" romanlarıdır*** [10].

***Poeziyada - üç əsas istiqamət seçilməyə başladı: ənənəvi lirika, "tanınmışl şeir" (çamyo şi) və "saf poeziya" (sunsu şi).*** 1960-cı illərin ikinci yarısında şairlərin diqqətini - davam edən ***dəyişikliklərlə bağlı problemlər*** cəlb etməyə başladı-onlar: ***cəmiyyətin təbəqələşməsi, insanların təbiətdən qopması və onların həddindən artıq materialist olmağıdır. Li Sonq-bu (d. 1942), Co Te-il (d. 1941), Çve Harim (d. 1939)*** və başqa şairlər- ***sadə insanların həyatını təsvir edir, cəmiyyətin müxtəlif təbəqələri arasındakı ziddiyyətlərdən bəhs edirlər. 1960-cı illərdə nəsrin inkişafındakı əsas tendensiya: "saf ədəbiyyatdan uzaqlaşma"(sunsu munhak) və reallığın, həqiqətin təqdim etdiyi suallarına müraciətdir*** [1. S. 367].

## 3. Müasir ədəbiyyat

1980-ci illərə qədər - Koreya ədəbiyyatı - yarımadadan kənarda çox tanınmırdı. Amma o vaxtdan bəri - tərcümə olunan əsərlərin sayı - yaxşılaşıb, tərcümə əsərlərinin əhatə dairəsi də - genişlənib, üstəlik tərcümənin keyfiyyəti - yüksəlib.

***Koreya ədəbiyyatının*** *ingilis dilində nəşr olunan* ***ilk antologiyası*** (***antologiya*** *- bir və ya bir neçə müəllif tərəfindən yaradılmış nisbətən kiçik həcmli bədii mətnlərin toplusudur.)* ***-"Od çiçəkləri"*** idi. Qeyri-ingilisdilli ölkələrdə, təəssüf ki, Koreya əsərlərin tərcüməsi - həddən artıq az idı, lakin ümumilikdə, Qərb prokatında Koreya filmlərinin artması ilə əlaqədar yaranan bu ölkənin ədəbiyyatına maraq artırıldı [4].

***Koreyada son illərdə çox populyar olan kitab*** - **yazıçı Kim Hun-un "Namxansansonq" romanı** olmuşdur. ***Namxansansonq- Seul yaxınlığındakı qədim qaladır.*** Romanda - 1636-cı ilin sonu və 1637-ci ilin əvvəlində - Tzin sülaləsinin qoşunlarının Koreya yarımadasına hücumu zamanı baş verən hadisələr təsvir edilir. Koreya ordusu - müharibəyə hazır deyildi və müqavi-

mət göstərə bilmədi. Kral İnco və saray əyanları, - qalanın sakinləri və müdafiəçiləri ilə birlikdə - qala divarlarının arxasına sığındılar(gizləndilər). Bir ay yarımdan çox qalanın müdafiəçiləri müqavimət göstərdilər, lakin sonra - ərzaq ehtiyatları tükənərək, alçaldıcı əsirliyə təslim olmağa məcbur oldular.

**Kim Hun** - əvvəllər də xeyli şöhrət qazanan tarixi romanlar yazmışdı. *Onlardan biri* - ***Koreyanın milli qəhrəmanı - admiral Li Sun Şinin həyatına həsr olunmuşdu***, *digəri isə* - ***bizim eramızın VI əsrində Şilla dövlətində yaşamış - Urık adlı musiqiçinin biografiyasıdır(həyat və yaradıcılığı)..***

***Kim Hun-un*** kitabı - ən çox satılan yeganə tarixi roman deyil. Ən populyar kitablar siyahısında - **Şin Gyonq Suk-un** ***"Li Çjin" romanıdır, o - Çoson əyalətinin saray xanımlarından birinin adıdır***. Başqa bir misal kimi - **Kim Honq Sin-*in*** - ***Balhe (Mançu dilində"Parhe", Çin dilində "Bohay") Dövləti dövrünün tarixindən bəhs edən - "Böyük Balhe" kitabını*** göstərmək olar [1. S. 370].




## 4. Qadın ədəbi yaradıcılığı

***1920-1930-cu illərdə Koreya ədəbi səhnəyə - ilk qadın yazıçılar çıxdılar, onlar - müasir qadın ədəbiyyatının əsasını qoydular***. Qadın yazıçılar - öz əsərlərində - müasir qadınların gücsüz mövqeyini, onları "ev qulları" səviyyəsinə endirən - köhnə patri-

arxal qanunların ədalətsizliyini göstərməyə çalışırdılar. Amma qadının taleyini dəyişmək uğrunda mübarizə - təkcə ədəbi arenada olmayıb. Koreya cəmiyyətinin özündə - onun(qadının) hüquqlarını müdafiə edən səslər eşidilməyə başlandı [9].

***1950-1960-cı illərdə Koreyada ədəbi səhnəyə - bir çox şairələr çıxdı, məsələn: O Şinçyo, Şin Donqçun, Ham Hyoryonq, Kim Namhvan, Kim Cihyan, Hon Yunsuk*** və başqalarıdır. ***Bu dövrün şairlərini - təkcə ailə, məhəbbət problemləri maraqlandırmırdı***. Məsələn, şair ***O Şinçyo*** - **1 Mart Hərəkatı haqqında danışarkən, bu hərəkatda iştirak edənlərini və Koreyanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə həlak olan dostlarını xatırlayır**:

Mart gələndə, əziz dostlarım,

Mançuriyanın tarlalarında və dağlarında dayanan kilsələrdə necə gizləndiyinizi xatırlayıram.

Sizin "Azadlıq"- tələb edən səslərinizi - hələ də qulaqlarımda eşidirəm.

Şimal küləkdə və qarda - onlar Koreya bayrağını yüksəklərə qaldırdılar.

Sanki alovu saçan kimi qışqırdılar: "Yaşasın müstəqillik!"

Gözümdə - qanları tökülən sevimli dostlarımın şəkilləri dayanır.

Koreyanın bayrağı - çaylarda və göllərdə sərbəst dalğalanır.

Vətənimizddə indi ***Birinci Mart hərəkatı gününü*** qeyd edirlər.

Cənubda isə - hüzn gününün nə vaxt bitdiyini bilmirlər.
Vətən uğrunda canından keçmiş qocaman vətənpərvərlər-
Vətənə, doğmalara kök salan - canlarını qoyublar.
Bu od alovlananda-
Qəlbimdə - alov-od tutub yanır.
Ola bilər mi başqa bir şeyi alovlandırmaq?
Hilas olunmüş qaçdığımız kiçik qayıqda -
İstərdim düşmənin inadkar gücünü - tamamilə yandırım
Və bütün Koreyanı işıqlandırım! [11. S. 250].

***“Xonbul” romanının birinci cildinin nəşri ilə məşhurlaşan* Çve Myonq - Hi** (1947-1996) - ***Koreyanın ən parlaq yazıçıların-dan biri adlandırıla bilər.*** Sonra - bu romanın yazılması ilə bağlı ***17 -illik epopeya-qəhrəmannamə*** başladı və nəticədə o ***-10 cilddə nəşr olundu***. “***Xonbul”*** sözü - xalq inancı ilə bağlıdır və “***evin işığı***”mənasını verir və evdə yaşayan insandan - “***xon***”ın ( yəni “***ruhun***” ) ayrılması zamanı - evdən işıq çıxır və o mənanı verir. Roman - 1930-cu illərin sonlarında və 1943-cü ilə qədər Şimali Çolla əyalətinin *Nobon kəndində* baş verir; roman - eyni ailənin üç nəslinin nümayəndələri olan - qadınların həyatından bəhs edi-lir. ***“Xonbul”*** romanı haqqında Koreya ədəbiyyatının yeni minil-liyə qədəm qoyduğu şedevrlərdən(incilərdən) biri kimi qeyd olu-nur. **Çve Myonq -Hi** -nin yaradıcılığını - həyatına qurban verdi-yinə görə o- Koreya ədəbiyyatını sevənlərinin qəlbində əbədi qa-lacaq. *Nobon kəndini* -bəzən başqa cür - “***Xonbul kəndi***” kimi ad-landırırdılar, indi orada - dünyasını dəyişən yazıçının xatirəsinə həsr olunmuş **Ədəbiyyat muzey** fəaliyyət göstərir [1. S. 372].

### Mövzu ilə bağlı ədəbiyyat


1. Kim G.N. Koreya Respublikası. - AlmaAtı: Dike-Press, 2010. - 584 s.

2. Qurbanov S.O. Koreyanın tarixi: antik dövrdən - XXI əsrin əvvəllərinə qədər. -SPb.: Sankt-Peterburq un-t nəşriyyatı., 2009.

3. Trotseviç A.F. Koreyanın Ənənəvi Ədəbiyyatının Tarixi (XX əsrə qədər): Dərs vəsaiti - SPb.: Sankt-Peterburq un-t nəşriy-yatı, 2004. - 323 s.

4. Koreya ədəbiyyatı - xaricdə [Elektron resurs]. URL: http://goryeo.ru/node/39 (09/08/2016 daxil olub).

5. Koreya ədəbiyyatı [Elektron resurs]. URL: http://www.lite-ra-asia.ru/geografia/corea/ (giriş tarixi 08.08.2016).

6. Dünya tarixi / məhsul. red. P.Yu. Uvarov. - Moskva, 2012. T. 2: Qərb və Şərqin orta əsr sivilizasiyaları. – 894 səh.

7. Koreya mədəniyyəti: dərs vəsaiti / tətrib. L.A. Andronova; Tomsk. politexnik un-t. - Tomsk: Tomsk politexnik un-tin nəşriy-yatı., 2014. 1-ci hissə: Qədim dövrlərdən -1910-cu ilə qədər.

8. Ədəbi irs [Elektron resurs]. URL: http://korea.narod.ru/content/korea/11/10.htm.

9. Koreya qadın nəsrinin mənbəyi [Elektron resurs]. URL: http://www.dslib.net/literatura-mira/rasskaz-v-tvorchestve-sovremennyh-pisatelnic-respubliki-koreja.html.

10. Ədəbiyyat və incəsənət [Elektron resurs]. URL: http://geography.su/books/item/f00/s00/z0000009/st010.shtml.

11. Galkina L. Müasir Cənubi Koreya poeziyasında qadın istiqaməti // Şərq İnstitutunun Xəbərləri. - 1996. - No 3. - S. 245-251.

12.Tolstıh İ.N.Koreya mədəniyyəti:ənənələr və müasirlik,-dərs vəsaiti,-Vladivostok Dövlət İqtisadiyyat və Servis Üniversiteti,- Vladivostok VDİSU-nəçriyyatı.

**Suallar:**

1. Koreya ədəbiyyatının təkamülünün əsas mərhələləri.
2. Əsas poetik və nəsr janrları, onların xüsusiyyətləri.
3. Koreyanın ilk əsərlərini - əfsanələri sadalayın.
4. Klassik Koreya ədəbiyyatının kökləri.
5. Koreya ədəbi yazısının ilk abidəsi - neçənci əsrdə yaradılmışdır?
6. Tarixi yazıların əsas növləri.
7. Çoson dövrünün ədəbi dövrləri.
8. **“Çunhyanq haqqında ....”** əsəri - hansı ədəbi janra aiddir?
9. Müharibədən sonrakı dövrün ədəbiyyatını təsvir edin.
10. Koreyada qadın ədəbiyyatı.

**Sərbəst mövzular:**

1. Koreyanın erkən nəsri.
2. Çoson dövrünün ədəbiyyatı.
3. Koreya Respublikasının ədəbi janrları.

## Mövzu 14.
## KOREYALILARIN TEATR VƏ XOREOQRAFİYA SƏNƏTİNİN XÜSUSİYYƏTLƏRİ

### 1. Koreya xoreoqrafiya sənətinin formalaşmasının tarixi

Koreya xoreoqrafiya sənətinin genetik kökləri – qədim dövr mədəniyyətinə dərindən təsir edir, lakin onun milli mənşəyini - orta əsr mədəniyyətində axtarmaq lazımdır: bu dövr Üç Dövlətlər dövründən - Çoson sülaləsinin sonuncü dövrünə qədər əhatə olunr. Nəsildən-nəslə ötürülən əsrlərin mədəni ənənələri - ***Çoson sülaləsinin hakimiyyəti dövründə*** - ***Koreyanın rəqs sənətində*** xüsusilə parlaq şəkildə işıqlandırıldı və Yaponiya işğalının çətin illərini uğurla keçərkən, ölkənin iki yerə bölünməsinə baxmayaraq, onlar XXI-ci əsrin əvvəllərində - tam şəkildə özünü göstərdi.

***Koreya rəqs mədəniyyəti haqqında ilk qeyd - IV-cü əsrə aiddir.*** Bu - ***Tunqou bölgəsində*** *yerləşən* ***rəqqasları (Myonçon) əks etdirən - məzarıdır***. Məzarın divarları - şən ziyafətin ənənəvi səhnələri ilə çəkilmişdir (rənglənmişdir). Bu cür səhnələr - ölənlərin sağlığında olduğu kimi - onların ruhlarını sevindirməli idi. Buna görə də, Koreya mədəniyyətinin tanınmış tədqiqatçısı ***O.N. Qluxarövanın*** fikrincə, “Məzarın rəsmi - rəqqasların, aktyorların, akrobatların iştirakı ilə keçirilən şən ziyafətlərin təsviridir və bu təsvir - o dövrün zadəganlarının həyatını, mədəniyyətini və məişətini öyrənmək üçün -böyük elmi maraq kəsb edir [1. C. 26].

Koreya xoreoqrafiya sənəti - təkcə rəqs və musiqi ilə bağlı Buddizm qanunlarını əks etdirmir, o - həm də ənənəvi təkmilləşdirmə mərhələlərini daxil edən - şəxsin mənəvi praktiki sistemini zənginləşdirilməsidir:*bunlar* yaxşı səbəblərin yaradılması, istəklərin, maneələrin aradan qaldırılması, ruhun əhangdar olmasıdır və s.

Eramızdan əvvəl 37 il - bizim eramızın 668 illərdə *Çinə yaxın* - Şilla və Pekçedən daha erkən olan - *Koquryo dövləti – Çindən mədəniyyəti çox mənimsəmişdır*. Nəticədə, ***Koquryoda yeni dini və dünyəvi musiqi, eləcə də rəqs - digər Koreya əyalətlərindən xeyli əvvəl inkişaf etmişdir.***

*Cənub əyalətləri - Çinin nüfuzedici təsiri altında olduğundan,* ***Pekçe dövründə rəqslər və musiqi**, o cümlədən* **kamugiak** *kimi tanınan -* **maska rəqsi** *inkişaf etdi.* VI əsrdə ***Yaponiyaya*** bir çox ***müğənni və rəqqas göndərilib****, burada onlar - yeni incəsənət növləri nümayiş etdiriblər.* Konfutsi təfəkkürünün öyrənilməsi və Çin poeziyasının inkişafı ilə - Şilla əyalətində Çin milli motivləri üzərində mahnı əsərləri yayılmağa başladı ***və ilk maskalı rəqslər - həm şaman, həm də dünyəvi mənşəli*** **- müasir maskalı rəqslərin öncülləri(qabaqçılları) oldu** [2. S. 337].

***Çoyonqmu rəqsləri*** - xalq və saray ənənələrinin bir növ simbiozu(birləşməsi) kimi tanınılır. Koreya xoreoqrafiyasının bu növü - öz adınına həsr olunmuş - IX-cu əsrdə məşhur xoreoqraf və rəqqasın - **Ço Yonq** şərəfinə verilmışdır. **O(Ço Yonq) -** ***çox sayda aktyor, musiqiçi və rəqqasların iştirakı ilə tədricən teatr tamaşası şəklini alan - möhtəşəm maskalı rəqs tamaşaları yaratdı və bu rəqs - onun adı ilə bağlıdır. Çoyonqmu rəqsləri*** - Koryo əyalətində çox məşhur idi [3. S. 36].

Kral hakimiyyətinin qurulması ilə ortaya çıxan və saray tədbirləri və ya yüksək vəzifəli şəxslərin şərəfinə keçirilən şənliklər zamanı - *saray rəqsləri* - adətən kral ailəsinin nəcibliyini və əzəmətini vəsf edirdi. "***Hakmu***", "***kommu***" və " ***çoyonqmu*** " *Saray rəqslərinin* ifası zamanı - hər bir rəqqas - yüksək bədii bəzəkli, rəngarəng kostyum geyirdi [4].

**Xalq arasında -** kənd və aşağı şəhər təbəqələrinin zövq və istəklərinə uyğun gələn - ***müxtəlif növ mahnılar, rəqslər, mahnı nağılları və kukla tamaşaları*** nümayiş etdirilirdi. ***XV əsrin teatr sənəti*** - *əvvəlki dövr nailiyyətlərinin yaradıcılığını inkişafı idi.* Bunun əsasında ***XV əsrin əvvəllərində - orta əsr teatrının iki növü formalaşdı:*** **sandeqık** ***- maska teatrı və*** **kverveqık** ***– (marionet teatrı)kukla teatrı. Onlar - şəhər meydanlarında və küçələrində inkişaf etmiş - sadə insanlara aid idilər. Sandeqık - maskalar teatr tamaşaları*** - əsl teatr sənətinin yaranmasına işarə edir, *çünki* ***o - əsas dramatik komponentləri özündə birləşdirir: dramatik təməl, səhnə fəaliyyəti, dialoq, musiqi və rəqs. Adi şəhər və kənd sakinlərinə yönəlmiş – maska və kukla teatrlarının ta-***

***maşaları - açıq-aydın satirik xarakter daşıyırdı*. *XV əsrdə musiqi mədəniyyəti - iki istiqamətdə inkişaf etmişdir*: *mərasim musiqisi və xalq mahnı və musiqi ənənəsi*.**

***Koreya dilində "tal(thal)"("taxılan"(taxmaq) - türkdilli sözü) adlanan maskalar - kağızdan, ağacdan, balqabaqdan və xəzdən hazırlanırdı.*** Onların əksəriyyətinə - Koreya üzlərinə xas olan - ifadələr və xüsusiyyətlər verilmişdi, lakin bəzilərində - həm *həqiqi*, həm də *xəyali tanrıları və heyvanları* onlar *təsvir etməli* idilər. ***"Talçum"( Txalçxum - yanı "taxılıb-çıxmaq") rəqs tamaşaları*** - adətən axşamlar - tonqalların işığında ifa olunduğuna görə *maskalar* - insan başından xeyli böyük, *cizgiləri* isə - qrotesk xrakteri daşıyırdı. Bəzi vaxtlar tamaşa - təkcə aktyorların ifası ilə deyil, tamaşaçıların iştirak etdiyi şən rəqsi ilə başa çatırdı.

Üzlərini – zadəganın(aristokratın), nazlı gənc qadının, arvadın və ya məşuqənin, ərin və ya xidmətçinin maskaları altında gizlədən, sadə mühütdən gələn - *rəqqaslar* - ***komik səhnələr oynayırdılar***. Bu cür təsvirlərin satirik xarakteri və real həyatda baş verən mənfi hadisələrin tənqidi - sadə insanlar arasında geniş əks-səda doğururdu (şək. 40, 41).



***Şəkil 40. Nahoe Tal Yanqban – zadəgan (solda ), Bu NE – nazlı gənc qadın (sağda). Çoson sülaləsinin ənənəvi Koreya rəqslərində istifadə olunurdu.***



***Şəkil 41. Mi Yal  HAL, mi – yaşlı qadının maskası.O- başı imitasiya edən - qara saç şəklində -örtmək üçün parça başlıq  istifadə edir və  Ənənəvi Koreya rəqslərində istifadə olunur (Tal Çum (Txal Çxum))***

Kənd təsərrüfatının inkişafı ilə - ***xalq kəndli rəqsləri*** meydana çıxdı. Kənd təsərrüfatı istehsalı artdıqca, sadə əhalinin mədəni səviyyəsi yüksəldikcə - onun **janr və tematik diapazonu xeyli genişləndirildi**. Bu rəqslər - xalqın həyatındakı həqiqəti əks etdirməklə yanaşı, mövcud nizama da etiraz edirdi. ***Ən məşhur rəqslər***: ***talçum(****TxalÇxum****), sandenori, sınmu, musokçum, kokduqaksi, thenhyonqmu, hanyanqmu və salpuri*** idi [4].

***XV əsrdə insanlar arasında - kənd təsərrüfatı əməyindən, məişətindən, ayinlərindən və adi insanların digər fəaliyyətlərindən bəhs edən*** *qədim mahnıları və rəqsləri yayılmışdır*. Bu dövrdə - ***şaman rəqsi Mudanq*** - xüsusi yer tuturdu, çünki təbiətin ruhlarına inam - hələ də çox güclü idi. Adi şəhər əhalisinin bir növ mahnı ənənəsi olan - ***Kayo-nun mahnıları*** - çox məşhur idi. On-

lar - musiqi sədaları altında qızların bayramlarında rəqs etdikləri - ***Kasa*** ***poetik musiqi janrına*** əsaslanırdı.

***Beləliklə, Koreyanın ənənəvi xoreoqrafiya sənətinin etnomədəni xüsusiyyətləri - öz mənşəyinə görə - milli olan elementlərin digər komponentlərlə birləşməsindən yaranmışdır. Onlar - Asiya və digər qitələrdən köçürülmüş və koreyalıların zövqlərinə uyğun olaraq - qəbul və assimilyasiya olunmuş milli mədəniyyətinə daxil edilmişdir.***

## 2. Ənənəvi Koreya rəqslərinin təsnifatı

***Etnik rəqs - xalq həyatının əksidir***. Hər hansı bir *folklor hadisəsi kimi*, ***o(etnik rəqs) - müəyyən bir xalqa xas olan - bütün ən vacib əsaslarını mənimsəmişdir, buna görə də rəqslər - çox vaxt özünəməxsus şəkildə bənzərsiz və bir-birinə oxşar deyil.*** ***Rəqs - xalqın bir növ dili və dəyərli məlumat mənbəyidir. Bütün dünyada xalq rəqsləri - hər bir millətin xarakterini, fərqli xüsusiyyətlərini ifadə edir: döyüşkənlik və şücaət, hədsiz dərəcədə şənlik, təmkinli nəzakət və ya sadəcə olaraq - ritmik hərəkətin sevincidir*** [5. S. 403]. ***Keçmişdə oyun rəqsləri – sehrli, maqik bir məna daşıyırdı. Eyni zamanda, onlar - fiziki və əxlaqi tərbiyə vasitəsi olub, şamanizm ayinləri və milli bayramlar kompleksinin tərkib hissəsi olub, o - təkcə ritual deyil, həm də əyləncə xarakteri daşıyırdı*** [6. S. 329].

Koreya plastik mədəniyyətinin fundamental əsasını - ayinlar zamanı olan - ***şaman rəqslərini*** aid etmək olar. ***Şamanizm*** - dinin ən qədim formasıdır və qədim insana görünən, onunnla bir yerdə - bir çox fövqəltəbii varlıqların məskunlaşdığı məkanda - insan cəmiyyətini - təbiətlə, ətraf aləmlə uyğunlaşdırmaq üsuludur. ***Şaman*** – onlarla və insan arasında əlaqə idi. ***Ayinlərin mahiyyəti***: *xüsusi alətlərdə ifa etmək, oxumaq və rəqs etməkdən ibarət olan* - **ritual hərəkətlərdir** – ***onlar - bu əlaqələri həyata keçirməyə xidmət edirdi***.

**Koreya şamanizminin ritualları** - ***bir çox sadə, dünyəvi məqsədlərə malikdir. Onun əsası ondan ibarətdir ki, onların***

***icmasının harmoniyasına və rifahına nail olmaqdır*** [7. S. 120]. **Koreya şamanizmində *kult təcrübəsi*** - çox müxtəlifdir. ***Şamanların əsas funksiyası* -“kut” *ritualını yerinə yetirməkdir***, bu zaman - **qadım şaman (kişi şaman)** - ***nağara və zəngin müşayiəti ilə olunan daimə sürətlənən rəqsi ifa edir.***

***Rəqsə paralel olaraq, şamanın himayədar ruhlarını çağırdığı şerlər-sehrlər ifa olunur. Ritualın kulminasiya nöqtəsi - şamanın ruhlarla “ünsiyyətə girməsi” – onun trans vəziyyətinə düşməsidir.***



***Şəkil 42.Qadın Şaman Mudanqın rəqsi . Dequ Teatrı, 2003***

Ümumiyyətlə, ***şaman rəqsləri - çox fərdidir, çünki onların ifaçıları - mövcud şəraitdən çıxış edərək, rəqsdə müxtəlif əlavə hərəkətlər yaradırlar.*** **Şaman rəqsləri arasında -** həmçinin ***saray***

***Kommu və ya "Qılınclarla rəqs"i*** var. ***Rəqqas - məftillə qısa sapa bağlanmış - qısa bıçaqlı iki adi qılınc tutur və onları - rəqsdə yelləyərək,- müəyyən səs-küy yaradır***. Bu rəngarəng və cəlbedici rəqs - bu gün Koreyada ən məşhur rəqslərdən biridir [8. S. 25].

**Xalq rəqsi** - ən qədim rəqs növüdür. ***Koreya xalq rəqsinin özünəməxsus xüsusiyyətləri arasında - ifaçının hərəkətlərinin ritm üzərində üstünlük təşkil etməsini qeyd etmək olar.***

**Saray rəqslərində** - ***ritmə - ciddi əməl olunur***, **xalq rəqsi** isə- ***öz sərbəstliyi və improvizasiyası*** ilə *saray rəqslərinə* ziddiyyət təşkil edir. ***Müşaiyətin ritmi ilə*** - *rəqqasın hərəkətləri arasında belə bir bədii uyğunsuzluq* - **kəndli rəqsinin** *ifasında pik həddə çatır*, burada "...ritmə - tamamilə məhəl qoymadan hamı ***üçlük metrə*** ilə ***o qədər ehtirassiz yürüş edir ki, sanki onlar - kənd yolu ilə gedirlər***. " [2. S. 357].

***Koreya xalq rəqsinin digər mühüm göstəricisi - rəqqasının az hərəkətliliyində ifadə olunan - zaman konekstından qopmasıdır***, əksər hallarda o - ***yalnız çiyinlərini (yuxarı və aşağı) hərəkət etdirir***. ***Xalq rəqslərində hər şey - mənəvi rahatlığa nail olmağa yönəlib.***



***Şəkil 43. Kanqanqsulle. Kanqanqsulle Festivalı. Xalq Kəndi, Suvon şəhəri, 2008***

***Qədim dövrlərdə Koreyada*** **kəndli rəqsləri** - *güc akrobatik elementləri ilə dolu olduğu üçün- yalnız kişilər tərəfindən ifa edilirdi.* ***Bizim zamanda - enerjili*** **kəndli rəqsində** - ***həm kişilər, həm də qadınlar iştirak edirlər.***

Qeyd etmək lazımdır ki, *keçmişdə* ***kəndli rəqsləri*** - **kut rituallarının** *icrasını tamamlayırdı,* çünki ***kollektiv rəqsi - ənənəvi təsəvvürlərə görə - ritual təsir gücünü artırırdı. Müasir Koreya mədəniyyətində*** **kəndli rəqsləri** - ***Koreya xalqına - ən yaxın sayılır, çünki kollektiv fəaliyyətin yaxşı gücünə inamı - çox güclüdür və tarixin keçmişi, indiki zamanı və gələcəyi arasında - qırılmaz əlaqə yaradır.***

***Koreyada teatr sənətinin əsas forması olan - maskalı rəqs*** -qədim zamanlardan mövcud olmuşdur. *IX əsrdə* ***Şilla Birləşmiş Krallığında*** bu cür tamaşaların **üç növünün** geniş yayıldığını bildirən "***Samquk saqi" salnaməsi*** və Kral Koconq (1214-1259) sarayında əyləncə növlərindən biri kimi - ***sande cabqıq - maska teatrından*** bəhs edən "***Koryosa" ("Koryonun tarixi")-*** buna sübutdur.

Hətta ***erkən Çoson dövründə*** - sarayda təsdiq edilmiş ***Maskalı tamaşaların rəhbərinin rəsmi vəzifəsi*** də - məşhur idi. *Lakin onu 1634-cü ildə ləğv etdilər. Tədricən* ***maskalar teatrı - sadə xalqın tamaşasına çevrildi*** [9. S. 436]. Bu gün alimlər hesab edirlər ki, ***talçum(Txal Çxum) maskalı rəqslər*** - orta əsr koreyalıların ***yer və səma ruhlarının şərəfinə yaz və payızda*** - yerinə yetirdikləri rituallardan qaynaqlanır.



***Şəkil 44. Talçum(TxalÇxum). Maskalarda rəqs. Suvon. Xalq Kəndi, 2008***

***Plastik sənəti, oxuma və şifahi söyləmələri birləşdirən maskalı rəqslər - şaman ayinlərinin elementlərini də əhatə edirdi*** və sadə insanlar arasında çox populyar idi**. *Onların ifası - tez-tez satirik xarakter daşıyırdı və zadəganları tənqid edən elementləri ehtiva edirdi*,** bu da tamaşaçıların böyük sevincinə səbəb olurdu. **Maska rəqsləri - milli adət-ənənələri və müasirliyi özündə birləşdirən, *koreya etnik qrupun* mənəvi və məişət həyatını, qədim baxışlarını əks etdirən - mədəni və tarixi dəyərə malikdir**.

***Koreyanın ənənəvi mədəniyyətinin ritual və dini rəqsləri - konfutsiçilik, buddizm və şamanizmlə sıx bağlıdır*. *Konfutsi ritual rəqsləri "Eleqant musiqinin" müşayiəti ilə ifa olunurdu. XII-ci əsrin əvvəllərində koreyalılar bu sənət növünü qəbul etdikdən sonra - Konfutsi ritual rəqsləri öz orijinal formasında qoruyub saxlanılmışdır.*** S. 330].

***Konfutsi ayinini müşayiət edən - rəqs hərəkətlərinin əksəriyyəti - lakonik və əzəmətlidir***. Müasir dövrdə keçirilən Konfutsi ritualı zamanı - ***64 rəqqas*** (səkkiz cərgədə duran kişilər) yavaş-yavaş musiqinin *taktı (musiqi ritmli cümlə*) qarşısında baş-belllərini əyirdilər. Çoson sülaləsinin 20 hökmdarının şərəfinə keçirilən mərasim - müxtəlif hərəkətlərlə seçilir: hörmətli,ehtiramlı baş-bel əymələrlə yanaşı, tünd bənövşəyi paltar geyinmiş rəqqaslar (hər sirada - 8 nəfərdən ibarət olan 8 sira) qollarını dairəvi şəkildə tərpədərək, ayaqlarını qaldırillar (dizdən əyərək və döşəmədən 10-15 santimetr aralanaraq) [10. S. 58]. ***XXI-ci əsrin əvvəllərində bu mərasim rəqsi - müqəddəs, kult kimi, ciddi şəkildə müəyyən qaydalara uyğun olaraq həyata keçirilir.***

***Kolomplekslı olaraq, bütün ritual Konfutsi rəqsləri -"ilmu"*** *adlanır;* onlar - hələ də ***Seulun Konfutsi məbədlərində yaz və payızda ifa olunur və birbaşa - Konfutsi və onun şagirdlərinə həsr olunur***. Oxşar ritual rəqslər - ***Seulun*** *kənarındakı* ***İmperator Əcdadlar Məbədində*** də ifa edilib.

***İlmu rəqsləri - "Vətəndaş/mülkü rəqsi" və "Hərbi rəqs"dən ibarətdir. Onları - hər birində 8 rəqqasdan ibarət - 8 sıra təşkil edən - iki rəqqas qrupu ifa edir.*** Bu rəqslərdə belə yerləşmə - ***"Səkkizinci İlmu"*** adlanır. **Rəqslər - rəqsin özü üçün deyil, o -**

**qurbanlıq mərasimini yerinə yetirmək üçün** - ***sadə, yavaş və stilizə edilmiş hərəkətlərin bütün növlərindən*** istifadə edir.



***Şəkil 45. Konfutsi ritual rəqsi İlmu - "vətəndaş rəqsi" ifaçıları***

***Hər iki rəqs - qolların və ayaqların çox yavaş hərəkətləri, nəzakətli oturmaları və ritual baş-bel əyilməsi ilə xarakterizə olunur. Onların həssas əsasları - <u>Konfutsi etikasının əsas əxlaqi prinsipləri ilə sıx bağlıdır</u>: <u>fəziləti - şöhrətləndirmək, vətənin müdafiəsində - həmrəylik etmək, evladların,oğulların - böylərə və yaşlılara hörmət etməkdir.</u>***

Koreyada bu rəqs növləri ilə yanaşı, başqa ritual rəqslər də mövcuddur. Məsələn, ***Buddist ritualları zamanı - baraçum***, ***bopqoçum*** və ***nabiçum - rəqs*** edilir.

VIII-ci əsrdə Koreyada təqdim edilən Buddist rəqsləri –**Hindistandan**, Çin vasitəsilə gələrək və artıq IX-cu əsrdə orijinal görünüşünü itirərək, xarakterik Koreya xüsusiyyətlərini qazandı. Buna baxmayaraq, *Buddist ritual ayinlərinin repertuarının əsas hissəsini təşkil edən* - ***4 rəqs*** günümüzə qədər gəlib çatmışdır. *Bu*

*rəqslər* - ***ölülərin ruhları üçün dua ilə - Buddanı çağırmaq və onların cənnətə çatması məqsədi ilə*** - *həyata keçirilirdi.*

*Ən məşhur Koreya Buddist rəqslərindən biri, - bir-birinə bağlı- üç hissədən ibarət, olduqca mürəkkəb ritual rəqsi -* ***Cakbopdur*** (***Dharmanın(qanunun) yaradılması***). Əvvəlcə - incəliyi, qamətliyi və təmkinliliyi ilə olunan ifa - kəpənəyin yüngül hərəkətlərindən heç də geri qalmayan - "***Kəpənək rəqsi***" ifa olunur.

***Rəqs - böyük qonqun müşayiəti və Buddist çağırışlı oxuma ilə müşayiət olunur. Mövcud olan bu rəqsin - 14 növündən - yalnız 6 variantları - bizə gəlib çatmışdır, onlar da - bu günə qədər ifa olunur.*** Adətən "***Kəpənək rəqsi***" - çox geniş qollu - ağ və sarı rəngli uzun paltar geyinmiş - iki rahib tərəfindən rəqs edilir. Onların başlarında - əlavə qıvrımlarla əhəmiyyətli dərəcədə ağır çəkili və ornamentlə bəzədilmiş - *adi itiuclu rahib papağı* var. Həmçinin rəqqaslar - qanadlı həşəratlara (kəpənəklərə) bənzəyən - qırmızı xalat geyinir,o - çiynindən keçərək, sinəsində bərkidilir [11. S. 54].



***Şəkil 46. Tacuçum (Txaçjaçxum) - Kəpənək Rəqsi. Seuldakı Buddist məbədi, 2008***

***Buddizm*** *və* ***şamanizm - müəyyən mənada bir-birinə təsir edirdi.*** *Məsələn, Buddistlər - bəzi dini şaman prinsiplərini götürdülər. Onlardan biri də -* ***dağın- ilahiliyi anlayışıdır****.* ***Şaman tanrıları isə -Buddist məbədinin ümumi mənzərəsini - mükəmməl şəkildə tamamlayirdi - bu binanın tikilişi - Buddistlər tərəfindən layihələndirilmişdır. Digər tərəfdən, şamanizmdə "kut" - adını daşıyan bütün ritualların 30%-nin - Buddist kökləri var****.* ***"Yeddi Ulduz" kimi tanınan- şamanizm ritualı - bunun bariz nümunəsidir****.* ***Bu ritualda - buddist təsbehi ilə rahib paltarını geyinmiş qadın-şaman - sinclərin müşayiəti ilə "Enən Tanrının rəqsi"ni ifa edir, bu rəqs - buddizmdan mənimsənilib: burada Buddyaya - "Sinclərlə rəqs"i ifa edərək, Buddaya - sonsuz itaət edilir***[12].

***Ritual rəqslər silsiləsində*** *-* ***dəfn rəqsləri*** *- xüsusi diqqətə layiqdir.* ***Onların mənəvi əsasını - ölməzliyə, diri və ölü əcdadlar arasında ayrılmaz əlaqəyə - inam təşkil edir****.*

***Bu cür rəqslər sırasında*** - birincisi - ***Sangyo nori***dir. *Qohumları və dostları mərhum ilə vidalaşanda, tabutu daşıyanlar - bir neçə dəfə kəndi dövrəyə vurandan sonra, mərhumun sağlığında baş çəkdiyi - hər evə girirdilər.* Başqa bir *solo rəqs olan -* ***Pansanşiçum - birbaşa dayanmış tabutun yanında ifa olunur.***

***Koreyada - ritual və dini rəqslərin zəngin potensialı - göz qabağındadır. Bu rəqs növlərinin irsi - bütövlükdə bütün dünya mədəniyyətinin qiymətli dəyəridir. Məhz onlar - dərin qədimlik və mütərəqqi müasirliyin parlaq və mənalı birləşməsinə malikdirlər****.*

***Ənənəvi Koreya saray rəqsləri - Koreya etnik qrupunun, onun tarixinin nəhəng mədəni təbəqəsidir. Bu rəqs növünün dirçəldilməsi və qorunub saxlanılması - müasir dünyada mühüm problem və vəzifəyə çevrilir. Koreya - öz şanlı keçmişinin abidələrini qoruyub saxlaya bildi.***

*Xalq rəqsləri* kimi, ***saray rəqsləri*** də - Koreya rəqs sənətində parlaq şəkildə seçilir. *Onların - qədim mənşəli ümumi kökləri var və icra tərzinə görə oxşardırlar.* Onlara - xüsusi daxili əhval-ruhiyyə lazımdır. ***Koreyada saray rəqsləri - iki növə bölünür****:* ***onlar***

***saray musiqisi*** və ***yerli melodiyaların sədaları altında ifa olunurdu, onların məqsədi - kralı və onun ətrafını əyləndirmək idi*** [13. S. 22].

***Koreya saray rəqsi*** - çox qədim bir ənənəyə malikdir. ***Artıq VIII-ci əsrdə***, yəni *İntibah dövründə* İtaliyada saray baletinin meydana çıxmasından təxminən 400 il əvvəl, ***qadınların iştirak etdiyi Koryo*** *hökmdarının sarayında* ***rəngarəng poetik tamaşalar keçirilirdi. Onların - əvvəlində və sonunda - xüsusi yazılmış mahnılar ifa olunurdu. Hər tamaşaya - zəngin geyimlər tikilirdi, möhtəşəm dekorasiyalar hazırlanırdı*** [14. S. 98].

